# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

# SƏKSƏN DOQQUZUNCU KİTAB

## AVQUST 2018 - OKTYABR 2018

AZƏRNƏŞR
BAKI - 2019

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI – 2019

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
Akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56** **İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2019, 392 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf–məqsədimizdir» çoxcildliyinin bu cildində dövlət başçısının Rusiya Federasiyasına, Xorvatiya, Tacikistan və Qırğız respublikalarına səfəri, həmçinin Rusiya, Türkiyə və Monqolustan prezidentlərinin Azərbaycana səfərləri zamanı bu ölkələrin dövlət və hökumət rəhbərləri ilə görüş və danışıqları, enerji və qeyri-neft sektoruna aid bağlanan müqavilələr, təhsil, mədəniyyət sahəsində anlaşma və hərtərəfli əməkdaşlıq məsələlərinin müzakirəsinə dair materiallar toplanmışdır. Azərbaycan Prezidentinin bütün görüş və danışıqlarında Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli yolları prioritet məsələ kimi qaldırılır ki, bu da hər bir cilddə öz əksini tapır. Kitabda, həmçinin dövlət başçısının Azadlıq meydanında Bakı şəhərinin erməni işğalçılarından azad edilməsinin 100 illiyinə həsr olunmuş möhtəşəm paradda və Azərbaycan parlamentinin yaradılmasının 100 illiyi münasibətilə Milli Məclisdə keçirilmiş təntənəli iclasdakı çıxışları da oxucuların ixtiyarına verilmişdir.

**ISBN 978-9952-8100-7-3**

**Я $\frac{0801000000}{\text{М} - 651(07) - 2019}$** **ББК - 32**

© Azərnəşr, 2019

## GÜRCÜSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ MAMUKA BAXTADZE İLƏ GÖRÜŞ

*30 avqust 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin avqustun 30-da ölkəmizə səfərə gələn Gürcüstan Respublikasının Baş Naziri Mamuka Baxtadze ilə görüşü olmuşdur.*

*Azərbaycan Prezidenti İlham Əliyev Gürcüstanın Baş Naziri Mamuka Baxtadzeni qarşıladı.*

*Prezident İlham Əliyev və Baş Nazir Mamuka Baxtadze rəsmi foto çəkdirdilər.*

*Azərbaycan Prezidenti və Gürcüstanın Baş Naziri görüşdə çıxış etdilər.*

*Gürcüstanın Baş Nazirini Azərbaycanda səmimiyyətlə salamlayan Prezident İlham Əliyev Mamuka Baxtadzeni Baş Nazir vəzifəsinə təyin olunması münasibətilə təbrik etdi, bu məsuliyyətli vəzifədə ona yeni uğurlar arzuladı. Dövlət başçısı vurğuladı ki, Gürcüstan hökumətinin başçısı təyin olunmasından qısa müddət sonra Mamuka Baxtadzenin Azərbaycana səfər etməsi Azərbaycan–Gürcüstan əlaqələrinin çox yüksək səviyyədə olduğunu bir daha göstərir.*

**İlham Əliyev**: Əsrlərboyu xalqlarımız dostluq, mehriban qonşuluq şəraitində yaşamışlar. Bu gün iki müstəqil dövlət arasındakı əlaqələr möhkəm təməl üzərində qurulub. Gürcüstan və Azərbaycan birlikdə bir çox önəmli layihələri icra edib. Biz dünyanın enerji xəritəsini birgə səylərlə dəyişdirdik. Nəqliyyat istiqamətində birgə həyata keçirdiyimiz layihələr Avrasiya qitəsi üçün böyük önəm daşıyır. Bütün bu layihələrin icrasında həm Gürcüstan, həm Azərbaycan, həm də Türkiyə

tərəfi fəal əməkdaşlıq edir. Hesab edirəm ki, indiki dövrdə biz ticarət dövriyyəsinin artırılması ilə bağlı əlavə səylər göstərməliyik. Mən bilirəm ki, Gürcüstanda çox gözəl investisiya iqlimi mövcuddur. Biz çox şadıq ki, Azərbaycan uzun illərdir Gürcüstana xarici sərmayə qoyan ölkələr sırasında birinci yerdədir. Biz bu gün bir çox məsələləri, o cümlədən regional əməkdaşlıq məsələlərini müzakirə edəcəyik. Sizi bir daha ürəkdən salamlayıram, Sizə xoş və uğurlu səfər arzulayıram.

*Azərbaycanda səfərdə olmaqdan məmnunluğunu bildirən Gürcüstanın Baş Naziri Mamuka Baxtadze «Gürcüstan Dəmir Yolları» Səhmdar Cəmiyyətinin sədri kimi, dəfələrlə Bakıda olduğunu xatırlatdı, paytaxtımızda gedən sürətli inkişaf proseslərinin onda dərin təəssürat hissi oyatdığını qeyd etdi və bunu Azərbaycanın böyük iqtisadi tərəqqisinin göstəricisi kimi qiymətləndirdi.*

**Mamuka Baxtadze:** Gürcüstan və Azərbaycan strateji tərəfdaşdır və bu çox böyük nailiyyətdir. Bizim üçün xalqlar arasında münasibətlər, mehriban qonşuluq, dost və qardaşlıq əlaqələri çox vacibdir. Bizim əcdadlarımız əlaqələrimizin təməlini çox gözəl qoyublar və bu əlaqələr bunun əsasında artıq sürətlə inkişaf edir. Bizim birlikdə həyata keçirdiyimiz regional layihələr beynəlxalq əməkdaşlıq və region üçün həqiqətən, çox faydalıdır. Bizim regional əməkdaşlıq çərçivəsində nəqliyyat, energetika və digər sahələrdə böyük uğurlarımız vardır. Əlbəttə, potensialımız böyükdür və ümid edirəm ki, ikitərəfli əlaqələr nəticəsində və ikitərəfli layihələri həyata keçirməklə, bu potensialı biz daha da yaxşı inkişaf etdirə bilərik. Ölkələrimiz arasında ticarət dövriyyəsi artmaqdadır, bu il ola bilsin, milyard dollara çatsın. Lakin bu, potensialımızın tam istifadəsi demək deyil, bizim daha çox potensialımız mövcuddur. Əminəm ki, ikitərəfli əməkdaşlıq nəticəsində gələn 2 il ərzində biz bunu 50–60 faizə qədər artıra bilərik. Sevindirici haldır ki, digər sahələrdə, o cümlədən mədəniyyət, incəsənət, idman sahələrində də əmək-

daşlığımız səmərəlidir. Azərbaycan turistləri və investorlar Gürcüstanda özlərini çox rahat hiss edirlər. Əminəm ki, biz birgə səylərimiz nəticəsində daha böyük məqsədlərə nail ola bilərik. Səmimi qəbulunuz üçün təşəkkür edirəm.

## İOSİF KOBZONUN AİLƏSİNƏ

İosif Davıdoviç Kobzonun vəfatı haqqında xəbər məni dərindən kədərləndirdi.

Sizə, İosif Davıdoviçin bütün doğmalarına və yaxınlarına Azərbaycan xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən dərin hüznlə başsağlığı verirəm.

Ustad müğənni, görkəmli ictimai-siyasi xadim İosif Kobzonun adı sovet və Rusiya mədəniyyətinin şanlı salnaməsinə əbədi daxil olub. Onun yüksək şövqlə oxuduğu mahnılar neçə-neçə nəsillərin qəlbində xüsusi yer tutur.

Çoxşaxəli istedadı, bənzərsiz səsi və fitri musiqi duyumu sayəsində İosif Kobzon bütöv bir dövrün rəmzinə çevrilib. Dövlət Dumasında məsul vəzifə tutarkən o, mədəni irsin qorunub saxlanılmasına və zənginləşməsinə fəal kömək edirdi.

İosif Kobzon Azərbaycan ilə Rusiya arasında mədəni əlaqələrin inkişafına, mehriban münasibətlərin möhkəmlənməsinə verdiyi töhfəyə görə Azərbaycan Respublikasının «Şöhrət» və «Dostluq» ordenləri ilə, həmçinin «Azərbaycan Respublikası Prezidentinin Fəxri Diplomu» ilə təltif edilibdir.

Bu ağır itki ilə əlaqədar sizin dərdinizə səmimi-qəlbdən şərik olduğumu və sizinlə bərabər kədərləndiyimi bildirirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 avqust 2018-ci il*

**VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÇAN DAY KUANQA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan–Vyetnam dostluğu və əməkdaşlığı xoş ənənələrə malikdir. İnanıram ki, ikitərəfli münasibətlərimizin daha da möhkəmləndirilməsi, əlaqələrimizin bütün sahələrdə genişləndirilməsi bundan sonra da xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Vyetnam xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 avqust 2018-ci il*

**SAN-MARİNO RESPUBLİKASININ KAPİTAN-REGENTLƏRİ ZATİ-ALİLƏRİ CƏNAB STEFANO PALMİERİYƏ VƏ CƏNAB MATTEO ÇİAÇÇİYƏ**

Zati-aliləri!

San-Marinonun milli bayramı – Respublika Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost San-Marino xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *31 avqust 2018-ci il*

## BİOMETRİK GÖSTƏRİCİLƏRİ ÖZÜNDƏ ƏKS ETDİRƏN 1 NÖMRƏLİ YENİ NƏSİL ŞƏXSİYYƏT VƏSİQƏSİNİN TƏQDİMETMƏ MƏRASİMİ

*31 avqust 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə avqustun 31-də Azərbaycan Respublikası vətəndaşının biometrik göstəricilərini özündə əks etdirən 1 nömrəli elektron şəxsiyyət vəsiqəsi təqdim olunmuşdur.*

*Sentyabrın 1-dən Azərbaycanda yeni nəsil elektron şəxsiyyət vəsiqələrinin tətbiqinə başlanılır.*

*Dövlət başçısı şəxsiyyət vəsiqəsi üçün foto çəkdirdi. Prezident İlham Əliyev elektron imza qoydu. 1 nömrəli elektron şəxsiyyət vəsiqəsi dövlət başçısına təqdim olundu. Daxili İşlər naziri Ramil Usubov və İqtisadiyyat naziri Şahin Mustafayev elektron şəxsiyyət vəsiqəsinin hazırlanması və vətəndaşlara verilməsi ilə bağlı Prezident İlham Əliyevə məlumat verdilər.*

*Qeyd edək ki, yeni nəsil şəxsiyyət vəsiqələri təhlükəsizlik nöqteyi-nəzərdən köhnə vəsiqələrdən daha təkmil olacaq. Bu vəsiqələrə vətəndaşın yaşayış yeri üzrə qeydiyyatı, ailə vəziyyəti haqqında məlumat, habelə şəxsiyyət vəsiqəsi sahibinin biometrik fotosu və digər fərdi göstəriciləri özündə birləşdirən elektron daşıyıcı – çip yerləşdiriləcək. Bütün parametrlərə cavab verən, saxtalaşdırılmanın qarşısının alındığı, məlumatların elektronlaşdırıldığı yeni nəsil şəxsiyyət vəsiqələri üçün vətəndaşlar bütün ərazi polis orqanlarına və «ASAN xidmət» mərkəzlərinə müraciət edə bilərlər.*

*Şəxsiyyət vəsiqələrinin çapı isə Daxili İşlər Nazirliyinin 10 regional mərkəzində və 2 «ASAN xidmət» Mərkəzində həyata keçiriləcəkdir.*

# RUSİYA FEDERASİYASINA RƏSMİ SƏFƏR

*1 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 1-də Rusiya Federasiyasına rəsmi səfərə gəlmişdir.*

*Soçi şəhərində «Boçarov Ruçey» dövlət iqamətgahında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin görüşü oldu.*

*Rusiya Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı.*

**Vladimir Putin:** Hörmətli İlham Heydər oğlu!

Əziz dostlar!

İcazə verin, Sizi Soçidə ürəkdən salamlayım. Qeyd etmək istərdim ki, bizim görüşlərimiz müntəzəm xarakter daşıyır və bu da təbiidir, qarşılıqlı fəaliyyətimizin əhatə dairəsi çox genişdir. Biz bunu strateji tərəfdaşlıq adlandırırıq. Münasibətlərimiz həm siyasi, həm də iqtisadi istiqamətdə inkişaf edir. Keçən il qarşılıqlı əmtəə dövriyyəsinin həcmi 34 faiz, hətta 34 faizdən də çox artıb, bu ilin birinci yarısında isə mülki təyinatlı məhsulların satış həcmi 20 faiz artıb. Bu çox yaxşı göstəricidir. Lakin təbii ki, bizim həmişə danışmağa mövzumuz vardır. Çox şadam ki, Siz bizim dəvətimizi qəbul edib bu gün Rusiyaya gəlmisiniz. Xoş gəlmisiniz!

**İlham Əliyev:** Çox sağ olun, hörmətli Vladimir Vladimiroviç!

İlk növbədə, bizi Rusiyaya səfərə dəvət etdiyinizə görə Sizə təşəkkür etmək istərdim. Bizim görüşlərimizə həmişə şadam. Sizin qeyd etdiyiniz kimi, biz müntəzəm surətdə görüşürük və bu görüşlər münasibətlərimizə dinamizm gətirir. Bütün

sahələrdə əlaqələrimizin inkişaf səviyyəsindən biz də məmnunuq. Münasibətlərimiz tam dəyərli, çox səmərəli şəkildə inkişaf edir, fəal siyasi dialoq xarakteri daşıyır. Siz əmtəə dövriyyəsinin artmasını qeyd etdiniz. Bu da ölkələrimizin iqtisadiyyatlarında müsbət meyillərə dəlalət edir. Bu həm də onu göstərir ki, iqtisadi əməkdaşlığın böyük potensialı vardır. Əminəm ki, əmtəə dövriyyəsi qarşıdakı illərdə də artacaq. Biz enerji, nəqliyyat sahələrində əməkdaşlıq edirik.

Əlbəttə, bu gün biz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı məsələləri də, regional problemləri də müzakirə edəcəyik. Gündəliyimiz yetərincə genişdir. Əminəm ki, bizim bugünkü görüşümüz münasibətlərimizə əlavə impuls verəcəkdir. Dəvətə görə bir daha təşəkkür edirəm.

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Soçi*

*1 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin sentyabrın 1-də Soçidə təkbətək görüş başa çatdıqdan sonra geniş tərkibdə görüşü və işçi naharı olmuşdur.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Soçi*

*1 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin iştirakı ilə sentyabrın 1-də Soçidə geniş tərkibdə görüş və işçi naharı başa çatdıqdan sonra sənədlərin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan və Rusiya arasında iqtisadi əməkdaşlığın prioritet istiqamətləri haqqında Birgə Bəyanat»ı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin imzaladılar.*

*Sonra «Rosneft» Neft Şirkəti Publik Səhmdar Cəmiyyəti ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti arasında «Qoşadaş» blokunun və Xəzər dənizi təkinin Azərbaycan hissəsində yerləşən Abşeron yarımadasının dayazsulu şimal hissəsinin neft və qaz potensialının birgə öyrənilməsi haqqında Saziş», «Rosneft» Neft Şirkəti Publik Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikası Dövlət Neft Şirkəti arasında Kontrakt», «Azərbaycanda «QAZ» kommersiya avtomobilləri milli yığma istehsalının inkişafı sahəsində əməkdaşlıq haqqında Saziş», «Kiçik və orta sahibkarlığın inkişafı üzrə Federal Korporasiya» Səhmdar Cəmiyyəti ilə «Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi» Publik Hüquqi Şəxs arasında qarşılıqlı anlaşma haqqında Memorandum çərçivəsində tədbirlərin reallaşdırılması üzrə Yol Xəritəsi», «Qazprombank» Səhmdar Cəmiyyəti, «Rusiya İxrac Mərkəzi» Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikası Dövlət Neft Şirkəti arasında Rusiya Federasiyasından ixracın dəstəklənməsi*

*sahəsində layihələrin birgə reallaşdırılması çərçivəsində strateji əməkdaşlıq haqqında Saziş», «Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında elektrikötürücü xətlər və boru kəməri vasitəsilə keçirilən mallar üzərində gömrük nəzarəti haqqında Saziş», «Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında malların hava nəqliyyatı ilə daşınması sahəsində gömrük hüquqpozmalarına qarşı mübarizə sahəsində qarşılıqlı fəaliyyət haqqında Protokol», «Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş», «Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında idman sahəsində əməkdaşlıq haqqında Saziş», «Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında rəqəmsal nəqliyyat sistemləri sahəsində əməkdaşlıq haqqında Memorandum», «Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Rusiya Federasiyasının Sənaye və Ticarət Nazirliyi arasında sənaye sahəsində əməkdaşlığın möhkəmləndirilməsi haqqında Saziş», «Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və Rusiya Federasiyasının İqtisadi İnkişaf Nazirliyi arasında daşınmaz əmlak hüquqlarının qeydiyyatı və kadastr fəaliyyəti sahəsində əməkdaşlıq haqqında Saziş», «Rusiya–Azərbaycan əməkdaşlığının başlıca istiqamətlərinin inkişafı üzrə Fəaliyyət Planı» və «Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında 2024-cü ilədək əməkdaşlıq Proqramı» imzalandı.*

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*Soçi*

*1 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin sentyabrın 1-də sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra mətbuata bəyanatlarla çıxış etmişlər.*

### Rusiya Prezidenti Vladimir Putinin bəyanatı

Hörmətli xanımlar və cənablar!

Yadınızdadırsa, avqustun ortalarında Azərbaycan Prezidenti İlham Əliyevlə Xəzər Sammitində iştirak edirdik. Həmin Sammitin yekununa görə Xəzər dənizinin hüquqi statusu ilə bağlı mühüm Konvensiya imzalandı. Bu gün isə ölkəmizə səfərə gələn Azərbaycan Respublikasının Prezidentini böyük məmnuniyyətlə qəbul edirik.

Bir qədər əvvəl konstruktiv və işgüzar şəraitdə keçən danışıqlar başa çatdı. Qeyd edim ki, Rusiya və Azərbaycanı möhkəm dostluq və əməkdaşlıq ənənələri bağlayır. Dövlətlərimizin münasibətləri qarşılıqlı faydalı tərəfdaşlıq xarakteri daşıyır, mehriban qonşuluq və bir-birinin marağına hörmət prinsiplərinə əsaslanır. Əminəm ki, əsas idarələrin rəhbərlərinin və biznes nümayəndələrinin iştirak etdiyi bugünkü danışıqlar bütün Rusiya–Azərbaycan əlaqələri kompleksinin gələcək inkişafına əlavə təkan verəcək. Azərbaycan Prezidenti ilə imzalanmış

Birgə Bəyanat, həmçinin hökumətlərarası və idarələrarası sanballı sazişlər paketi məhz buna istiqamətlənib. İlk növbədə, əməkdaşlığın əsas istiqamətlərinin inkişafı üzrə fəaliyyət planını qeyd edirəm. Bu proqram sənədə ticarətin və qarşılıqlı sərmayələrin artırılması, nəqliyyat marşrutlarının yaradılması, eləcə də humanitar qarşılıqlı fəaliyyətin, o cümlədən mədəni və turizm mübadilələrinin genişləndirilməsi kimi mühüm məsələlər üzrə Yol Xəritələri daxildir.

İkitərəfli iqtisadi əlaqələrə gəlincə, onlar çox fəal inkişaf edir. 2017-ci ilin yekununa görə Rusiya və Azərbaycan arasında əmtəə dövriyyəsi, demək olar ki, 35 faiz artaraq, 2,5 milyard dollara çatıb. Rusiyanın Azərbaycana birbaşa kapital qoyuluşu 1,5 milyard dollar təşkil edib. Azərbaycan bazarında təxminən 700 birgə müəssisə, onlardan da üçdəbiri 100 faizlik Rusiya kapitalı ilə fəaliyyət göstərir. Sahibkarlıq birlikləri arasında, o cümlədən kiçik və orta biznes xətti ilə əlaqələr genişlənir. Rusiya–Azərbaycan İşgüzar Şurası təkcə ötən il ümumi dəyəri 450 milyon dollar olan 42 birgə layihəyə dəstək göstərib. Azərbaycanda Rusiyanın bir çox enerji şirkətləri uğurla işləyir. Bunlar «Qazprom», LUKoyl və «Transneft»dir. Ümumiyyətlə, Rusiyanın və Azərbaycanın enerji sistemləri inteqrasiya rejimində fəaliyyət göstərir. Sənaye sahəsində kooperasiya dərinləşir.

İlham Heydər oğlu ilə müzakirə etdiyimiz bir neçə uğurlu birgə layihəni xatırladım. Məsələn, KamAZ Gəncə Avtomobil zavodunda lisenziyalı yük maşınlarının buraxılmasını və onlara xidmət göstərilməsini qaydaya salıb. Rusiyanın «R-Farm» şirkəti 2019-cu ildə Azərbaycanda açılacaq dərman preparatlarının istehsalı müəssisəsinin tikintisinə 74 milyon dollar sərmayə yatırıb. «Qazprombank» Sumqayıt Kimya Sənaye Parkının inkişafında iştirak edir. Sərmayənin həcmi təqribən 750 milyon dollar təşkil edir. Qərbi Avropa bazarlarını Asiya istehsalçıları ilə birləşdirəcək beynəlxalq Şimal–Cənub nəqliyyat dəhlizinin yaradılmasını ən perspektivli layihələrdən

biri hesab edirik. Bu dəhliz Cənubi Asiya və Yaxın Şərqdən İran vasitəsilə Avropaya yükdaşımaları xeyli sürətləndirməyə imkan verəcək. Bu arteriyanın ümumi uzunluğu 7000 kilometrdən artıqdır. Buraya dəmir yolu, bərə və avtomobil nəqliyyatı yolları daxildir. Həm də Şimal–Cənub dəhlizinin xeyli hissəsi Rusiya və Azərbaycan ərazisindən keçəcək. Qeyd edim ki, marşrutun ayrı-ayrı hissələri üzrə iş artıq aparılır. Gələn il ölkələrimiz Samur sərhəd çayı üzərindən körpünün tikintisini başa çatdırmaq niyyətindədir.

Regionlararası əməkdaşlıq mövzusunu da müzakirə etdik. Rusiya Federasiyasının 70-dən artıq subyekti Azərbaycanla iqtisadi əlaqələr saxlayır. Onlardan 17-si ticari-iqtisadi və elmi-texniki əməkdaşlıq barədə çərçivə sazişləri bağlayıb. Bu ilin oktyabrında növbəti regionlararası forum keçiriləcək. Bayaq müzakirə etdik ki, bu tədbir Gəncədə planlaşdırılmışdı, amma ola bilər dostlarımız bunu Bakıda təşkil etsinlər.

Mədəniyyət və təhsil sahəsində ikitərəfli əlaqələrin zənginliyini məmnunluqla qeyd etdik. Rusiyada 11 mindən çox azərbaycanlı tələbə təhsil alır. Onlardan 1000-ə yaxını Rusiya Federasiyasının federal büdcəsi hesabına təhsil alır. Hər il 200-dən çox Azərbaycan vətəndaşına təqaüd verilir. Rusiya və Azərbaycan prezidentlərinin təşəbbüsü ilə yaradılan Bakı Beynəlxalq Humanitar Forumunun iclasları müntəzəm keçirilir. Forumun ilin sonunda Bakıda keçiriləcək növbəti altıncı iclasına 500-dən çox iştirakçının gələcəyi gözlənilir.

Əlbəttə ki, biz beynəlxalq və regional problemlərlə bağlı fikir mübadiləsi apardıq. Təbii ki, xüsusən Dağlıq Qarabağ probleminə toxunduq. Minsk qrupunun həmsədri kimi, Rusiya bu münaqişənin sülh yolu ilə nizamlanmasına bütün mümkün köməyi göstərməkdə davam edəcəkdir.

Sonda Azərbaycan Prezidentinə, bizim bütün azərbaycanlı dostlarımıza, həmkarlarımıza məzmunlu və məhsuldar danışıqlara görə təşəkkür etmək istərdim. Əminəm ki, əldə olunmuş razılaşmalar Rusiya–Azərbaycan dostluğunun daha da

möhkəmlənməsinə xidmət edəcək, ölkələrimizin və xalqlarımızın rifahı naminə qarşılıqlı faydalı əməkdaşlığın inkişafına kömək göstərəcəkdir. Diqqətinizə görə təşəkkür edirəm.

## Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli Vladimir Vladimiroviç!

Hörmətli xanımlar və cənablar!

Vladimir Vladimiroviç, ilk növbədə, Rusiyaya səfərə dəvətə, qonaqpərvərliyə, səmimi qəbula görə Sizə təşəkkürümü bildirmək istərdim.

Siz qeyd etdiyiniz kimi, bizim görüşlərimiz müntəzəm xarakter daşıyır. Biz son 3 ayda 3 dəfə görüşmüşük. Bu, üçüncü görüşümüzdür. İyunda Moskvada futbol üzrə dünya çempionatı ərəfəsində, avqustda Qazaxıstanda və bu gün Soçidə görüşürük. Fürsətdən istifadə edib, Rusiyanı həmin qlobal beynəlxalq tədbiri uğurla keçirməsi, Rusiya yığmasını isə dünya çempionatında parlaq çıxışı münasibətilə bir daha təbrik etmək istərdim.

Ölkələrimizin dövlət başçıları arasında müntəzəm əlaqələr bizim çox möhkəm bazaya əsaslanan münasibətlərimizə dinamizm verir. Rusiya ilə Azərbaycan arasında münasibətlər strateji tərəfdaşların münasibətləridir. Bu münasibətlər həyatımızın bütün sahələrini əhatə edir və bu gün mənim səfərim zamanı biz ikitərəfli münasibətlərimizin bir çox aspektlərini, beynəlxalq problemləri ətraflı şəkildə müzakirə etdik. Vladimir Vladimiroviç bu gün bu barədə çox ətraflı danışdı.

Qeyd etmək istərdim ki, bizim müzakirə etdiyimiz məsələlər arasında regional təhlükəsizlik məsələləri, ilk növbədə, uzun müddət davam edən və Azərbaycan xalqının böyük iztirablarına gətirib çıxaran Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsi mühüm yer tutur. Uzun illərdir ki, Azərbaycanın beynəlxalq miqyasda tanınmış əraziləri erməni işğalı altındadır. Bu münaqişə nəticəsində 1 milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb.

Münaqişənin tezliklə həlli bizim vətəndaşlarımızın öz tarixi torpaqlarına qayıtmalarına imkan verər, həmçinin bizim regiona sülh, sabitlik və əməkdaşlıq gətirər. Rusiya münaqişənin nizamlanması ilə məşğul olan ATƏT-in Minsk qrupunun həmsədri kimi, tənzimləmə işində mühüm rol oynayır. Rusiya bizim qonşumuz, tarixi tərəfdaşımız və dostumuzdur. Biz ümid edirik ki, münaqişənin nizamlanmasında Rusiyanın səyləri davam edəcəkdir.

Biz iqtisadi məsələlər üzərində ətraflı dayandıq və əmtəə dövriyyəsinin artdığını, gələcək üçün böyük perspektivləri məmnuniyyətlə qeyd etdik. Bu gün müzakirə edilmiş və razılaşdırılmış məsələlər, dəqiq desək, iqtisadi əməkdaşlığın müxtəlif istiqamətləri üzrə Yol Xəritələri ölkələrimiz arasında onsuz da dinamizmi ilə fərqlənən əmtəə dövriyyəsini daha da artırmağa imkan verəcək. Keçən il əmtəə dövriyyəsinin güclü artımına baxmayaraq, artım bu il də davam edir.

Rusiya idxala görə Azərbaycan üçün bir nömrəli tərəfdaşdır və qeyri-neft sahəsinin azərbaycanlı ixracatçıları üçün birinci yerdədir. Bu özlüyündə ölkələrimiz arasında əməkdaşlığın miqyasına və əhəmiyyətinə dəlalət edir. Vladimir Vladimiroviçin dediyi kimi, çoxlu investisiya layihələri həyata keçirilir və onların yaxşı perspektivi vardır. Bütövlükdə ticari-iqtisadi sahədə əmtəə dövriyyəsinin artmasını, inteqrasiya əlaqələrinin möhkəmlənməsini və şirkətlərimiz arasında əməkdaşlıq üçün daha yaxşı şəraitin yaradılmasını gözləyirik. Əlbəttə, bu işdə nəqliyyat layihələri çox mühüm rol oynayır.

Rusiya və Azərbaycan qonşu dövlətlərdir. Bizi həm dəmir yolları, həm avtomobil yolları, həm də çox fəal sərnişin və yükdaşımaları üçün hava yolları birləşdirir. Biz ölkələrimiz, eləcə də qonşularımız üçün yeni nəqliyyat imkanları yaradılması üzrə gələcək addımlarımızı ətraflı müzakirə etdik. Vladimir Vladimiroviç Şimal–Cənub layihəsinin reallaşdırılmasının vacibliyini qeyd etdi. Azərbaycan da öz tərəfindən, ölkə ərazisində bu istiqamətdə bütün mühüm infrastruktur layihə-

lərini həyata keçirib. Bu il Şimal–Cənub nəqliyyat dəhlizi ilə keçən illə müqayisədə 100 dəfə çox yük daşınıb. Bu hələ başlanğıcdır, çünki bu genişmiqyaslı qlobal layihə çoxsaylı ölkələri və qitələri əhatə edəcək. Beləliklə, ölkələrimizin tranzit imkanları artacaq, minlərlə yeni iş yeri yaradılacaqdır.

Bu gün neft-qaz sahəsində əməkdaşlığa dair mühüm sənədlər imzalandı. Bu bizim əməkdaşlığımızın ənənəvi sahəsidir. Çox yaxşı potensial və perspektivlər vardır. Vladimir Vladimiroviç Azərbaycanda bir sıra mühüm nəqliyyat, infrastruktur, sənaye layihələrinin həyata keçirilməsində Rusiya banklarının fəal iştirakını qeyd etdi. Biz bunu alqışlayırıq.

Bu gün biz hərbi-texniki sahədə gələcək əməkdaşlığı da müzakirə etdik. Bu əməkdaşlığın artıq böyük ənənələri vardır. Rusiya ilə Azərbaycan arasında reallaşdırılmış kontraktların həcmi, daha doğrusu, Azərbaycanın Rusiyadan alınmış hərbi təyinatlı məhsulların dəyəri 5 milyard dolları keçir və bu göstərici artmağa meyillidir. Ona görə ki, Azərbaycan Silahlı Qüvvələrinin modernləşdirilməsini davam etdirir, Rusiya isə dünyada hərbi məhsulların ən mühüm istehsalçısı və beynəlxalq bazarların bu məhsullarla təchizatçısıdır.

Humanitar sahədə əməkdaşlıq diskussiyalarımızda xüsusi yer tutdu. Azərbaycanda rus mədəniyyətinə, rus dilinə, əsrlərboyu xalqlarımızı birləşdirmiş və bu gün də birləşdirən nə varsa, hamısına çox qayğı ilə yanaşırlar. Azərbaycanda təhsilin rus dilində olduğu 340-dan çox məktəb fəaliyyət göstərir, Rusiyanın aparıcı universitetlərinin 2 filialı mövcuddur. Bu gün biz humanitar, təhsil, mədəniyyət sahələrində əməkdaşlığın möhkəmlənməsinə dair gələcək addımlarımızı müzakirə etdik, o cümlədən idman sahəsində imzalanmış sənədlər ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdıracaq. Başqa sözlə, ölkələrimiz arasında tamdəyərli tərəfdaşlıq, dostluq, mehriban qonşuluq münasibətləri vardır. Mehriban dostlar və qonşular arasında münasibətlər belə də olmalıdır.

Vladimir Vladimiroviç, dəvətə, baş tutmuş fikir mübadiləsinə görə Sizə bir daha təşəkkür etmək istəyirəm. Öz növbəmdə, Sizin üçün münasib vaxtda Sizi Azərbaycana səfərə dəvət edirəm. Sağ olun.

**V l a d i m i r  P u t i n:** Çox sağ olun.

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına rəsmi səfəri sentyabrın 1-də başa çatdı.*

*Soçi Beynəlxalq Aeroportunda dövlətimizin başçısını Soçi şəhərinin meri Anatoli Paxomov və digər rəsmi şəxslər yola saldılar.*

## QIRĞIZ RESPUBLİKASINA SƏFƏR

*2 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VI Sammitində iştirak etmək üçün sentyabrın 2-də Qırğız Respublikasına səfərə gəlmişdir.*

*Çolpon-Ata şəhərinin İssık-Kul Beynəlxalq Aeroportunda Prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi Qırğız Respublikası Baş Nazirinin birinci müavini Kubatbek Boronov və İssık-Kul vilayətinin qubernatoru Akılbek Osmonaliyev qarşıladılar.*

## QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ SOORONBAY JEENBEKOV İLƏ GÖRÜŞ

*Çolpon-Ata*

*3 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sentyabrın 3-də Çolpon-Ata şəhərində Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekov ilə görüşü olmuşdur.*

*Prezidentlər görüşdə çıxış etdilər.*

**S o o r o n b a y J e e n b e k o v:** Hörmətli İlham Heydər oğlu! Sizi və nümayəndə heyətinin üzvlərini Qırğızıstanın mirvarisi İssık-Kulun sahilində səmimi-qəlbdən salamlayıram. Mən şadam ki, bu gün bizə ölkələrimiz arasında əməkdaşlığın aktual məsələlərini müzakirə etmək üçün belə gözəl imkan yaranıb. Bildiyiniz kimi, Qırğız Respublikası bizim ölkələrimiz arasında, qardaş Azərbaycan ilə qarşılıqlı etimad və hörmət əsasında dostluq münasibətlərinin gələcək inkişafına çox böyük önəm verir. Biz həmişə dostlarımızla məsələlərin bütün spektri üzrə məzmunlu söhbətə açığıq və hazırıq. Mən Sizi səmimi-qəlbdən təbrik etmək istəyirəm. Bu il ölkəniz Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyini qeyd edir. Mən bu milli bayram münasibətilə Sizi təbrik edirəm və vaxt tapıb gəldiyinizə görə təşəkkür edirəm.

**İ l h a m Ə l i y e v**: Çox sağ olun, hörmətli cənab Prezident, dəvətə görə minnətdaram.

Mən qardaş Qırğızıstana, belə gözəl diyara səfər etməkdən çox şadam. Siz dediyiniz kimi, İssık-Kul Qırğızıstanın mirvarisidir. Düşünürəm ki, bu məkan bütün dünya üçün

əhəmiyyətlidir. Bu, qırğızları və bu gözəl yerə gələnlərin hamısını sevindirən nadir təbii abidədir.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Sammitinin təşkili münasibətilə Sizi təbrik etmək istərdim. Əminəm ki, bu bizim birliyimizi, əməkdaşlığımızı təsdiq edən, həmçinin ikitərəfli münasibətlərimizi müzakirə etmək üçün yaxşı imkan yaradan əhəmiyyətli tədbirdir. Biz Qırğızıstanla əməkdaşlığa mühüm əhəmiyyət veririk. Əməkdaşlığı bütün istiqamətlər üzrə – həm siyasi, həm də iqtisadi sahələrdə artırmaq niyyətindəyik. Nəqliyyat sahəsində əməkdaşlıq üçün yaxşı perspektivlər açılır. Əminəm ki, bizim bugünkü görüşümüz gələcəkdə də uğurla inkişaf edəcək münasibətlərimizə yeni təkan verəcəkdir. Bir daha qonaqpərvərliyə görə sağ olun.

## TÜRKDİLLİ DÖVLƏTLƏRİN ƏMƏKDAŞLIQ ŞURASININ VI ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK

*Çolpon-Ata*

*3 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də Qırğız Respublikasının Çolpon-Ata şəhərində Çingiz Aytmatov adına «Rux Ordo» Mədəniyyət Mərkəzində keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) VI Zirvə görüşündə iştirak etmişdir.*

*Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekov Zirvə görüşündə iştirak edən Azərbaycan Prezidenti İlham Əliyevi, digər dövlət və hökumət başçılarını qarşıladı.*

*Dövlət başçıları birgə foto çəkdirdilər.*

*Zirvə görüşünün açılışında çıxış edən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının hazırkı sədri, Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev tədbirin yüksək səviyyədə təşkilinə və qonaqpərvərliyə görə minnətdarlığını bildirdi.*

*Türk Şurasının VI Sammitinə ev sahibliyi edən Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekov builki Zirvə görüşünün əsas mövzusunun milli idman növlərinin və gənclər arasında əməkdaşlığın inkişafı ilə bağlı olduğunu bildirdi.*

*Şura qarşısında bir sıra vacib məsələlərin dayandığını vurğulayan Prezident Sooronbay Jeenbekov türkdilli dövlətlər arasında turizmin inkişafının əhəmiyyətini qeyd etdi.*

**Sooronbay Jeenbekov:** Qırğızıstan ölkələrimiz arasında turizmin dinamik inkişafını fəal şəkildə dəstəkləyir. Biz bütün səylərimizi «Müasir İpək yolu» layihəsinin uğurla reallaşmasına yönəltməyə hazırıq. Bu layihə Azərbaycanı,

Türkiyəni, Qazaxıstanı və Qırğızıstanı əhatə edir. Özbəkistanın və Macarıstanın da bu layihəyə qoşulması onu daha da cəlbedici edəcəkdir.

*Azərbaycan Prezidenti İlham Əliyev Zirvə görüşündə çıxış etdi.*

## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Hörmətli Sooronbay Şəripoviç!

Hörmətli dövlət və hökumət başçıları!

Əziz dostlar!

İlk növbədə, Sooronbay Şəripoviç, göstərilən qonaqpərvərliyə və Zirvə görüşünü yüksək səviyyədə təşkil etdiyinizə görə Sizə dərin minnətdarlığımı bildirmək istəyirəm. Qardaş Qırğız torpağında olmağımdan çox məmnunam. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına uğurla sədrlik edən Qazaxıstan tərəfinə də öz minnətdarlığımı bildirirəm. Azərbaycan bütün türkdilli dövlətlərlə sıx əlaqələr saxlayır. Bu əlaqələr gündən-günə möhkəmlənir və genişlənir. Bizim əlaqələrimiz siyasi, iqtisadi, ticarət, energetika, nəqliyyat, humanitar sahələri əhatə edir və biz bütün istiqamətlər üzrə gözəl nəticələr görürük. Ölkələrimiz beynəlxalq təşkilatlarda da bir-birinə dəstək verir və bu dəstək çox önəmlidir. Hesab edirəm ki, gələcək illərdə beynəlxalq təşkilatlar çərçivəsindəki fəaliyyətimizlə bağlı əlavə addımlar atılacaqdır.

Regional təhlükəsizlik məsələləri xüsusi əhəmiyyət daşıyır. Çünki indiki dünyada yeni risklər, təhdidlər yaranır, yeni münaqişə, müharibə ocaqları alovlanır. Azərbaycan uzun illərdir ki, Ermənistanın işğalından əziyyət çəkir. 20 ildən çoxdur ki, beynəlxalq birlik tərəfindən Azərbaycanın ayrılmaz hissəsi kimi tanınan Dağlıq Qarabağ və onun ətrafında yerləşən 7 rayon Ermənistanın işğalı altındadır. Bu işğal nəticəsində torpaqlarımızın təxminən 20 faizi Ermənistan tərəfindən zəbt olunub, 1 milyondan çox azərbaycanlı öz doğma torpağında

qaçqın və məcburi köçkün vəziyyətinə düşübdür. Xalqımıza qarşı etnik təmizləmə siyasəti aparılıb, hərbi cinayətlər, Xocalı soyqırımı törədilibdir. Bu gün 10-dan çox ölkə Xocalı soyqırımını rəsmən tanıyır. Bir gecədə 600-dən çox günahsız insan, onların arasında 100-dən çox qadın, 60-dan çox uşaq ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilib, 1000-dən çox insan itkin düşübdür. Onların taleyi haqqında heç bir məlumat yoxdur. İşğal edilmiş torpaqlarda Ermənistan bizim bütün tarixi, dini abidələrimizi, məscidlərimizi, əcdadlarımızın qəbirlərini dağıdıb, maddi sərvətlərimiz Ermənistan tərəfindən talan edilibdir. Bu, hərbi cinayətdir və bu cinayəti törədənlər ədalət qarşısında cavab verməlidirlər və verirlər. Təsadüfi deyil ki, 20 il ərzində Ermənistana rəhbərlik etmiş kriminal rejim çökdü və bu gün bizim dediyimizi erməni xalqı deyir. Ümid edirik ki, Ermənistanın yeni rəhbərliyi Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı konstruktiv mövqe tutacaq, tezliklə bizim torpaqlarımız işğaldan azad olunacaq, Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcək və bölgədə sülh və əməkdaşlıq yaranacaqdır.

Onu da qeyd etməliyəm ki, bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır, BMT Təhlükəsizlik Şurası – dünyanın ən ali orqanı münaqişə ilə bağlı 4 qətnamə qəbul edib. Bu qətnamələrdə Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılması haqqında çox dəqiq müddəalar var və münaqişə, əlbəttə ki, bu prinsiplər əsasında öz həllini tapmalıdır. Digər beynəlxalq təşkilatlar, o cümlədən ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, «Qoşulmama Hərəkatı», Avropa Şurası, Avropa Parlamenti oxşar qərar və qətnamələr qəbul ediblər. Bu, münaqişənin həlli üçün əsas hüquqi bazadır.

Bugünkü Zirvə görüşünün mövzusu idmanla bağlıdır. Bu barədə də öz fikirlərimi bildirmək istərdim. Azərbaycanda idmana çox böyük diqqət göstərilir. İdmanın inkişafı Azərbaycanda dövlət siyasətidir. Ölkəmizdə bir neçə mötəbər bey-

nəlxalq yarış keçirilibdir. Onların arasında xüsusilə birinci Avropa oyunlarını qeyd etmək istərdim. Digər qitə oyunlarından fərqli olaraq, Avropa oyunları heç vaxt keçirilməmişdi. İlk dəfə olaraq bu oyunlar 3 il bundan əvvəl Bakıda keçirildi. Bu oyunlarda Avropanın bütün ölkələrini təmsil edən 5000-dən çox idmançı iştirak etdi. Azərbaycan oyunlarda yüksək idman nəticələri göstərdi və komanda hesabında 2-ci yerə layiq görüldü. Ondan 2 il sonra, yəni ötən il Bakıda IV İslam Həmrəyliyi oyunları keçirildi. Bu oyunlarda Azərbaycan idmançıları 1-ci yerə layiq görüldülər. 2 il ərzində bir şəhərdə həm Avropa, həm İslam oyunlarının keçirilməsi Azərbaycanın millətlərarası, dinlərarası multikulturalizmə verdiyi töhfənin növbəti təzahürü oldu. Azərbaycan idmançıları Olimpiya oyunlarında da yaxşı nəticələr göstərdilər. Son Yay Olimpiya oyunlarında medalların sayına görə Azərbaycan 14-cü yerdə qərarlaşıb və bu bizim ölkəmiz üçün tarixi nailiyyətdir.

İdman insanları, xalqları birləşdirir. Əminəm ki, idmanın inkişafı həm ölkələrimizin ümumi inkişafına töhfə verəcək, eyni zamanda, bizim əməkdaşlığımızı daha da möhkəmləndirəcəkdir.

Humanitar məsələlərə gəldikdə, xüsusilə TÜRKSOY-un və Türk Mədəniyyəti və İrsi Fondunun fəaliyyətini yüksək qiymətləndirmək istərdim. Azərbaycan hər iki təşkilatda fəal iştirak edir.

Mən diqqətinizi iqtisadi əməkdaşlığa cəlb etmək istərdim. Xüsusilə indiki şəraitdə biz iqtisadi əməkdaşlığı dərinləşdirməliyik. Xüsusilə aramızdakı ticarət dövriyyəsinin artırılması üçün əlavə addımlar atılmalıdır və burada hesab edirəm ki, investisiya layihələri xüsusi rol oynayır. Qarşılıqlı investisiya qoyuluşunu təşviq etmək üçün yeni mexanizmlər işlənməlidir.

Azərbaycan qardaş ölkələrə böyük investisiyalar qoyur, ilk növbədə, Türkiyəyə. Son illərdə Türkiyə iqtisadiyyatına 14 milyard dollar sərmayə qoyulub və Türkiyə də Azərbaycana təxminən bu qədər sərmayə qoyub. Bizim Türkiyəyə sərmayələrimizin həcmi yaxın illərdə 20 milyard dollara çatacaq. Bu bizim dostluğumuzu, qardaşlığımızı əks etdirir, eyni zamanda,

Türkiyənin çox böyük iqtisadi potensialını göstərir. Əziz qardaşım Prezident Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə Türkiyə dünya miqyasında böyük gücə çevrilib, «Böyük iyirmilik»in aparıcı ölkələrindən biridir. Biz çox sevinirik ki, Türkiyə bütün sınaqlardan, o cümlədən iqtisadi sınaqlardan şərəflə çıxır. Biz hər zaman bir-birimizin yanındayıq və bunun ən gözəl göstəricisi, yenə də deyirəm, bizim qarşılıqlı sərmayəmizdir. Türkiyədə çox gözəl investisiya iqlimi və biznes üçün çox gözəl şərait vardır. Biz Azərbaycan olaraq, bundan sonra da qardaş ölkəyə sərmayə qoyuluşunu davam etdirəcəyik.

Bütövlükdə biz qardaş ölkələrə investisiyaların qoyuluşu ilə həm öz iqtisadi maraqlarımızı təmin edirik, həm də ki, bu ölkələrdə yeni imkanlar yaradırıq. Azərbaycan da qardaş ölkələrdən investisiyaları qəbul etmək üçün bütün işləri görüb. Azərbaycanda da gözəl sərmayə iqlimi var və qarşılıqlı sərmayə qoyuluşu bizim birliyimizi daha da möhkəmləndirəcək. Xüsusilə nəzərə alsaq ki, keçən ilin oktyabr ayından Bakı–Tbilisi–Qars dəmir yolu kimi nəhəng infrastruktur layihəsi fəaliyyətdədir. Bu yol Asiyanı Avropa ilə birləşdirir və bu yolla yükdaşımaların həcmi artır və artmalıdır. Bu, yeni nəqliyyat dəhlizidir, yeni nəqliyyat damarıdır. Azərbaycan dost, qonşu ölkələrlə birlikdə bu layihənin icrası ilə Avrasiyanın nəqliyyat xəritəsini yenidən tərtib etmiş olur. Nəzərə alsaq ki, nəqliyyat baxımından bu çox əlverişli yoldur, mən bütün dost ölkələri, o cümlədən Avropa ölkələrini, Macarıstanı, Özbəkistanı, Qırğızıstanı bu yoldan istifadə etməyə çağırıram. Artıq Qazaxıstan, Türkiyə, Azərbaycan bu yoldan istifadə edir.

Bir sözlə, əziz dostlar, mən hesab edirəm ki, bugünkü Zirvə görüşünün çox böyük mənası var və çox gözəl nəticələri olacaqdır. Əsas nəticə də ondan ibarətdir ki, bizim dostluğumuz, qardaşlığımız daha da möhkəmlənəcəkdir.

Təşəkkür edirəm.

* * *

*Qazaxıstan Prezidenti Nursultan Nazarbayev 2015-ci ildə keçirilən Astana Sammitindən ötən dövrdə türkdilli dövlətlər arasında əməkdaşlığın daha da inkişaf etdiyini, siyasi, iqtisadi, sosial və digər sahələrdə əlaqələrin möhkəmləndiyini diqqətə çatdırdı.*

*Nursultan Nazarbayev Novruz bayramının ortaq tədbirlərlə qeyd olunmasının mədəniyyət sahəsində əməkdaşlıq baxımından önəmini, Bakı–Tbilisi–Qars dəmir yolunun açılmasının əhəmiyyətini vurğuladı.*

**Nursultan Nazarbayev:** Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Qafqazdan keçməklə, Türküstandan Qara dənizə dəmir yolu istifadəyə verilib. Bununla yanaşı, Qazaxıstanın Kurık və Aktau limanlarının yükötürmə qabiliyyəti 26 milyon tona çatıb. Həmçinin Qazaxıstandan, Türkmənistandan və İrandan Körfəz ölkələri bazarlarına daxil olmağa imkan verən dəhlizi qeyd etmək lazımdır. Çindən Qazaxıstan vasitəsilə Xəzər dənizinə, Qafqaz regionuna və Avropaya konteynerlərin daşınması bizim üçün ticari-iqtisadi əməkdaşlığın möhkəmləndirilməsi baxımından yeni imkandır.

Onu da deyim ki, bizim sədrliyimiz dövründə elmi maarifləndirmə işlərinə xüsusi diqqət yetirilib. Belə ki, Azərbaycanın, Türkiyənin, Qırğızıstanın və Qazaxıstanın məktəb proqramlarına «Ümumtürk tarixi» dərsliyi daxil edilib. Türk Akademiyası tərəfindən tarix üzrə 90-dan çox kitab nəşr edilib, xalqlarımızın 4 əsrlik mədəniyyət mirasının toplandığı «Atalar mirası» portalı istifadəyə verilib, «Türkbarometr sosioloji tədqiqat» layihəsinin reallaşdırılmasına başlanılıbdır. Dövlətlərimiz arasında turizm sahəsində əməkdaşlığın inkişafı üçün «Müasir İpək yolu» layihəsinə start verilibdir.

*Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan 2009-cu ildə Naxçıvan Zirvə görüşü ilə əsası qoyulan Türk Şurasının ötən müddətdə sürətlə inkişaf edərək, güclü quruma çevrildiyini diqqətə çatdırdı.*

**R ə c ə b T a y y i b Ə r d o ğ a n:** 2009-cu ildə Naxçıvan Sazişi ilə qurduğumuz Türk Şurasının ötən müddətdə təşkilati cəhətdən gücləndiyini görürük. Şübhəsiz, bu prosesdə türk dünyasının ağsaqqalı hörmətli Nazarbayevin və Azərbaycan Prezidenti hörmətli qardaşım İlham Əliyevin çox böyük əməyi vardır.

*Prezident Rəcəb Tayyib Ərdoğan nəqliyyat dəhlizlərinin inkişafını diqqətə çatdıraraq, Bakı–Tbilisi–Qars dəmir yolunun əhəmiyyətini vurğuladı, onun həm də xalqlarımızın yaxınlaşmasına xidmət etdiyini söylədi:*

– Xəzərdən keçməklə, Qafqazı və Orta Asiyanı aşaraq, Çinə qədər uzanan Şərq–Qərb Orta Dəhliz təşəbbüsünə önəm veririk. «Müasir İpək yolu – Orta Dəhliz» kimi tanınan bu layihənin ən önəmli mərhələsi Azərbaycan ilə birlikdə həyata keçirdiyimiz Bakı–Tbilisi–Qars dəmir yolu layihəsidir. Beləliklə, Qərbi Avropadan çıxan bir qatar dayanmadan Xəzər sahillərinə, oradan da Aktau limanı vasitəsilə Şanxaya və Seula çata biləcək. Bu mühüm nəqliyyat xətti xalqlarımızın rifah səviyyəsinin artmasına və münasibətlərimizin inkişafına töhfə verəcəkdir.

Enerji sahəsində də əlaqələrin inkişaf etdirilməsinə önəm veririk. Bakı–Tbilisi–Ceyhan neft boru kəməri və Bakı–Tbilisi–Ərzurum qaz boru kəməri layihələri bu əməkdaşlığın ən önəmli bəhrələridir. «Cənub Qaz Dəhlizi»nin bel sütunu olan TANAP-ı da iyun ayında işə saldıq.

Xəzər dənizinin statusu ilə bağlı Konvensiyanın imzalanmasından duyduğumuz məmnunluğu burada xüsusi bildirmək istəyirəm.

*Türkiyə Prezidenti Azərbaycanın ərazi bütövlüyünün bərpası istiqamətində Türkiyənin və digər ölkələrin dəstəyinin önəmli olduğunu bildirdi:*

– Türk dünyası olaraq, sülh və sabitliklə bağlı hər bir məsələyə böyük diqqət yetirməliyik. Bu baxımdan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi

bütövlüyü çərçivəsində həlli üçün əlimizdən gələni etməyə davam edəcəyik.

*Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının regional məsələlərdə, investisiya, nəqliyyat, təhsil və digər sahələrdə uğurla fəaliyyət göstərdiyini qeyd etdi.*

**Şavkat Mirziyoyev:** Yüksək səviyyəli görüş və dialoqlar nəticəsində Qazaxıstan, Qırğızıstan, Türkiyə və Azərbaycan arasında müxtəlif sahələri əhatə edən əməkdaşlıq daha da möhkəmlənib. Ölkələrimizin regional məsələlərdə, investisiya, nəqliyyat, təhsil və digər sahələrdə ortaq fəaliyyətləri uğurla inkişaf edir və bu istiqamətdə bir sıra iqtisadi layihələr diqqəti cəlb edir. Azərbaycanda Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Qazaxıstanda «Dostluq» və digər nəqliyyat-logistika kompleksləri fəaliyyət göstərir. Bir müddət öncə isə Aktauda Kurık limanı işə düşdü. Bu layihələr gələcəkdə regional əməkdaşlığa töhfə verəcək. Türkiyənin Mersin limanına ən yaxın marşrut olan Bakı–Tbilisi–Qars dəmir yolunun açılışı, bu il fəaliyyətə başlayacaq Əndican–Oş–Kaşqar avtomobil dəhlizi bu baxımdan xüsusi imkanlar açır.

*Zirvə görüşündə müşahidəçi dövlət statusunda iştirak edən Macarıstanın Baş Naziri Viktor Orban macar xalqının türkdilli xalqlarla əməkdaşlığı inkişaf etdirməkdə maraqlı olduğunu bildirdi. Viktor Orban Avropanın mərkəzində yerləşən Macarıstanın da öz dilini və mədəniyyətini qoruduğunu vurğuladı, bu məqsədlə ölkəsində həyata keçirilən tədbirləri nəzərə çatdırdı.*

**Viktor Orban:** Şuraya üzv ölkələr Macarıstanın xarici siyasətində çox vacib rol oynayırlar və Türkiyə ilə olduğu kimi, Azərbaycan və Qazaxıstanla da münasibətlər bir neçə ildir ki, strateji tərəfdaşlıq səviyyəsindədir. Məqsəd həm də Qırğızıstan və Özbəkistan ilə münasibətləri eyni səviyyəyə çatdırmaqdır. Onu da deyim ki, Macarıstan il ərzində Azərbay-

can da daxil olmaqla, türkdilli ölkələrin tələbələrinə təqaüd verir.

*Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Ramil Həsənov görülən işlər və gələcək planlar barədə məlumat verdi.*

*Sonra nümayəndə heyətlərinin rəhbərləri Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VI Sammitinin Bəyannaməsini və Şuranın yeni baş katibinin seçilməsi ilə bağlı sənədləri imzaladılar.*

*Qazaxıstan nümayəndəsi səfir Bağdat Amreyev Şuranın yeni baş katibi seçildi.*

*Dövlət başçıları növbəti Zirvə görüşünün Azərbaycanda keçirilməsi təklifi ilə çıxış etdilər. Gələn il sammitin Azərbaycanda keçirilməsi qərara alındı.*

*Sonra dövlət və hökumət başçıları Çingiz Aytmatov adına Rux Ordo Mədəniyyət Mərkəzinin ərazisini gəzdilər, burada açıq havada nümayiş etdirilən və qırğız xalqının görkəmli şəxsiyyətlərinin abidələrinə, eləcə də bu ölkənin tarixini, mədəniyyətini əks etdirən abidələrə baxdılar.*

*Bununla da Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VI Zirvə görüşü başa çatdı.*

## DÖVLƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ VERİLMİŞ ZİYAFƏTDƏ İŞTİRAK

*Çolpon-Ata*

*3 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də Çolpon-Ata şəhərində Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekovun adından Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv olan dövlət başçılarının şərəfinə verilmiş rəsmi ziyafətdə iştirak etmişdir.*

### Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qırğız Respublikasına səfəri sentyabrın 3-də başa çatdı.*

*Çolpon-Ata şəhərinin İssık-Kul Beynəlxalq Aeroportunda Prezident İlham Əliyevi Qırğız Respublikasının Baş Naziri Maxammedkalıy Abılqaziyev və İssık-Kul vilayətinin qubernatoru Akılbek Osmonaliyev yola saldılar.*

## ESVATİNİ KRALI ƏLAHƏZRƏT III MSVATİYƏ

Əlahəzrət!

Esvatini Krallığının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından təbriklərimi yetirirəm.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, xalqınıza sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 sentyabr 2018-ci il*

**MAKEDONİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB GEORGE İVANOVA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan–Makedoniya münasibətləri dinamik inkişaf yolundadır. Ümidvaram ki, dostluq əlaqələrimizin daha da möhkəmlənməsi, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın inkişafı xalqlarımızın rifahına daim töhfələr verəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Makedoniya xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 sentyabr 2018-ci il*

**BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MİŞEL TEMERƏ**

Hörmətli cənab Prezident!

Braziliya Federativ Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Braziliya arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq zəminində inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Braziliya xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 sentyabr 2018-ci il*

## YAPONİYANIN XARİCİ İŞLƏR NAZİRİ TARO KONONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Yaponiyanın Xarici İşlər naziri Taro Kononun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycana səfərindən məmnunluq hissi keçirdiyini vurğulayan Yaponiyanın Xarici İşlər naziri Taro Kono ölkələrimiz arasında münasibətlərin yaxşı səviyyədə olduğunu qeyd etdi və əlaqələrimizin daha da inkişaf etdirilməsinə ümidvar olduğunu bildirdi. Taro Kono Yaponiyanın «İtoçu» və «İnpeks» şirkətlərinin uzun illər «Azəri–Çıraq–Günəşli» (AÇG) və Bakı–Tbilisi–Ceyhan (BTC) layihələrində pay sahibi olduqlarını vurğuladı. AÇG üzrə müqavilənin müddətinin 2050-ci ilə qədər uzadılmasının önəmini qeyd etdi və bu əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminliyini bildirdi. Nazir daha sonra dedi ki, Yaponiya iki ölkə arasında birbaşa aviareyslərin açılmasında maraqlıdır və bu, turizm sahəsində əlaqələrin inkişafı baxımından böyük əhəmiyyət daşıyır.*

*Ölkələrimiz arasında ikitərəfli münasibətlərin çox uğurla inkişaf etdiyini bildirən dövlətimizin başçısı bu əlaqələrin siyasi, iqtisadi və digər sahələri əhatə etdiyini vurğuladı. Prezident İlham Əliyev qeyd etdi ki, əməkdaşlığımızın gündəliyi çox genişdir və Yaponiyanın xeyli sayda şirkəti Azərbaycanda kontraktor, investor qismində uğurlu fəaliyyət göstərir. Eyni zamanda, dövlətimizin başçısı iki ölkənin biznes dairələri arasında əməkdaşlığın daha da genişləndirilməsi yollarının müəyyən edilməsinin önəmini də vurğuladı. Ölkəmizin turizm*

*imkanlarına toxunan Prezident İlham Əliyev Azərbaycana gələn turistlərin sayının ildən-ilə artdığını qeyd etdi və respublikamızda turizm infrastrukturunun ən yüksək səviyyədə olduğunu diqqətə çatdırdı. Dövlətimizin başçısı Yaponiyanın Xarici İşlər naziri Taro Kononun səfərinin ikitərəfli münasibətlərimizin inkişafına öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi.*

*Söhbət zamanı kadr hazırlığı məsələlərində təcrübə mübadiləsinin önəmi vurğulandı, iqtisadi sahədə əməkdaşlığımızın genişləndirilməsində investisiyaların təşviqinin və qorunmasının əhəmiyyətindən danışıldı, ölkələrimiz arasında iqtisadi əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən kənd təsərrüfatı, turizm və digər sahələrdə genişləndirilməsinin böyük potensiala malik olduğu qeyd edildi.*

## AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

Hörmətli həmvətənlər!

Yəhudi xalqının yeni il bayramı – Roş-Ha-Şana münasibətilə sizi ürəkdən təbrik edir, hamınıza ən səmimi arzu və diləklərimi yetirirəm.

Biz xalqlar arasında ənənəvi dostluq və qardaşlıq münasibətlərinin, tolerantlığın və multikultural dəyərlərin mövcud olduğu müasir Azərbaycan cəmiyyətində etnik-mədəni müxtəlifliyi milli dövlətçiliyimizin əvəzsiz nailiyyəti kimi qiymətləndiririk. Ölkəmizin bütün xalqları, o cümlədən yəhudi icması Azərbaycanda həmişə əmin-amanlıq şəraitində yaşamış, heç bir ayrı-seçkiliyə məruz qalmadan dil və mədəniyyətini, adət-ənənələrini qoruyub saxlamışdır.

Müstəqil Azərbaycan dövləti bu gün də öz mütərəqqi tarixi ənənələrinə sadiqdir. Müasir demokratik prinsiplərə uyğun olaraq, ölkədə insan haqlarının təminatı, milli azlıqların etnik-mədəni dəyərlərinin qorunması və inkişaf etdirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindəndir.

Yüz illərdir Azərbaycanda məskunlaşıb yaşayan yəhudi icması bu gün cəmiyyətimizin ayrılmaz hissəsinə və bərabərhüquqlu üzvünə çevrilibdir.

Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, yəhudi əsilli vətəndaşlarımız hazırda böyük inkişaf və tərəqqi mərhələsini yaşayan ölkəmizin ictimai-siyasi həyatında yaxından iştirak edir, demokratik dövlət quruculuğu prosesinə öz layiqli töhfələrini verirlər.

Əziz dostlar!

Hər il təntənə ilə qeyd etdiyiniz Roş-Ha-Şana yeniliyin, mənəvi saflığın, xoş müjdələrin və həmrəyliyin təcəssümüdür. Bu əziz gün münasibətilə bir daha hamınıza səmimi təbriklərimi

çatdırır, ailələrinizə səadət, süfrələrinizə ruzi-bərəkət arzulayıram.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 sentyabr 2018-ci il*

**TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB EMOMƏLİ RƏHMONA**

Hörmətli Emoməli Şərifoviç!

Tacikistan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Bu gün Tacikistan ictimai-siyasi sabitlik, dayanıqlı sosial-iqtisadi inkişaf yolu ilə irəliləyir. Ölkənizin beynəlxalq nüfuzu, regional məsələlərdə rolu gündən-günə artır.

Azərbaycan–Tacikistan əlaqələri zəngin ənənələrə malikdir. Keçən ay Azərbaycana rəsmi səfəriniz bu ənənələrin aşkar təzahürüdür. İnanıram ki, dövlətlərarası münasibətlərimiz, qarşılıqlı maraq doğuran əməkdaşlığımız bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Hörmətli Emoməli Şərifoviç, belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Tacikistan xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 sentyabr 2018-ci il*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ARİF ALVİYƏ**

Hörmətli cənab Alvi!

Pakistan İslam Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan–Pakistan münasibətləri xoş ənənələrə malikdir. Qardaş xalqlarımızın iradəsindən qaynaqlanan dövlətlərarası münasibətlərimizin hazırkı yüksək səviyyəsi bu ənənələri bariz şəkildə ifadə edir.

İnanıram ki, strateji tərəfdaşlığımızın qorunub saxlanılması və daha da möhkəmləndirilməsi, qarşılıqlı etimad və dəstəyə əsaslanan əməkdaşlığımızın bundan sonra da müvəffəqiyyətlə davam etdirilməsi yolunda birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Pakistan xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, 5 *sentyabr 2018-ci il*

## XORVATİYA RESPUBLİKASINA RƏSMİ SƏFƏR

*5 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Xorvatiya Respublikasına rəsmi səfərə gəlmişdir.*

*Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Zaqreb şəhərinin «Franyo Tucman» aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*«Franyo Tucman» aeroportunda Azərbaycan Prezidenti İlham Əliyevi Xorvatiya Prezidenti ofisinin rəhbəri xanım Anamariya Kiriniç və digər rəsmi şəxslər qarşıladılar.*

## ZAQREBDƏ RƏSMİ QARŞILANMA MƏRASİMİ

*Zaqreb*

*6 sentyabr 2018-ci il*

*Xorvatiya Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sentyabrın 6-da rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Azərbaycan Prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviç Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.*

*Azərbaycanın və Xorvatiyanın Dövlət himnləri səsləndirildi.*

*Fəxri qarovul dəstəsinin rəisi dövlətimizin başçısına raport verdi.*

*Prezidentlər Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Azərbaycan Prezidenti İlham Əliyev Xorvatiya əsgərlərini salamladı.*

*Xorvatiyanın dövlət və hökumət nümayəndələri Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri Prezident Kolinda Qrabar-Kitaroviçə təqdim olundu.*

*Prezidentlər birgə foto çəkdirdilər.*

## XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ KOLİNDA QRABAR-KİTAROVİÇ İLƏ GÖRÜŞ

*Zaqreb*

*6 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sentyabrın 6-da Zaqrebdə Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviç ilə təkbətək görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə Xorvatiya arasında siyasi, iqtisadi, humanitar və digər sahələrdə əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı.*

*Azərbaycan Prezidenti İlham Əliyevin Xorvatiyaya rəsmi səfərinin ölkələrimiz arasında əlaqələrin daha da möhkəmləndirilməsi baxımından əhəmiyyəti qeyd olundu.*

*Söhbət zamanı qarşılıqlı maraq doğuran digər ikitərəfli məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Zaqreb*

*6 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviçin nümayəndə heyətlərinin iştirakı ilə sentyabrın 6-da təkbətək görüş başa çatdıqdan sonra geniş tərkibdə görüşü olmuşdur.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Zaqreb*

*6 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviçin iştirakı ilə sentyabrın 6-da geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan–Xorvatiya sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Xorvatiya Respublikasının Mədəniyyət Nazirliyi arasında 2018-ci, 2019-cu və 2020-ci illər üzrə mədəni əməkdaşlığa dair Proqram»ı Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov və Xorvatiya Respublikasının Mədəniyyət naziri xanım Nina Obulyen Korjinek imzaladılar.*

*«Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Xorvatiya Respublikasının Kənd Təsərrüfatı Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu Azərbaycan Respublikasının Xorvatiya Respublikasındakı səfiri Fəxrəddin Qurbanov və Xorvatiya Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin Dövlət katibi xanım Mariya Vuçkoviç imzaladılar.*

# XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ KOLİNDA QRABAR-KİTAROVİÇ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*Zaqreb*

*6 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviç sentyabrın 6-da sənədlərin imzalanması mərasimindən sonra mətbuata bəyanatlarla çıxış etmişlər.*

## Xorvatiya Prezidenti Kolinda Qrabar-Kitaroviçin bəyanatı

Xanımlar və cənablar!

Sizin hamınızı, xüsusən də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi və onun nümayəndə heyətini Xorvatiya Respublikasında səmimi-qəlbdən salamlayıram. Cənab Prezident, ümidvaram ki, Siz özünüzü burada öz evinizdəki kimi rahat hiss edirsiniz. Bu gün Sizin səfəriniz başlayıb və apardığımız danışıqlar bu axşam da davam edəcəkdir. Əminəm ki, Sizin səfəriniz həm xoş, həm də məhsuldar olacaqdır. Beləliklə, Sizə və nümayəndə heyətinizə səmimi-qəlbdən «Xoş gəlmisiniz!» – deyirəm. Həmçinin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə Sizi təbrik edirəm.

Sizin 2013-cü ildə Xorvatiyaya rəsmi səfərinizdən və mənim 2016-cı ilin oktyabrında Azərbaycana rəsmi səfərimdən sonra – mən bu səfəri çox yaxşı xatırlayıram – biz dost ölkələrimiz arasında bir çox birgə işlər görmüşük. Xorvatiya Azərbaycanı

strateji tərəfdaşlıq haqqında Bəyannamə əsasında özünün mühüm strateji tərəfdaşı hesab edir. Bu Bəyannamə 2013-cü ildə Zaqrebdə iki ölkə arasında Sizin rəsmi səfəriniz çərçivəsində imzalanıbdır.

Biz bu gün əməkdaşlığımızın bir sıra sahələrində mövcud olan böyük potensial haqqında danışdıq, həmçinin siyasi məsələlər üzrə fikir mübadiləsi apardıq, o cümlədən enerji, iqtisadiyyat, mədəniyyət, elm və texnologiya, təhsil və əlbəttə ki, xalqlarımız arasında birbaşa təmasların inkişafı haqqında fikir mübadiləsi apardıq. Mən bu gün imzalanmış sənədləri vacib hesab edirəm, alqışlayıram və bu bizim ikitərəfli münasibətlərimizə təkan verəcəkdir.

Azərbaycan və Xorvatiya əsl dostlardır. Biz bir-birimizi Avropa İttifaqı çərçivəsində də dəstəkləyirik. Biz Azərbaycanın Avropa İttifaqı ilə ikitərəfli qaydada münasibətlərinin inkişaf etdirilməsi ilə bağlı mövqeyini yüksək dəyərləndiririk. İnanıram ki, biz müdafiə sahəsində də əməkdaşlığımızı inkişaf etdirəcəyik. Çünki biz 2013-cü ildə bu sahədə də əməkdaşlıqla bağlı Anlaşma Memorandumu imzalamışıq. Bu baxımdan zabitlərimiz və əsgərlərimiz bir sıra müxtəlif hərbi kurslarda, hərbi məktəblərdə öz təhsillərini artıra bilərlər.

Biz həmçinin iqtisadi əməkdaşlığa da toxunduq. İnanıram ki, bunu inkişaf etdirə bilərik. Çünki bu sahədə hazırkı vəziyyət hələ o qədər də istənilən səviyyədə deyil. Bildiyiniz kimi, iqtisadi əməkdaşlıqla bağlı Azərbaycan ilə Xorvatiya arasında hökumətlərarası birgə Komissiya öz işini aparır. İşin əsas məqsədi ikitərəfli layihələr irəli sürmək, onları həyata keçirməkdən ibarətdir. Biz həmçinin Bakıda bu Komissiyanın son iclasını keçirmişik və istərdik ki, növbəti sessiya yaxın zamanlarda öz işinə başlasın. Təbii ki, bu çərçivədə əczaçılıq və enerji sahəsinə xüsusi diqqət yetirməliyik. İnanıram ki, Xorvatiya digər sahələrdə də öz təcrübəsi ilə bölüşə bilər. Bu gün biz bu əməkdaşlığın, həmçinin əczaçılıq sahəsində də genişləndirilməsi haqqında danışdıq. Prezident bununla bağlı

qeyd etdi ki, şirkətlərimiz tərəfindən Xorvatiya ilə Azərbaycan arasında birgə müəssisə təsis edilə bilər. Bunun sayəsində bizim əczaçılıq şirkətləri üçün fürsət yaranacaq ki, onlar Mərkəzi Asiya və ümumiyyətlə, Xəzər hövzəsi regionuna çıxış əldə etsinlər, o cümlədən Azərbaycanda da fəaliyyət göstərsinlər. Təbii ki, bu da bizim aramızda ticari münasibətləri də inkişaf etdirəcəkdir.

Eyni zamanda, gəmiqayırma sahəsində də vacib işlər vardır. Bizim 6 gəmi ilə bağlı müzakirələrimiz oldu. Ümidvaram ki, bununla bağlı danışıqlarımız davam etdiriləcək və Azərbaycan ilə biznes potensialını tam şəkildə istifadə edə biləcəyik.

Həmçinin biz kənd təsərrüfatı, informasiya texnologiyaları, yeyinti məhsullarının emalı sahələrində də əməkdaşlığı inkişaf etdirməyə ümid edirik.

Xorvatiya gələcəkdə bu regionun daha da inkişaf etmiş qovşağına çevriləcəkdir. Bunun üçün biz istərdik ki, Azərbaycanın reallaşdırdığı və bir çox ölkələrin ərazisindən keçən qaz boru kəməri layihəsində iştirak edək. Bildiyiniz kimi, Adriatik dənizinin sahilində bu layihə çərçivəsində boru kəməri çəkilir. Biz həmçinin Xorvatiyanın Krk adasında maye qaz terminalının tikintisində maraqlıyıq. Bu, Azərbaycanın enerji bazarlarına çıxışını daha da genişləndirəcəkdir.

O ki qaldı Avropa İttifaqındakı fəaliyyətimizə, Xorvatiya güclü iradəyə əsaslanaraq, Cənub və Mərkəzi Avropa ölkələri ilə Xəzər hövzəsi arasında daha geniş əməkdaşlığın inkişaf etdirilməsinə tərəfdardır. Azərbaycan əslində bu təşəbbüsü dəstəkləyibdir. Bu təşəbbüsə digər tərəfdaşlar da, maraqlı dövlətlər də qoşula bilər. Bu təşəbbüsdə dünyanın müxtəlif şirkətləri iştirak edə bilər. Buxarestdə 2018-ci ilin sentyabrında bununla bağlı keçiriləcək Zirvə görüşündə hesab edirik ki, mühüm addımlar atılacaq və bu çox yüksək səviyyədə, siyasi səviyyədə ortaya qoyulan bir iradə olacaqdır. Bu da bizim spesifik dialoqumuzun əsasını təşkil edir.

Mən bildirmək istəyirəm ki, Azərbaycan NATO-nun mühüm tərəfdaşıdır. Sizin NATO-ya verdiyiniz töhfəniz vacibdir. Azərbaycan da bizim ölkə kimi, müxtəlif yerlərdə təhlükəsizlik məsələlərinin həllinə, sabitliyin qorunmasına töhfə verir və bunda maraqlıdır. Burada söhbət, xüsusən Avropanın cənub bölgəsindən gedir. Siz həmçinin Əfqanıstanda aparılan əməliyyatlara da qatılmısınız. Təhlükəsizliyə və sabitliyə verdiyiniz davamlı dəstəyə və töhfəyə görə mən Sizə təşəkkürümü bildirirəm.

Sonda bildirmək istəyirəm ki, bu yaxınlarda biz qərar qəbul etdik. Azərbaycanda bizim müvəqqəti ofisimiz bağlanır. Lakin mən qərar qəbul etdim ki, Bakıda Xorvatiyanın daimi səfirliyi fəaliyyətə başlasın. Mən bununla bağlı Azərbaycana səfir də təyin edəcəyəm.

Cənab Prezident, Sizi Xorvatiyada bir daha səmimi-qəlbdən salamlayıram və ümidvaram ki, səfəriniz xoş keçəcəkdir.

## Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı

Çox sağ olun, hörmətli xanım Prezident!

Əziz dostlar!

İlk növbədə, xanım Prezident, məni Xorvatiyaya dəvət etdiyinizə, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə dərin təşəkkürümü bildirmək istəyirəm. Mən, Siz qeyd etdiyiniz kimi, Xorvatiyada özümü evimdəki kimi hiss edirəm. Sizin gözəl ölkənizə yenidən səfər etmək mənim üçün çox xoşdur.

Bizim siyasi dialoqumuz çox fəal aparılır. Xanım Prezident qeyd etdiyi kimi, biz tez-tez görüşürük. 2 il bundan əvvəl xanım Prezident Azərbaycanda rəsmi səfərdə olub. Səfər çox uğurlu keçib və çox gözəl nəticələri olubdur. Keçən il biz bir beynəlxalq konfrans çərçivəsində görüşmüşdük. Bu gün də mən Xorvatiyadayam. Bu göstərir ki, siyasi dialoq çox fəaldır, Xorvatiya və Azərbaycan doğrudan da strateji tərəfdaşlardır.

Xanım Prezidentin qeyd etdiyi kimi, 5 il bundan əvvəl Zaqrebdə bu barədə Bəyannamə imzalanıbdır.

Strateji tərəfdaşlıq əlaqələrimiz genişlənir, güclənir. Bu gün bir çox məsələlər müzakirə olundu. Xanım Prezident bu barədə məlumat verdi. Öz tərəfimdən qeyd edim ki, biz Xorvatiya ilə daha böyük həcmdə ticarət əməliyyatları aparmaq istəyirik. Ticarət dövriyyəsinin nə həcmi, nə də strukturu bizi qane edə bilməz. Hesab edirəm ki, hökumətlərarası birgə Komissiya bu məsələ ilə bağlı çox ciddi fəaliyyət göstərəcək. Yaxın zamanlarda həm ticarət dövriyyəsinin artırılması, həm də müştərək investisiya layihələri icra edilə bilər.

Əlbəttə ki, bizim energetika sahəsində əməkdaşlığımız çox önəmlidir. Azərbaycan «Cənub Qaz Dəhlizi»nin icrası ilə çox fəal məşğuldur, bu nəhəng layihənin təşəbbüskarı olubdur. Bu layihə 7 ölkəni birləşdirir, Bakıdan Avropaya qədər 3500 kilometr uzunluğunda qaz kəmərinin çəkilişini və Azərbaycanın nəhəng «Şahdəniz» yatağının işlənilməsini nəzərdə tutur. 4 seqmentdən ibarət olan bu layihə uğurla icra edilir. Bu ilin mayında «Cənub Qaz Dəhlizi»nin rəsmi açılışı oldu. İyun ayında isə biz TANAP layihəsinin açılışını qeyd etdik. Beləliklə, əminəm ki, yaxın 2 il ərzində Azərbaycan qazı ilk dəfə olaraq Avropa məkanına çatdırılacaq. Beləliklə, Avropanın enerji təhlükəsizliyinə növbəti töhfə veriləcək və Azərbaycan öz qaz potensialını daha da böyük həcmdə dünyaya, Avropaya təqdim edə biləcəkdir.

Əlbəttə ki, Xorvatiya ilə bu sahədəki əməkdaşlıq çox önəmlidir. Bakıda 4 il ardıcıllıqla «Cənub Qaz Dəhlizi»nin Məşvərət Şurasının toplantıları keçirilir. Xorvatiya bu toplantılarda yüksək səviyyədə təmsil olunur. Bizim aramızda bu məsələ ilə bağlı Memorandum da imzalanıbdır. İon–Adriatik qaz kəmərinin tikintisi ilə bağlı çox əhəmiyyətli danışıqlar aparılmaqdadır.

Azərbaycanın qaz ehtiyatları çox böyükdür. Təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrdir. Bu onu göstərir ki, biz

qaz hasilatının artırılması ilə bağlı əlavə addımlar atacağıq və ixrac coğrafiyasını da genişləndirmək fikrindəyik.

Avropa İttifaqı–Azərbaycan əlaqələri uğurla inkişaf edir. Bu ilin iyul ayında Brüsseldə Avropa İttifaqı ilə Azərbaycan arasında «Tərəfdaşlıq prioritetləri» sənədi imzalanıb. Bu, yeni sazişin imzalanması üçün çox önəmli bir addımdır. Hazırda Avropa İttifaqı və Azərbaycan yeni saziş üzərində işləyir. İşlər yaxşı gedir və Xorvatiya həmişə bizim Avropa İttifaqı ilə əməkdaşlığımızı dəstəkləyir və öz dəyərli töhfəsini verir. Avropa İttifaqı ilə bizim əlaqələrimiz bir çox sahələri əhatə edir – siyasi islahatlar, iqtisadi, enerji və nəqliyyat sahələrində əməkdaşlığı qeyd etmək olar.

Keçən ilin oktyabr ayında Bakıda Bakı–Tbilisi–Qars dəmir yolunun rəsmi açılışı oldu. Bu yol nəinki Azərbaycanı Türkiyə ilə birləşdirir, həm də Asiyanı Avropa ilə birləşdirən yeni nəqliyyat damarıdır, ən qısa yoldur. Bu yol artıq fəaliyyətdədir. Göndərilən yüklərin həcmi hər gün artır və Azərbaycan Avrasiyanın nəqliyyat xəritəsinə öz dəyərli töhfəsini verir. Ümid edirəm ki, xorvatiyalı tərəfdaşlarımız bu yoldan da istifadə edə biləcəklər. Çünki bu, nəqliyyat və iqtisadi sahələrdə çox gözəl layihədir.

Azərbaycanın NATO ilə əməkdaşlığı yüksək səviyyədədir. Mənim NATO-ya çoxsaylı rəsmi səfərlərim olub. Bu yaxınlarda Azərbaycan Əfqanıstanda «Qətiyyətli dəstək» missiyasındakı hərbi kontingentin sayının artırılması ilə bağlı qərar qəbul edibdir. Artıq 120 azərbaycanlı hərbçi Əfqanıstanda xidmət göstərir. Eyni zamanda, «Qətiyyətli dəstək» missiyasının təmin olunması üçün Azərbaycan öz hava məkanını və nəqliyyat infrastrukturunu təqdim edib. Bu da missiyanın uğurla davam etməsi üçün çox önəmli məsələdir.

Bir sözlə, həm Avroatlantik strukturlarla bizim əlaqələrimiz, həm də ikitərəfli müstəvidə aparılan işlər onu göstərir ki, Xorvatiya və Azərbaycan, sözün əsl mənasında, strateji tərəfdaşlardır. Bu gün xanım Prezidentin qeyd etdiyi kimi, bir

çox sahələrdə gələcək əməkdaşlıq haqqında fikir mübadiləsi aparıldı. Əczaçılıq, kənd təsərrüfatı, kənd təsərrüfatı məhsullarının emalı, gəmiqayırma sahələrində bütün istiqamətlər üzrə əminəm ki, yaxşı nəticələr olacaqdır. Müvafiq göstərişlər verildi. Əminəm ki, hökumətlərarası birgə Komissiya bütün bu göstərişləri vaxtında və yüksək səviyyədə icra edəcəkdir.

Hörmətli xanım Prezident, dəvətə və göstərilən qonaqpərvərliyə görə Sizə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Dost Xorvatiya xalqına daim tərəqqi və xoşbəxtlik arzulayıram. Sağ olun.

## «XORVATİYA QURBANLARININ SƏSİ–AĞRI DİVARI» ABİDƏSİNİ ZİYARƏT

*Zaqreb*

*6 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 6-da Zaqrebdə «Xorvatiya Qurbanlarının Səsi–Ağrı Divarı» abidəsini ziyarət etmişdir.*

*Dövlət başçısı abidənin önünə əklil qoydu, Xorvatiya uğrunda canlarından keçmiş insanların xatirəsini ehtiramla yad etdi.*

## XORVATİYA RESPUBLİKASININ BAŞ NAZİRİ ANDREY PLENKOVİÇ İLƏ İŞÇİ NAHARDA İŞTİRAK

*Zaqreb*

*6 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 6-da Xorvatiya Respublikasının Baş Naziri Andrey Plenkoviç ilə işçi naharı etmişdir.*

*Xorvatiyanın Baş Naziri Andrey Plenkoviç Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı.*

*Azərbaycan Prezidenti dövlət iqamətgahının Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.*

*Prezident İlham Əliyev və Baş Nazir Andrey Plenkoviç birgə foto çəkdirdilər.*

*Görüşdə ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətlərinin inkişaf etdiyi, siyasi, iqtisadi, enerji və digər sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi. İqtisadi sahədə əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu vurğulandı. Həmçinin kənd təsərrüfatı, əczaçılıq, nəqliyyat və digər sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olundu.*

*Söhbət zamanı ölkəmizin Avropa İttifaqı ilə uğurlu əməkdaşlıq etdiyi bildirildi. Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolu, «Cənub Qaz Dəhlizi»nin əhəmiyyəti qeyd olundu, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## XORVATİYA RESPUBLİKASI PARLAMENTİNİN SƏDRİ QORDAN YANDROKOVİÇ İLƏ GÖRÜŞ

*Zaqreb*

*6 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 6-da Xorvatiya Respublikası Parlamentinin Sədri Qordan Yandrokoviç ilə görüşmüşdür.*

*Parlamentin Sədri Qordan Yandrokoviç Prezident İlham Əliyevi qarşıladı.*

*Azərbaycan Prezidenti İlham Əliyev və Xorvatiya Parlamentinin Sədri Qordan Yandrokoviç birgə foto çəkdirdilər.*

*Görüşdə Azərbaycan Prezidentinin Xorvatiyaya rəsmi səfərinin uğurlu keçdiyi, səfər çərçivəsində səmərəli müzakirələrin aparıldığı qeyd edildi. Azərbaycan ilə Xorvatiya arasında strateji tərəfdaşlıq əlaqələrinin inkişaf etdiyi, siyasi, iqtisadi, enerji və digər sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi, ticarət dövriyyəsinin artırılmasının vacibliyi qeyd olundu. Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolu, «Cənub Qaz Dəhlizi»nin əhəmiyyəti xüsusi vurğulandı. Yüksək səviyyəli qarşılıqlı səfərlərin əlaqələrimizin genişləndirilməsində xüsusi rolunun olduğu bildirildi.*

*Azərbaycanın Əfqanıstanda Qətiyyətli Dəstək missiyasında iştirakının önəmi qeyd olundu, ölkəmizin Avropa İttifaqı ilə uğurlu əməkdaşlıq etdiyi bildirildi. Azərbaycan ilə Xorvatiya arasında nəqliyyat, əczaçılıq, turizm sahələrində əməkdaşlıq üçün yaxşı imkanların olduğu vurğulandı.*

*Söhbət zamanı parlamentlərarası əlaqələrin genişləndirilməsinin vacibliyi qeyd edildi, dostluq qruplarının bu işə mühüm töhfə verə biləcəyi bildirildi və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ VERİLMİŞ ZİYAFƏTDƏ İŞTİRAK

*Zaqreb*

*6 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə sentyabrın 6-da Zaqrebdə Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviçin adından rəsmi ziyafət verilmişdir.*

*Dövlət başçıları rəsmi ziyafətdə çıxış etdilər.*

### Xorvatiya Prezidenti Kolinda Qrabar-Kitaroviçin çıxışı

Zati-aliləri hörmətli Prezident Əliyev!

Xanımlar və cənablar, əziz dostlar, axşamınız xeyir olsun!

Bir daha, cənab Prezident, Sizə və nümayəndə heyətinizə Xorvatiya Respublikasına «Xoş gəlmisiniz!» – deyirəm. Ümid edirəm ki, gününüz məhsuldar və xoş keçib və bu axşam dostlar arasında şam yeməyi Sizin ürəyinizcə olacaqdır.

İnanıram ki, bu gün təkcə apardığımız danışıqlar, həmçinin Baş Nazirlə və Parlamentin Sədri ilə apardığınız söhbətlərlə yadda qalmadı. Anlaşma Memorandumunun imzalanması, xüsusilə də enerji sektorunda fəaliyyət göstərən şirkətlər arasında danışıqlarla biz Xorvatiya və Azərbaycan arasındakı münasibətlərin yeni mərhələsinə qədəm qoyduq.

Cənab Prezident, ikitərəfli münasibətlərimizin inkişafına töhfə vermək məqsədilə Sizinlə, sizin hamınızla birlikdə işləməyi səbirsizliklə gözləyirəm. Əlbəttə, biz hər iki ölkənin inki-

şafını arzu edirik. Tarixən qeyri-sabit regionda yerləşən hər iki ölkəyə sabit və firavan gələcəyə ümidlə baxmağı, açıq qalan istənilən məsələləri və həll olunmamış münaqişələri nizamlamaq iqtidarında olmağı arzu edirik və bu məsələdə biz sizi tam dəstəkləyirik.

Azərbaycan və Avropa İttifaqı arasında olan xüsusi tərəfdaşlıq vasitəsilə Avropa İttifaqı kontekstində birlikdə çalışmağı arzu edirəm. Bu gün qeyd etdim ki, NATO-nun tərəfdaşı qismində verdiyiniz töhfələrə, xüsusilə Əfqanıstanda «Qətiyyətli dəstək» missiyasına verdiyiniz töhfəyə görə biz Sizə minnətdarıq. Eləcə də ümumi kontekstdə regional və qlobal təhlükəsizliyi müzakirə etdiyimizə, ümumi maraqlarımıza və ümumi gələcəyimizə görə Sizə təşəkkürümü bildirirəm.

Bir daha Sizə xoş axşam və Xorvatiyada xoş vaxt keçirməyi arzu edirəm.

## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Hörmətli xanım Prezident!

Xanımlar və cənablar, əziz dostlar!

Xanım Prezident, icazə verin, dəvətə, mənə və nümayəndə heyətimə göstərdiyiniz qonaqpərvərliyə görə bir daha Sizə minnətdarlığımı bildirim. Biz Sizin gözəl ölkənizdə özümüzü həqiqətən, evimizdəki kimi hiss edirik. Mənim rəsmi səfərim başa çatır və mən səfərin nəticələrindən çox razı qaldığımı qeyd etmək istəyirəm. Əminəm ki, səfər Azərbaycan ilə Xorvatiya arasında strateji tərəfdaşlıq münasibətlərini gücləndirəcəkdir.

Xanım Prezident, biz müntəzəm olaraq təmasdayıq. Hamımız 2 il bundan əvvəl Azərbaycana rəsmi səfərinizi xatırlayırıq. Aramızda yaranan əlaqələr ikitərəfli münasibətlərin inkişafına kömək göstərir. Keçən il Münhendə beynəlxalq konfrans zamanı Sizinlə görüşmüşük və bu gün Xorvatiyaya rəsmi səfərim zamanı görüşürük. Bu onu nümayiş etdirir ki, ö-

lkələrimiz arasında çox fəal siyasi dialoq prosesi gedir. Münasibətlərin inkişafı üçün çox güclü potensial mövcuddur.

Bu gün biz enerji, nəqliyyat, kənd təsərrüfatı, infrastruktur, sənayenin inkişafı sahələrində genişmiqyaslı əməkdaşlıq məsələlərini, eləcə də regional məsələləri müzakirə etdik. Müzakirə etdiyimiz bütün məsələlərə bizim ümumi yanaşmamız vardır. Bu çox vacibdir. Bu bizi həqiqi strateji tərəfdaş edir. Azərbaycan regionumuzun, Avropanın enerji təhlükəsizliyi məsələlərində öz rolunu oynayır. Biz daha da fəal rol oynamağa davam edəcəyik və bu mənada Xorvatiya ilə əməkdaşlıq bizim üçün mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan qitələrarası dəmir yolu əlaqəsi layihəsinin də təşəbbüskarı olub və bu da artıq Avropadan Asiyaya və əks istiqamətdə daşınan yüklərin həcminin əhəmiyyətli dərəcədə artmasına gətirib çıxarır. Bütün bu layihələr konkret nəticələri olan layihələrdir və bu layihələr bizi birləşdirir.

Avropa İttifaqı ilə münasibətlərimizdə bizə davamlı dəstək göstərdiyinə görə Xorvatiyaya minnətdarıq. Biz Avropa İttifaqı ilə yeni sazişin tezliklə tamamlanmasına böyük ümidlər bəsləyirik və bu da bizim əməkdaşlığımızda çox mühüm mərhələ olacaqdır. Bu, bütün sahələri – Azərbaycanın siyasi, demokratik və iqtisadi inkişafını, enerji siyasətini, nəqliyyat, multikulturalizmlə bağlı olan sahələri əhatə edən hərtərəfli sənəddir. Bu, gələcəkdə Azərbaycan ilə Avropa arasında fəal əməkdaşlığı təmin edəcək mühüm bir sənəd olacaqdır.

Siz bizim NATO-nun «Qətiyyətli dəstək» missiyasına verdiyimiz töhfəni qeyd etdiniz. Biz lap əvvəldən Əfqanıstandayıq, mən əsgərlərimizi nəzərdə tuturam. 2002-ci ildən bəri biz koalisiyaya qoşulmuş azsaylı ölkələrdən biriyik. Bu yaxınlarda Əfqanıstandakı hərbi kontingentimizi 120 hərbçiyə qədər artırmışıq. Bu da NATO-ya üzv olmayan ölkələr arasında ən yüksək göstəricilərdən biridir. Əlbəttə ki, biz koalisiya qüvvələrinə logistika, nəqliyyat dəstəyini, ərazimiz üzərindən

uçuş imkanını təmin edirik və bizim töhfəmiz NATO və üzv ölkələr tərəfindən yüksək qiymətləndirilir.

Bizim mədəni əlaqələrimizin necə inkişaf etdirilməsi nöqteyi-nəzərindən yaxşı anlayışımız var və bu gün xüsusilə mədəni mübadiləyə aid sənədin imzalanması təbiidir. Azərbaycan dərin multikulturalizm, dinlərarası, sivilizasiyalararası dialoq ənənələri olan bir ölkədir. Bütün bunlar bizim üçün mühüm əhəmiyyət kəsb edir. Prezidentin sərəncamı ilə 2016-cı il Azərbaycanda «Multikulturalizm ili» elan olunmuşdur. 2015-ci ildə biz birinci Avropa oyunlarına, 2017-ci ildə isə IV İslam Həmrəyliyi oyunlarına ev sahibliyi etdik. Beləliklə, 2 il ərzində biz əməkdaşlıq formatını müəyyən etmək üçün bir şəhərə Avropadan və islam aləmindən atletləri və dostları dəvət etdik. Bu oyunlar sadəcə, idman tədbiri deyildi. Onlar insanları birləşdirən çox mühüm beynəlxalq tədbirlər idi.

Əlbəttə ki, biz hamımız Katolik kilsəsinin rəhbəri, Roma Papası Fransiskin 2016-cı ildə Azərbaycana tarixi rəsmi səfərini xatırlayırıq. Onun Bakıdan çatdırdığı mesajlar həqiqətən də vacib idi. O, müxtəlif dinlərin nümayəndələri arasında daha çox anlaşmaya nail olmaq üçün bizim siyasətimizin vacibliyini vurğulamışdı. Beləliklə, Xorvatiya tərəfi ilə müzakirə etdiyimiz bütün məsələlərdə bizim ümumi anlaşmamız və yanaşmamız vardır. Bu bizim tərəfdaşlığımızı daha da güclü edir.

Bu gün Sizin gözəl ölkənizi xoş ovqatla tərk edirəm. Mən həqiqətən, özümü burada evdəki kimi hiss edirəm. Fürsətdən istifadə edərək, əməkdaşlığımızı davam etdirmək üçün xanım Prezidenti bir daha Azərbaycana səfərə dəvət edirəm.

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xorvatiya Respublikasına rəsmi səfəri sentyabrın 6-da başa çatdı.*

## NİZAMİ RAYONUNDA 227 SAYLI TAM ORTA MƏKTƏBDƏ ƏSASLI TƏMİRDƏN SONRA YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*12 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Bakının Nizami rayonunun Keşlə qəsəbəsində yerləşən 227 saylı tam orta məktəbdə əsaslı təmir və yenidən qurulma işlərindən sonra yaradılmış şəraitlə tanış olmuşdur.*

*Məktəbin direktoru Sevinc Hüseynova görülən işlərlə bağlı dövlət başçısına məlumat verdi.*

*Bildirildi ki, 227 saylı tam orta məktəb binası 1937-ci ildə tikilib. Binanın əsas korpusu İkinci dünya müharibəsi illərində hospital kimi fəaliyyət göstərib. Sonra bina məktəb kimi, fəaliyyətini davam etdirib. 2005-ci və 2007-ci illərdə məktəb üçün əlavə 2 korpus tikilib və istifadəyə verilibdir. Təmir işləri yüksək səviyyədə həyata keçirilib. Hazırda məktəbdə ikinövbəli sistemdə 1176 şagird təhsil alır. Şagirdlərin təlim-tərbiyəsi ilə 82 müəllim məşğul olur. Məktəbdə 38 sinif otağı, informatika kabineti, laboratoriya, idman və akt zalları, hərbi otaq və yeməkxana vardır. Şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün sinif otaqları zəruri dərs vəsaitləri ilə təchiz edilib. Məktəbdə internet, mebel, inventar və digər zəruri avadanlıqlar müasir tələblər səviyyəsindədir. Təhsil müəssisəsinin həyatında abadlıq işləri aparılıb, yaşıllıqlar salınıb, müasir işıqlandırma sistemi quraşdırılıbdır.*

*Qeyd olundu ki, məktəbin şagird və məzunları müxtəlif beynəlxalq bilik və idman yarışlarında, olimpiadalarda mühüm uğurlara imza atıblar. Bu təhsil ocağının məzunları ali məktəbə qəbul imtahanlarında yüksək nəticələri ilə seçilirlər. Son illərin*

*statistikasına görə, məktəbi bitirən məzunların 60–70 faizi tələbə adını qazanıbdır.*

*Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi ilə bağlı qəbul edilən xüsusi Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlər planına uyğun olaraq, bütün sosial sahələrdə olduğu kimi, təhsil müəssisələrinin əsaslı şəkildə yenidən qurulması, yeni məktəb binalarının, uşaq bağçalarının inşası prosesi də məqsədyönlü şəkildə uğurla həyata keçirilir. Paytaxt və ətraf qəsəbələrlə yanaşı, respublikanın hər yerində orta məktəb binaları yüksək standartlara uyğun şəkildə yenidən qurulur, lazımi avadanlıqlarla təchiz edilir, təhsil müəssisələrinin ərazilərində abadlıq işləri həyata keçirilir. Təhsil sahəsində görülən bütün bu işlər Azərbaycanda insan kapitalının daha da inkişaf etdirilməsi məqsədinə xidmət edir.*

## NƏSİMİ RAYONUNDA 8 SAYLI TAM ORTA MƏKTƏBDƏ ƏSASLI TƏMİRDƏN SONRA YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*12 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Bakının Nəsimi rayonunda Sovet İttifaqı Qəhrəmanı, general-leytenant Kərim Kərimov adına 8 saylı tam orta məktəbdə yenidən qurulmadan və əsaslı təmirdən sonra yaradılmış şəraitlə tanış olmuşdur.*

*Məktəbin direktoru Aytən Baxşəliyeva təhsil ocağında görülən işlər barədə dövlət başçısına məlumat verdi.*

*Diqqətə çatdırıldı ki, bu məktəb binası 1900-cü ildə inşa edilib. Burada əvvəllər hərbi xəstəxana, sonralar isə Bakı Hərbi Məktəbi yerləşib. 1945-ci ildən binada 8 saylı tam orta məktəb fəaliyyət göstərir. Məktəbdə təmir işlərinə Prezident İlham Əliyevin təsdiq etdiyi layihəyə uyğun olaraq, bu ilin mayından başlanılıb, yenidən qurulma və təchizat işləri qısa vaxt ərzində və yüksək səviyyədə həyata keçirilibdir.*

*Dövlət başçısı məktəbdə yaradılan şəraitlə tanış oldu.*

*Azərbaycan Prezidentinin sərəncamı ilə 8 saylı məktəb 2010–2011-ci tədris ilində keçirilən «Ən yaxşı ümumtəhsil müəssisəsi» müsabiqəsinin qalibi olubdur.*

*Bildirildi ki, məktəbin üçmərtəbəli binası əsas və yardımçı korpuslardan ibarətdir. Burada 780 şagird təhsil alır, 2016–2017-ci tədris ilindən məktəbəhazırlıq qrupları fəaliyyət göstərir. Məktəbdə tədris Azərbaycan və rus bölmələri üzrə aparılır. Əsaslı təmir işləri zamanı bütün sinif otaqları, emalatxana, hərbi otaq, laboratoriyalar, yeməkxana, idman və akt zalları, eləcə də digər xidmət otaqları əsaslı şəkildə təmir edilib, əlavə*

*5 sinif otağı artırılıbdır. Təhsil müəssisəsində 70 nəfər pedaqoji işçi olmaqla, ümumilikdə 83 nəfər əməkdaş çalışır. Burada pedaqoji kollektivin fəaliyyət göstərməsi və şagirdlərin müasir tələblərə cavab verəcək səviyyədə təhsil almaları üçün hər cür şərait yaradılıb. Məktəb yüksək tələblərə cavab verən avadanlıq və müasir dərs ləvazimatları ilə təchiz edilibdir.*

*Zəngin təbii sərvətləri olan Azərbaycanda bu sərvətlərdən səmərəli istifadə etməklə, insan kapitalının daha da inkişaf etdirilməsi başlıca amilə çevrilib. Ölkəmizdə təhsilin inkişafına göstərilən diqqət və qayğı təsdiqləyir ki, bu mühüm amil dövlət siyasətinin əsas prinsiplərini təşkil edir. Son illərdə müasir məktəb binaları tikilir, təhsil müəssisələri üçün yeni korpuslar inşa olunur. Bu proses ölkəmizin bütün bölgələrini əhatə edir. Məktəblərin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində də mühüm işlər görülüb. Heydər Əliyev Fondu dövlət səviyyəsində həyata keçirilən bu fəaliyyət proqramına güclü dəstək verir. Yüksək şəraiti və müasir tədris-təlim avadanlıqları ilə diqqət çəkən bu təhsil ocaqlarından biri də 8 saylı tam orta məktəbdir.*

## SƏBAİL RAYONUNDA 2 NÖMRƏLİ TEXNİKİ-HUMANİTAR LİSEYDƏ ƏSASLI TƏMİRDƏN SONRA YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*12 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Bakının Səbail rayonunda Həbib bəy Mahmudbəyov adına 2 nömrəli texniki-humanitar liseydə əsaslı təmirdən sonra yaradılmış şəraitlə tanış olmuşdur.*

*Təhsil ocağının direktoru Bəkir Mustafayev burada aparılan işlər barədə dövlət başçısına məlumat verdi.*

*Qeyd olundu ki, liseyin yerləşdiyi binanın yaşı 100 ildən çoxdur. Təhsil ocağında əsaslı təmir işləri bu ilin mayında Prezident İlham Əliyevin tapşırığına əsasən aparılıb. Lisey binasında təmir işləri qısa müddətə və yüksək keyfiyyətlə görülüb. Ümumi sahəsi 2500 kvadratmetr olan üçmərtəbəli binada 31 sinif otağı və müxtəlif fənn kabinetləri vardır. Burada şagirdlər zəngin ədəbiyyat fondu olan kitabxanadan istifadə edəcəklər. Liseyin yeməkxanası tam yenilənib. Təhsil müəssisəsinin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində mühüm işlər görülüb. Lisey müasir avadanlıq və dərs ləvazimatları ilə təchiz edilib. Şagirdlərin nəzəri biliklərini laboratoriyalarda tətbiq etmələri üçün yeni avadanlıqlar quraşdırılıb. Məktəbin kimya, fizika, biologiya, informatika, ədəbiyyat, riyaziyyat, tarix kabinetləri müasir avadanlıqlarla təchiz edilib. Liseydə yeni ekoloji kabinet də yaradılıb. Yeniyetmələrin hərbi biliklərinin artırılması məqsədilə Daxili İşlər Nazirliyinin Daxili Qoşunları tərəfindən xüsusi olaraq liseydə çağırışaqədərki hərbi hazırlıq kabineti yaradılıb. Təhsil ocağında idman və akt zalları müasir səviyyədə təmir olunub. Bir sözlə, burada şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün hər-*

*tərəfli şərait yaradılıb. Hazırda liseydə 506 şagird Azərbaycan və rus bölmələrində təhsil alır.*

*Azərbaycanda ilk dünyəvi məktəb olan bu liseyin təməli 1887-ci ildə «Rus-müsəlman» məktəbi kimi, görkəmli maarifçi Həbib bəy Mahmudbəyov tərəfindən qoyulub. Bu təhsil ocağı nəinki Azərbaycanda, ümumiyyətlə, Cənubi Qafqazda böyük şöhrət qazanıb. İlk vaxtlarda bu məktəbdə o dövrün tanınmış ziyalıları olan Süleyman Sani Axundov, Abdulla Şaiq və digər görkəmli maarifçilər dərs deyiblər.*

*Prezident İlham Əliyevin ölkəmizdə təhsilə olan diqqət və qayğısının bariz nəticəsidir ki, son illər ərzində respublikamızın hər yerində olduğu kimi, paytaxtın mərkəzi rayonu olan Səbail rayonunda da təhsil müəssisələrinin əsaslı təmiri və təchizatı diqqət mərkəzində saxlanılır. Prezident İlham Əliyevin tapşırıq və sərəncamlarına əsasən, rayonda 1 yeni məktəb və uşaq bağçası inşa olunub, 2 orta məktəb və 1 musiqi məktəbinin binası sökülərək yenidən tikilib, 5 orta məktəb üçün əlavə tədris korpusları inşa edilibdir. Ümumilikdə digər orta və məktəbəqədər təhsil müəssisələrində də əsaslı təmir işləri aparılıbdır.*

*Lisey binasında yaradılan şəraitlə tanış olan dövlət başçısı kollektivə yeni tədris ilində uğurlar arzuladı.*

## ATƏT-in BAŞ KATİBİ TOMAS QREMİNGER İLƏ GÖRÜŞ

*12 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də ATƏT-in baş katibi Tomas Qremingeri qəbul etmişdir.*

*Tomas Qremingerin səfəri zamanı müzakirə ediləcək məsələlərin gündəliyinin geniş olduğunu deyən dövlət başçısı bildirdi ki, əsas məsələlərdən biri Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlıdır. Bu baxımdan, Prezident İlham Əliyev qeyd etdi ki, Ermənistanın yeni Baş nazirinin fəaliyyətə başladığı ilk günlərdən münaqişənin həlli ilə əlaqədar verdiyi ziddiyyətli bəyanatlar ən azı təəccüb doğurur. Xüsusilə «Azərbaycan qondarma «Dağlıq Qarabağ Respublikası» ilə danışıqlar aparmalıdır» tezisi qəbuledilməzdir. Bu onu göstərir ki, Ermənistan rəhbərliyi danışıqları pozmaq istəyir. Azərbaycanın işğal edilmiş rayonlarının guya qondarma «Dağlıq Qarabağ Respublikası»nın tərkib hissəsi olması kimi bəyanatları da Azərbaycan qətiyyətlə rədd edir və Azərbaycan ATƏT-i bu təhlükəli bəyanatlara reaksiya verməyə çağırır.*

*Ümumiyyətlə, Azərbaycan tərəfi belə qənaətə gəlib ki, Paşinyan hər vasitə ilə danışıqlar prosesini pozmağa çalışır. Belə olan təqdirdə bunun bütün məsuliyyəti Ermənistan tərəfinin və şəxsən Paşinyanın üzərinə düşəcəkdir.*

*Prezident İlham Əliyev Ermənistanda demokratiya adı altında insan haqlarının kütləvi şəkildə pozulması hallarına, Ermənistanın Baş naziri tərəfindən siyasi rəqiblərinin həbsi haqqında verdiyi göstərişlərə, Ermənistanda yeni diktatura*

*rejiminin yaranmasına ATƏT-in biganə qalmaması ilə bağlı müraciət edibdir.*

*Bundan başqa, ATƏT-in baş katibi Tomas Qremingerlə söhbət zamanı regional təhlükəsizlik, demokratik inkişaf, nəqliyyat, iqtisadi əməkdaşlıq və digər məsələlərlə bağlı fikir mübadiləsi aparıldı, əməkdaşlığın perspektivləri müzakirə olundu.*

## ÇEX RESPUBLİKASININ SƏNAYE VƏ TİCARƏT NAZİRİ MARTA NOVAKOVANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*12 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Çex Respublikasının Sənaye və Ticarət naziri xanım Marta Novakovanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Çex Respublikasının Prezidenti Miloş Zemanın Azərbaycana səfərini məmnunluqla xatırladan Prezident İlham Əliyev həmin səfərdən ötən dövr ərzində ikitərəfli münasibətlərimizin uğurla inkişaf etdiyini bildirdi.*

*Ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə inkişafının razılıq doğurduğunu qeyd edən dövlətimizin başçısı ticarət dövriyyəsinin artdığını vurğuladı, iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi üçün əlavə imkanların müəyyənləşdirilməsinin zəruriliyini bildirdi. İqtisadi tərəfdaşlığın geniş gündəliyə malik olduğunu, bir sıra Çex şirkətlərinin Azərbaycanda uğurla fəaliyyət göstərdiklərini vurğulayan Prezident İlham Əliyev ölkələrimiz arasında ticarət, investisiya sahələrində əməkdaşlığın genişləndirilməsinin önəmini qeyd etdi. Başçılıq etdiyi nümayəndə heyətinə çex iş adamlarının daxil olduğunu bildirən nazir Marta Novakova bu gün Bakıda keçiriləcək Azərbaycan–Çexiya biznes-forumunun əhəmiyyətini qeyd etdi və bu tədbirin iki ölkə arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi işinə töhfə verəcəyinə əminliyini ifadə etdi.*

*Söhbət zamanı sənaye, infrastruktur, avtomobil sənayesi, kənd təsərrüfatı, turizm sahələrində əməkdaşlıqla bağlı məsə-*

*lələr müzakirə edildi, Azərbaycanla Çexiya arasında hərtərəfli əməkdaşlığın genişlənməsi  məqsədəuyğun hesab edildi.*

## NATO PARLAMENT ASSAMBLEYASININ SƏDRİ PAOLO ALLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*12 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də NATO Parlament Assambleyasının sədri  Paolo Allinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı Azərbaycan ilə NATO arasında əməkdaşlığın uğurla inkişaf etdiyini bildirərək, NATO Parlament Assambleyasının İqtisadiyyat və Təhlükəsizlik Komitəsinin Bakıda keçirilən iclasının bu əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyətini vurğuladı. Prezident İlham Əliyev özünün ötən il NATO-nun mənzil-qərargahına səfərini məmnunluqla xatırladaraq, NATO-nun baş katibi ilə və eləcə də Şimali Atlantika Şurasında keçirilən görüşlərdə Azərbaycanın NATO–Azərbaycan əməkdaşlığı və regiondakı rolu barədə çox müsbət fikirlərin söylənildiyini qeyd etdi. Azərbaycan–NATO əməkdaşlığının bir çox illərdir həyata keçirildiyini və müxtəlif sahələri əhatə etdiyini qeyd edən Prezident İlham Əliyev ölkəmizin Qətiyyətli Dəstək missiyasında iştirakının və orada hərbçilərimizin sayının artırılmasının NATO tərəfindən yüksək qiymətləndirildiyini vurğuladı. Dövlət başçısı NATO Parlament Assambleyasının sədri Paolo Allinin rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin Azərbaycan–NATO və eləcə də Azərbaycanın Milli Məclisi ilə NATO Parlament Assambleyası arasında əlaqələrin inkişafına töhfə verəcəyinə əminliyini ifadə etdi.*

*NATO Parlament Assambleyasının sədri Paolo Alli Prezident İlham Əliyev ilə görüşündən məmnunluq hissi keçirdiyini qeyd edərək, Azərbaycan Prezidenti ilə regional təhlükəsizlik və əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılmasında maraqlı olduqlarını bildirdi.*

*Paolo Alli eyni zamanda, Azərbaycan–NATO əlaqələrinin inkişafında Azərbaycanın Milli Məclisi ilə NATO Parlament Assambleyasının rolunu vurğuladı.*

## XALQ ARTİSTİ ARİF MƏLİKOVA

Hörmətli Arif müəllim!

Sizi – Azərbaycan mədəniyyətinin görkəmli nümayəndəsini 85 illiyiniz münasibətilə səmimi-qəlbdən təbrik edir, Sizə cansağlığı və işlərinizdə müvəffəqiyyətlər arzulayıram.

Sizin genişdiapazonlu rəngarəng yaradıcılığınız müasir musiqi mədəniyyətimizin parlaq hadisələrindəndir. Qara Qarayev məktəbinin layiqli davamçısı kimi, xalq musiqisi ənənələri və dünya klassik irsini müasir musiqi formaları ilə uğurlu şəkildə birləşdirərək, meydana gətirdiyiniz çoxsaylı sənət nümunələri ilə musiqi salnaməmizin daha da zənginləşməsində və ölkə mədəniyyətinin inkişafında müstəsna xidmətləriniz vardır. Özünəməxsus əlvan musiqi çalarları, dərin koloriti və yüksək bədiiliyi ilə seçilən əsərləriniz professionallığın zirvələri olub, musiqisevərlərin daim rəğbətini qazanıbdır. Fəlsəfi düşüncələr və bəşəri duyğularla aşılanmış ecazkar musiqiniz mənəvi kamilliyə can atmaqda insanlara yaxından kömək edir. Zamanın yüksək sənət qarşısında irəli sürdüyü tələblərə cavab verən qiymətli əsərləriniz ölkəmizin hüdudlarından kənarda, dünyanın ən məşhur teatrlarında uğurlu səhnə təcəssümünü tapıbdır.

Siz eyni zamanda, gənclərin hamisi və mahir pedaqoq olaraq, Bakı Musiqi Akademiyasının professoru və bəstəkarlıq kafedrasının müdiri kimi, zəngin təcrübənizdən bəhrələnən istedadlı musiqiçilər nəslinin yetişdirilməsində uzun illərdən bəri böyük xidmətlər göstərirsiniz. İctimai-siyasi həyatımızda cərəyan edən mühüm hadisələrə və taleyüklü məsələlərə münasibətdə Siz həmişə əsl vətəndaşlıq mövqeyi nümayiş etdirmiş, vətənpərvər və aydın düşüncəli ziyalı kimi, xalqımızın hörmətini qazanmısınız.

Səmərəli, məhsuldar və mənalı həyat yolunuz sənətə sonsuz bağlılığın və xalqa xidmətin bariz nümunəsidir. Yaradıcılığınız dövlət tərəfindən daim lazımınca qiymətləndirilibdir. Siz müstəqil Azərbaycan Respublikasının ən ali təltiflərinə – «Heydər Əliyev mükafatı»na, «Heydər Əliyev» və «İstiqlal» ordenlərinə layiq görülmüsünüz.

Əminəm ki, Siz bundan sonra da bütün qüvvə və bacarığınızı Azərbaycan mədəniyyətinin inkişafı naminə sərf edəcəksiniz.

Dərin ehtiram və xoş arzularla,

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 sentyabr 2018-ci il*

**MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ENRİKE PENYA NİETOYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Meksika arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 sentyabr 2018-ci il*

## NARDARAN QƏSƏBƏSİNDƏ 295 SAYLI TAM ORTA MƏKTƏBDƏ ƏSASLI TƏMİRDƏN SONRA YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*13 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Bakının Sabunçu rayonunun Nardaran qəsəbəsində 295 saylı tam orta məktəbdə əsaslı təmirdən sonra yaradılmış şəraitlə tanış olmuşdur.*

*Məktəbin direktoru Dilarə Cəbrayılova dövlət başçısına burada yaradılan şərait barədə məlumat verdi.*

*Bildirildi ki, məktəbin binası 2003-cü ildə inşa olunub. Prezident İlham Əliyevin sərəncamına uyğun olaraq, məktəbin binasında əsaslı təmir işləri aparılıb. Üçmərtəbəli məktəb binasının ümumi sahəsi 5600 kvadratmetrdən çoxdur. Məktəbdə 38 sinif otağı, informatika kabinetləri, 2 idman zalı vardır. Əsaslı təmir işləri zamanı təhsil müəssisəsinin kitabxanası, emalatxanaları, yeməkxanası, tibb otağı, akt zalı da müasir səviyyədə yenidən qurulub. Məktəbdə şagirdlərin nəzəri biliklərini zənginləşdirmək üçün biologiya, kimya və fizika laboratoriyaları yaradılıb. Ümumilikdə 1296 şagird-yerlik məktəbin bütün sinif otaqları zəruri avadanlıqlarla təchiz edilib. Hazırda birnövbəli sistemlə məktəbdə 886 şagird təhsil alır. Şagirdlərin təlim-tərbiyəsi ilə 56 müəllim məşğul olur. Burada tədris Azərbaycan dilində aparılır.*

*Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən dövlət siyasətində təhsilin inkişafına xüsusi diqqət yetirilir. Son illərdə çoxlu sayda yeni məktəb binasının inşası, mövcud təhsil müəssisələrinin isə müasir səviyyədə yenidən qurulması geniş vüsət alıb. Bu layihələr paytaxtımızla yanaşı,*

*respublikanın ən ucqar kənd və qəsəbələrini də əhatə edir. Azərbaycanda təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi və yenilənməsi istiqamətində mühüm işlər görülür. Bütün bunlar bir daha sübut edir ki, insan kapitalının formalaşmasında müstəsna rola malik olan təhsil sahəsinin inkişafına ölkəmizdə ən yüksək səviyyədə diqqət göstərilir. Bütün bunlar isə gənc nəslin bilikli, savadlı və yüksək intellektual səviyyədə yetişməsində mühüm rol oynayır.*

## MAŞTAĞA QƏSƏBƏSİNDƏ 187 SAYLI TAM ORTA MƏKTƏBDƏ ƏSASLI TƏMİRDƏN SONRA YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*13 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Bakının Sabunçu rayonunun Maştağa qəsəbəsində Cəfər Cabbarlı adına 187 saylı tam orta məktəbin binasında əsaslı təmirdən sonra yaradılmış şəraitlə tanış olmuşdur.*

*Məktəbin direktoru Nailə Məmmədova görülən işlərlə bağlı dövlət başçısına məlumat verdi.*

*Diqqətə çatdırıldı ki, 187 saylı tam orta məktəb 1936-cı ildən fəaliyyət göstərir. 1959-cu ildən təhsil müəssisəsinə Cəfər Cabbarlının adı verilib. 1991-ci ildə təhsil ocağının 2-ci korpusu inşa edilib. Məktəbin binasında 2008-ci ildə cari təmir işləri aparılıb. 2018-ci ilin iyun ayında isə Prezident İlham Əliyevin sərəncamı ilə məktəbdə əsaslı təmirə başlanılıb. Qısa vaxt ərzində təmir işləri yüksək səviyyədə aparılıbdır.*

*Məktəbdə yaradılmış şəraitlə yaxından tanış olan dövlət başçısına bildirildi ki, burada 2362 şagird təhsil alır. Yeni dərs ilində 265 nəfər birinci sinfə gedəcək. Bütün sinif otaqları, fənn kabinetləri ən müasir tələblər səviyyəsində qurulub. Məktəb lazımi avadanlıq və müasir dərs ləvazimatları ilə təchiz edilib. Şagirdlərin nəzəri biliklərini laboratoriyalarda tətbiq etmələri üçün də yeni avadanlıqlar quraşdırılıb. Təhsil ocağının idman zalında yeniyetmələrin fiziki sağlamlığının qorunması üçün bütün şərait yaradılıb. Məktəbin akt zalında müxtəlif tədbirlərin keçirilməsi mümkündür. Şagirdlərin hərbi hazırlığının və vətənpərvərlik ruhunun yüksəldilməsi məqsədilə məktəbdə hərbi hazırlıq sinfi də yaradılıb. Burada məktəblilərin yüksək*

*texnologiyalar sahəsində biliklər əldə etmələri üçün kompüter otaqları vardır. Şagirdlərin ixtiyarında zəngin kitabxana, oxu zalı da olacaqdır. Təhsil ocağının həyatində abadlıq və quruculuq işləri həyata keçirilib, idman meydançası yaradılıbdır. Bu gün 82 yaşı olan bu məktəbdə keyfiyyətli təhsilə yiyələnmək üçün bütün şərait vardır. Təhsil ocağında tədris Azərbaycan və rus bölmələri üzrə aparılır. Burada 158 pedaqoq, 45 texniki heyət fəaliyyət göstərir. Bir çox uğurları olan təhsil müəssisəsi 2010-cu ildə «50 ən yaxşı ümumtəhsil məktəbi» müsabiqəsinin qalibi olub. Məktəbin məzunlarının ali məktəblərə qəbul səviyyəsi ildən-ilə artır. Bu il bu göstərici 50 faiz təşkil edibdir.*

*Son illərdə ölkəmizdə yeni məktəb binalarının inşası və əlavə korpusların tikintisi bir daha təsdiqləyir ki, dövlətin diqqəti sayəsində təhsil islahatları uğurla davam etdirilir. Bütün bu işlər həm də onu göstərir ki, şagirdlərin ən yüksək səviyyədə təhsil almaları, onların elmin sirlərinə daha dərindən yiyələnmələri üçün hərtərəfli imkanlar vardır. Dövlətin həyata keçirdiyi siyasətə hər zaman dəstək olan Heydər Əliyev Fondu da bu işlərə öz töhfəsini verir. Bu gün təhsil müəssisələrinin əsaslı şəkildə yenidən qurulması, yeni məktəb binalarının, uşaq bağçalarının inşası prosesi məqsədyönlü şəkildə uğurla həyata keçirilir. Paytaxtda və ətraf qəsəbələrdə, eləcə də respublikanın hər yerində orta məktəb binaları yüksək standartlara uyğun yenidən qurulur və lazımi avadanlıqlarla təchiz edilir, təhsil müəssisələrinin ərazilərində abadlıq işləri həyata keçirilir. Məktəblərin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində də mühüm işlər görülür.*

## ZABRAT QƏSƏBƏSİNDƏ 192 SAYLI TAM ORTA MƏKTƏBDƏ ƏSASLI TƏMİRDƏN SONRA YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*13 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Bakının Sabunçu rayonunun Zabrat qəsəbəsində 192 saylı tam orta məktəb binasında əsaslı təmirdən sonra yaradılmış şəraitlə tanış olmuşdur.*

*Məktəbin direktoru Hüseynqulu Əliəsgərov Prezident İlham Əliyevə təmir və yenidənqurma işləri ilə bağlı ətraflı məlumat verdi.*

*Bildirildi ki, 192 saylı tam orta məktəbin binası 1936-cı ildə inşa olunub və bu günədək burada heç bir əsaslı təmir işləri aparılmayıbdır. Məktəbin binası 1941–45-ci illərdə təxliyə hospitalı kimi fəaliyyət göstərib. Bakı və ətraf qəsəbələrin sosial-iqtisadi inkişafı Dövlət Proqramına əsasən, bu ilin may ayından əsaslı təmir və bərpa işlərinə başlanılıb. Yenidən qurulma işləri yüksək səviyyədə həyata keçirilib. Hazırda məktəbdə 2136 şagird təhsil alır. Şagirdlərin təlim-tərbiyəsi ilə 105 müəllim məşğul olur. Məktəbdə 22 sinif, 5 laboratoriya, akt zalı, hərbi otaq, kitabxana və yeməkxana vardır.*

*Qeyd olundu ki, məktəbin şagird və məzunları müxtəlif beynəlxalq bilik və idman yarışlarında, olimpiadalarda mühüm uğurlara imza atıblar. Bu təhsil ocağının məzunları ali məktəbə qəbul imtahanlarında yüksək nəticələri ilə seçilirlər. 2018-ci ilin statistikasına görə, məktəbi bitirən məzunların 90 faizi tələbə adını qazanıb. Onlardan biri 700 bal, 9 nəfər isə 600 baldan yuxarı nəticə göstəribdir.*

*Zəngin təbii sərvətlərindən səmərəli istifadə edən Azərbaycan insan kapitalının daha da inkişaf etdirilməsinə böyük əhəmiyyət verir. Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğının nəticəsi olaraq, son illərdə müasir məktəb binaları, yeni korpuslar tikilir. Bu proses Azərbaycanın bütün bölgələrini əhatə edir. Məktəblərin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində də ardıcıl işlər həyata keçirilir. Heydər Əliyev Fondu da dövlət səviyyəsində həyata keçirilən bu fəaliyyət proqramına güclü dəstək verir. Yüksək şəraiti ilə seçilən, müasir təlim avadanlıqları ilə diqqət çəkən bu təhsil ocaqlarından biri də 192 saylı tam orta məktəbdir. Burada təlim-tədrisin yüksək səviyyədə aparılması üçün hər cür şərait yaradılıb. Bütün sinif otaqları, fənn kabinetləri ən müasir tələblər səviyyəsində qurulub. Məktəb müasir tədris avadanlıqları və dərs ləvazimatları ilə təchiz edilib. Bu təhsil ocağının həyətində geniş abadlıq və quruculuq işləri görülüb, futbol və voleybol meydançaları yaradılıbdır.*

## İSRAİL DÖVLƏTİNİN MÜDAFİƏ NAZİRİ AVİQDOR LİBERMANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də İsrail Dövlətinin Müdafiə naziri Aviqdor Libermanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə İsrail arasında iqtisadi, hərbi, mədəniyyət, turizm sahələrində əlaqələrin inkişafından məmnunluq bildirildi, Aviqdor Libermanın ölkəmizə səfərinin əməkdaşlıq işinə öz töhfəsini verəcəyinə ümidvarlıq ifadə olundu.*

*Söhbət zamanı Azərbaycanda digər icmalarla yanaşı, yəhudi icmasının nümayəndələrinin də dinclik və əmin-amanlıq şəraitində yaşamaları üçün hər cür şəraitin yaradıldığı qeyd olundu, onların ölkəmizin ictimai həyatında fəal rol oynadıqları bildirildi.*

## «AZƏRBAYCAN» QƏZETİNİN KOLLEKTİVİNƏ

Sizi «Azərbaycan» qəzetinin 100 illik yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edir və fəaliyyətinizdə uğurlar arzulayıram.

Müstəqil dövlətçilik tariximizdə öz yeri olan, milli mətbuatımızın inkişafına əvəzsiz töhfələr verən «Azərbaycan» qəzeti 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi orqanı kimi fəaliyyətə başlamışdır. Cəmi 2 il işıq üzü görmüş və birinci respublikanın süqutu ilə fəaliyyətini dayandırmış qəzet nəşr olunduğu qısa dövr ərzində görkəmli ziyalıların, tanınmış ictimaiyyət nümayəndələrinin tribunasına çevrilərək, xalqımızın maariflənməsində, müstəqillik ideallarının gerçəkləşməsində, mədəniyyətinin yüksəlişində, mənəvi dəyərlərinin qorunmasında önəmli rol oynamışdır.

XX əsrin sonlarında ölkəmiz yenidən müstəqilliyə qovuşduqdan sonra nəşri bərpa olunmuş «Azərbaycan» qəzeti öz ənənələrini davam etdirərək, milli dövlət quruculuğu prosesində fəal iştirakı ilə seçilmişdir. Demokratik inkişafın tərkib hissəsi kimi söz və məlumat azadlığının təmin edilməsi, kütləvi informasiya vasitələrinin sərbəst fəaliyyəti üçün əlverişli şəraitin yaradılması milli mətbuatımızın, o cümlədən «Azərbaycan» qəzetinin öz missiyasını daha səmərəli şəkildə yerinə yetirməsinə yeni imkanlar açmışdır. Qəzet peşəkarlıq, obyektivlik və vətənpərvərlik prinsiplərinə dönmədən əməl edib, ölkəmizin sosial-iqtisadi tərəqqisi, vətəndaş cəmiyyətinin formalaşması, milli həmrəyliyin möhkəmlənməsi və digər sahələrdə həyata keçirilən dövlət siyasəti barədə həqiqətlərin Azərbaycan ictimaiyyətinə çatdırılması istiqamətində məqsədyönlü fəaliyyət göstəribdir.

Respublikamızın dinamik inkişaf etdiyi, cəmiyyət həyatının bütün sahələrinin yeniləşdiyi müasir dövrdə, habelə çoxsaylı informasiya resurslarının fəaliyyəti ilə şərtlənən rəqabət mühitində mətbuatımız ümummilli məsələlərin həlli, cəmiyyətimizin rifahı naminə üzərinə düşən vəzifələri daha böyük əzmlə yerinə yetirməyi bacarmalıdır. Əminəm ki, «Azərbaycan» qəzetinin kollektivi qarşıdakı dövrdə bu çətin və şərəfli işin öhdəsindən uğurla gələcəkdir.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 sentyabr 2018-ci il*

**ÇİLİ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB
SEBASTİAN PİNYERAYA**

Hörmətli cənab Prezident!

Çili Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza daim sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 sentyabr 2018-ci il*

## MAŞTAĞA QƏSƏBƏSİ SAVALAN YAŞAYIŞ MASSİVİNDƏ 28 SAYLI TAM ORTA MƏKTƏBİN AÇILIŞI MƏRASİMİ

*14 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Bakının Sabunçu rayonu Maştağa qəsəbəsi Savalan yaşayış massivində 28 saylı tam orta məktəbin açılışı mərasimində iştirak etmişdir.*

*Dövlət başçısı məktəbin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məktəbin direktoru Qənirə Əmircanova Prezident İlham Əliyevə yeni məktəb binasında yaradılmış şərait barədə məlumat verdi. Bildirildi ki, bu təhsil ocağının təməli 2017-ci ilin sentyabrında qoyulub. Məktəbin həyatində genişmiqyaslı abadlıq və quruculuq işləri aparılıb, açıq havada idman meydançası yaradılıbdır. Qeyd olundu ki, Savalan yaşayış massivinin əhalisinin sayı 25 min nəfərdən çoxdur. Əvvəllər yaşayış massivində məktəb olmadığından şagirdlər təhsillərini rayonun Maştağa, Zabrat və digər qəsəbələrindəki təhsil ocaqlarında alırdılar. Üçmərtəbəli yeni məktəb binasının inşaat işləri yüksək keyfiyyətlə yerinə yetirilibdir.*

*Sonra dövlət başçısı məktəbin bir qrup müəllim və şagirdi ilə görüşdü və çıxış etdi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Sabahınız xeyir olsun, mən sizi salamlayır və qarşıdan gələn yeni dərs ili münasibətilə ürəkdən təbrik edirəm. Yeni dərs ili ərəfəsində biz Maştağa qəsəbəsinin Savalan yaşayış massivində

yeni məktəbin açılışına toplaşmışıq. Bu gözəl hadisə münasibətilə sizi bir daha təbrik edirəm.

Bu məktəb sakinlərin xahişi ilə tikilib. Mənə verilən məlumata görə, bu yaşayış massivində məktəb yox idi. Ona görə həm uşaqlar, həm valideynlər əziyyət çəkirdilər. Göstəriş verildi və qısa müddət ərzində belə gözəl məktəb tikildi. 960 şagird-yerlik məktəbdə indi oxumaq, işləmək üçün bütün şərait yaradılıb. Ərazisi də böyükdür. Böyük idman meydançası vardır. Yəni burada işlər ən yüksək səviyyədə aparılıb. Hesab edirəm, bu gözəl təşəbbüs bir daha onu göstərir ki, Azərbaycanda təhsilə çox böyük diqqət yetirilir.

Əlbəttə, harada ki, məktəb inşasına ehtiyac var, biz orada mütləq məktəb tikintisi ilə məşğul oluruq, o cümlədən burada. Demək istəyirəm ki, bu il bütövlükdə Bakı şəhərində 19 məktəb tikilib və əsaslı təmir olunub. Demək olar ki, Bakı şəhərinin məktəblərinin əksəriyyəti artıq yaxşı vəziyyətdədir. Hələ də təmirə ehtiyacı olan məktəblər var və biz onları gələn illərdə təmir edəcəyik. Bu il isə ölkəmizdə 200-dən çox məktəb tikilib və təmir olunubdur. Ucqar və kiçik kəndlərdə 137 modul tipli məktəb tikilib. O kəndlərdə, ümumiyyətlə, məktəblər qəzalı vəziyyətdə idi. Qəzalı məktəblərin sökülməsi və onların yerində yeni məktəblərin tikintisi proqramı da ümid edirəm ki, gələn il başa çatacaq. Beləliklə, Azərbaycanda məktəb fondu ən müasir standartlara cavab verəcəkdir. İstəyirəm ictimaiyyət onu da bilsin ki, son 15 il ərzində Azərbaycanda 3000-dən çox məktəb tikilib və əsaslı təmir edilibdir. Bu, təhsil sahəsinə çox böyük töhfədir.

Məktəbdə uşaqlar yaxşı oxumalıdırlar. Bir halda ki, belə gözəl şərait var, burada təhsilin keyfiyyəti də yüksək olmalıdır. Məktəb müəllimlərin iş yeridir və müəllimlərin şəraiti də yaxşılaşır. Müəllim olmaq istəyənlərin sayı artır, müəllim peşəsinin hörməti artır və bu çox sevindirici haldır. Çünki müəllim uşaqların, gənclərin tərbiyə olunmasında valideynlərlə bərabər, aparıcı rol oynayır.

Bir məsələni də diqqətinizə çatdırmaq istəyirəm. Mənə verilən məlumata görə, bu il 500-dən artıq bal toplayan 2000-dən çox abituriyent müəllim peşəsini seçib. Bu, müəllim peşəsinə olan marağın ən bariz nümunəsidir. Müqayisə üçün deməliyəm ki, 2016-cı ildə 500-dən çox bal toplayan abituriyentlərin cəmi 1 nəfəri müəllim peşəsini seçmişdi, indi isə 2000 abituriyent müəllim peşəsini seçib. Bu ilk növbədə, məktəb fondunun müasirləşdirilməsini, məktəblərin əksəriyyətində gözəl şəraitin olmasını, müəllimlərin məişət problemlərinin həllini göstərir. Son illər ərzində müəllimlərin maaşları əhəmiyyətli dərəcədə artıb və cəmiyyətdə müəllimə olan ənənəvi hörmət bərpa edilir. Bu çox sevindirici haldır. Ona görə müəllimlərin problemlərinin həlli üçün gələcəkdə də işlər aparılacaq. Təhsil sahəsində aparılan köklü islahatlar səmərə verir, təhsilin keyfiyyəti artır. Biz bunu müxtəlif göstəricilərdə görürük və ümid edirəm ki, bu uğurlu proses bundan sonra da davam etdiriləcəkdir.

Uşaqlar isə yaxşı oxumalıdırlar, gələcəkdə cəmiyyətdə layiqli yer tutmaq üçün ilk növbədə, gərək bilikli, savadlı olsunlar. Azərbaycanda ümumi savadlılıq səviyyəsi 100 faizə yaxındır. Bu çox gözəl göstəricidir. Bu gün dünyada savad, bilik, texnologiyalar hər şeyi həll edir. Baxın inkişaf etmiş ölkələrin vəziyyətinə. Onların arasında ancaq yüksək texnologiyalara malik olan ölkələr vardır. Təbii ehtiyatlar, neft-qaz resursları – bunlar sadəcə olaraq, bir vasitədir. Ölkələri inkişafa doğru aparan əsas amillər savad, bilik, texnologiyalar, innovasiyalar, yeniliklərdir. Ona görə Azərbaycanda gənclər çox bilikli, savadlı olmalıdırlar. Azərbaycanda müasir texnologiyalara çox böyük dəstək verilir, bu, dövlət siyasətidir. İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı olmadan müasir cəmiyyətlər uğurlu fəaliyyət göstərə bilməz. Ona görə ilk növbədə, uşaqlar maraqlı olmalıdırlar ki, yaxşı oxusunlar və gələcəkdə həm özləri üçün gözəl həyat qursunlar, həm də ölkəmizin inkişafına töhfə versinlər. Əlbəttə, gənclərin tərbiyəsi ilə bağlı həm müəllimlər, həm valideynlər ciddi məşğuldurlar və

mən bunu alqışlayıram. Azərbaycan gəncləri vətənpərvər gənclərdir və bundan sonra da bizim gənclərimiz vətənpərvərlik ruhunda, milli ruhda tərbiyə almalıdırlar.

Bilirsiniz ki, bu gün ölkəmizin dünyadakı rolu, əhəmiyyəti artır. Bölgədə Azərbaycanın iştirakı olmadan heç bir layihə icra edilə bilməz. Yaşadığımız regionda bizim siyasətimizdən, qərarımızdan çox şey asılıdır. Əlbəttə, bu amili nəzərə alaraq, Azərbaycana təsir etmək istəyən xarici qüvvələrin də sayı az deyil. Azərbaycan vətəndaşları bunu bilirlər. Ancaq bizim çox güclü siyasi iradəmiz qoymur ki, Azərbaycanı hansısa avantüralara, yaxud da bizim milli maraqlarımıza uyğun olmayan təşəbbüslərə çəksinlər. Ona görə ki, bizim çox güclü siyasi iradəmiz, güclü iqtisadi potensialımız vardır. Biz müstəqil siyasət aparırıq, heç kimdən asılı deyilik. Hesab edirəm, Prezident kimi fəaliyyətim dövründə bu, əsas nəticələrdən biridir ki, bu gün Azərbaycan tam müstəqil siyasət aparır. O siyasət ki, milli maraqlar və ənənəvi dəyərlər üzərində qurulub. Biz elə etməliyik ki, gələcək nəsil də öz gələcəyini bu istiqamətdə görsün. Gələcək nəsil də ilk növbədə, vətənpərvər, doğma Vətəninə bağlı olmalı, milli ruhda tərbiyə almalı, bizim qədim ənənələrə sadiq və bilikli, savadlı olmalıdır. Belə olan halda, ölkəmizin gələcəyi də parlaq olacaq, Azərbaycan da daim müstəqil siyasət aparacaqdır. Çünki bizim siyasətimiz həyatda öz əksini tapıb. İndi baxın, dünyanın müxtəlif yerlərində qanlı toqquşmalar, müharibələr, iqtisadi-sosial böhranlar, inqilablar geniş vüsət alıb. Təhlükə mənbələri getdikcə artır. Getdikcə daha çox narahatedici məqamlar üzə çıxır. Ancaq Azərbaycan sabitlik məkanıdır. Azərbaycanda insanlar sülh, təhlükəsizlik, əmin-amanlıq şəraitində yaşayırlar. Azərbaycanda sosial və iqtisadi məsələlər öz həllini tapır. Ölkəmizə nə qədər böyük investisiyalar qoyulur. Əgər biz təkcə təhsil sahəsini götürsək, 3000 məktəbin tikintisi böyük maliyyə vəsaiti tələb edir. Yollar, su və elektrik xətləri, qazlaşdırılma, hərbi gücümüzün möhkəmləndirilməsi, energetika və nəqliyyat layihələri – bütün bunları biz öz hesabımıza etmişik. Bu gün dünya miqyasında, xüsusilə də yaşadığımız regionda Azərbaycan seçilən

ölkələrdəndir. Sülh, əmin-amanlıq, inkişaf, sosial rifah Azərbaycanda təmin edilir və bundan sonra da təmin ediləcəkdir. Çünki bizim gələcəyimizlə bağlı heç bir narahatlıq, heç bir şübhə yoxdur və biz bundan sonra da ancaq inkişaf yolu ilə gedəcəyik.

Bunu təmin etmək üçün biz ilk növbədə, daha güclü olmalıyıq. Bir daha demək istəyirəm ki, bizim siyasətimizə heç bir qüvvə təsir edə bilməz. Bunu son 15 il ərzindəki vəziyyət dəfələrlə təsdiqləyib. Azərbaycanı gələcəkdə siz gənclər idarə edəcəksiniz. Ölkəmizin, xalqımızın taleyi sizdən asılı olacaqdır. Ona görə siz həmişə bilməlisiniz ki, ilk növbədə, milli maraqlar, Vətənin xoşbəxtliyi və müstəqil siyasətin aparılmasıdır. Əlbəttə ki, valideynlər, müəllimlər, bütövlükdə cəmiyyət bu işdə öz rolunu oynayır və oynayacaqdır. Belə gözəl məktəbdə oxumaq və tərbiyə almaq üçün bütün şərait vardır.

Sizi bu gözəl hadisə münasibətilə bir daha təbrik edirəm, sizə uğurlar arzulayıram. Sağ olun.

* * *

**H a c ı b a l a B a b a y e v** *(valideyn)*: Cənab Prezident, Maştağa sakinləri adından Sizi ürəkdən salamlayır və Sizə «Xoş gəlmisiniz!» – deyirik.

Bu gün bizim çoxdan arzuladığımız bir gündür. Bu yeni təhsil ocağı övladlarımızın xoş gələcəyini göstərir.

Cənab Prezident, biz bu münasibətlə Sizə Maştağa qəsəbəsinin və yeni yaşayış massivinin sakinləri adından ürəkdən «Çox sağ olun!» – deyirik. Sizi əmin edirik ki, bu məktəbdə təhsil alacaq gənclərimiz gələcəkdə dövlətinə, millətinə, Prezidentinə layiqli övladlar olacaqlar.

Uzun illərdir ki, bizim övladlarımız çətinliklə, uzaq məsafə qət edərək, təkcə Maştağa qəsəbəsindəki orta məktəblərdə deyil, rayonumuzun digər qəsəbələrindəki məktəblərdə də təhsil alırdılar. Bu da övladlarımız üçün çətinlik yaradır, biz valideynləri narahat edirdi. Çox sağ olun ki, təhsilə və biz sa-

kinlərə göstərdiyiniz qayğının nəticəsində bu narahatlığımıza son qoyuldu.

Cənab Prezident, biz daim Sizin daxili və xarici siyasətinizi dəstəkləyirik və həmişə Sizinləyik. Biz sakinlər adından Sizə, Sizin ailənizə, övladlarınıza cansağlığı, uzun ömür, işlərinizdə yeni-yeni uğurlar, müvəffəqiyyətlər arzulayırıq. Allah Sizi qorusun.

**İ l h a m Ə l i y e v:** Sağ olun.

**A r i z ə M a h m u d o v a** *(müəllimə)*: Cənab Prezident, Sizi salamlayırıq, «Xoş gəlmisiniz!» – deyirik. Tikilən bu möhtəşəm bina bizim narahatlığımıza son qoydu. Buna görə də Sizə dərindən minnətdarıq, Allah Sizi var eləsin!

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Burada neçə müəllim işləyir?

**Q ə n i r ə Ə m i r c a n o v a** *(direktor)*: 70 müəllim fəaliyyət göstərəcək. 960 nəfərlik şagird heyəti nəzərdə tutulub. İnşallah, çox yaxın müddət ərzində məktəb fəaliyyətə başlayacaq.

**İ l h a m Ə l i y e v:** Bəli, mütləq. Müəllimlər başqa məktəblərdən gəliblər?

**Q ə n i r ə Ə m i r c a n o v a:** Bəli, nümunəvi məktəblərdən seçiləcəklər. Çünki belə məktəbdə elə müəllimlər işləməlidirlər ki, həqiqətən, layiqli olsunlar.

**İ l h a m Ə l i y e v:** Təhsilin səviyyəsi yüksək olmalıdır. Uşaqlar gedib Maştağa qəsəbəsində oxuyurdular.

**Q ə n i r ə Ə m i r c a n o v a:** Bəli, kənar yerdə oxuyurdular.

**İ l h a m Ə l i y e v:** Məsafə də uzaqdır. Hər gün get-gəl çətinlik yaradırdı. Savalan yaşayış massivində son illər əhali artıb.

**Q ə n i r ə Ə m i r c a n o v a:** Bəli, 25 mindən artıqdır, 30 minə yaxınlaşıb.

**İ l h a m Ə l i y e v:** Yəqin ki, gələcəkdə bir məktəbin də tikintisinə ehtiyac olacaqdır.

**Q ə n i r ə Ə m i r c a n o v a:** Bizim orada sahəmiz də var. Planlaşdırılır, hərtərəfli perspektiv düşünülüb, ehtiyac olarsa

tikiləcək. Bütün sakinlər adından Sizə sonsuz dərəcədə minnətdarıq.

**İ l h a m  Ə l i y e v:** Yaxşı ki, siz bu məsələni qaldırdınız. Mənə məlumat çatan kimi, dərhal göstəriş verdim ki, tezliklə məktəb tikilsin. Bu bir daha onu göstərir ki, bu məsələlər gərək ictimaiyyət tərəfindən qaldırılsın. Mən dəfələrlə çıxışlarımda demişəm ki, Azərbaycanda ictimai nəzarət daha güclü olmalıdır. Çünki ölkəmizdə hələ də bizi narahat edən məsələlər kifayət qədər var və onları həll etmək üçün gərək bizdə məlumat olsun. İctimai nəzarət, ictimaiyyətin fəallığı olmadan bəzi hallarda bu məlumat da bizə çatmır. Ona görə bir daha bu fürsətdən istifadə edərək, Azərbaycan vətəndaşlarına müraciət etmək istəyirəm. Öz xahişlərini, onları narahat edən məsələləri çatdırsınlar ki, biz də onları həll edək.

**Q ə n i r ə  Ə m i r c a n o v a:** Biz də çox sevinirik ki, Siz dərhal reaksiya verirsiniz, arxa plana keçirmirsiniz. Elə bil ki, bu Sizin stolunuzun üstündə gündəlik bir məsələdir. Bu, sakinləri, bütün xalqı çox sevindirir.

**İ l h a m  Ə l i y e v:** Belə də olmalıdır. Mənim işim elə bundan, mövcud olan problemləri həll etməkdən ibarətdir. İnsanları narahat edən məsələlər aradan götürülməlidir ki, onlar daha da yaxşı, rahat yaşasınlar və daha da çox iş görə bilək. Hesab edirəm ki, bu məktəbin tikintisi belə gözəl təşəbbüsün təzahürüdür. Vətəndaşlar müraciət etdilər, biz isə tezliklə göstəriş verib bunu təşkil etdik və bu gün burada yeni dərs ili ərəfəsində bərabər sevinirik.

**Q ə n i r ə  Ə m i r c a n o v a:** Siz bizim sevincimizə qatıldığınız, bizimlə bərabər sevindiyiniz üçün biz ikiqat sevinirik.

**İ l h a m  Ə l i y e v:** Bu il Bakı şəhərində 19 məktəb istifadəyə verilib. Bəziləri tikilib, bəziləri əsaslı təmir edilibdir. Yeni dərs ili ərəfəsində mən məktəblərin vəziyyəti ilə tanış oluram. Əvvəlki illərdə, adətən, bir məktəb seçilirdi ki, biz bu məktəbdə öz sözümüzü deyək. Bu il mən xüsusilə bu məktəbi seçdim.

Çünki bu məktəbin çox özəl yeri var, bax, dediyim bu məsələlərə görə. Bir daha sizi təbrik edirəm.

* * *

*Sonra Prezident İlham Əliyev məktəbdə yaradılmış şəraitlə tanış oldu.*

*Diqqətə çatdırıldı ki, təhsil müəssisəsi 960 şagird-yerlikdir. Burada sinif otaqları bütün zəruri dərs ləvazimatları ilə təchiz edilib. Məktəbdə 1-ci sinif şagirdləri üçün hələlik 5 sinifin açılması nəzərdə tutulur. Onların hər birində 24 şagirdin təhsil alması planlaşdırılıb. Ehtiyac yarandığı halda, əlavə siniflərin açılması üçün də imkanlar vardır. 1-ci sinif şagirdləri dərslik və məktəbli çantaları ilə təmin olunublar. Ümumilikdə məktəbdə kimya, fizika, biologiya, hərbi, informatika, texnologiya fənn kabinetləri və laboratoriyalar, müəllimlər, tibb, arxiv otaqları vardır. Məktəbin fizika, kimya və biologiya laboratoriyalarında şagirdlərin nəzəri biliklərini artırmaları üçün hərtərəfli imkan yaradılıb. Gənclərin çağırışaqədərki hazırlıq kabineti də zəruri avadanlıqlarla təchiz olunubdur.*

*Təhsil müəssisəsindəki əmək təlimi otaqlarında şagirdlər bacarıqlarını nümayiş etdirə və peşə vərdişlərini üzə çıxara biləcəklər. Məktəbin zəngin kitabxanası da müasir səviyyədə qurulub. Şagirdlərin ixtiyarına veriləcək oxu zalında mütaliə etmək üçün hər cür şərait vardır. 200 nəfərlik akt zalında isə müxtəlif kütləvi tədbirlərin keçirilməsi üçün bütün imkanlar yaradılıb. Şagirdlər ümumi sahəsi 540 kvadratmetr olan və bütün zəruri avadanlıqlarla təchiz edilmiş zalda idmanla məşğul ola biləcəklər.*

*Burada yaradılmış şərait bir daha sübut edir ki, son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə təhsilin inkişafı istiqamətində aparılan islahatlar bu sahənin keyfiyyətcə yeni mərhələyə qədəm qoyması ilə nəticələnib. Bütün bu işlər həm də onu göstərir ki, Azərbaycanda təhsilin və elmin inkişafına ən*

*yüksək səviyyədə dövlət qayğısı vardır. Bu hər şeydən əvvəl Azərbaycanda insan kapitalının daha da inkişaf etdirilməsi, gənc nəslin müasir, intellektual və savadlı yetişməsi üçün dövlətin həyata keçirdiyi siyasətin əsas prioritetlərindən biridir. Odur ki, son illər təhsil sahəsinə qoyulan investisiyalar, o cümlədən yeni-yeni məktəb binalarının inşası, mövcud təhsil müəssisələrində yeni korpusların tikilməsi və əsaslı təmirin aparılması mühüm əhəmiyyət kəsb edir.*

## TOTAL S.A. ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU PATRİK PUYANE İLƏ GÖRÜŞ

*14 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Total S.A. şirkətinin baş icraçı direktoru Patrik Puyaneni qəbul etmişdir.*

*Görüş zamanı Total S.A. şirkəti ilə SOCAR arasında neft-qaz sahəsində əməkdaşlığın perspektivləri, «Abşeron» yatağının birgə işlənilməsi çərçivəsində hazırkı işlərin gedişi, neft-qaz strukturunda digər yataqların birgə işlənilməsi imkanları ilə bağlı məsələlər müzakirə edildi.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞANIN RƏSMİ QARŞILANMA MƏRASİMİ

*15 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasına rəsmi səfərə gələn Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın sentyabrın 15-də rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Türkiyə Prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Türkiyə Prezidentinə raport verdi.*

*Türkiyə Respublikası və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.*

*Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Türkiyə Prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycan Respublikasının dövlət və hökumət nümayəndələri Prezident Rəcəb Tayyib Ərdoğana, Türkiyə Respublikasının nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın qarşısından keçdi.*

*Dövlət başçıları rəsmi foto çəkdirdilər.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*15 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə sentyabrın 15-də rəsmi qarşılanma mərasimindən sonra təkbətək görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirildi, ölkələrimizin birgə həyata keçirdiyi qlobal layihələrin əhəmiyyəti qeyd olundu. Türkiyə Prezidentinin səfərinin əməkdaşlığın genişləndirilməsinə töhfə verdiyi qeyd edildi. Bakının işğaldan azad olunmasının 100 illiyi münasibətilə paytaxtda keçirilən paradın əlaqələrimizin tarixində mühüm hadisə olduğu vurğulandı.*

*Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.*

## BAKI ŞƏHƏRİNİN AZAD EDİLMƏSİNİN 100 İLLİYİNƏ HƏSR OLUNMUŞ PARADDA İŞTİRAK

*Azadlıq meydanı*

*15 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva sentyabrın 15-də paytaxtın Azadlıq meydanında keçirilən Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş möhtəşəm paradda iştirak etmişlər.*

*Bu gün Azərbaycan Respublikasının paytaxtı Bakı öz tarixinin ən əlamətdar günlərindən birini yaşayır. Düz 100 il əvvəl – 1918-ci il sentyabrın 15-də Bakı tarixində ilk dəfə Azərbaycanın paytaxtı statusunu alaraq, Qafqaz İslam Ordusu və Azərbaycanın Milli Ordu birləşmələrinin zəfərini bayram edirdi. Həmin gün indi yenidən təkrarlanır. Qardaşlığın, sədaqətin rəmzinə çevrilmiş bu zəfər bayramı ümummilli liderimiz Heydər Əliyevin «bir millət – iki dövlət» kəlamının fəlsəfəsini yetərincə əks etdirir və Azərbaycan–Türkiyə birliyinin, qardaşlığının sarsılmaz və əbədi olduğunu göstərir.*

*Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan və Türkiyə prezidentlərinə raport verdi.*

*Dövlət başçıları əsgərləri salamladılar.*

*Hərbi orkestr Türkiyənin və Azərbaycanın Dövlət himnlərini ifa etdi.*

*Sonra sözləri görkəmli Azərbaycan şairi Əhməd Cavada, musiqisi dahi bəstəkar Üzeyir Hacıbəyliyə məxsus «Çırpınırdı*

*Qara dəniz» mahnısı səsləndirildi. Daha sonra ölməz sənətkar Müslüm Maqomayevin ifasında məşhur «Azərbaycan» mahnısının sədaları Azadlıq meydanına yayıldı.*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan paradda çıxış etdilər.*

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

Hörmətli Türkiyə Cümhuriyyətinin Prezidenti, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan!

Hörmətli qonaqlar!

Əziz hərbçilər, xanımlar və cənablar!

İlk növbədə, mənim dəvətimi qəbul edib Azərbaycana gəlmiş əziz qardaşım Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana öz dərin təşəkkürümü bildirmək istəyirəm. Bu bayram günündə biz birlikdəyik. 100 il bundan əvvəl biz bir yerdə idik, bu gün də biz bir yerdəyik. 100 il bundan əvvəl Nuru Paşanın komandanlığı altında yeni yaradılmış Azərbaycan Milli Ordusu könüllülərlə birlikdə Bakını işğalçılardan azad etdi. Bu tarixi hadisə münasibətilə bütün Azərbaycan və Türkiyə vətəndaşlarını ürəkdən təbrik etmək istəyirəm. Azərbaycanın rəmzlərindən biri olan Azadlıq meydanından bütün türk bacı-qardaşlarımıza səmimi salamlarımı, sevgimi, məhəbbətimi çatdırıram.

Biz bu ilin may ayında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini qeyd etdik. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisə idi. İlk dəfə olaraq, müsəlman aləmində demokratik respublika yaradılmışdı. Biz fəxr edirik ki, bu respublikanı yaradan Azərbaycan xalqı olmuşdur. Ancaq gənc müstəqil Azərbaycan böyük çətinliklərlə üzləşmişdi. Azərbaycan hökuməti öz ərazisinə tam nəzarət edə bilmirdi. Bakı şəhəri və bir neçə başqa şəhər işğal altında idi. Azərbaycan hökuməti Gəncə şəhərində yerləşmişdi və orada fəaliyyət

göstərirdi. Qafqaz İslam Ordusunun Nuru Paşanın rəhbərliyi altında Azərbaycana gəlməsi, bir neçə şəhərin azad edilməsi və sentyabrın 15-də şiddətli döyüşlər nəticəsində Bakının azad edilməsi tarixi hadisə idi. Qədirbilən Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq, şəhidlərin əziz xatirəsini daim öz qəlbində yaşadacaqdır.

Biz bu gün əziz qardaşım, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla şəhidlərimizin məzarlarını ziyarət etdik. Onların məzarları yan-yanadır. Onlara Allahdan rəhmət dilədik, onların xatirəsi bizim qəlbimizdədir və onların göstərdikləri qəhrəmanlıq bu gün Türkiyə və Azərbaycan birliyini daha da möhkəmləndirir.

Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı. Əfsuslar olsun ki, 2 ildən sonra Cümhuriyyət süqut etdi, Azərbaycan öz dövlət müstəqilliyini itirdi. 1991-ci ildə Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdi və bizi ilk tanıyan ölkə Türkiyə oldu. Bu da bir qardaşlıq nümunəsi idi.

Bu gün Türkiyə–Azərbaycan əlaqələri ən yüksək zirvədədir. Məncə, dünyada ikinci belə nümunə yoxdur ki, iki ölkə bir-birinə bu qədər yaxın olsun, bu qədər bir-birinə arxa-dayaq olsun. Bizim birliyimiz bütün sahələrdə özünü büruzə verir. Təkcə bu il Prezident Rəcəb Tayyib Ərdoğanla mənim 6 görüşüm olub – ikisi Azərbaycanda, ikisi Türkiyədə, ikisi isə beynəlxalq tədbirlər çərçivəsində. Bizim görüşlərimiz müntəzəm olaraq keçirilir və hər görüşün böyük əhəmiyyəti vardır. Siyasi əlaqələr bu gün ən yüksək zirvədədir. Biz uğurlu iqtisadi əməkdaşlıq edirik. Ticarət dövriyyəsi artır. Azərbaycandan Türkiyəyə, Türkiyədən Azərbaycana milyardlarla dollar həcmində sərmayə qoyulur. Biz birgə enerji-nəqliyyat layihələrini uğurla icra edirik. O layihələr ki, Avrasiyanın enerji və nəqliyyat xəritəsini yaradır. Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum neft-qaz kəmərləri, TANAP layihəsinin bu il istifadəyə verilməsi tarixi layihələrdir. Birgə siyasi iradə ortaya qoyulub, birgə maliyyə resursları təşkil edilib və bu nəhəng

transmilli layihələr uğurla icra edilibdir. Biz Avrasiyanın nəqliyyat xəritəsini yenidən yaradırıq. Keçən ilin oktyabrında əziz qardaşımın iştirakı ilə Bakıda Bakı–Tbilisi–Qars dəmir yolunun rəsmi açılışı mərasimi keçirildi. Bu dəmir yolu yeni nəqliyyat damarıdır. Bu dəmir yolu ilə daşınan yüklərin həcmi getdikcə artır və artacaqdır. Bizim ölkələrimizin əhəmiyyəti, önəmi artır. Bütün bu böyük layihələri biz ancaq birlikdə edə bilərdik və etdik. Bu layihələr böyük maliyyə resursları, böyük siyasi iradə tələb edir, ancaq birgə səylərimizlə biz buna nail ola bilərdik. Bu gün Türkiyə və Azərbaycan iki qardaş ölkə kimi, bu layihələrin bəhrəsini görür. Bizim birliyimiz hər bir sahədə özünü göstərir, o cümlədən hərbi sahədə işbirliyimiz, əməkdaşlığımız dərinləşir. İl ərzində bir neçə dəfə müştərək hərbi təlimlər keçirilir. Bu gün Türkiyə və Azərbaycan ordularının əsgərləri Azadlıq meydanında yan-yana dayanıblar və onlar bizim önümüzdən qardaş kimi keçəcəklər.

Türkiyə son illər ərzində çox böyük və şərəfli yol keçibdir. Əziz qardaşım Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə Türkiyə dünya miqyasında böyük gücə çevrilibdir. Türkiyənin iştirakı olmadan dünyada heç bir məsələ həll oluna bilməz. Yaşadığımız bölgənin tarixi və bu günü bunu əyani şəkildə göstərir. Türkiyənin siyasi imkanları genişlənir, dünyada oynadığı rol artır və bu bizi çox sevindirir. Türkiyə nə qədər güclü olarsa, Azərbaycan da bir o qədər güclü olacaqdır. Türkiyə böyük iqtisadi gücə sahib olan bir ölkədir. Təsadüfi deyil ki, Türkiyə iqtisadiyyatına milyardlarla dollar xarici sərmayə qoyulur. Təkcə Azərbaycanın Türkiyəyə qoyduğu və qoyacağı sərmayə 20 milyard dollara bərabərdir. Türkiyənin dünya miqyasında çox güclü ordusu vardır. O dünya miqyasında ən güclü ordulardan biridir və həm Türkiyə, həm də bizim üçün bu, qürur mənbəyidir. Bütün bu uğurlar yalnız güclü liderin yorulmaz fəaliyyəti və xalqın Rəcəb Tayyib Ərdoğana olan dəstəyi nəticəsində mümkün olubdur. Bu gün mən Azadlıq meydanından bütün bu uğurlar münasibətilə Türkiyə Cüm-

huriyyətinin Prezidentini və bütün türk xalqını ürəkdən təbrik etmək istərdim.

Gələn ay Azərbaycan dövlət müstəqilliyinin bərpasının 27-ci ildönümünü qeyd edəcəkdir. Tarix üçün bu çox qısa bir vaxtdır. Müstəqilliyimizin ilk 2 ili çox ağır, faciəvi keçib, torpaqlarımız işğal altına düşüb, Azərbaycan böyük iqtisadi çətinliklərlə, iqtisadi-siyasi böhranla üzləşibdir. Azərbaycanda vətəndaş müharibəsi gedirdi. Nəzərə alsaq ki, birinci 2 ilimiz çox ağır keçib, sonrakı dövrdə Azərbaycan böyük uğurlara imza atıbdır. Bu gün Azərbaycan bölgədə önəmli ölkəyə çevrilib, dünyadakı rolumuz artır, bizim beynəlxalq mövqelərimiz möhkəmlənir, dünya ictimaiyyəti bizim siyasətimizi dəstəkləyir. Bunun ən bariz nümunəsi odur ki, bir neçə il bundan əvvəl dünyanın 155 ölkəsi Azərbaycanı BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçmiş-dir. Bu, dünyanın Azərbaycana olan dəstəyinin təzahürüdür. İqtisadi sahədə aparılan islahatlar Azərbaycana böyük imkanlar gətirdi, biz böyük nailiyyətlərə çata bildik. Təkcə onu demək kifayətdir ki, son 15 il ərzində Azərbaycan iqtisadiyyatı 3,2 dəfə artıb. Ölkə iqtisadiyyatına 250 milyard dollar sərmayə qoyulub. Sosial məsələlərin həlli işində böyük uğurlar əldə edilib. Bu gün Azərbaycanda işsizlik 5 faiz səviyyəsindədir. Azərbaycan dost ölkələrlə, ilk növbədə, Türkiyə ilə birlikdə böyük layihələr icra edib. Yəni bütün bunlar tam əminliklə deməyə əsas verir ki, Azərbaycanın gələcəyi də parlaq olacaqdır.

Ölkəmiz ordu quruculuğu sahəsində də böyük uğurlar əldə edib. Bu gün Azərbaycan Ordusu beynəlxalq reytinqlərə görə dünya miqyasında 50 ən güclü ordu sırasındadır. Bizim hərbi potensialımız artır. Bizim güclü orduya böyük ehtiyacımız var, çünki torpaqlarımız işğal altındadır.

Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Əsrlərboyu Azərbaycan xalqı bu torpaqlarda yaşayıb, yaradıbdır. Mənfur qonşular ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycandakı qeyri-sabit vəziyyətdən istifadə edərək, torpaqlarımızın bir hissəsini işğal edib. İşğal edilmiş torpaqlarda bütün tarixi, dini

abidələrimiz ermənilər tərəfindən vəhşicəsinə məhv edilib. Xalqımıza qarşı soyqırımı törədilib və bu işğal bu gün də davam edir. Ona görə güclü ordu Azərbaycanın gələcəkdə müstəqil ölkə kimi yaşaması, ərazi bütövlüyünün bərpası üçün əsas şərtdir. Azərbaycan Ordusu döyüş meydanında öz gücünü, məharətini göstərib. Bu gün Azadlıq meydanına döyüşlərdə olmuş Azərbaycan bayraqları gətiriləcək. O bayraqlar ki, 2016-cı ildə Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının işğaldan azad edilmiş torpaqlarında Azərbaycan əsgəri tərəfindən qaldırılıbdır. O bayraqlar ki, bu ilin may ayında Azərbaycan–Ermənistan sərhədinin Naxçıvan hissəsində uğurlu əməliyyat nəticəsində işğaldan azad edilmiş torpaqlarda qaldırılıbdır. Gün gələcək Azərbaycanın Dövlət bayrağı bu gün hələ də işğal altında olan bütün torpaqlarda qaldırılacaqdır.

Əziz dostlar, bu gün, sözün əsl mənasında, tarixi bir gündür, Türkiyə–Azərbaycan birliyi, Türkiyə–Azərbaycan qardaşlığı günüdür. Biz, bu nəslin nümayəndələri bu günü yaşadırıq, yaşadacağıq. Bu gün bütün dünya görür ki, Türkiyə və Azərbaycan bir yerdədir, bütün dünya görür ki, bizim sarsılmaz dostluğumuz, qardaşlığımız əbədidir.

100 il bundan əvvəl Nuru Paşanın Qafqaz İslam Ordusunun və Azərbaycan Milli Ordusunun birgə əməliyyatı nəticəsində Bakı işğalçılardan azad edildi. Bir gündən çox davam edən şiddətli döyüşlərdə bizim əcdadlarımız əsl qəhrəmanlıq, şücaət göstərmişlər. Onu da qeyd etməliyəm ki, bu tarixi zəfərdən 2 gün sonra Azərbaycan hökuməti Gəncədən Bakıya gəlmiş və Bakı Azərbaycan dövlətinin paytaxtı elan edilmişdir. Bizim qədim şəhərimiz, Azərbaycan xalqının qədim şəhəri Bakı əsl sahibinə qayıtmışdır. Nuru Paşanın, Qafqaz İslam Ordusunun, bütün qardaşlarımızın qəhrəmanlığı, dostluğu, qardaşlığı unudulmazdır, əbədidir, bizim qəlbimizdə daim yaşayacaqdır.

Tarixi zəfərdən sonra qəhrəman əsgərlərimiz Bakı küçələrinə zəfər yürüşünə çıxmışlar. Minlərlə Bakı sakini onları alqış-

layırdı, onları öpürdü, qucaqlayırdı, bağrına basırdı. Bu bir birlik bayramı idi.

Bu gün minlərlə Bakı sakini şəhərin küçələrində bu paradı, Türkiyə və Azərbaycan əsgərlərinin möhtəşəm yürüşünü gözləyir. Bu gün Bakı şəhəri Türkiyə və Azərbaycan bayraqları ilə bəzədilib. Küçələrdə, binalarda, hərbi gəmilərdə, səmada Türkiyə və Azərbaycan bayraqları dalğalanır. Bu gün bu möhtəşəm mərasimi təkcə Bakı şəhərinin sakinləri yox, bütün dünya görür. Milyonlarla insan Türkiyə və Azərbaycanda, milyonlarla soydaşımız xaricdə bunu görür və haqlı olaraq qürur hissi keçirir.

Əziz dostlar, bacılar və qardaşlar, mən bir daha sizin hamınızı tarixi gün münasibətilə – Bakının işğaldan azad edilməsinin 100 illiyi münasibətilə təbrik edirəm. Türkiyə və Azərbaycan xalqlarına daim inkişaf, tərəqqi arzulayıram.

Türkiyə–Azərbaycan dostluğu sarsılmaz və əbədidir!

### Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın çıxışı

Əziz qardaşım Prezident İlham Əliyev!

Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin qəhrəman nümayəndələri!

Dəyərli qonaqlar!

Xanımlar və cənablar!

Çox dəyərli bakılı qardaşlarım!

Sizləri ən səmimi hisslərimlə, məhəbbətlə, hörmətlə salamlayıram!

Bu səmimi dəvətinə və qonaqpərvərliyinə görə Prezident İlham Əliyevə təşəkkür edirəm. Xanımına şəxsən öz adımdan və xanımım adından ürəkdən salam və ehtiramımı bildirirəm.

Əvvəla, Azərbaycanın müstəqilliyi üçün canlarını fəda edən bütün şəhidlərimizi ehtiramla anaraq, onlara Allahdan rəhmət və ruhlarının şad olmasını diləyirəm. Onlar fədakarlıqları və cəsarətləri ilə özlərindən sonra nəsildən-nəslə qürurla xatırlanacaq şanlı bir dastan yazaraq, Türkiyə və Azərbaycanın

əbədi qardaşlığının da rəmzi oldular. Biz dünyanın 34 ölkəsində 78 şəhid məzarlığı olan bir ölkəyik. Türkiyə Azərbaycan uğrunda 1132 şəhid verib. Azərbaycan Türkiyədən sonra ən çox şəhidimizin olduğu ölkədir. Buradakı məzarlarda yanaşı uyuyan şəhidlərimiz eyni zamanda, ölkələrimiz arasındakı birgə taleyin təmsilçiləridir. Türkiyə və Azərbaycan tarixi bir, mədəniyyəti bir, dili bir, dini bir iki qardaş ölkədir.

Böyük şair, mərhum Bəxtiyar Vahabzadə bu birliyimizi belə gözəl ifadə edibdir:

Bir ananın iki oğlu,
Bir amalın iki qolu.
O da ulu, bu da ulu,
Azərbaycan–Türkiyə.
Dinimiz bir, dilimiz bir,
Ayımız bir, ilimiz bir,
Eşqimiz bir, yolumuz bir,
Azərbaycan–Türkiyə.
Birdir bizim hər halımız,
Sevincimiz-məlalımız.
Bayraqlarda hilalımız,
Azərbaycan–Türkiyə.
Ana yurdda yuva qurdum,
Ata yurda könül verdim.
Ana yurdum, ata yurdum,
Azərbaycan–Türkiyə.

Bəli, Türkiyə və Azərbaycanın birliyi bu misralarda təcəssüm edən qardaşlığın ən gözəl nümunəsidir.

Biz bu gün burada yalnız Qafqaz İslam Ordusunun və azərbaycanlı qardaşlarımızın dillərdə dastan olan mübarizəsi ilə Bakının işğaldan azad olunmasının 100-cü ildönümünü qeyd etmirik, əziz şəhidlərimizin bizə əmanəti olan «bir millət – iki dövlət» deyə, rəmzləşdirdiyimiz qan qardaşlığımızı da dərk edirik.

Dəyərli qardaşlarım, burada bir həqiqəti dərhal vurğulamaq istəyirəm. 1918-ci il sentyabrın 15-də hazırda yaşadığımız əra-

zilərdə baş verən müharibə əsla adi bir hadisə deyil. Bir əsr əvvəl burada aparılan mübarizə bizim qardaşlığımızın, dostluğumuzun, birlik və bərabərliyimizin də rəmzidir. Tarixi bilmədən, bir əsr əvvəl Nuru Paşanın və əsgərlərinin minlərlə kilometr uzaqdan Bakıya və Gəncəyə gəlmə səbəblərini dərk etmədən Azadlıq meydanındakı bu həmrəylik mənzərəsinin mənasını anlaya bilmərik. Bundan bir əsr əvvəl qardaşlarımızın işğal altında çəkdiyi zülm elə bir həddə çatmışdı ki, Nuru Paşa Gəncəyə gələndə azərbaycanlı uşaqlar hamısı bir ağızdan məmnunluqlarını belə ifadə etmişdilər:

Qatar gəlib yan verir,
Gəncəliyə şan verir.
Gəncənin cavanları,
«Bakı!» – deyə, can verir.

Azərbaycanın məşhur «Lalələr» mahnısının kədərli hekayəsi də eyni şəkildə çəkilən əzabların və Qafqaz İslam Ordusunun qəlblərdə yaratdığı sevinc hissinin ifadəsidir.

Gəncə bölgəsinə hərəkət edən minlərlə əsgər başlarındakı qırmızı fəsləri və qotazları ilə uzaqdan gəlincik çəmənzarına bənzər bir mənzərə yaradırdı. Gəlincik Azərbaycan dilində lalə deməkdir. Bəstəkar Telman Hacıyevin lalə ilə bağlı mahnısında şair hisslərini belə ifadə edibdir:

Yazın əvvəlində Gəncə çölündə,
Çıxıblar yenə də dizə lalələr.
Yağışdan islanan yarpaqlarını,
Səriblər dərəyə, düzə lalələr.
Meylim üzündəki qara xaldadır,
Hicranın əlacı ilk vüsaldadır.
Nə vaxtdır aşiqin gözü yoldadır,
Bir qonaq gələsiz bizə, lalələr.

Nuru Paşanın və Qafqaz İslam Ordusunun Bakıya və Gəncəyə gəlişi azərbaycanlı qardaşlarımız arasında belə böyük həyəcana, belə böyük ümidə səbəb olubdur.

Dəyərli qardaşlarım, bu gün 1918-ci il sentyabrın 15-də qazanılmış böyük qələbəni kiçik, əhəmiyyətsiz göstərməyə çalışan bəzi qüvvələrin olduğunu bilirik. Buna təşəbbüs göstərənlər o dövrdə aldıqları ağır məğlubiyyətin rüsvayçılığını hələ də unuda bilməyənlərdir.

Osmanlı dövlətinin imzaladığı Mudros atəşkəs müqaviləsi təəssüf ki, bu dairələrə fürsət verdi və Qafqaz İslam Ordusunun bu torpaqlardan çəkilməsinə yol açdı. Bundan daha da ağrılısı odur ki, həmin dövrdə eyni dairələr Azərbaycan Xalq Cümhuriyyətinin varlığına son qoymaq üçün böyük səy göstərdilər. Təəssüf ki, müstəqilliyin elan edilməsindən 22 ay sonra bu məsələdə uğur qazandılar.

Qafqaz İslam Ordusunun və Azərbaycan Ordusunun 1918-ci ildə burada həyata keçirdikləri əməliyyatlar o dövrdə Azərbaycanın ərazi bütövlüyünü təmin edərək, bugünkü müstəqilliyinin təməlini qoyubdur.

Azərbaycanın 1991-ci ildə müstəqilliyini bərpa etməsindən sonra onu ilk tanıyan ölkənin Türkiyə Respublikası olması heç də təsadüfi deyil. Bu, qan qardaşlığımızın təbii nəticəsidir. Türkiyə olaraq müstəqilliyinin ilk dövrlərindən başlayaraq, Azərbaycana əlimizdən gələn hər cür dəstəyi göstərdik və göstərməyə davam edəcəyik.

Bu gün Türkiyə Azərbaycanın sadəcə, siyasi və hərbi deyil, eyni zamanda, ticarət, iqtisadiyyat, mədəniyyət və digər bütün sahələrdə ən mühüm tərəfdaşıdır. Müstəqilliyini bərpa etdikdən bəri Türkiyədə təhsil almış azərbaycanlıların sayı 125 mindən çoxdur. Hazırda 15 mindən çox azərbaycanlı tələbə Türkiyə universitetlərində təhsil alır. Əsgərlərimiz birgə təlimlər keçir, Əfqanıstan kimi dünyanın müxtəlif bölgələrində birlikdə fəaliyyət göstərirlər. Şübhəsiz ki, bu uğurlarda ümummilli lider Heydər Əliyevin nümayiş etdirdiyi dəyanətli liderliklə yanaşı, əziz qardaşım İlham Əliyevin səylərinin çox böyük payı vardır.

Bakı–Tbilisi–Ceyhan neft, Bakı–Tbilisi–Ərzurum qaz kəmərləri, Bakı–Tbilisi–Qars dəmir yolu, TANAP kimi birgə

həyata keçirdiyimiz layihələr bütün regiona töhfəsini verir. Türkiyə Azərbaycanda ən böyük sərmayədarlardan biridir. İnşallah, Azərbaycan da çox yaxın zamanlarda Türkiyədə eyni mövqeyə malik olacaq. Digər tərəfdən, bütün bu nailiyyətlərlə bərabər, gördüyümüz işlərlə heç vaxt kifayətlənməmişik və kifayətlənməyəcəyik. Gələcəkdə bizi daha böyük vəzifələr gözləyir. Biz aramızdakı əlaqələri daha da sağlamlaşdıraraq, gələcək nəsillərə güclü bir miras qoymalıyıq. Biz minlərlə şəhidimizin qanı ilə yoğrulan bu dostluğu daimi edəcək layihələri həyata keçirərək, «bir millət – iki dövlət» şüarımıza uyğun şəkildə hər sahədə əməkdaşlığımızı dərinləşdirməliyik.

Hörmətli Prezident, dəyərli dostlarım, Azərbaycanın sevinci bizim sevincimizdir, qüruru bizim qürurumuzdur, dərdi, ağrısı, problemi də bizim problemimizdir. Azərbaycan kədərlənərsə, biz də kədərlənərik, Azərbaycan sevinərsə, biz də sevinərik. Azərbaycanın ən böyük problemi olan Dağlıq Qarabağ məsələsi bizim üçün də eyni dərəcədə ağrılı problemdir. Türkiyə olaraq problemin həlli üçün Azərbaycanın göstərdiyi səyləri sonadək dəstəkləməyə davam edəcəyik. İllərdir vətən həsrəti ilə ömür sürən 1 milyondan çox qardaşımızın intizarına artıq son qoymaq vaxtıdır. Qardaş Azərbaycanın ərazilərinin 20 faizini işğal altında saxlayanların, 1 milyondan çox qardaşımızın öz vətəninə qayıtmasına mane olanların bizdən sərhədlərimizi açmağımızı gözləmələri əbəsdir. Türkiyənin bu məsələdə mövqeyi məlumdur, aydındır, dəqiqdir. Əvvəla, bu məsələdə addım atmalı olan tərəf işğalçılardır, 1 milyondan çox qardaşımızın qəlbini doğma vətən həsrəti ilə yandıranlardır. Əlbəttə, biz bütün qonşularımızla yaxşı əlaqələr qurmağı və davam etdirməyi arzu edirik. Amma Dağlıq Qarabağ probleminin həlli Ermənistanla əlaqələrimizin bərpasının ən vacib şərtidir. Bunu hamı bilməlidir. Bundan 26 il əvvəl Xocalıda, Dağlıq Qarabağda törədilmiş qətliamlara görə məsuliyyət daşıyanların, qatilləri qəhrəman elan edənlərin bizə verə biləcəyi heç bir tarixi dərs yoxdur. Türkiyə əsgərləri bu gün burada Azərbaycan əsgərləri ilə çiyin-çiyinə

bundan 100 il əvvəl birlikdə qazanılan böyük qələbənin ildönümünü qeyd edirlər. Bu bayram gələcək nəsillərə ötürəcəyimiz ən böyük ərməğandır. Bir əsr əvvəl bu torpaqlarda minlərlə şəhidimizin qanı ilə yazılan dastanın unudulmasına və unutdurulmasına qətiyyən imkan verməyəcəyik.

Hər iki ölkənin gənclərinin birgə tariximizdən və bugünkü bayram tədbirindən nəticə çıxaracağına inanıram. Bu fikirlərlə çıxışıma yekun vuraraq, bu böyük qələbəni bizlərə ərməğan etmiş Azərbaycan Xalq Cümhuriyyətinin və müstəqil Azərbaycanın Ordusunun bütün qurucularını, Qafqaz İslam Ordusunun Azərbaycana göndərilməsini təmin edən Ənvər Paşanı, bu qalib ordunun komandanı Nuru Paşanı rəhmətlə yad edirik.

Qafqaz İslam Ordusunun bütün komandanlarına, hər bir əsgərinə və xüsusilə bu torpaqlar uğrunda canından keçmiş əziz şəhidlərimizə Allahdan rəhmət diləyirəm.

Bu möhtəşəm tədbiri həyata keçirən qardaşım İlham Əliyevə və komandasına şəxsən öz adımdan və xalqım adından bir daha minnətdarlığımı bildirirəm.

Rəbbim bizi şəhidlərimizin yolundan ayırmasın. Sizlərə də ehtiramımı bildirirəm. Bu böyük ildönümü münasibətilə həm Azərbaycan Respublikasının, həm Türkiyə Respublikasının, həm də türk millətinin hər bir fərdinin bayramını təbrik edirəm. Allah sizi qorusun!

* * *

*Dövlət başçılarının çıxışlarından sonra Bakı Qarnizonunun şəxsi heyətinin təntənəli keçidi başlandı. Qarnizonun birlik, birləşmə, hərbi hissə, dövlət xidmətləri və xüsusi təyinatlı təhsil müəssisələrini təmsil edən parad heyətləri tribunaya doğru irəlilədi. Qarşıda Azərbaycan Respublikasının Dövlət bayrağı, onun ardınca isə Azərbaycan Ordusunun qoşun növlərinin bayraqları gətirildi.*

*2016-cı ilin aprelində Füzuli, Cəbrayıl, Ağdərə, Tərtər rayonlarında və bu yaxınlarda Naxçıvan Muxtar Respublikasında bir çox strateji yüksəklikləri azad edərək, min hektarlarla ərazinin nəzarətə götürülməsində xüsusilə fərqlənən hərbi hissələrin döyüş bayraqları da bugünkü parada gətirilibdir.*

*Ulu öndər Heydər Əliyevin 1971-ci ildə yaratdığı Cəmşid Naxçıvanski adına Hərbi liseyin, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantlarından, Bakı Qarnizonu zabitlərindən ibarət parad heyəti tribunanın önündən keçdi.*

*Meydana Türkiyə Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları, Əməliyyat İmkanları Konsepsiyası və Əməliyyat Ehtiyatları taborlarını təmsil edən parad heyəti, Xüsusi Təyinatlı Qüvvələrin və Dəniz Piyadaları bölmələrinin, Dövlət Təhlükəsizliyi Xidmətinin, Dövlət Sərhəd Xidmətinin, Xüsusi Dövlət Mühafizə Xidmətinin Milli Qvardiyasının hərbi qulluqçuları daxil oldular.*

*Daha sonra Bakı Qarnizonunun birlik, birləşmə və hərbi hissələrinin xüsusi texnika və silah sistemlərinin keçidi oldu.*

*Paradı xüsusi təyinatlı avtomobil texnikası, zirehli-tank texnikası, Hava Hücumundan Müdafiə silahları sistemlərinin, artilleriya silahları və əməliyyat taktiki raket sistemlərinin kolonları davam etdirdi.*

*Türkiyə Silahlı Qüvvələrinin məşhur «Mehtəran» birliyi «Mehtər marşı»nın sədaları altında Azadlıq meydanına daxil oldu. «Mehtəran» birliyi tribuna ilə üz-üzə dayanaraq, «Əsgər marşı»nı ifa etdi.*

*Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin hərbi qulluqçuları Osmanlı Türkiyəsi və Azərbaycanın milli hərbi qüvvələri əsasında təşkil edilmiş Qafqaz İslam Ordusunun süvari və piyadalarının qiyafəsində, hər iki ölkənin Dövlət bayraqları altında tribuna önündən keçdilər.*

*Azadlıq meydanı üzərindən Azərbaycan Respublikası Hərbi Hava Qüvvələrinin döyüş helikopterləri və təyyarələrinin uçuşu oldu.*

*Hərbi Hava Qüvvələrinin uçuş nümayişini «Mi-17» tipli 2 helikopter açdı. Birinci helikopter Azərbaycan Respublikasının Dövlət bayrağını, ikinci helikopter isə Türkiyə Respublikasının Dövlət bayrağını aparırdı.*

*«Su-25» hücum təyyarələri Bakı səmasında Azərbaycan Respublikasının Dövlət bayrağının təsvirini yaratdı.*

*«MiQ-29» təyyarəsi yüksək pilotaj fiqurları nümayiş etdirdi.*

*Sonra Türkiyə Silahlı Qüvvələrinin «Türk Ulduzları»nın uçuşları başlandı.*

*Türkiyəli şahinlər Azadlıq meydanı üzərində yüksək məharətlərini nümayiş etdirdilər, Azərbaycan və Türkiyənin dostluq, qardaşlıq və qəlb birliyinin rəmzi olan ürək şəkli çəkdilər.*

*Bununla da Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş parad başa çatdı.*

*Parad başa çatdıqdan sonra dövlət başçıları Qafqaz İslam Ordusunun Bakını azad etməsinin 100 illiyi münasibətilə Türkiyədə hazırlanan xatirə markasını və ilk zərfi imzaladılar.*

*Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müavini general-leytenant Ayaz Həsənovun komandanlıq etdiyi, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbaninin aparıcısı olduğu paradı Xalq artisti, professor, general-mayor Yusif Axundzadənin rəhbərliyi ilə birləşmiş hərbi orkestr müşayiət etdi.*

*Yüzlərlə hərbi texnikanın, uçuş vasitələrinin, zirehli texnikanın, raket və artilleriya silahlarının, hava hücumundan müdafiə sistemlərinin, helikopterlərin, pilotsuz uçuş aparatlarının, digər silah və texnikanın nümayiş olunduğu bu parad bir daha göstərdi ki, son illərdə ordumuz əhəmiyyətli dərəcədə güclənib. Güclü iqtisadiyyata söykənən güclü ordu formulu Prezident İlham Əliyevin fəaliyyətinin əsas qayələrindən birinə çevrilib. Ölkəmizin iqtisadi inkişaf tempi Silahlı Qüvvələrin müasir standartlara cavab verən peşəkar orduya çevrilməsində mühüm rol oynayıb. Sabitlik, dinamik iqtisadi inkişafla yanaşı, güclü*

*ordu quruculuğu müasir Azərbaycanı xarakterizə edən əsas amillərdən biri olubdur.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ BİRGƏ PARAD İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*15 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva sentyabrın 15-də Bakının azad olunmasının 100 illiyinə həsr olunmuş təntənəli paraddan sonra Qız qalasının qarşısına gəlmişlər.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Qız qalasının qarşısında paradda iştirak edən əsgərlərlə görüşdülər, onlarla xatirə şəkilləri çəkdirdilər.*

*Burada əllərində Azərbaycanın və Türkiyənin Dövlət bayraqlarını tutmuş Bakı sakinləri və şəhərimizin qonaqları Prezident İlham Əliyevi və Prezident Rəcəb Tayyib Ərdoğanı böyük coşqu ilə qarşıladılar. Onlar Azərbaycan–Türkiyə qardaşlığı ilə bağlı şüarlar səsləndirdilər.*

*Dövlət başçıları paytaxt sakinləri ilə xatirə şəkilləri çəkdirdilər.*

*Sonra Azərbaycan və Türkiyə prezidentləri Bakı bulvarını gəzdilər.*

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*15 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan sentyabrın 15-də Fəxri xiyabana gələrək, xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad etmişlər.*

*Dövlət başçıları ulu öndərin məzarı önünə əklillər qoydular.*

## ŞƏHİDLƏRİN XATİRƏSİNƏ EHTİRAM

*15 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan sentyabrın 15-də Şəhidlər xiyabanını ziyarət etmişlər.*

*Burada dövlət başçılarının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsinə ucaldılmış «Əbədi məşəl» abidəsinin önünə əklillər qoydular.*

*Dövlət başçıları Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr etdilər.*

*Sonra Azərbaycan və Türkiyə prezidentləri Şəhidlər xiyabanında şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək, önünə əklillər qoydular.*

*Dövlət başçıları Xatirə kitabına ürək sözlərini yazdılar.*

## DÖVLƏT TƏHLÜKƏSİZLİYİ XİDMƏTİNİN GƏNC ƏSGƏRLƏRİNİN ANDİÇMƏ MƏRASİMİNDƏ İŞTİRAK

*16 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri sentyabrın 16-da Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin N saylı hərbi hissəsində keçirilən gənc əsgərlərin andiçmə mərasimində iştirak etmişlər.*

*Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-leytenant Mədət Quliyev Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdi.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydular.*

*Hərbi hissənin komandiri andiçmə mərasiminə hazırlıq barədə Ali Baş Komandana məruzə etdi.*

*Prezident İlham Əliyev şəxsi heyəti salamladı.*

*Sonra döyüş bayrağı hərbi marşın sədaları altında sıra meydanına gətirildi.*

*Bunun ardınca Vətən uğrunda həlak olmuş hərbi qulluqçuların xatirəsi bir dəqiqəlik sükutla yad edildi, Dövlət himni səsləndirildi.*

*Daha sonra gənc əsgərlər and içdilər.*

*Dövlət Təhlükəsizliyi Xidmətinin N saylı hərbi hissəsində keçirilən mərasimdə and içən gənc əsgərlər sırasında Azərbaycan Prezidentinin oğlu, burada hərbi xidmət keçən Heydər İlham oğlu Əliyev də vardır.*

*Prezident, Ali Baş Komandan İlham Əliyev şəxsi heyəti təbrik etdi:*

– Əziz əsgərlər, sizi hərbi and içməyiniz münasibətilə ürəkdən təbrik edirəm, sizə uğurlar arzulayıram.

*Hərbi hissənin şəxsi heyəti təntənəli marşla tribunanın qarşısından keçdi.*

*Gənc əsgərlərin andiçmə mərasimində iştirak edən valideynlər Prezident İlham Əliyevlə görüşüb söhbət etdilər.*

## ÇİN XALQ RESPUBLİKASININ «SİNXUA» XƏBƏR AGENTLİYİNİN BAŞ REDAKTORU Hİ PİNQİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*17 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 17-də Çin Xalq Respublikasının «Sinxua» xəbər agentliyinin nazir statusunda baş redaktoru Hi Pinqin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Çinin «Sinxua» xəbər agentliyinin Azərbaycan Dövlət İnformasiya Agentliyi ilə yaxşı əməkdaşlıq etməsindən məmnunluğunu bildirən dövlət başçısı «Sinxua» xəbər agentliyinin baş redaktoru Hi Pinqin rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfərindən sonra bu əməkdaşlığın daha da genişlənəcəyinə əminliyini ifadə etdi. Çin–Azərbaycan əlaqələrinin çox uğurla inkişaf etdiyini bildirən Prezident İlham Əliyev Çin Xalq Respublikasına rəsmi səfərini məmnunluqla xatırladaraq, həmin səfərin çox yaxşı nəticələr verdiyini vurğuladı. İki ölkə arasında ticarət əlaqələrinin inkişafı üçün çox yaxşı imkanların olduğunu qeyd edən dövlət başçısı qarşılıqlı ixracın artırılması üçün əməli işlərin aparıldığını diqqətə çatdırdı. Turizm sahəsində də əməkdaşlıq üçün böyük potensialın mövcud olduğunu bildirən Prezident İlham Əliyev qeyd etdi ki, Çin vətəndaşları Azərbaycana elektron viza vasitəsilə rahat gələ bilərlər. Dövlət başçısı turizmin inkişafında xəbər agentliklərinin və mətbuatın böyük rolunu qeyd etdi. Prezident İlham Əliyev ölkələrimizin eyni zamanda, nəqliyyat sahəsində uğurlu əməkdaşlıq etdiyini, Çindən Azərbaycan ərazisindən keçərək,*

*dünya bazarlarına çıxarılan məhsulların sayının və həcminin artdığını vurğuladı.*

*Qəbula görə Çin nümayəndə heyəti adından dövlətimizin başçısına minnətdarlığını bildirən «Sinxua» xəbər agentliyinin baş redaktoru Hi Pinq bunu Prezident İlham Əliyevin Azərbaycan–Çin münasibətlərinin inkişafına verdiyi çox böyük önəmin göstəricisi kimi dəyərləndirdi. Hi Pinq Azərbaycanda gedən sürətli inkişaf proseslərinin şahidi olduğunu ifadə etdi. «Sinxua» xəbər agentliyinin baş redaktoru bildirdi ki, 2015-ci ildə Prezident İlham Əliyevin Çinə səfəri zamanı Çin Xalq Respublikasının Sədri Si Cinpinlə görüşü və orada imzalanmış əməkdaşlıq sazişləri əlaqələrimizin inkişafına çox böyük təkan verib. O qeyd etdi ki, iki ölkənin dövlət rəhbərlərinin fəaliyyəti nəticəsində son illər Azərbaycan–Çin münasibətlərinin inkişafı uğurla davam edir. Ölkəmizdə keçirdiyi görüşlərdən danışan Hi Pinq «Sinxua» xəbər agentliyi ilə Azərbaycan Dövlət İnformasiya Agentliyi arasında əməkdaşlıq haqqında imzalanmış sənədlərin əhəmiyyətini qeyd edərək, bu əməkdaşlığın daha da genişləndirilməsinin önəmini vurğuladı.*

*Qonaq Azərbaycanda çalışan Çin şirkətlərinin fəaliyyəti ilə yaxından tanış olduqlarını da məmnunluqla qeyd etdi. «Sinxua» xəbər agentliyinin baş redaktoru Çinin «Bir kəmər – bir yol» təşəbbüsü çərçivəsində ölkələrimiz arasında münasibətlərin daha sürətlə inkişaf etdiyini bildirdi.*

## ƏLƏT–ASTARA–İRAN İSLAM RESPUBLİKASI İLƏ DÖVLƏT SƏRHƏDİ AVTOMOBİL YOLUNUN AÇILIŞI MƏRASİMİ

*18 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Ələt–Astara–İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Son illərdə respublikamızın yol infrastrukturunun yenidən qurulması və təkmilləşdirilməsi ilə bağlı dövlət büdcəsi vəsaiti hesabına irimiqyaslı layihələr uğurla icra olunur. Prezident İlham Əliyevin sərəncam və göstərişlərinə əsasən Azərbaycanı digər ölkələrlə bağlayan əsas magistral yolların müasir səviyyəyə çatdırılması istiqamətində də mühüm layihələr həyata keçirilir.*

*Yeni inşa edilmiş yollardan biri də Ələt–Astara–İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yoludur.*

*Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədov dövlət başçısına Ələt–Astara–İran İslam Respublikası ilə dövlət sərhədi yeni avtomobil yolunun tikintisi layihəsi haqqında məlumat verdi.*

*Bildirildi ki, mövcud Ələt–Astara–İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun ümumi uzunluğu 243 kilometr idisə, yeni avtomobil yolunun ümumi uzunluğu 204 kilometrdir. Yol 1-ci texniki dərəcəyə aiddir. Hərəkət hissəsinin eni 15 metr, hərəkət zolaqlarının sayı 4 olan yol müasir səviyyədə və bütün tələblərə uyğun inşa olunubdur.*

*Sifarişçisi Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi olan yolun podratçı şirkətləri Azərbaycanın «Evrascon-AzVirt» birgə müəssisəsi, Türkiyənin «Kolin İnşaat Sanayi Turizm və*

*Ticarət», həmçinin «Özgün Yapı Sənaye və Ticarət», o cümlədən digər nüfuzlu xarici şirkətlərdir.*

*Qeyd edildi ki, Ələt–Astara–İran İslam Respublikası ilə dövlət sərhədi yeni magistral avtomobil yolunun 31 kilometrlik Ələt–Yenikənd hissəsi 2006–2009-cu illərdə inşa edilib. Yolun 23,4 kilometrlik Yenikənd–Salyan hissəsinin, həmçinin Kür çayı üzərində 363 metrlik körpünün və 1,2 kilometrlik yanaşma yollarının tikintisi isə 2016-cı ildə başa çatdırılıb və dövlət başçısının iştirakı ilə istifadəyə verilibdir.*

*Məlumat verildi ki, yolun 24,8 kilometrlik Salyan–Şorsulu, 30,1 kilometrlik Şorsulu–Cəlilabad və 39,2 kilometrlik Lənkəran–Astara hissələrində isə tikinti işləri cari ildə yekunlaşdırılıb. Bu hissələrin açılışı ilə Ələt–Astara–İran İslam Respublikası ilə dövlət sərhədi yeni magistral avtomobil yolunun daha 150 kilometrlik hissəsi istismara verildi. Bununla da Ələtdən Astarayadək 204 kilometrlik məsafədə tam yeni və müasir yolun inşası başa çatdırıldı.*

*Avtomobil yolunun 2011–2018-ci illərdə yeni istiqamət üzrə tikilən ümumi uzunluğu 173 kilometr olan Yenikənd–Astara hissəsində layihə üzrə bir sıra işlər həyata keçirilib. Layihənin Şorsulu–Cəlilabad hissəsində 12,5 kilometrlik yol bataqlıq-göl ərazilərindən keçdiyi üçün burada torpaq xüsusi texnologiya ilə bərkidilib və yol yatağının tikintisi zamanı 1,2 milyon ton qaya-daş dolğusundan istifadə olunubdur.*

*Ümumilikdə magistral yolboyu 24 körpü, 66 yeraltı keçid, 25 yolötürücü və yol qovşağı, 4 tunel, 51 kilometr çiyinlərdə su-axıdıcı beton küvetlər tikilib, 5 istirahət parkı salınıb, 166 kilometr ayırıcı zolaqda dəmir-beton təhlükəsizlik və 140 kilometr çiyinlərdə metal mühafizə çəpərləri, suötürücü borular, yol nişanları və göstərici lövhələr quraşdırılıb və yol-cizgi xətləri çəkilibdir.*

*Ələt–Astara–İran İslam Respublikası ilə dövlət sərhədi yeni avtomobil yolunun digər avtomobil yolları və maneələrlə kəsişməsində müxtəlif səviyyəli yol qovşaqlarının tikilməsi, birləşən*

*və ayrılan yolların sayının azaldılması yolda təhlükəsizliyin təmin edilməsinə maksimum şərait yaradıb. Magistral yol Şimal–Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin bir hissəsini təşkil edir və yolun tikintisi bu bölgədə turizmin, kənd təsərrüfatının inkişafına və beynəlxalq yükdaşımaların həcminin artmasına müsbət təsir göstərəcəkdir.*

*Prezident İlham Əliyev Ələt–Astara–İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun rəmzi açılışını bildirən lenti kəsdi.*

## MASALLI RAYONUNA SƏFƏR

*18 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Masallı rayonuna səfərə gəlmişdir.*

*Dövlət başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Masallı şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Masallı Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov son illərdə rayonda görülən işlər, həyata keçirilən layihələr barədə Prezident İlham Əliyevə məlumat verdi.*

*Dövlət başçısına Viləş çayının şəhər ərazisindən keçən hissəsində yeni salınmış park-bulvar kompleksində işlərin gedişi ilə bağlı məlumat verildi.*

## MASALLI SƏNAYE MƏHƏLLƏSİNİN AÇILIŞI MƏRASİMİNDƏ YERLİ SAHİBKARLARLA GÖRÜŞ

*18 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Masallı Sənaye Məhəlləsinin açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə qeyri-neft sektorunun inkişafı istiqamətində çox mühüm layihələr icra olunub və bu proses davamlı xarakter alıbdır. Xüsusilə sənayenin müxtəlif sahələrinin inkişafına böyük diqqət göstərilir. Bu da təsadüfi deyil. Çünki sənaye iqtisadiyyatın aparıcı sahələrindəndir. Uğurla həyata keçirilən sənayeləşmə siyasətinə uyğun olaraq, ölkədə yüzlərlə müasir sənaye müəssisəsi yaradılıb. Bütün bunların nəticəsində daxili tələbatın ödənilməsində yerli məhsulların payı əhəmiyyətli dərəcədə artıb, ixracın həcmi isə genişlənibdir. İndi ölkədə innovativ və yüksək texnologiyalara əsaslanan rəqabətqabliyyətli sənayenin, həmçinin qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin məşğulluğunu artırmaq məqsədilə nəhəng sənaye parkları və məhəllələri yaradılır. Regionlarda sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, yerli ehtiyatlardan səmərəli istifadə etməklə, sənaye sahələrinin inkişafı, istehsal prosesinin təşkilində infrastruktur xərclərinin azaldılması baxımından belə sənaye parklarının və məhəllələrinin müstəsna əhəmiyyəti vardır. Bundan başqa, bu obyektlər sahibkarlar arasında kooperasiya əlaqələrinin gücləndirilməsi və məşğulluqda sənayenin xüsusi çəkisinin artırılması baxımından da müstəsna rol oynayır. Bu məqsədlə dövlət başçısının müvafiq sərəncamları ilə Neftçala, Masallı, Sabirabad və Hacıqabulda*

*sənaye məhəllələrinin yaradılması qərara alınıb. Artıq Neftçala Sənaye Məhəlləsi sahibkarların istifadəsinə verilib. Masallı Sənaye Məhəlləsinin təşkili işləri başa çatdırılıb. Hacıqabul Sənaye Məhəlləsinin bu ilin sonuna qədər istifadəyə verilməsi nəzərdə tutulur. Sabirabad Sənaye Məhəlləsinin tikintisi üçün hazırlıq işləri aparılır. Beləliklə, bütün bunlar bir daha sübut edir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən iqtisadi siyasətin tərkib hissələrindən olan sənayeləşmənin sürətləndirilməsi prioritet sahə elan olunub və bu istiqamətdə irimiqyaslı layihələrin icrası davam etdirilir. Müasir sənaye məhəllələrinin yaradılması həm də ölkəmizin iqtisadi potensialını nümayiş etdirir, iqtisadi gücümüzü artırır.*

*İqtisadiyyat naziri Şahin Mustafayev Masallı Sənaye Məhəlləsində görülən işlər, həmçinin ölkədə yaradılmış və yaradılmaqda olan sənaye məhəllələri barədə dövlət başçısına məlumat verdi.*

*Prezident İlham Əliyevin müvafiq sərəncamlarına uyğun olaraq, Azərbaycanda ilk sənaye məhəlləsi dövlət başçısının iştirakı ilə 2017-ci ildə Neftçalada açılıb. Həmin sənaye məhəlləsində avtomobil, balıq yemi, plastik məmulatlar, suvarma sistemləri, polietilen suvarma boruları, kağız stəkanlar və hazır içkilər istehsalı, modul tipli məktəb binalarının quraşdırılması, balıq emalı və konservləşdirilməsi ilə məşğul olan 9 müəssisə və 1 kiçik sahibkarlıq emalatxanası fəaliyyət göstərir. Hacıqabul Sənaye Məhəlləsinin bu ilin sonuna qədər istifadəyə verilməsi nəzərdə tutulur. Tikinti işlərinə 200 nəfər cəlb edilib. Sabirabad Sənaye Məhəlləsi isə 20 hektar ərazidə yaradılır. Artıq burada tikinti işlərinə başlanılıb. İnşaat işlərinə 200 nəfər cəlb olunub. Masallı Sənaye Məhəlləsi Prezident İlham Əliyevin 2016-cı il iyunun 13-də imzaladığı sərəncamla yaradılıb. Ümumi sahəsi 10 hektar olan məhəllədə tikinti işlərinə 2017-ci ilin iyulunda başlanılıb. Sənaye məhəlləsində dövlət vəsaiti hesabına lazımi infrastruktur, o cümlədən 2,5 MVt gücündə elektrik enerjisi təchizatı, gücü saatda 25 kubmetr olan sutəmizləyici qurğu*

*qurulub, su və kanalizasiya sistemi, təbii qaz təchizatı, rabitə və nəqliyyat infrastrukturu yaradılıb, yüksək standartlara cavab verən 3 istehsal modulu, ikimərtəbəli inzibati bina, texniki və köməkçi binalar tikilib, genişmiqyaslı abadlıq işləri aparılıbdır. İlk mərhələdə mebel, dam örtükləri və aksesuarlar, dəmir məmulatları, döşək, taxta emalı və məmulatları istehsalı, taxta evlərin hazırlanması ilə məşğul olan sahibkarlıq subyektləri tərəfindən 5 milyon 230 min manat dəyərində 10 layihə təqdim edilib. Artıq reallaşdırılan bu layihələr çərçivəsində 200 yeni iş yeri yaradılıbdır.*

*Prezident İlham Əliyev Masallı Sənaye Məhəlləsinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Dövlət başçısı Masallı Sənaye Məhəlləsində istehsal korpusları və burada fəaliyyət göstərən müəssisələrlə tanış oldu. Məlumat verildi ki, sənaye məhəlləsində müxtəlif mebel və onların hissələrinin istehsalı üzrə 5 müəssisə qurulub və sahibkarlar tərəfindən bu layihələrin icrasına ümumilikdə 3,5 milyon manatdan çox investisiya yatırılıb, 142 yeni iş yeri yaradılıbdır.*

*Dövlət başçısı sənaye məhəlləsində fəaliyyət göstərən «Perla» Məhdud Məsuliyyətli Cəmiyyətin müəssisəsi ilə tanış oldu. Bu istehsalat sahəsinin yaradılmasında müasir avadanlıqlardan istifadə edilib. Burada döşək və metal yay hissələri istehsal ediləcək. Müəssisənin investisiya dəyəri 1,2 milyon manatdır. «Perla» brendi ilə satışa çıxarılacaq müəssisənin məhsulları yüksək keyfiyyəti ilə seçilir. İstehsal sahəsində 30 daimi iş yeri açılıb. Müəssisənin nəzərdə tutulan illik dövriyyəsinin həcmi 3 milyon manatdır.*

*Sənaye məhəlləsində fiziki şəxs Süleyman Qurbanov tərəfindən istehsal sahəsi yaradılıb. Burada «Mikayıloğlu» brendi ilə uşaq və mətbəx mebelləri istehsal ediləcək. Müəssisə 2018-ci ilin avqustunda istismara verilib. İnvestisiya məbləği 100 min manat olan müəssisədə 7 nəfər çalışacaq, ayda 100 mətbəx və*

*uşaq mebeli istehsal olunacaqdır. Burada nəzərdə tutulan illik dövriyyənin həcmi 180 min manatdır.*

*«Birlik-3A» MMC isə sənaye məhəlləsində taxta evlər istehsalı üzrə ixtisaslaşıb. İnvestisiya məbləği 500 min manat olan müəssisədə 15 iş yeri açılıb. Burada ay ərzində müasir tipli 3 taxta ev hazırlanacaq. Müəssisənin illik məhsul dövriyyəsinin həcmi 2 milyon manat təşkil edəcəkdir.*

*«Kainat–2016» MMC-nin taxta emalı və məmulatları istehsalı müəssisəsinin investisiya dəyəri 500 min manatdır. Müəssisəyə əlavə dövlət dəstəyi göstərilərək, İqtisadiyyat Nazirliyi tərəfindən investisiya təşviqi sənədi verilib. Burada 15 nəfər daimi işlə təmin olunub. Müəssisə bu ilin avqustunda istismara verilib. İstehsal gücü ayda 300 kubmetrdir. Nəzərdə tutulan illik dövriyyənin həcmi 600 min manatdır.*

*Sənaye məhəlləsinin ilk qadın iştirakçısı olan Qənirə Zeynalovanın istehsal sahəsinə 80 min manat investisiya yatırılıb. Müəssisədə müxtəlif növ yumşaq mebellərın istehsalı təşkil edilib. Bu istehsal sahəsi 2018-ci ilin avqustunda istismara verilib. Burada 6 nəfər iş yeri ilə təmin olunub. Müəssisənin istehsal gücü ayda 30 dəst müxtəlif növ yumşaq mebeldir. Burada nəzərdə tutulan illik dövriyyənin həcmi 200 min manatdır.*

*Fərdi sahibkar Rahib Zərbiyev tərəfindən sənaye məhəlləsində 250 min manat investisiya yatırılmaqla, dəmir məmulatları, işıq dirəkləri, park oturacaqları və digər məhsulların istehsalı müəssisəsi yaradılıb. Artıq bu ilin aprelindən məhsul istehsalına başlayan müəssisədə 20 iş yeri açılıb. Müəssisənin nəzərdə tutulan illik dövriyyəsinin həcmi 300 min manatdır.*

*Sonra Prezident İlham Əliyev sənaye məhəlləsində «Azərxalça» ASC tərəfindən yaradılmış Xalçaçılıq üzrə Təlim-Tədris Mərkəzi ilə tanış oldu. Mərkəzin fəaliyyət sahəsi xalçaçılıq üzrə tədris-hazırlıq kurslarının təşkilidir. Bildirildi ki, mərkəzdə 50-dən 150-dək yerli sakin xalçaçılıq sənətinə yiyələnəcəkdir. Onlar kursu bitirdikdən sonra müvafiq işlə təmin ediləcəklər. Burada 10 ədəd toxucu dəzgahı quraşdırılıbdır.*

*Sənaye məhəlləsində mebel, dam örtükləri və aksesuarlar istehsal edən müəssisələr də fəaliyyət göstərəcəkdir.*

*Prezident İlham Əliyev Masallı Sənaye Məhəlləsinin inzibati binasında yaradılmış şəraitlə də tanış oldu. Burada toplantı və təlimlərin keçirilməsi üçün hərtərəfli şərait yaradılıb. Binada iclas otağı, müasir ofis sahələri, startaplar üçün ofislər, sərgi-satış mərkəzi, tibb məntəqəsi, poçt, yeməkxana və sənaye məhəlləsinin idarəedici təşkilatının istifadəsi üçün nəzərdə tutulmuş digər sahələr vardır. İnzibati binada eyni zamanda, sahibkarlara sığorta, bank və mühasibatlıq, hüquq məsləhətləri xidmətləri göstəriləcək. Sahibkarlara dəstək məqsədilə sənaye məhəlləsinin bütün ərazisi pulsuz internetlə təmin olunub. Digər sənaye məhəllələrinə olduğu kimi, Masallı Sənaye Məhəlləsinə də sahibkarlar tərəfindən böyük maraq göstərilir.*

*Prezident İlham Əliyev sənaye məhəlləsinin inzibati binasında yaradılmış İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin «Kiçik və Orta Biznesin Dostu» (KOB) Mərkəzi ilə də tanış oldu. Dövlət başçısına məlumat verildi ki, gələcəkdə ölkənin digər şəhər və rayonlarında da sahibkarlara dəstək məqsədilə yaradılacaq «Kiçik və Orta Biznesin Dostu» mərkəzlərinin fəaliyyəti yeni kiçik və orta biznes sahələrinin yaranmasına, kiçik və orta sahibkarlığın inkişafı vasitəsilə regionun potensialının reallaşdırılmasına yönələcəkdir. Bu məqsədlə potensial investisiya layihələri müəyyən ediləcək və onların KOB-lar vasitəsilə həyata keçirilməsi təşviq olunacaqdır. «KOB Dostları»nın fəaliyyətinin digər önəmli istiqaməti KOB-lara onların dayanıqlı inkişaf tələblərinə uyğun çoxsahəli dəstəyin göstərilməsidir. Belə ki, bu istiqamətdə fəaliyyət həm mövcud dövlət dəstək mexanizmlərindən istifadə imkanlarının genişləndirilməsinə və onlara KOB-ların maneəsiz və rahat çıxışının təmin edilməsinə, həm də Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin göstərəcəyi çoxsaylı dəstək mexanizmlərinin tətbiqinə yönələcəkdir. «KOB Dostları» kiçik və orta biznesin hüquqlarının müdafiəsi istiqamətində də*

*fəaliyyət göstərəcək. Eyni zamanda, sahibkarlarla sıx əlaqələr qurulacaq və «KOB Dostları» onların inkişaf ehtiyaclarını sorğular vasitəsilə öyrənəcəkdir. Bu isə həmin tələblərə operativ reaksiyanı təmin etməyə imkan verəcəkdir.*

*Sonra Prezident İlham Əliyev məhəlləyə investisiya yatıran yerli sahibkarlarla görüşdü.*

*Dövlət başçısı görüşdə çıxış etdi.*

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

Bu gün Masallı rayonunun həyatında əlamətdar gündür. Biz Masallı Sənaye Məhəlləsinin açılışını qeyd edirik. Bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Burada çalışan insanlara, sahibkarlara, fəhlələrə uğurlar arzulayıram. Çox gözəl hadisədir. Bu təşəbbüs Masallı rayonunun sənaye potensialının möhkəmlənməsinə xidmət göstərəcək. Burada hazırda 200 iş yeri var, bundan sonra isə daha çox iş yeri yaradılacaqdır.

Biz indi sənaye məhəlləsinin birinci mərhələsini işə salırıq. Ərazi kifayət qədər genişdir və gələcəkdə burada əlavə korpuslar tikiləcək. Mən əminəm ki, burada minlərlə insan işlə təmin olunacaq və eyni zamanda, biz idxaldan asılılığı da azaldacağıq.

Ümumiyyətlə, bölgələrdə sənaye məhəllələrinin yaradılması təşəbbüsü çox düzgün bir addım idi. Artıq həyat bunu göstərir. Bir neçə rayonda, o cümlədən Masallı rayonunda belə məhəllələr, sənaye parkları yaradılıb. Biz bundan əvvəl Sumqayıtda, Mingəçevirdə, Neftçalada belə mərkəzlərin açılışını qeyd etmişik, bu gün isə Masallıda qeyd edirik. Hacıqabul və Sabirabad rayonlarında sənaye zonalarının yaradılması prosesi gedir. Bu ilk növbədə, dövlətin siyasətini göstərir. Çünki dövlət buraya əsas vəsaiti qoyan tərəfdir. Yerin seçilməsi, bütün infrastrukturun, kommunikasiyaların yaradılması, sənaye və ofis binalarının tikintisi dövlət hesabına həll olunur. Bu, dövlətin sahibkarlara böyük dəstəyidir. Sahibkarlar da öz

tərəfindən, sərmayə gətirərək, avadanlıq alır, işi düzgün təşkil edir və fəaliyyətə başlayırlar. Əgər biz bu təşəbbüsə start verməsəydik, yəqin ki, bu müəssisələr də yaradılmazdı. Hazırda Masallıda bu istiqamətdə işlər yaxşı gedir.

Bütövlükdə ölkəmizdə sənayeləşmə ilə bağlı siyasət uğurla davam etdirilir. Təkcə onu demək kifayətdir ki, bu ilin 8 ayında ölkəmizin qeyri-neft sənayesi təxminən 11 faiz artıb. Bu çox böyük göstəricidir və doğrudan da göstərir ki, bu sahədə nə qədər böyük işlər görülüb və görüləcəkdir.

Bakı və Sumqayıt şəhərləri Cənubi Qafqazın əsas sənaye şəhərləridir. Bu il Sumqayıt şəhərində böyük sənaye müəssisələrinin yaradılması təmin edilir. Bir neçə ay bundan əvvəl onlardan birinin – Polipropilen zavodunun açılışı oldu, Polietilen zavodunun açılışı isə ilin sonuna planlaşdırılır. Bu 2 zavodun sərmayə həcmi 800 milyon dollardan çoxdur. Ümumiyyətlə, Sumqayıt Kimya Sənaye Parkına qoyulan və qoyulacaq sərmayənin həcmi 2 milyard dollardan çoxdur. Əgər biz vaxtilə o böyük ərazini orada olan yararsız vəziyyətə düşmüş binalardan təmizləməsəydik, sahibkarlara bu şəraiti yaratmasaydıq, dövlət vəsaiti qoyulmasaydı, 2 milyard dollar vəsait də qoyulmazdı.

Bu gün Masallıda həyata keçirilən bu gözəl layihə göstərir ki, Azərbaycan sənayenin inkişafı istiqamətində çox düzgün yoldadır, çox düzgün addımlar atılır, iş yerləri, yerli istehsal yaradılır və idxaldan asılılıq azalır. Bu gün mənə göstərilən müəssisələrin fəaliyyəti məhz bu məqsədi güdür. İdxaldan asılılıq azalır, yerli istehsal yaradılır, vergilər ödəniləcək və insanlar işlə təmin olunacaqlar. Azərbaycanda əhali artır. Masallı da əhali baxımından ən böyük rayonlarımızdan biridir, ona görə də yeni iş yerlərinin yaradılması prosesi daim getməlidir.

Masallı rayonuna həmişə böyük diqqət göstərilib. Bu mənim Prezident kimi, Masallı rayonuna 10-cu səfərimdir. Bütün səfərlər zamanı biz çox önəmli obyektlərin, layihələrin açılışını qeyd etmişik. Bu gün də Masallıda infrastruktur layihələrinin

icrası uğurla gedir. Qazlaşdırılma 100 faizə yaxınlaşır və əminəm ki, gələn il bütün yaşayış məntəqələri və bütün sakinlər qazla tam təmin olunacaqlar. Bu, tarixi nailiyyət olacaq. Çünki Masallıda əvvəlki illərdə qazlaşdırılma çox aşağı səviyyədə idi. Heç şəhərin böyük hissəsi qazla təmin edilmirdi, o ki qaldı kəndlərə – onlarda, ümumiyyətlə, qaz yox idi. İndi biz 100 faizə yaxınlaşırıq. Elektrik enerjisi ilə bağlı məsələlər öz həllini tapır, yeni yarımstansiyalar tikilir ki, Masallı sakinləri dayanıqlı enerji ilə təmin edilsinlər. Mən 2016-cı ildə burada olarkən, şəhərin içməli su layihəsinin açılışını qeyd etdik. Hesab edirəm ki, bu da tarixi hadisədir. Masallı şəhəri tam, ən yüksək standartlara cavab verən içməli su ilə təmin edilib. İndi kəndlərin su problemləri öz həllini tapır.

Digər infrastruktur layihələrinə gəldikdə, yol tikintisi, xüsusilə kənd yollarının tikintisi uğurla gedir. Mənə verilən məlumata görə, kənd yollarının təxminən 85 faizi yenidən qurulub. Əminəm ki, növbəti illərdə Masallı rayonunda təmirsiz bir dənə də kənd yolu qalmayacaqdır. Masallı şəhərinin küçələrinin yenidən qurulması üçün mənə rayondan müraciət edilib və müraciətə müsbət reaksiya verilibdir. Yaxın gələcəkdə şəhərin bütün küçələri də ən yüksək səviyyədə yenidən qurulacaqdır. Yol infrastrukturuna gəldikdə, onu da bildirməliyəm ki, bu gün Bakı–Astara magistral yolunun açılışı oldu. Bu da tarixi layihədir. Çünki Azərbaycanın imkanını göstərir və eyni zamanda, yol çox keyfiyyətlidir, ən yüksək dünya standartlarına cavab verir və məsafə baxımından Bakıdan Astaraya gedən yol təxminən 40 kilometr qısalır. Çünki yeni yol xətti salınıb. Əvvəllər o yerlərdə bataqlıq olub. Artıq yeni yol şəhərlərə girmir – nə Biləsuvar, nə də Masallı şəhərinə – yeni bir istiqamətlə düz sərhədə qədər gedir. Əlbəttə, Masallı rayon sakinləri də hesab edirəm ki, bunu çox yüksək qiymətləndirəcəklər. Çünki magistral yolla, xüsusilə yük maşınlarının gecə-gündüz o tərəf-bu tərəfə işləməsi insanları narahat edirdi, müəyyən təhlükə yaradırdı.

Bu, infrastruktur layihələri ilə bağlı olan işlərdir. Sosial məsələlər də Masallı rayonunda uğurla həll olunur. Mən bütün açılışları yaxşı xatırlayıram. Mərkəzi Rayon Xəstəxanasının əsaslı təmirdən sonra açılışı, göz xəstəxanasının, Olimpiya İdman Kompleksinin, Gənclər evinin, «ASAN xidmət» Mərkəzinin açılışları – bütün bunlar çox önəmli layihələrdir. Cənub zonasında birinci «ASAN xidmət» məhz Masallı şəhərində yaradılıb və mən 2 il bundan əvvəl açılışda iştirak etmişəm. Mənə verilən məlumata görə, Masallı sakinləri və qonşu rayonlardan gələn vətəndaşlar xidmətin işini yüksək qiymətləndirirlər.

Beləliklə, hesab edirəm ki, biz Masallı rayonunun sosial-iqtisadi inkişafı ilə bağlı bütün əsas işləri görmüşük. Əlbəttə, görüləsi işlər hələ çoxdur. Baxmayaraq ki, 40-dan çox məktəb tikilib və əsaslı təmir edilib, hələ də təmirə ehtiyacı olan məktəblər kifayət qədər çoxdur, onları da biz həll edəcəyik. Əsas odur ki, bütün məsələlər həll olunur, yerlərdən gələn təkliflərə müsbət baxılır. Biz gələn ilin əvvəllərində regionların sosial-iqtisadi inkişafına dair yeni Dövlət Proqramını qəbul edəcəyik və yerlərdən gələn təkliflər, əlbəttə ki, proqramın tərtibatında mühüm rol oynayacaq. Ona görə sakinləri narahat edən məsələlər mütləq məruzə edilsin, bizə göndərilsin ki, növbəti proqramda bu günə qədər həll olunmayan bütün məsələlər öz əksini tapsın.

Bir daha sizi bu gözəl hadisə münasibətilə təbrik edirəm, sizə uğurlar arzulayıram.

* * *

**S ü l e y m a n  Q u r b a n o v** *(sahibkar)*: Möhtərəm cənab Prezident, Sizi Masallı Sənaye Məhəlləsində salamlayırıq. Masallıya xoş gəlmisiniz!

Tapşırığınıza uyğun olaraq inşa edilmiş Masallı Sənaye Məhəlləsi bu gün nəinki bizim rayonun, hətta ətraf rayonların da inkişafına öz töhfəsini verəcəkdir. Masallı Sənaye Məhəlləsi sənayenin inkişafı ilə yanaşı, həmçinin çoxsaylı iş yerlərinin açılması deməkdir. Bir sözlə, bizə burada çox gözəl şərait yaradılıb, sənaye məhəlləmizdə bank, poçt, tibb məntəqəsi, hüquq məsləhətxanası fəaliyyət göstərəcəkdir. Sənaye məhəlləsində yaradılmış yeni mexanizm – «Kiçik və Orta Biznesin Dostu» Mərkəzi çoxsaylı xidmətlərlə həmişə biz sahibkarların yanında olacaqdır. Sözün qısası, burada hər cür şərait yaradılıb. Cənab Prezident, bu da dövlətimizin güclü olması, Sizin biz sahibkarlara göstərdiyiniz yüksək diqqət və qayğı deməkdir.

Mən əvvəllər Rusiyada fəaliyyət göstərirdim. Özəl bölmənin inkişafına yetirilən diqqət məni Azərbaycana qayıtmağa, öz Vətənimdə fəaliyyət göstərməyə sövq etdi. İndi mən Masallı Sənaye Məhəlləsinə investisiya yatırmışam, öz mebel istehsalı sahəmi açmışam.

Cənab Prezident, rayonumuzun inkişafına göstərdiyiniz yüksək diqqət və qayğınıza görə bütün masallılılar və masallılı sahibkarlar adından Sizə təşəkkür edirəm, minnətdarlığımı bildirirəm. Allah Sizi qorusun.

**İ l h a m  Ə l i y e v:** Sağ olun.

## «Masallı nemətləri» MMC-nin çəltik emalı müəssisəsinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də «Masallı nemətləri» Məhdud Məsuliyyətli Cəmiyyətinin çəltik emalı müəssisəsinin açılışında iştirak etmişdir.*

*Son illərdə ölkəmizdə qeyri-neft sektorunun inkişafında kənd təsərrüfatının çəkisi və rolu artmaqdadır. Bölgələrimizdə bu sahənin inkişafı istiqamətində icra olunan layihələr Azərbaycanda həm də ərzaq təhlükəsizliyinin yüksək səviyyədə təmin edilməsi məsələsinə böyük töhfə verir. Son illərdə yaradılan müasir müəssisələrdən biri də «Masallı nemətləri» Məhdud Məsuliyyətli Cəmiyyətinin çəltik emalı müəssisəsidir. Belə müəssisələrin yaradılması ölkəmizin ümumi iqtisadi inkişafına da töhfə verir. Təsadüfi deyil ki, bu gün Azərbaycanda ümumi daxili məhsulun böyük hissəsini qeyri-neft sektoru təmin edir ki, bu da ölkədə aparılan iqtisadi şaxələndirmə siyasətinin nəticəsidir. Qeyri-neft sektorunun inkişafında şübhəsiz ki, son illərdə həyata keçirilən aqrar islahatlar mühüm rol oynayır. Bu da Prezident İlham Əliyevin kənd təsərrüfatının inkişafına, ölkədə ərzaq təhlükəsizliyinin təmin olunmasına verdiyi önəmi bir daha təsdiqləyir.*

*Hazırda yüksək məhsuldarlığın təmin edilməsinə, yerli məhsulların rəqabətqabliyyətliliyinin artırılmasına, kənd təsərrüfatının gəlirli sahələrinin inkişafına, fermerlərə dövlət dəstəyinin daha səmərəli təşkilinə və ərzaq təhlükəsizliyinə nail olunmasına dövlət səviyyəsində yüksək diqqət göstərilir. Bu məsələlər aqrar sahədə dövlət siyasətinin mühüm istiqamətlərini təşkil edir. Bu çərçivədə çəltik tədarükünün stimullaşdırılması, əhalinin bu sahəyə marağının daha da artırılması xüsusi əhəmiyyətə malikdir. Ümumilikdə son illərdə cənub bölgəsində, o cümlədən Masallı rayonunda ənənəvi əkin sahəsi olan çəltikçiliyin inkişafına diqqət artırılıbdır.*

*Müəssisənin direktoru Ağamirzə Kərimov dövlət başçısına burada yaradılan şərait barədə məlumat verdi. Yeni yaradılmış müəssisənin ümumi ərazisi 1 hektar, tikinti sahəsi isə 600 kvadratmetrdir. Müəssisənin inşasına 2017-ci ilin noyabrında başlanılıb, 2018-ci ilin sentyabr ayında inşaat işləri tam başa çatdırılıbdır. Bu istehsalat sahəsinin aylıq emal gücü 300 ton, düyü qurutma gücü isə 900 tondur.*

*Prezident İlham Əliyev müəssisəni işə saldı.*

*Dövlət başçısı çəltik emalı müəssisəsində yaradılmış şəraitlə tanış oldu.*

*Müəssisənin nəzdində hazır məhsul anbarı və satış mərkəzi tikilib. Gələcəkdə çəltik saxlanılması üçün xüsusi bunkerlərin tikintisi nəzərdə tutulub. Emal edilən düyünün daxili bazarın tələbatına uyğun olaraq satışı üçün müxtəlif şirkətlərlə danışıqlar aparılıb. Bundan başqa, «made in Azerbaijan» brendi kimi məhsulun xarici bazarlara çıxışı ilə əlaqədar sənədləşmə işləri davam etdirilir. Burada 15 nəfər daimi işlə təmin edilib. Gələcəkdə müəssisənin gücünün 2 dəfə artırılması və işçilərin sayının 40 nəfərə çatdırılması nəzərdə tutulubdur.*

*«Masallı nemətləri» MMC-nin çəltik təsərrüfatının ümumi sahəsi isə 60 hektardır. Təsərrüfatda yeni texnologiyaların tətbiqi ilə çəltik əkini sahələrinin hazırlanması bir neçə mərhələdə həyata keçiriləcək. Onların arasında şumun frez və disklə yumşaldılması,ləklərin içinin lazerli qreyderlə hamarlanması, toxumların germetik vannalarda yetişdirilməsi, 48 saat müddətində qapalı yerlərdə saxlanılması, kasetlərə aqreqatla səpilməsi daxildir. Bundan başqa, toxumların xüsusi hazırlanmış şitilxanalarda saxlanılması, şitillərin əkinə hazırlanması və kiçik texnika vasitəsilə əkilməsi də həyata keçiriləcəkdir. Burada yeni texnika və metodlardan istifadə etməklə, məhsuldarlıq orta hesabla bir hektara 40–50 sentner – əvvəlkindən 2 dəfə çox olacaqdır. Müəssisə şitiləkən traktorla və digər texnika ilə təchiz edilibdir.*

*Ərazidə 400 tonluq anbar da inşa olunub. Cari ildə rayon ərazisində ümumilikdə 301 hektar çəltik sahəsi əkilib, o cümlədən 25 hektar sahə Koreya Respublikasından gətirilmiş «Dayton» markalı texnika vasitəsilə ən müasir texnologiya əsasında əkilibdir.*

## Əsaslı təmirdən sonra Şatıroba–Hişgədərə–Miyanku–Kubin–Birinci Səmidxanlı–Xallıcalı–Eminli–Məmmədxanlı avtomobil yolunun açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Masallı rayonunda əsaslı təmirdən sonra Şatıroba–Hişgədərə–Miyanku–Kubin–Birinci Səmidxanlı–Xallıcalı–Eminli–Məmmədxanlı avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlət başçısına görülən işlərlə bağlı məlumat verdi.*

*Bildirildi ki, yolun yenidən qurulması Prezident İlham Əliyevin bu il iyulun 23-də imzaladığı Sərəncama əsasən aparılıb. 32 min nəfərin yaşadığı 22 yaşayış məntəqəsini birləşdirən Şatıroba–Hişgədərə–Miyanku–Kubin–Birinci Səmidxanlı–Xallıcalı–Eminli–Məmmədxanlı avtomobil yolunun tikintisi üçün dövlət büdcəsinin investisiya xərclərindən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 7,5 milyon manat vəsait ayrılıb. Yolun ümumi uzunluğu 24,7 kilometrdir. 4-cü texniki dərəcəyə aid ikizolaqlı yolun hərəkət hissəsinin eni 6 metrdir. Yolun yenidən qurulması layihəsi çərçivəsində genişmiqyaslı torpaq işləri görülüb, siqnal dirəkləri, yol nişanları və göstərici lövhələr quraşdırılıb, yol cizgi xətləri çəkilibdir. Dağlıq ərazidə yerləşən avtomobil yolunun tikintisi 22 yaşayış məntəqəsinin rayon mərkəzi ilə nəqliyyat əlaqəsinin yaxşılaşdırılmasında, həmçinin bu bölgədə iqtisadiyyatın və kənd təsərrüfatının inkişafında mühüm rol oynayacaqdır.*

*Sonra dövlət başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Prezident İlham Əliyevin rəhbərliyi ilə son 15 ildə Azərbaycanda sürətli və davamlı sosial-iqtisadi inkişafa nail olunub. Bu inkişafın əsas elementlərindən biri də yol infrastrukturunun müasir səviyyədə yenidən qurulmasıdır ki, bu istiqamətdə də ölkəmizdə tarixi layihələr icra olunub. Azərbaycanda son dövrlərdə yol infrastrukturunda baş verən əsaslı dəyişikliklərin nəticəsini hər bir vətəndaş öz şəxsi həyatında hiss edir. Dövlət başçısının tapşırıq və göstərişlərinə əsasən, beynəlxalq əhəmiyyətli yolların inşası ilə yanaşı, yeni kənd yollarının çəkilməsi, mövcud yolların yenidən qurularaq, müasir səviyyəyə çatdırılması istiqamətində də çox mühüm layihələr icra olunub. Masallı rayonunun Şatıroba–Hişgədərə–Miyanku–Kubin–Birinci Səmidxanlı–Xallıcalı–Eminli–Məmmədxanlı avtomobil yolunun yenidən qurulması da bu tədbirlər sırasındandır.*

**MALTA RESPUBLİKASININ PREZİDENTİ XANIM MARİ-LUİZ KOLEYRO PREKAYA**

Hörmətli xanım Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Malta arasındakı dostluq və əməkdaşlıq münasibətləri bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Malta xalqına daim sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 sentyabr 2018-ci il*

## BİLƏSUVAR RAYONUNA SƏFƏR

*18 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Biləsuvar rayonuna səfərə gəlmişdir.*

*Dövlət başçısı İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Mahir Quliyev abidənin ətrafında aparılan abadlıq işləri və rayonda icra olunan layihələr barədə Prezident İlham Əliyevə məlumat verdi.*

## ZƏHMƏTABAD–BƏYDİLLİ–XIRMANDALI–ƏLİABAD AVTOMOBİL YOLUNUN AÇILIŞINDA BİLƏSUVAR RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*18 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Biləsuvar rayonunun Zəhmətabad–Bəydili–Xırmandalı–Əliabad avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Bu gün ölkəmizdə yol-nəqliyyat infrastrukturunun tamamilə yenidən qurulması və müasirləşdirilməsi, bu sahədə əsaslı dəyişikliklərin yer aldığı proses uğurla davam etməkdədir. Regionların, həmçinin kənd və qəsəbələri birləşdirən avtomobil yollarının, yolayrıcıların və körpülərin inşasına və yenidən qurulmasına xüsusi diqqət yetirilir. Belə yolların müasir səviyyədə inşası regionların inkişafına müsbət təsir göstərir, rayonların simasını əsaslı şəkildə dəyişdirir, həmçinin nəqliyyatın və əhalinin rahat, təhlükəsiz və maneəsiz hərəkətini təmin edir. Bu işlərin icrası həm də onu nümayiş etdirir ki, Azərbaycanda bütün sosial layihələr uğurla icra olunur. Bu, dövlətimizin həyata keçirdiyi məqsədyönlü siyasətin nəticəsidir. Bu siyasətin bəhrəsini isə hər bir vətəndaş öz həyatında hiss edir.*

*Yolun texniki göstəriciləri barədə dövlət başçısına məlumat verildi.*

*Bildirildi ki, 20 mindən çox əhalinin yaşadığı 4 yaşayış məntəqəsini birləşdirən Zəhmətabad–Bəydili–Xırmandalı–Əliabad avtomobil yolunun uzunluğu 15,4 kilometrdir. 3-cü və 4-cü texniki dərəcəyə uyğun tikilən yol 2 hərəkət zolaqlıdır. Yolun inşası za-*

*manı 26,1 min kubmetr torpaq işləri görülüb, 11,6 min kubmetr tikinti materialından və asfalt-beton örtüyündən istifadə edilib, yol boyunca nişanlar və göstərici lövhələr quraşdırılıbdır.*

*Dövlət başçısının bu ilin yanvarında imzaladığı sərəncama əsasən, tikilən avtomobil yolu 4 yaşayış məntəqəsinin rayon mərkəzi ilə nəqliyyat əlaqəsinin yaxşılaşdırılmasında, həmçinin bu bölgədə iqtisadiyyatın və kənd təsərrüfatının inkişafında mühüm rol oynayacaqdır.*

*Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Sonra dövlət başçısı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə çıxış etdi.*

## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Bu gün Biləsuvar rayonunda çox gözəl bir gündür, biz yeni kənd yolunun açılışını qeyd edirik. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm. 15 kilometr uzunluğunda olan və ən yüksək standartlara cavab verən bu yol 16 min əhali yaşayan bir neçə kəndi birləşdirir. Bu yol insanlara rahatlıq verəcəkdir.

Biləsuvar rayonunda yol infrastrukturunun yenilənməsi uğurla davam edir. Son illərdə rayonun əksər kənd yolları əsaslı şəkildə təmir və bərpa olunub. Mənə verilən məlumata görə, Biləsuvar rayonunun kəndlərinin təqribən 80 faizi artıq müasir yollarla təmin edilib. Bu gün buraya gələrkən magistral yoldan Biləsuvar şəhərinə qədər, yəni bu yola qədər yolun keyfiyyətinə fikir verdim və heç də mənim xoşuma gəlmədi. Bilirəm ki, sizin də bu yolla bağlı fikirləriniz vardır. Ona görə indi dərhal göstəriş verdim, müvafiq sərəncam imzalanacaq, bu il Prezidentin ehtiyat fondundan ilkin vəsait ayrılacaq və gələn ilin təqribən yaz aylarına qədər bu yol tam əsaslı təmir ediləcəkdir. Bu yolun uzunluğu 14 kilometrdir. Yol həm keyfiyyətsizdir, sıradan çıxıb, həm də ensizdir. Göstəriş verdim ki, daha da enli yol salınsın və Biləsuvar şəhərinə giriş çox gözəl, möhtəşəm olsun.

Ölkəmizdə yol tikintisi ilə bağlı işlər uğurla gedir. Bu gün Masallı rayonunda bir neçə kəndi birləşdirən 24 kilometr uzunluğunda yolun açılışını qeyd etdik, indi isə Biləsuvarda. Yəni biz bir gündə 40 kilometrə yaxın kənd yollarının açılışını qeyd etdik.

Ölkəmizdə yol tikintisi geniş vüsət alıb. Bu il Dövlət İnvestisiya Proqramında ən azı 600 kənd yolunun əsaslı təmir olunması və ya yenidən qurulması nəzərdə tutulub. O cümlədən magistral yolların salınması, onların ən yüksək standartlara çatdırılması prosesi də gedir.

Bu gün ölkə əhəmiyyətli Bakı–Astara yolunun açılışını da qeyd etdik. Bu çox gözəl yoldur. Deyə bilərəm ki, dünyanın ən yüksək standartlarına cavab verir, çox rahat, təhlükəsiz bir yoldur. Onu da qeyd etməliyəm ki, bu yol Bakıdan Astaraya olan məsafəni 40 kilometr qısaldır, çünki yolun məcrası dəyişib. Beləliklə, vətəndaşlar daha rahat gedib-gələ biləcəklər. Əvvəlki yol Biləsuvar şəhərinin içi ilə gedirdi və əlbəttə, şəhər sakinləri üçün müəyyən narahatlıq yaradırdı. İndi isə magistral yol çəkilib. Biləsuvar rayonunun yolları əsaslı şəkildə təmir olunur.

Biləsuvar rayonuna diqqət daim yüksək səviyyədə olubdur. Bu mənim Prezident kimi, rayona 6-cı səfərimdir. Əvvəlki səfərlər zamanı biz bir çox sosial, iqtisadi obyektlərin – xəstəxananın, Olimpiya İdman Mərkəzinin tikintisi, məktəblərin açılışında görüşmüşük. Bir sözlə, Biləsuvarda sosial-iqtisadi inkişaf uğurla gedir, rayonun infrastruktur layihələri icra edilir, qazlaşdırılmanın səviyyəsi 90 faizə yaxındır. Göstəriş vermişəm ki, gələn il Biləsuvar rayonunun qazlaşdırılması 100 faizə çatdırılsın, bu günə qədər həll olunmayan layihələr də icra edilsin. Təqribən 5 il bundan əvvəl burada olarkən biz içməli su layihəsinin açılışını qeyd etdik. Azərbaycanda elektrik stansiyalarının tikintisi nəticəsində yeni yarımstansiyalar da inşa olunur, dayanıqlı enerji ilə təminat yaxşılaşır. Bir sözlə, infrastruktur məsələlərinin həlli gözəl imkanlar yaradır, həm

insanların rahatlığını təmin edir, həm də iqtisadi inkişafa təkan verir.

Ölkəmizdə kənd təsərrüfatının inkişafı ilə bağlı çox ciddi addımlar atılır. Biz əsas ərzaq məhsulları ilə özümüzü təminetmə səviyyəsinə çox yaxınlaşmışıq. Biləsuvar rayonunda kənd təsərrüfatı, o cümlədən pambıqçılıq və digər sahələr uğurla inkişaf edir. Pambıqçılığa gəldikdə, deyə bilərəm ki, son 3 il ərzində əkin sahələri 3-4 dəfə artırılıb. Məndə olan məlumata görə, bu il 12 min hektarda pambıq əkini təşkil edilibdir, 3 il bundan əvvəl isə cəmi 3000 hektarda pambıq əkini təşkil edilmişdi. Çünki pambıqçılıq Biləsuvar üçün ənənəvi kənd təsərrüfatı sahəsidir, əməktutumlu sahədir, məşğulluğu artırır, insanların rifah halını yaxşılaşdırır. Kənd təsərrüfatının digər sahələri də böyük önəm daşıyır. Bu ilin 8 ayında kənd təsərrüfatımız əhəmiyyətli dərəcədə artıb, sənaye istehsalı artıb, qeyri-neft sənayemiz isə təxminən 11 faiz artıbdır. Biz bu istiqamətdə işlərimizi bundan sonra da davam etdirəcəyik.

Azərbaycanın hər bir rayonunda quruculuq və abadlıq işləri aparılır, rayonların inkişafına böyük sərmayə qoyulur. Yol tikintisi, içməli su xətlərinin çəkilişi, qazlaşdırılma – bütün bunlar böyük vəsait tələb edir. Azərbaycan dövləti bu istiqamətdə öz siyasətini aparır, insanların sosial rifahı, onların yaxşı yaşaması üçün bütün işlər görülür. Bizim kifayət qədər böyük imkanlarımız – həm iqtisadi, həm maliyyə resurslarımız vardır. Bu il biz öz valyuta ehtiyatlarımızı əhəmiyyətli dərəcədə artıracağıq. 8 ayın yekunları da çox müsbətdir. Bizim ixracımız əhəmiyyətli dərəcədə artıb və ixrac idxalı təqribən ən azı 5 milyard dollar səviyyəsində üstələyir. Bu da iqtisadi sabitliyə, manatın məzənnəsinin möhkəm səviyyədə saxlanmasına xidmət edir və bizə imkan verir ki, bundan sonra da bir çox önəmli layihələri icra edək. Bütün bunları biz öz hesabımıza edirik. Biz güclü iqtisadiyyata malikik və bu gün Azərbaycan dünya miqyasında özünü ən yüksək səviyyədə təqdim edir.

Əlbəttə ki, ordu quruculuğu ilə bağlı məsələlər öz həllini tapır. Bu gün Azərbaycan Ordusu dünyanın 50 ən güclü ordusu sırasındadır. İyun ayında Azərbaycan Milli Ordusunun 100 illiyinə və bir neçə gün bundan əvvəl Bakının işğalçılardan azad olunmasına həsr edilmiş hərbi paradlar bizim gücümüzü, qüdrətimizi göstərdi. Əlbəttə, bizim ordumuzun bu səviyyədə olması hər bir vətəndaş üçün qürur mənbəyidir.

Bu gün bizim tədbirdə Milli Qəhrəman Mübariz İbrahimovun atası iştirak edir. Mən ona xüsusi minnətdarlığımı bildirmək istəyirəm ki, onun ailəsində Milli Qəhrəman, bizim unudulmaz əsgərimiz, qəhrəmanımız Mübariz böyüyüb, tərbiyə alıb, Vətən uğrunda döyüşüb, Vətən uğrunda həlak olub, şəhid olubdur. Təkbaşına bir çox işğalçını məhv edərək, şəhidlik zirvəsinə ucalıbdır. O bilirdi ki, ölümə gedir, bilirdi ki, o döyüşdən sağ-salamat çıxmayacaq. Buna baxmayaraq, canından keçdi və düşmənə Azərbaycan əsgərinin hansı keyfiyyətə malik olduğunu nümayiş etdirdi. Biləsuvar rayonu fəxr edə bilər ki, belə gözəl övlad yetişdirib. Bu gün Azərbaycan Ordusunda vətənpərvərlik ruhunun yüksək səviyyədə olması Mübariz kimi övladlarımızın addımları, qəhrəmanlığı nəticəsində olubdur.

Bu gün Ermənistan ordusu bizimlə rəqabət apara bilməz. Ermənistan indi çox ağır vəziyyətə düşüb. 20 il Ermənistana rəhbərlik etmiş kriminal diktatura rejimi çökdü. Mən dəfələrlə demişdim ki, Ermənistanı quldur dəstə idarə edir və bu gün bunu erməni xalqı deyir. Ancaq əfsuslar olsun ki, Ermənistanda rəhbərliyə gəlmiş yeni simalar da öz məsuliyyətini dərk etmir, sarsaq bəyanatlar verirlər və təmas xəttində, Ermənistan–Azərbaycan sərhədində gərginliyə rəvac verən addımlar atırlar. Azərbaycan Ordusu onlara layiqli cavab verir, verəcək də, necə ki, 2016-cı ilin aprel döyüşlərində onları yerinə oturtdu, torpaqlarımızın bir hissəsini azad etdi, bu ilin may ayında Naxçıvan istiqamətində uğurlu əməliyyat nəticəsində böyük ərazi nəzarətimizə keçdi. Bundan sonra da biz onlara lazım olan vaxtda tutarlı cavablar verəcəyik. Düşmən bilir ki, bizim

qarşımızda duruş gətirə bilməz. Baxın, bir neçə gün bundan əvvəl onların silahlı təxribatı nəticəsində Ermənistan–Azərbaycan sərhədində atışma olub və əsgərlərimiz onlara elə dərs veriblər ki, çətin ki, yaxın günlərdə özlərinə gəlsinlər.

Biz bu istiqamətdə siyasətimizi ardıcıl olaraq aparacağıq, ordumuzu daha da gücləndirəcəyik, daha da böyük vəsait ayıracağıq və ordumuzun döyüş qabiliyyətini daha da möhkəmləndirəcəyik. Nümayiş etdirilən paradda bizim texniki imkanlarımız, əsgər və zabitlərimizin hazırlığı düşmənə yaxşı bir siqnaldır ki, otursun yerində, yoxsa axırı pis olar.

Biz isə bundan sonra da uğurla inkişaf edəcəyik. Ordu quruculuğu, iqtisadi potensialın, beynəlxalq mövqelərimizin möhkəmlənməsi – bütün bu istiqamətlər üzrə uğurlu siyasət aparılır. Bu gün Azərbaycan dünya miqyasında çox böyük hörmətə malik olan bir ölkədir, sabitlik, təhlükəsizlik adasıdır, inkişaf, quruculuq yeridir. Bunun təməlində Azərbaycan xalqının zəhməti, xalq–iqtidar birliyi dayanır.

Mən sizi bir daha bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm, sizə yeni uğurlar arzulayıram.

* * *

**A k i f  K a z ı m o v** *(rayon sakini)*: Möhtərəm cənab Prezident, mən Sizi Biləsuvar ictimaiyyəti adından səmimi salamlayıram, rayonumuza xoş gəlmisiniz!

Bu gün bizim üçün çox əlamətdar bir gündür. Sizin iştirakınızla rayonumuzun 4 kəndini birləşdirən bu gözəl avtomobil yolu istifadəyə verilir. Bu yolun əhəmiyyətini sözlə ifadə etmək çox çətindir. Sakinlərimiz rayon mərkəzinə gedərkən minbir əziyyətlə üzləşirdilər. Payız–qış aylarında, ümumiyyətlə, bu yolda palçıq üzündən hərəkət etmək mümkün deyildi. Yay aylarında isə toz-torpaqdan evlərin qapı-pəncərələrini açmaq mümkün olmurdu. Sizin tapşırığınıza əsasən aparılan əsaslı

təmirdən sonra belə bir gözəl yol istifadəyə verildi və bizim canımız o çətinliklərdən birdəfəlik qurtuldu.

Cənab Prezident, hər gün yüzlərlə nəqliyyat vasitəsi, minlərlə insan bu rahat yoldan istifadə edir. Onlar dərin minnətdarlıq hissi ilə Sizə həmişə duaçıdırlar. Atalar demişkən, abad kənd yolundan bilinər.

Sizin göstərişinizə, qayğınıza və diqqətinizə əsasən, ölkəmizdə geniş vüsət alan yol tikintisi bu gün Azərbaycanın inkişafından xəbər verir. Mən uzun müddət müxtəlif rəhbər vəzifələrdə işləmişəm və bilirəm ki, yol tikintisi çox baha başa gəlir, böyük maliyyə vəsaiti tələb edir. Lakin bütün dünyanı bürüyən maliyyə və iqtisadi böhranlara baxmayaraq, bu gün Ələt–Astara magistralı kimi nəhəng bir layihənin reallaşdırılması Azərbaycanın gücündən xəbər verir.

Ələt–Astara yolu, demək olar ki, regionun şah damarıdır. Bu yol cənub zonasının iqtisadi inkişafına, xüsusən turizmin canlanmasına böyük təkan verəcəkdir. Həm də ki, kəndli yetişdirdiyi məhsulu mərkəzi şəhərlərə çıxarmaq imkanını əldə edibdir.

Cənab Prezident, Sizin rayonumuza hər səfəriniz zamanı həllini gözləyən bir çox problemlər yoluna qoyulur. Bu gün də təzə inşa edilmiş Gənclər evi və Bayraq Muzeyi bizə hədiyyə olunur.

Cənab Prezident, Allah-Taala qurub-yaradan, yol çəkən, su çəkən, ağac əkən, bina tikən, bağ salan insanları sevir, himayə edir və qoruyur. Siz bir lider olaraq, Azərbaycanı, xalqımızı, dövlətimizi işığa doğru, inkişafa doğru, təhsilə doğru, dünyəviliyə doğru, müasirliyə doğru və nura doğru inamla aparırsınız.

Cənab Prezident, bu, Heydər Əliyev siyasətinin təntənəsidir. Siz bu siyasəti daha da inkişaf etdirərək, bu gün Azərbaycanı bu səviyyəyə çatdırmısınız. Siz çox humanist və səxavətli rəhbərsiniz, bizim qayğımıza qalırsınız, şəhərlərimizi,

kəndlərimizi, yollarımızı abadlaşdırırsınız, bu işlərə səxavətlə çox böyük vəsait sərf edirsiniz.

Biz Sizə möhkəm cansağlığı arzu edirik. Biz Sizə və Mehriban xanıma minnətdarıq. Siz Azərbaycan uğrunda gecə-gündüz çalışırsınız, işləyirsiniz, Azərbaycanı dünya səviyyəsinə çıxarırsınız. Bu bizim fəxrimizdir. Biz Sizinlə fəxr edirik. Allah-Taaladan Sizə uzun ömür, cansağlığı diləyirəm. Allah-Taala Sizi və ailə üzvlərinizi qorusun. Sağ olun.

**İ l h a m  Ə l i y e v:** Sağ olun.

## Bayraq Muzeyinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Biləsuvarda Bayraq Muzeyinin açılışında iştirak etmişdir.*

*Dövlət başçısı muzeyin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Ötən əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətinin atributu olmuş üçrəngli, ay-ulduzlu bayrağın yenidən Azərbaycanın müstəqillik rəmzinə çevrilməsi ümummilli lider Heydər Əliyevin tarixi xidmətləri sayəsində mümkün oldu. Ölkəmiz müstəqilliyini bərpa edəndən sonra milli bayrağımız ilk dəfə ulu öndər tərəfindən Naxçıvanda qaldırıldı. İndi bu bayraq dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarında, mötəbər mərasimlərdə dalğalanır və hər bir azərbaycanlı Dövlət bayrağını özünün qürur mənbəyi hesab edir. Bu mühüm amili şərtləndirən əsas səbəblərdən biri də Prezident İlham Əliyevin dövlət atributlarımıza xüsusi ehtiramla yanaşmasıdır. Fərəhli haldır ki, indi əksər bölgələrimizdə də üçrəngli bayrağımızın şərəfinə muzeylər yaradılır, xüsusi layihələr həyata keçirilir.*

*Məlumat verildi ki, Bayraq Muzeyinin inşasına ötən il başlanılıb və bu ilin mayında başa çatdırılıbdır. Ümumi ərazisi 400 kvadratmetr olan muzey binası ikimərtəbəli olmaqla, sərgi zalından, inzibati və yardımçı otaqlardan ibarətdir. Muzeyin sərgi zalında ümumilikdə 6 bölmə yaradılıb. Burada Azərbay-*

*can xanlıqlar dövrünün xəritəsi, orta əsrlərə aid döyüşçüləri əks etdirən manekenlər, xanlıqların istifadə etdiyi bayraqlar, XIX əsr Azərbaycan şəhərlərinin gerbləri, qədim metal sikkələr, kağız pullar sərgilənir. Bundan əlavə, Azərbaycan Xalq Cümhuriyyəti, Azərbaycan SSR və müstəqillik dövrlərində qəbul edilmiş konstitusiyalar, gerblər, bayraqlar, Silahlı Qüvvələrin geyim formaları, ümummilli liderin andiçmə mərasimindən fotoşəkillər, ulu öndərin dövlət rəmzləri haqqında kəlamları, Prezident İlham Əliyevin andiçmə, Bayraq Meydanının açılışı mərasimlərində çəkilmiş fotoşəkilləri, poçt markaları, orden və medallar muzeyin ekspozisiyasına daxildir. Bayraq Muzeyi ümummilli lider Heydər Əliyevin adını daşıyan Mədəniyyət və istirahət parkında yaradılıb. Burada hündürlüyü 56 metr olan Dövlət bayrağı ucaldılıb, ətrafında fəvvarə kompleksi inşa edilib, postamentdə Azərbaycan Respublikasının gerbi, himni, xəritəsi əks olunubdur.*

## Gənclər evinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Biləsuvar Gənclər evinin açılışında iştirak etmişdir.*

*Dövlət başçısı Gənclər evinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Ölkəmizdə gənclər siyasətinin formalaşdırılması istiqamətində çoxşaxəli tədbirlər görülür. Ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olan dövlət gənclər siyasəti uğurlu nəticələrlə yadda qalır. 2005–2009-cu illəri əhatə edən Dövlət Proqramı bu prosesdə çox mühüm rol oynayıb. «Azərbaycan Gəncliyi 2011–2015-ci illərdə» Dövlət Proqramı da bu tədbirlərin məntiqi davamı olub. Bu gün ölkəmizdə gənclərin vətənpərvərlik, dövlətçilik prinsiplərinə, həmçinin tarixi və mədəni keçmişimizə, milli-mənəvi dəyərlərimizə rəğbət ruhunda tərbiyə olunması prioritet istiqamətlərdəndir. Əsas məqsəd təbii ki, onların*

*cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında yaxından iştirakına stimul verməkdir. Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, gənclərin intellektual və yaradıcı potensialının üzə çıxarılması, xüsusilə regionlarda yaşayan gənclərin fəallığının artırılması istiqamətində məqsədyönlü layihələr və proqramlar həyata keçirilir. Ölkəmizin bölgələrində müasir tələblərə cavab verən sosial infrastruktur obyektləri və gənclər evləri tikilir. Biləsuvar rayonunda inşa olunmuş Gənclər evi də bu məqsədə xidmət edir.*

*İnşasına ötən il başlanılan və bu ilin mayında başa çatdırılan Biləsuvar Gənclər evinin binası ikimərtəbəlidir. Ümumi sahəsi 1200 kvadratmetr olan binada ümummilli lider Heydər Əliyevin büstü qoyulub, ulu öndərin və Prezident İlham Əliyevin Biləsuvar rayonuna müxtəlif illərdə səfərlərini əks etdirən fotolardan ibarət guşələr yaradılıbdır. Bina öz funksionallığı ilə seçilir. Belə ki, burada müxtəlif tədbirlərin keçirilməsi üçün 256 yerlik akt və konfrans zalları yaradılıb. Rəqs zalının, internet-kafenin, fotostudiyanın, vətənpərvərlik klubunun, istedadların hazırlığı laboratoriyasının yerləşdiyi Gənclər evində şahmat, rəsm, dizayn dərnəkləri, xarici dil klubu fəaliyyət göstərəcəkdir.*

# AVSTRİYA RESPUBLİKASININ VİTSE-KANSLERİ HAYNTZ-KRİSTİAN ŞTRAXENİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*19 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Avstriya Respublikasının vitse-kansleri Hayntz-Kristian Ştraxenin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı Azərbaycan ilə Avstriya arasında əlaqələrin yaxşı səviyyədə olduğunu vurğulayaraq, Avstriyanın sabiq Prezidenti Hayntz Fişerin Azərbaycana və özünün Avstriyaya rəsmi səfərini məmnunluqla xatırlatdı. İqtisadi sahədə də əməkdaşlığın çox yaxşı səviyyədə olduğunu bildirən Prezident İlham Əliyev bir sıra Avstriya şirkətlərinin uzun illərdir Azərbaycanda uğurlu fəaliyyət göstərdiklərini vurğuladı. Dövlət başçısı əminliklə qeyd etdi ki, Avstriya Respublikasının vitse-kansleri Hayntz-Kristian Ştraxenin böyük nümayəndə heyəti ilə Azərbaycana səfər etməsi onların ölkəmizlə yaxından tanış olmaları üçün yaxşı imkan yaradacaq və səfər zamanı idman, nəqliyyat və digər sahələrdə əməkdaşlıqla bağlı aparılan danışıqlar ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafına öz töhfəsini verəcəkdir.*

*Vitse-kansler Hayntz-Kristian Ştraxe Avstriya Respublikasının Federal Kansleri Sebastian Kurtsun salamlarını dövlətimizin başçısına çatdırdı. Hayntz-Kristian Ştraxe qeyd etdi ki, böyük nümayəndə heyəti ilə ölkəmizə səfərinin əsas məqsədi yaxşı səviyyədə olan Avstriya–Azərbaycan əlaqələrini daha da dərinləşdirmək və əlaqələrimizin xoş ənənələrindən çıxış edə-*

*rək, bu işlərə töhfə vermək niyyətindən ibarətdir. O, iki ölkə rəsmiləri arasında təmasların əlaqələrimizin inkişafı baxımından önəmli olduğunu diqqətə çatdırdı. Hayntz-Kristian Ştraxe ölkələrimiz arasında iqtisadi və digər sahələrdə əməkdaşlığı dərinləşdirmək, strateji əhəmiyyətli məsələlərin müzakirəsi və konkret birgə layihələrin icrası məqsədilə Şuranın yaradılmasını və bu Şuranın iclaslarının mütəmadi olaraq keçirilməsini təklif etdi. O bildirdi ki, ölkəsi Avropa İttifaqından Azərbaycana investisiyaların cəlb olunması, Avstriya texnologiyalarının ölkəmizə gətirilməsi və burada istehsal olunan məhsulların ixrac edilməsində maraqlıdır. Qonaq, həmçinin qeyd etdi ki, Avstriya tərəfi Azərbaycan şirkətlərinin ölkəsində təmsil olunmasına da maraq göstərir və Azərbaycan məhsullarının Avropa İttifaqı bazarlarına çıxarılması işində ölkəmizə dəstək verməyə hazırdır.*

*Dövlətimizin başçısı Avstriya Kansleri Sebastian Kurtsun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Avstriyanın Federal Kanslerinə çatdırmağı xahiş etdi.*

**MALİ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB İBRAHİM BUBAKAR KEYTAYA**

Hörmətli cənab Prezident!

Mali Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Mali arasındakı əlaqələr daim inkişaf edəcək və genişlənəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza daim sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 sentyabr 2018-ci il*

**İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ,
SƏUDİYYƏ ƏRƏBİSTANI KRALI
ƏLAHƏZRƏT SALMAN BİN ƏBDÜLƏZİZ
AL SƏUDA**

Əlahəzrət!

Əziz qardaşım!

Səudiyyə Ərəbistanının milli bayramı – Krallıq Elan Edilməsi Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu bayram günündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Səudiyyə Ərəbistanının qardaş xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 sentyabr 2018-ci il*

**SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ VƏLİƏHDİ, BAŞ NAZİRİN MÜAVİNİ, MÜDAFİƏ NAZİRİ ƏLAHƏZRƏT MƏHƏMMƏD BİN SALMAN BİN ƏBDÜLƏZİZ AL SƏUDA**

Əlahəzrət!

Ölkənizin milli bayramı – Krallıq Elan Edilməsi Günü münasibətilə Sizi ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş xalqınıza daim sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 sentyabr 2018-ci il*

## BİR SIRA ÖLKƏLƏRİN PARLAMENT RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞ

*20 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 20-də Azərbaycan parlamentinin 100 illiyi münasibətilə keçiriləcək təntənəli iclasda iştirak etmək üçün ölkəmizə səfərə gəlmiş Cibuti Milli Assambleyasının Sədri Məhəmməd Əli Humədi, Oman Sultanlığı Dövlət Şurasının Sədri Yahya bin Məhfuz əl-Munzirini, Küveyt Millət Məclisinin Sədri Mərzuq Əli əl-Ğanimi, Pakistan Senatının Sədri Məhəmməd Sadiq Səncarini, Bolqarıstan Milli Assambleyasının Sədri xanım Sveta Karayançevanı, Qırğız Joqorku Keneşinin Sədri Dastanbek Cumabekovu, Misir Nümayəndələr Palatası Sədrinin birinci müavini Mahmud Əhməd Şərifi və ATƏT Parlament Assambleyasının prezidenti George Seretelini qəbul etmişdir.*

*Dövlət başçısı ilk növbədə, Azərbaycan parlamentinin yaradılmasının 100 illiyi münasibətilə keçirilən tədbirin önəmini vurğuladı və bu tədbirdə iştirak etmək üçün ölkəmizə səfərə gələn qonaqlara təşəkkür etdi. Dost ölkələrin nümayəndələrinin bu tədbirdə təmsil olunmasını ölkələrimiz arasında tərəfdaşlıq münasibətlərinin nümayişi kimi dəyərləndirən Prezident İlham Əliyev onların təmsil etdikləri ölkələrə səfərlərini məmnunluqla xatırlatdı. Dövlət başçısı bildirdi ki, ölkələrimiz arasında ikitərəfli münasibətlər çox yaxşı səviyyədədir və əlaqələrimiz müxtəlif sahələri əhatə edir. Prezident İlham Əliyev bildirdi ki, qonaqların ölkəmizə bu səfəri onların həm Azərbaycanla yaxından tanış olmaları üçün yaxşı imkan yaradacaq, həm də parlamentlərarası əməkdaşlığın genişləndirilməsi işinə öz töhfəsini verəcəkdir.*

*Küveyt Millət Məclisinin Sədri Mərzuq Əli əl-Ğanim Küveyt Dövlətinin Əmiri Sabah əl-Əhməd əl-Cabir əs-Sabahın salamlarını dövlətimizin başçısına çatdırdı. O, tədbirdə şəxsən Küveyt Dövlətinin Əmiri Sabah əl-Əhməd əl-Cabir əs-Sabahın tapşırığı ilə iştirak etdiyini söylədi. Mərzuq Əli əl-Ğanim Bakıya birinci dəfə səfər etdiyini vurğulayaraq bildirdi ki, paytaxtımıza gəldiyi ilk andan şəhərdəki gözəllik və inkişaf onlarda böyük təəssürat yaradıb. O, əminliklə bildirdi ki, belə tədbirlər parlamentlərarası əməkdaşlığın daha da möhkəmləndirilməsi, eyni zamanda, digər ölkələrin və xalqların Azərbaycanla daha da yaxınlaşması işinə xidmət edir. Küveytli qonaq Prezident İlham Əliyevə və Azərbaycan xalqına ən xoş arzularını çatdırdı. O, ölkəmizə məmnunluqla yenidən səfər edəcəklərinə ümidvar olduqlarını bildirdi.*

*Prezident İlham Əliyev Azərbaycanın beynəlxalq aləmdə fəal əməkdaşlıq həyata keçirdiyini və ölkəmizin dostlarının sayının gündən-günə artdığını vurğuladı.*

*Dövlətimizin başçısı Küveyt Dövlətinin Əmiri Sabah əl-Əhməd əl-Cabir əs-Sabahın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Küveyt Dövlətinin Əmirinə çatdırmağı xahiş etdi.*

## NATO BAŞ KATİBİNİN MÜAVİNİ ROUZ GOTTEMÜLLERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*20 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 20-də NATO baş katibinin müavini xanım Rouz Gottemüllerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Xanım Rouz Gottemüller NATO-nun baş katibi Yens Stoltenberqin salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə Azərbaycan ilə NATO arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi, Azərbaycan Prezidenti İlham Əliyevin NATO mənzil-qərargahına səfərlərinə toxunuldu, dövlət başçısının son səfərinin önəmi qeyd olundu. Bu ilin iyulunda NATO-nun Brüsseldə keçirilmiş Zirvə toplantısında Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və suverenliyinə dəstəyin ifadə olunması yüksək qiymətləndirildi.*

*Söhbət zamanı Azərbaycan hərbçilərinin Əfqanıstandakı sülhməramlı əməliyyatlara verdiyi dəstək yüksək dəyərləndirildi, Əfqanıstana daşımalar sahəsində Azərbaycanın rolu xüsusi vurğulandı, ölkəmizin Əfqanıstandakı missiyalara nəqliyyat, logistik dəstəyindən danışıldı və Azərbaycanın Əfqanıstan hökumətinə müxtəlif sahələrdə göstərdiyi yardımların əhəmiyyəti qeyd olundu. Azərbaycanın göstərdiyi bütün bu səylərə görə minnətdarlıq ifadə edildi.*

*Görüşdə, həmçinin ölkəmizin Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfə yüksək dəyərləndirildi.*

*Dövlət başçısı NATO-nun baş katibi Yens Stoltenberqin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını NATO-nun baş katibinə çatdırmağı xahiş etdi.*

## TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ BİNƏLİ YILDIRIM İLƏ GÖRÜŞ

*21 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də Türkiyə Böyük Millət Məclisinin Sədri Binəli Yıldırımla görüşmüşdür.*

*Dövlət başçısı Azərbaycan parlamentinin yaradılmasının 100 illiyi münasibətilə keçirilən təntənəli iclasda iştirakına görə Binəli Yıldırıma təşəkkürünü bildirdi. Binəli Yıldırımın parlamentin Sədri kimi də ilk rəsmi səfərini Azərbaycana etməsinin önəmini qeyd edən Prezident İlham Əliyev onun yenidən ölkəmizə səfərindən məmnunluğunu bildirdi.*

*Görüşdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın bu yaxınlarda Azərbaycana səfəri xatırlandı və Bakının işğaldan azad edilməsinin 100 illiyi münasibətilə keçirilmiş möhtəşəm parad ölkələrimiz arasında dostluğun və qardaşlığın parlaq nümunəsi kimi dəyərləndirildi.*

*Söhbət zamanı Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün istiqamətlərdə, o cümlədən parlamentlərarası əməkdaşlıq sahəsində uğurla inkişaf etdiyi bildirildi, əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə və genişlənəcəyinə əminlik ifadə olundu.*

## CÜDO ÜZRƏ DÜNYA ÇEMPİONATININ AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*21 sentyabr 2018-ci il*

*Milli Gimnastika Arenası*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri sentyabrın 21-də Bakıda Milli Gimnastika Arenasında keçirilən cüdo üzrə dünya çempionatının təntənəli açılışı mərasimində iştirak etmişlər.*

*Mərasimdə Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer, dövlət və hökumət rəsmiləri də iştirak edirdilər.*

*Azərbaycanın tarixi abidələri, idmanın, o cümlədən cüdonun inkişafı, ölkəmizdə keçirilən beynəlxalq idman yarışları ilə bağlı videoçarx nümayiş olundu.*

*Azərbaycan Cüdo Federasiyasının prezidenti Rövnəq Abdullayev və Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer mərasimdə çıxış etdilər.*

**Rövnəq Abdullayev** *(Azərbaycan Cüdo Federasiyasının prezidenti):* Hörmətli qonaqlar, əziz dostlar!

Azərbaycan Cüdo Federasiyasının adından hər birinizi ölkəmizin paytaxtı Bakı şəhərində keçirilən 2018-ci il cüdo üzrə dünya çempionatının açılışı münasibətilə salamlayır, yarış iştirakçılarına uğurlar arzulayıram.

Füsunkar təbiətə və qədim tarixə malik Azərbaycan torpağına xoş gəlmisiniz!

Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə Azərbaycanda bədən tərbiyəsi və idmana dövlət səviyyəsində göstərilən qayğı gündən-günə artır. Yeni idman kompleksləri tikilir, idmanın maddi-texniki bazası möhkəmləndirilir, bu istiqamətdə

böyük layihələr həyata keçirilir. Azərbaycan artıq beynəlxalq qurumların etimadını qazanıb və bir çox mötəbər tədbirlərə yüksək səviyyədə ev sahibliyi edibdir. 2015-ci ildə birinci Avropa oyunları, 2017-ci ildə IV İslam Həmrəyliyi oyunları, eləcə də bir çox idman növləri üzrə ölkəmizdə keçirilmiş Avropa və dünya çempionatları yüksək təşkilatçılıq səviyyəsi ilə dünya idman ictimaiyyətinin dərin rəğbətini qazanıbdır.

Biz ilk dəfə cüdo üzrə dünya çempionatına ev sahibliyi edirik. Bu böyük etimada görə Beynəlxalq Cüdo Federasiyasına dərin minnətdarlığımı bildirirəm. İnanıram ki, bu möhtəşəm tədbir respublikamızda cüdonun daha geniş təbliğ olunması baxımından çox böyük əhəmiyyət daşıyacaq. Artıq deyə bilərik ki, cüdo Azərbaycanda populyar idman növlərindəndir və ölkəmizin bütün bölgələrində cüdo ilə məşğul olurlar.

Əmin olduğumu bildirmək istəyirəm ki, Bakı çempionatı idman həvəskarları üçün möhtəşəm bir bayrama çevriləcək. Azərbaycanın cüdo azarkeşləri ilk dəfə olaraq, dünyanın ən güclü cüdoçularının tatami üzərində mübarizəsini canlı izləmək fürsəti əldə edəcəklər. Şübhə etmirəm ki, çempionatın bütün iştirakçıları bu böyük idman mübarizəsində qazanılan nəticələrdən asılı olmayaraq, Azərbaycandan xoş təəssüratlarla ayrılacaq, ölkəmiz və xalqımız haqqında xatirələr hər bir cüdoçunun yaddaşında silinməz izlər qoyacaqdır.

Sonda hamınıza unudulmaz anlar, güclü rəqabət və uğurlar arzu edirəm.

**Marius Vizer** *(Beynəlxalq Cüdo Federasiyasının prezidenti)*: Zati-aliləri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Mehriban xanım Əliyeva!

Azərbaycan Respublikasının Gənclər və İdman naziri Azad Rəhimov, Azərbaycan Cüdo Federasiyasının prezidenti Rövnəq Abdullayev, hörmətli qonaqlar, xanımlar və cənablar, hörmətli idmançılar və tamaşaçılar!

İcazə verin, Beynəlxalq Cüdo Federasiyası adından və ümumiyyətlə, cüdo ailəsi adından Azərbaycan Respublikasına bu

mötəbər tədbiri gözəl təşkil etdiyinə görə öz təşəkkürümü bildirim. Bakıdakı tədbir doğrudan da çox gözəldir, eyni zamanda, dostluq və qonaqpərvərlik bütün iştirakçıları valeh edir. Azərbaycan yalnız yüksək iqtisadi göstəricilərə malik bir ölkə deyil, eyni zamanda, mədəniyyət, idman, incəsənət və digər sahələrə böyük sərmayələr yatıran bir ölkədir. Bir çox mötəbər idman tədbirlərini, Avropa və dünya çempionatlarını təşkil edən, həmçinin bir çox idman layihələrini həyata keçirən Azərbaycan artıq dünyada inkişafa və firavan yaşayışa töhfə verən bir ölkədir.

Hər birinizə bu mötəbər yarışlarda uğurlar diləyirəm. Ümid edirəm ki, Bakı şəhərindən zövq alacaqsınız, öz mədəniyyətinizlə yerli mədəniyyət arasında mübadilə aparmaq və qarşılıqlı münasibət qurmaq imkanı qazanacaqsınız. Bütün idmançılara və iştirakçılara, hər birinizə ən xoş arzularımı çatdırmaq istəyirəm.

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cüdo üzrə dünya çempionatını açıq elan etdi.*

*Azərbaycan Respublikasının Dövlət himni və Beynəlxalq Cüdo Federasiyasının himni səsləndirildi.*

*Daha sonra qrafik video elementlərdən ibarət videoçarx nümayiş etdirildi. Azərbaycanın incəsənət xadimlərinin məxsusi olaraq tədbir üçün hazırlanmış çıxışları təqdim olundu. Açılış mərasimi məşhur italiyalı müğənni Al Banonun konsert proqramı ilə başa çatdı.*

*Mərasimin sonunda Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri Avropa Olimpiya Komitələrinin sabiq prezidenti, cüdo veteranı Patrik Hikki və dünya şöhrətli müğənni Al Bano ilə çay süfrəsi arxasında söhbət etdilər.*

*Xatırladaq ki, sentyabrın 27-dək davam edəcək cüdo üzrə dünya çempionatında 125 ölkədən 800-dək idmançı mübarizə aparır. Azərbaycan çempionatda 9 kişi və 6 qadın idmançı ilə təmsil olunur.*

## BEYNƏLXALQ CÜDO FEDERASİYASININ PREZİDENTİ MARİUS VİZER İLƏ GÖRÜŞ

*21 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri sentyabrın 21-də Bakıda keçirilən cüdo üzrə dünya çempionatının təntənəli açılışı mərasimi çərçivəsində Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer ilə görüşmüşlər.*

*Görüşdə Bakıda cüdo üzrə dünya çempionatının yüksək səviyyədə keçirildiyi qeyd olundu. Azərbaycanın mötəbər idman tədbirlərinin mütəmadi olaraq keçirildiyi bir məkana çevrildiyi bildirildi.*

*Söhbət zamanı Azərbaycanın beynəlxalq idman əməkdaşlığına töhfə verdiyi, ölkəmizdə idmana dövlət səviyyəsində qayğı göstərildiyi və Azərbaycan idmançılarının böyük uğurlar əldə etdikləri qeyd olundu.*

*Beynəlxalq Cüdo Federasiyası ilə uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirilən görüşdə Azərbaycanın bu qurumun fəal üzvlərindən biri olduğu vurğulandı, gələcəkdə əməkdaşlığın daha da genişləndiriləcəyinə əminlik ifadə edildi.*

*Sonra Mehriban Əliyevaya idman aləmində və «Ədalətli oyunlar»ın təbliğində nümunəvi nailiyyətlərinə görə Beynəlxalq Ədalətli Oyunlar Komitəsinin «Xüsusi xidmətlərə görə» medalı təqdim olundu.*

# AZƏRBAYCAN PARLAMENTİNİN 100 İLLİYİ MÜNASİBƏTİLƏ KEÇİRİLƏN MƏRASİMDƏ İŞTİRAK

*Milli Məclis*

*21 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xaricdən dəvət olunmuş çoxsaylı qonaqlar sentyabrın 21-də Milli Məclisdə Azərbaycan parlamentinin 100 illiyi münasibətilə keçirilən təntənəli iclasda iştirak etmişlər.*

*Dövlət başçısı iclasda nitq söylədi.*

## Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

Hörmətli deputatlar!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Mən sizin hamınızı Azərbaycan parlamentinin yaradılmasının 100 illiyi münasibətilə ürəkdən təbrik edirəm.

Bizim tədbirlərdə iştirak edən bütün xarici qonaqları salamlayıram, onlara «Xoş gəlmisiniz!» – deyirəm.

4 ay bundan əvvəl biz Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini təntənəli şəkildə qeyd etdik. Bu, tarixi hadisə idi. Çünki ilk dəfə idi ki, müsəlman aləmində demokratik respublika yaradılmışdır və Azərbaycan xalqı haqlı olaraq fəxr edir ki, bu respublikanı biz yaratmışıq.

Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı. Ancaq buna baxmayaraq, Azərbaycan Demokratik Respublikası bir çox işləri görə bildi. Dövlət atributları təsis edildi və bu gün bizim Dövlət bayrağımız, Dövlət himnimiz Azərbaycan Xalq

Cümhuriyyəti tərəfindən qəbul edilmiş dövlət atributlarıdır. Azərbaycan dili rəsmi dil kimi elan edilmişdir. İyunun 26-da Azərbaycan Milli Ordusu yaradılmışdır ki, bir neçə ay bundan sonra Qafqaz İslam Ordusu ilə birlikdə Azərbaycan Milli Ordusu və könüllülər Bakını işğalçılardan azad etdilər.

Təhsillə bağlı çox önəmli qərarlar qəbul edilmişdir, o cümlədən Bakı Dövlət Universitetinin yaradılması haqqında qərar qəbul olunmuşdur. Gələn il biz Bakı Dövlət Universitetinin 100 illiyini qeyd edəcəyik.

Bir çox qanunlar qəbul edilmişdir, daha doğrusu, 200-dən çox qanun qəbul edilmişdir. Qadınlara səsvermə hüququ verilmişdir. Qısa müddət ərzində Azərbaycan Xalq Cümhuriyyəti böyük işlər gördü. Bu gün Azərbaycan xalqı, Azərbaycan dövləti Azərbaycan Xalq Cümhuriyyətinin və onun qurucularının fəaliyyətini yüksək qiymətləndirir. Təsadüfi deyil ki, 2018-ci il mənim sərəncamımla «Azərbaycan Xalq Cümhuriyyəti ili» elan edilmişdir.

Bu il biz Azərbaycanda və bir çox xarici ölkədə Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı önəmli tədbirlər keçirmişik. Azərbaycanda müntəzəm olaraq tədbirlər keçirilir. Onların sırasında, əlbəttə ki, 28 May Respublika Günü ilə əlaqədar keçirilmiş təntənəli tədbirləri xüsusilə qeyd etmək istərdim. Ondan sonra Azərbaycan Milli Ordusunun 100 illiyinə həsr edilmiş möhtəşəm hərbi paradı qeyd etməliyəm. Bir neçə gün bundan əvvəl – sentyabrın 15-də ikinci möhtəşəm hərbi parad keçirildi. Bakının işğalçılardan azad edilməsi günü təntənəli şəkildə qeyd edildi. O gün Qafqaz İslam Ordusu, Azərbaycan Milli Ordusu və könüllülər Bakını işğalçılardan azad etmişlər. Azərbaycan hökuməti 2 gündən sonra Gəncədən Bakıya köçə bilmişdir. Bizim tarixi şəhərimiz, Azərbaycan xalqının qədim şəhəri Bakı öz sahiblərinə qaytarılmışdır.

Əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı, süqut etdi və Azərbaycan dövlət müstəqilliyini itirdi. Bu onu göstərir ki, müstəqilliyi qoruyub saxlamaq onu əldə

etməkdən daha çətin işdir. 1991-ci ildə Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan XX əsrdə ikinci dəfə müstəqilliyə qovuşdu. Bu, tarixi şans, tarixi xoşbəxtlik idi. Çünki Azərbaycan xalqı əsrlərboyu müstəqillik, azadlıq eşqi ilə yaşamışdır. Ancaq uzun illər ərzində başqa dövlətlərin tərkibində idi. 1991-ci ildə ikinci dəfə bizə belə imkan yarandı. Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illəri Azərbaycanda çox böyük fəlakətlərlə müşayiət olunurdu. Ölkə iqtisadiyyatı ağır vəziyyətdə idi, siyasi proseslər vəziyyəti gərginləşdirirdi, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti vüsət alırdı, daxildə çəkişmələr imkan vermirdi ki, Azərbaycan uğurla inkişaf etsin. 1992-ci ildə dövlət çevrilişindən sonra vəziyyət daha da ağırlaşdı və Azərbaycan çox çətin çağırışlarla üz-üzə qaldı. Hakimiyyətə gəlmiş qüvvələr ölkəmizi uçuruma aparırdı, ölkəmizdə siyasi-iqtisadi böhran dərinləşirdi, Ermənistan işğalçılıq siyasətini genişləndirirdi, torpaqlarımız işğal altına düşürdü, iqtisadiyyat tamamilə iflic olmuşdu və ölkəmizdə vətəndaş müharibəsinə start verildi, qardaş qanı töküldü. Bu ağır, çətin günlərdə Azərbaycan xalqı müdriklik göstərərək, yeganə düzgün addım atdı, Heydər Əliyevi hakimiyyətə dəvət etdi və bu tarixi addım ölkəmizin müasir tarixində dönüş nöqtəsi oldu.

Heydər Əliyevə Azərbaycan xalqının rəğbəti, dəstəyi həmişə çox böyük olub. Bunun əsas səbəbi ondan ibarətdir ki, o, Azərbaycana sovet dövründə rəhbərlik edən zaman respublikamızın uğurlu inkişafına təkan verib. O vaxt Azərbaycan sovet məkanında 15 respublikadan fərqlənirdi, çünki Rusiyadan başqa, cəmi 2 respublika donor kimi fəaliyyət göstərirdi, onlardan biri Azərbaycan idi. Azərbaycan ən geridə qalmış yerdən Heydər Əliyevin dövründə, keçən əsrin 80-ci illərinin əvvəllərində ən qabaqcıl yerlərə çıxmış və insanların rifah halı yüksək dərəcədə yaxşılaşmışdı. Digər səbəblər isə ağır günlərdə Heydər Əliyevin cəsarətli addımları ilə bağlıdır. 20 Yanvar faciəsindən sonra o, dərhal sovet hökumətinin Azərbaycan xalqına qarşı törətdiyi

cinayəti rəsmən pislədi, Kommunist Partiyasından çıxdı və Azərbaycan xalqı onun simasında liderini gördü. Ondan sonrakı dövr Naxçıvan Muxtar Respublikası ilə bağlıdır. Azərbaycan Xalq Cümhuriyyətinin bayrağının məhz Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanın Ali Məclisinin iclasında rəsmi Dövlət bayrağı kimi tanınması tarixi hadisə idi. Deyə bilərəm ki, bu, müstəqilliyə aparan önəmli addımlardan biri idi.

Bütün dövrlərdə Heydər Əliyev xalqla birlikdə idi. Məhz buna görə ağır, faciəvi günlərdə Azərbaycan xalqı ona müraciət etdi. 1993-cü il iyunun 15-də bu zalda parlamentin iclasında Heydər Əliyev Azərbaycan parlamentinin Sədri vəzifəsinə seçildi. Bir daha demək istəyirəm ki, müasir tariximizdə bu, dönüş nöqtəsi idi. Ondan sonra vəziyyət sabitləşməyə doğru getməyə başladı, vətəndaş müharibəsinə son qoyuldu, qanunsuz silahlı birləşmələr tərk-silah edildi, nizami ordu quruculuğu istiqamətində önəmli addımlar atıldı, Azərbaycan beynəlxalq təcriddən çıxa bildi. Çünki o vaxta qədər dünyadakı erməni lobbisi belə bir təsəvvür yaratmışdı ki, guya Azərbaycan təcavüzkar dövlətdir və Azərbaycan Ermənistana qarşı təcavüz edir. Halbuki əksinə, bizim torpaqlarımız işğal altındadır.

Azərbaycana böyük həcmdə sərmayə qoyuluşunun təmin edilməsində Heydər Əliyevin müstəsna rolu vardır. Dünən biz «Əsrin kontraktı»nın 24-cü ildönümünü qeyd etdik və «Əsrin kontraktı» olmadan Azərbaycanın bugünkü sürətli inkişaf dinamikasını təsəvvür etmək mümkün deyil.

Bu gün Azərbaycan uğurla inkişaf edir və mən bu inkişafda Azərbaycan parlamentinin rolunu xüsusilə qeyd etmək istəyirəm. Azərbaycan parlamenti həm Heydər Əliyevin dövründə, həm də bu gün öz fəaliyyəti ilə ölkəmizin müstəqilliyini möhkəmləndirir, sürətli inkişafını təmin edir, bu inkişafa öz töhfəsini verir. Bir çox qanunlar qəbul edilibdir. Demək olar ki, bu qanunlar həyatımızın bütün sahələrini əhatə edir. Bizim qanunvericilik bazamız ən yüksək meyarlara cavab verir. Biz bir çox beynəlxalq konvensiyalara qoşulmuşuq və azadlıqların

təmin edilməsində, demokratik inkişafla bağlı siyasətimizin aparılmasında Azərbaycan parlamentinin çox böyük rolu vardır. Azərbaycan parlamenti ölkəmizdə çoxpartiyalı sistemin təkmilləşdirilməsində önəmli rol oynayır. Parlamentdə bir çox partiyaların nümayəndələri fəaliyyət göstərir və əlbəttə ki, onların müxtəlif məsələlərə fərqli baxışları vardır. Ancaq mən çox şadam ki, milli maraqlarla bağlı məsələlərdə bizim deputatlar bir nöqtəyə vurur və vətənpərvərlik göstərərək, Azərbaycan dövlətinin maraqlarını beynəlxalq müstəvidə müdafiə edirlər. Parlament diplomatiyası Azərbaycanda diplomatik sahədə önəmli rol oynayır. Mən qeyd etməliyəm ki, Azərbaycan deputatları beynəlxalq təşkilatlar çərçivəsində çox fəal iş aparırlar. Bu, Azərbaycan xalqı tərəfindən də qiymətləndirilir, mən də bunu izləyirəm və deməliyəm ki, doğrudan da çox böyük iş aparılır. Azərbaycan deputatları bir çox parlamentlərarası assambleyalarda ölkəmizdə gedən proseslər, iqtisadi, siyasi islahatlarla bağlı Azərbaycan həqiqətlərini çatdırır, lazım olan vaxtda Azərbaycanı çox ciddi müdafiə edir, haqq-ədaləti bərpa edir, imkan vermirlər ki, Azərbaycana qarşı əsassız ittihamlar hansısa qərarlara gətirib çıxarsın.

Əlbəttə ki, Azərbaycan deputatlarının fəaliyyətinin əsas istiqaməti Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dünya birliyinə, öz həmkarlarına həqiqətlərin çatdırılmasıdır. Mən hesab edirəm ki, bu işdə çox böyük uğurlara nail olmuşuq. Son illərdə bir neçə təşkilat, o cümlədən Avropa Şurası Parlament Assambleyası, Avropa Parlamenti Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli, beynəlxalq hüquqa söykənən, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən qətnamələr qəbul etmişlər və bu sahədə fəaliyyət davam etdiriləcək. Mən əminəm ki, Azərbaycan parlamenti bundan sonra da həm ölkə daxilində gedən proseslərin sürətləndirilməsinə, həm də Azərbaycanın bey-

nəlxalq imicinin möhkəmləndirilməsinə öz müsbət töhfəsini verəcəkdir.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ən böyük ədalətsizlikdir. Dağlıq Qarabağ Azərbaycanın əzəli və tarixi torpağıdır. Əsrlərboyu Azərbaycan xalqı bu torpaqlarda yaşayıb, yaradıbdır. Bu torpaqların tarixi toponimləri, tarixi abidələri, bizim milli irsimiz onu göstərir ki, bu torpaqlarda Azərbaycan xalqı əsrlərboyu yaşayıb. Bu gün bu torpaqlar işğal altındadır. Nəinki Dağlıq Qarabağ, onun ətrafında yerləşən 7 rayon da Ermənistan tərəfindən işğal edilib. Bu torpaqlarda bütün infrastruktur dağıdılıb. Dağıdılmış şəhərlərimizin şəkilləri internetdə dərc edilir, bunu hər kəs görə bilər. Bizim bütün milli sərvətimiz, muzeylərimiz ermənilər tərəfindən talan edilib, tarixi abidələrimiz, məscidlərimiz dağıdılıb. Azərbaycan xalqına qarşı hərbi cinayət törədilib. Xocalı soyqırımı törədilib, bir gecədə ermənilər 600-dən çox günahsız insanı, o cümlədən 100-dən çox qadını, 60-dan çox uşağı vəhşicəsinə qətlə yetiriblər. Bu gün 10-dan çox ölkənin parlamenti Xocalı soyqırımını rəsmən tanıyıb və bu proses bundan sonra da davam edəcəkdir.

Bütün beynəlxalq təşkilatlar münaqişə ilə bağlı qərar və qətnamələr qəbul edib. Onların arasında, əlbəttə ki, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini xüsusilə qeyd etmək istərdim. Bu qətnamələrdə açıq-aydın deyilir ki, Ermənistan silahlı qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Ermənistan 20 ildən çoxdur ki, bu qətnamələrə əməl etmir, onlara məhəl qoymur və beləliklə, öz işğalçılıq siyasətini davam etdirir. Əfsuslar olsun ki, beynəlxalq təşkilatlar da Ermənistana qarşı heç bir sanksiya tətbiq etmir. Hesab edirəm ki, bunun vaxtı gəlib çatıb. İşğalçıya qarşı çox ciddi tədbirlər görülməlidir və bu da ədalətli olardı. Bu məsələ ilə bağlı biz beynəlxalq təşkilatların fəaliyyət mexanizmlərinə də fikir verməliyik. Əgər dünyanın ən ali orqanı olan BMT Təhlükəsizlik Şurasının qətnamələri yerinə yetirilmirsə, onda, əlbəttə ki, bu orqanın nüfuzu o qədər də yüksək səviyyədə ola

bilməz. Münaqişənin həllinin bir yolu vardır – Ermənistan silahlı qüvvələri bizim torpaqlarımızdan çıxarılmalıdır, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməlidir və ondan sonra bölgədə sülh yarana bilər. Azərbaycanın ərazi bütövlüyü isə bütün dünya tərəfindən tanınır. Bütün ölkələr Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir.

Mən hesab edirəm ki, bundan sonrakı dövrdə Ermənistanın yeni rəhbərliyi bu məsələ ilə bağlı öz siyasətində ciddi düzəlişlər etməlidir. Çünki bu gün Ermənistandan səsləndirilən çox ziddiyyətli və bəzən cəfəng fikirlər münaqişənin həllinə yox, onun dərinləşməsinə xidmət göstərir. Azərbaycan öz prinsipial mövqeyindən geri dönməyəcək. Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır, beynəlxalq hüquq baxımından da Azərbaycan torpağıdır. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü bərpa edilməlidir.

Münaqişəyə, böyük humanitar fəlakətə baxmayaraq – 1 milyondan çox insan bu münaqişədən əziyyət çəkir – Azərbaycan inkişaf yolundadır, Azərbaycanın inkişafı çox sürətlidir. Ermənistan isə əksinə, getdikcə daha da zəifləyir. Ermənistanda bu ilin yazında baş vermiş çevriliş əslində göstərir ki, əvvəlki rejim xalqın dəstəyini tam itirmişdir. 20 il Ermənistana rəhbərlik etmiş rejim çökdü və bu bir daha göstərdi ki, onların işğalçılıq siyasəti iflasa uğradı. Eyni zamanda, beynəlxalq təşkilatlar da bu məsələ ilə bağlı gərək ciddi təhlil aparsınlar və özlərinə sual versinlər ki, necə ola bilər, Ermənistanda son müddət ərzində keçirilmiş parlament və Prezident seçkilərinə beynəlxalq müşahidəçilər müsbət reaksiya vermişlər?! Məgər onlar bilmirdilər ki, Ermənistanda bütün seçkilər kobudcasına saxtalaşdırılır? Bilmirdilər ki, orada əvvəlki rejimin hörməti sıfıra bərabərdir? Bilirdilər, ancaq hansısa səbəblərə görə göz yumurdular. İndi də Ermənistanda yaranmaqda olan yeni diktatura rejimi, demək olar ki, eyni siyasəti aparır. Siyasi rəqiblərə qarşı zorakılıq həyata keçirilir, siyasi rəqiblər həbsə

alınır, mətbuat nümayəndələrinə qarşı repressiyalar aparılır, mətbu orqanlar bağlanılır, dövlət orqanları siyasi rəqiblərinin həbsi ilə bağlı açıq-aşkar göstərişlər verir, bu göstərişləri bütün dünya eşidir. Bir dənə də olsun beynəlxalq təşkilat, xüsusilə mətbuatla, media azadlıqları, insan haqları ilə bağlı olan təşkilatlar səsini çıxarmır. Sual olunur, nəyə görə Ermənistanda gedən bu təhlükəli proseslərə beynəlxalq təşkilatlar reaksiya vermir? Bunun arxasında hansı səbəblər vardır? Bu çox ciddi araşdırılmalıdır. Biz onsuz da yaxşı bilirik ki, bəzi beynəlxalq təşkilatlar tərəfindən Azərbaycana qarşı ikili standartlar siyasəti aparılır. Biz buna öyrəşmişik və buna qarşı mübarizə aparırıq. Bizim mübarizəmiz çox tutarlı arqumentlərlə dəstəklənir. Bayaq qeyd etdiyim kimi, deputatlarımız bizə qarşı aparılan çirkin kampaniyalarla bağlı öz sözlərini tutarlı arqumentlərlə deyirlər. Bizə qarşı irəli sürülən ittihamlar 100 faiz saxtadır, yalandır, ikili standartlar əsasındadır və siyasi məqsədlər güdür. Onu da bildirməliyəm ki, bu hücumlar, bu ittihamlar bizim siyasi iradəmizə zərrə qədər təsir etmir və etməyəcəkdir. Amma Ermənistan açıq-aşkar repressiya siyasətini aparır, medianı boğur, siyasi opponentlərini həbsə alır, Baş Nazir onların həbsi ilə bağlı göstəriş verir və buna heç bir reaksiya verilmir. Bu çox düşündürücü məsələdir və hesab edirəm ki, beynəlxalq təşkilatlar bizim bu sualımıza mütləq cavab verməlidirlər. Verməsələr, deməli, onlar bu yeni yaranan diktatura rejimi ilə əlbirdirlər.

Ermənistanda gedən proseslərə baxdıqda istər-istəməz müəyyən paralellər meydana çıxır. 1992-ci ildə Azərbaycanda da hakimiyyətə insanlar meydanlardan, küçələrdən gəlmişdilər. Onların heç bir təcrübəsi, siyasi biliyi yox idi. Onlar iqtisadiyyatın nə olduğunu bilmirdilər. Ümumiyyətlə, onlar cəmiyyətdə elementar davranış qaydalarını gözləmirdilər. Nəticədə Azərbaycan xalqı o hakimiyyətə cəmi 1 il dözə bildi və ondan sonra onlar siyasi səhnədən birdəfəlik çıxarıldılar. Ermənistanda da biz eyni mənzərəni görürük. Meydanda çığı-

rıb-bağıranlar bu gün yüksək postlara təyin olunur, heç bir təcrübəsi olmayan insanlar bu gün Ermənistanın taleyini həll edirlər. Yeni hökumət tərəfindən atılan addımlar onu göstərir ki, bu adamların heç bir biliyi, hazırlığı yoxdur və bu, nəinki Ermənistan üçün, bölgə üçün böyük təhlükə mənbəyidir. Bir tərəfdən – mən bunu artıq bir dəfə demişəm – indiki Ermənistan hakimiyyəti nə qədər çox hakimiyyətdə qalsa, bizim üçün bir o qədər yaxşıdır. Çünki o, mövcud olan problemlərin üstünə problemlər gətirir. Onsuz da Ermənistan işğalçılıq siyasətinə görə böhran, tənəzzül içindədir. Rəsmi statistikaya görə orada yoxsulluq 30 faizə, amma real vəziyyətdə 50 faizə çatır. Kütləvi işsizlik, depopulyasiya, insanların kütləvi şəkildə köçü baş verir. İqtisadi inkişaf üçün heç bir əsas yoxdur. Heç kim investisiya qoymaq istəmir, bazar məhduddur, xarici bazarlara çıxış yoxdur. Bu mövcud problemlər, üstəgəl onların işğalçılıq siyasəti faktiki olaraq, əvvəlki kriminal rejimin çökməsinə gətirib çıxardı. Amma biz görürük ki, indi yeni hökumət də eyni yolla getmək istəyir. Bu ağır, çətin vəziyyətdən xilas üçün Ermənistanın yeganə yolu var, o da bizim torpaqlarımızdan çıxmaqdır. Ondan sonra onların inkişafı üçün şərait yaradıla bilər. Əgər onlar işğalçılıq siyasətini davam etdirmək istəyirlərsə, bilməlidirlər ki, bunun axırı olmayacaq. Bunun axırı onlar üçün çox pis olacaqdır.

Baxmayaraq ki, torpaqlarımız işğal altındadır, 1 milyondan çox məcburi köçkün və qaçqınımız var, Azərbaycan uğurla inkişaf edir və inkişaf üçün çox gözəl perspektivlər vardır. Dağlıq Qarabağ heç vaxt Azərbaycanın suverenliyindən kənarda heç bir status almayacaq. Heç vaxt Azərbaycan xalqı və dövləti imkan verməyəcək ki, onun əzəli, tarixi, hüquqi torpağı ondan ayrılsın. Qoy Ermənistan bu xülyalarla yaşamasın. Qoy Ermənistan rəhbərliyi öz xalqını aldatmasın. Biz bütün imkanlardan istifadə edirik və edəcəyik ki, ərazi bütövlüyümüzü bərpa edək və bu istiqamətdə çox önəmli addımlar atılıbdır. Qeyd etdiyim kimi, beynəlxalq təşkilatlar bizim mövqemizi

dəstəkləyir. Təkcə BMT Təhlükəsizlik Şurası deyil, BMT Baş Assambleyası, ATƏT, Avropa Şurası Parlament Assambleyası, «Qoşulmama Hərəkatı», İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti və digər təşkilatlar bizim mövqemizi dəstəkləyir. Bu il Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanmış Tərəfdaşlıq Prioritetləri adlı sənəddə Azərbaycanın suverenliyi, sərhədlərinin toxunulmazlığı, ərazi bütövlüyü dəstəklənir. Bu, Avropa İttifaqının mövqeyidir. Qonşu dövlətlər bizim ərazi bütövlüyümüzü tanıyır və dəstəkləyir. İslam Əməkdaşlıq Təşkilatı dəfələrlə münaqişə ilə bağlı qətnamələr qəbul edibdir. Onların hamısı bizim mövqemizi müdafiə edir. Yəni bu, məsələnin beynəlxalq hüquqi tərəfidir. Real həyatda biz nəyi görürük: Ermənistan uğursuz dövlətdir. Əgər bir ölkəni 20 il ərzində kriminal xunta rejimi idarə edibsə – müstəqilliyi cəmi 26 il olan dövlətdən söhbət gedir – onda bu dövlətə hansı ad vermək olar? Ancaq uğursuz dövlət. Bu uğursuzluq əslində onların işğalçılıq siyasəti nəticəsində olmuşdur. Əgər işğalçılıq siyasəti olmasaydı, onlar Azərbaycanın imkanlarından faydalana bilərdilər. Azərbaycansız bölgədə heç bir təşəbbüs, heç bir layihə həyata keçirilə bilməz və getdikcə bizim gücümüz – siyasi çəkimiz, iqtisadi potensialımız, hərbi gücümüz artır, beynəlxalq mövqelərimiz möhkəmlənir. Bu gün bizim siyasətimiz – mən bunu bir daha demək istəyirəm, bu, sirr deyil – Ermənistanı tam təcrid edilmiş vəziyyətə salmaqdır, iqtisadi dayaqlarını – ona dayaq da demək olmaz – çökdürməkdir. Nəyə görə? Çünki biz torpaqlarımızı istəyirik. Bizə deyirlər ki, məsələni sülh yolu ilə həll edin. Biz də çalışırıq ki, bunu edək. Amma bunu etmək üçün gərək sənin qarşında adekvat bir tərəf olsun. Biz bu adekvatlığı görmürük. İndi Ermənistanın qeyri-adekvat addımları, hərəkətləri, yüksək kürsülərdən səsləndirilən bəyanatları bu ölkəni daha da ağır vəziyyətə salacaq. Onunla bizim işimiz yoxdur. Amma bu, münaqişənin həlli üçün indi böyük problemə çevrilir.

Biz bundan sonra da öz siyasətimizi aparacağıq. Bizim iqtisadi potensialımız da artır. İndi Ermənistanla Azərbaycan arasında fərq yer-göy qədərdir. Bu gün Azərbaycan iqtisadi cəhətdən inkişafda olan ölkədir, Ermənistan isə yoxsul, başqasının əlinə baxan, ianələrlə dolanan bir ölkədir. Biz, əlbəttə ki, bundan sonra da öz siyasətimizi aparacağıq.

Bir daha demək istəyirəm ki, Azərbaycan beynəlxalq məsələlərlə bağlı çox uğurlu siyasət aparır, qonşu ölkələrlə əlaqələrimiz ən yüksək səviyyədədir. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində çox böyük hörmətə layiqdir. Avropa İttifaqının üzvü olan 9 ölkə ilə bizim strateji tərəfdaşlıq haqqında sənədimiz var və bu il Tərəfdaşlıq Prioritetləri sənədi imzalanıbdır.

Bax, budur bizim uğurlu xarici siyasətimiz ki, bu gün daxili inkişafımıza da müsbət təsir göstərir. O ki qaldı iqtisadi sahəyə, son 15 il ərzində iqtisadi baxımdan Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə olmayıbdır. İqtisadiyyat 3,2 dəfə artıb və bu artım bu gün də davam edir. Təsadüfi deyil ki, cəmi 26 yaşı olan ölkəmiz Davos Dünya İqtisadi Forumunun iqtisadiyyatların rəqabətqabliyyətlilik hesabatına görə, dünya miqyasında 35-ci yerdədir. Təsəvvür edin, dünyada 200-dən çox ölkə vardır. Azərbaycan 35-ci yerdədir. Rəqabətqabliyyətliliyin hesablanması bütün sahələri əhatə edir, təkcə enerji resurslarını yox. Yenə də Davos Forumunun inkişaf edən ölkələr arasında inklüziv inkişaf indeksi üzrə hesablamalarına görə, Azərbaycan 3-cü yerdədir. Azərbaycan infrastrukturun səviyyəsinə görə dünya miqyasında 26-cı yerdədir. Bütün bunları biz yaratmışıq, yorulmaz fəaliyyət nəticəsində, xalq–iqtidar birliyi sayəsində. Ona görə bizim iqtisadi inkişafla bağlı fikirlərimiz çox ümidvericidir və çox müsbətdir.

Biz güclü ordu qurmuşuq. Bu il Bakıda 2 hərbi parad keçirilib – həm ordumuzun, həm də Bakının işğaldan azad edilməsinin 100 illiklərinə həsr edilmiş paradlar. Paradlarda nümayiş

etdirilən imkanlarımız hesab edirəm ki, çox təsirlidir. Bu gün beynəlxalq reytinqlərə görə, Azərbaycan Ordusu dünya miqyasında 50 ən güclü ordu sırasındadır və bu reallıqdır.

Bir sözlə, biz ölkəmizi bundan sonra da bu siyasətlə inkişaf etdirəcəyik. Bu gün biz innovasiyalara, texnologiyalara daha çox üstünlük veririk. Bir neçə gündən sonra Azərbaycan orbitə üçüncü süni peyki çıxaracaq. Azərbaycan artıq bir neçə ildir ki, kosmik klubun üzvüdür. Orbitdə 2 peykimiz var, 3-cüsü də çıxarılır.

Enerji siyasətimizə gəldikdə, bunun təsiri təkcə ölkəmizdə hiss olunmur, Azərbaycanın təşəbbüsü ilə bölgədə, Avrasiya məkanında həyata keçirilən layihələr önəm daşıyır. Biz dənizləri birləşdiririk. Xəzər dənizini neft kəmərləri ilə Qara dənizlə, Aralıq dənizi ilə, Azərbaycanı isə qaz xətti ilə Avropa ilə birləşdiririk. Bu gün həyata keçirilən «Cənub Qaz Dəhlizi» bölgədə ən böyük infrastruktur layihələrindən biridir, ümumi dəyəri 40 milyard dollara bərabərdir. Demək olar ki, bu layihə enerji xəritəsini tamamilə yenidən yaradır.

Əlbəttə ki, Azərbaycan öz coğrafi vəziyyətindən bundan sonra da uğurla istifadə edəcək. Nəqliyyat mərkəzlərindən birinə çevrilməyimiz artıq reallıqdır. Şərq–Qərb, Şimal–Cənub nəqliyyat dəhlizləri Azərbaycan ərazisindən keçir. Keçməyə də bilərdi, əgər biz bu coğrafiyaya böyük sərmayə qoymasaydıq, əgər qonşu ölkələrlə çox yaxşı münasibətlərimiz olmasaydı. Əgər hansısa ölkənin qonşularla münasibətləri yaxşı deyilsə, ölkə necə tranzit ölkəyə çevrilə bilər, bu, mümkün deyil. Ona görə də xarici siyasətimiz daxili vəziyyətimizin daha da yaxşı olmasına hesablanıb. Xarici siyasətimiz eyni zamanda, Azərbaycanda təhlükəsizliyin təmin edilməsində də mühüm rol oynayır. Azərbaycanda daxildə təhlükə mənbələri yoxdur. Mən bunu dəfələrlə demişəm. Biz özümüzü mümkün olan risklərdən öz siyasətimizlə, o cümlədən uğurlu xarici siyasətimizlə qoruyuruq. Eyni zamanda, dünyada təhlükəsizliyə töhfəmiz də getdikcə artır. Təkcə təhlükəsizliyə yox, biz təhlükəsizliyi

böyük dərəcədə şərtləndirən insanlararası, dinlərarası dialoqa da böyük töhfə veririk. Təsadüfi deyil ki, bu gün Azərbaycan dünya miqyasında multikulturalizmin mərkəzlərindən biri kimi tanınır. İlk növbədə, bu siyasət bizə lazımdır. Azərbaycanda bütün xalqların, dinlərin nümayəndələri çox rahat, bir ailə kimi yaşayırlar. Bu siyasət dünyaya lazımdır. Çünki bu gün dinlərarası məsələlər getdikcə narahatlıq doğurur. Toqquşmalar, anlaşılmazlıq, ayrı-seçkilik, ksenofobiya – bütün bunları biz dünyada görürük. Biz öz siyasətimizi ortaya qoyuruq, öz nümunəmizi göstəririk. Bakıda keçirilən bir çox beynəlxalq tədbirlər ən böyük beynəlxalq təşkilatlar, o cümlədən BMT, UNESKO və digər təşkilatlar tərəfindən yüksək qiymətləndirilir.

Biz bu gün parlamentin 100 illiyini qeyd edirik. 100 il bundan əvvəl Azərbaycan parlamenti öz funksiyalarını tam şəkildə icra edə bilmirdi. Biz, əlbəttə, müstəqil dövlət idik, ancaq onu da hamımız bilməliyik ki, 1918–1920-ci illərdə müstəqilliyimiz tam deyildi. Azərbaycan çox zəif bir ölkə idi. Azərbaycan müstəqil həyatda ilk addımlarını atırdı. Ölkə daxilində kifayət qədər çox problemlər var idi, hökumət ölkə ərazisinə tam nəzarət edə bilmirdi. Deyə bilmərəm ki, biz o vaxt beynəlxalq təcriddən tam çıxa bilmişdik. Bizi qəbul etməyənlər də var idi. Biz tarixi yaxşı bilirik. Bu gün isə Azərbaycan dünya xəritəsində bir uğur nümunəsidir. Bu gün Azərbaycan tam müstəqil siyasət aparır. Qeyd etdiyim bütün məsələlər – xarici siyasətlə, daxili siyasətlə, iqtisadiyyatla bağlı olan bütün nailiyyətlər bu məqsədə xidmət göstərir ki, bizim müstəqilliyimiz daha da möhkəmlənsin. Müstəqillik təkcə dövlət atributları deyil. Sən müstəqil siyasət apara bilirsən, yoxsa yox? Bunu uğurla apara bilirsən, yoxsa yox? Bu müstəqil siyasət sənə xeyir gətirir, yoxsa yox? Bax, bu suallara müsbət cavab verdikdə əminliklə deyə bilərik ki, bu gün müstəqil siyasət aparan Azərbaycan öz milli maraqlarını tam şəkildə

təmin edir. Azərbaycan parlamentinin bu işlərdə önəmli rolu vardır.

Əziz dostlar, deputatlar, sizi bu gözəl hadisə münasibətilə bir daha təbrik edirəm. Sizə yeni uğurlar arzulayıram. Sağ olun.

* * *

*Sonra Azərbaycan parlamentinin 100 illiyi münasibətilə təşkil olunmuş təntənəli iclasın iştirakçıları xatirə şəkli çəkdirdilər.*

*Təntənəli iclas işini çıxışlarla davam etdirdi.*

## III AZƏRBAYCAN BEYNƏLXALQ MÜDAFİƏ SƏRGİSİNİN İŞTİRAKÇILARINA

Hörmətli sərgi iştirakçıları və qonaqlar!

Sizi «ADEX–2018» III Azərbaycan Beynəlxalq Müdafiə Sərgisinin açılışı münasibətilə salamlayıram.

Artıq ənənəvi xarakter almış «ADEX» sərgisi beynəlxalq hərbi-texniki əməkdaşlığın inkişafı, ən müasir silah və texnologiyaların nümayiş etdirilməsi üçün mühüm tədbirə çevrilibdir. Sərgi dünyanın tanınmış hərbi sənaye müəssisələrini, nüfuzlu xarici şirkət və təşkilatları, o cümlədən rəsmi nümayəndə heyətlərini və mütəxəssisləri eyni məkanda toplayaraq, işgüzar əlaqələrin qurulması və yeni müqavilələrin imzalanması üçün səmərəli platformaya çevrilibdir.

Ərazisinin 20 faizi işğal altında olan Azərbaycan Respublikası müdafiə qabiliyyətinin artırılmasına və silahlı qüvvələrinin maddi-texniki təchizatının gücləndirilməsinə daim xüsusi önəm verir. Azərbaycan hərbi-texniki sahədə dünyanın qabaqcıl ölkələri ilə əməkdaşlığını inkişaf etdirməklə yanaşı, güclü müdafiə sənayesi yaratmışdır və bu sərgi müdafiə sənayemizin əldə etdiyi nailiyyətlərin tanıdılması baxımından da mühüm əhəmiyyət kəsb edir.

Əminəm ki, «ADEX–2018» sərgisi faydalı təcrübə mübadiləsinin aparılmasına və yeni əməkdaşlıq əlaqələrinin yaradılmasına imkanlar açacaq, eləcə də milli müdafiə sənayemizin elmi-texnoloji potensialının artırılmasına töhfə verəcəkdir.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 sentyabr 2018-ci il*

**VYETNAM KOMMUNİST PARTİYASININ
BAŞ KATİBİ ZATİ-ALİLƏRİ
CƏNAB NQUYEN FU ÇONQA**

Hörmətli cənab Baş katib!

Vyetnam Sosialist Respublikasının Prezidenti, görkəmli dövlət xadimi Çan Day Kuanqın vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Çan Day Kuanq Azərbaycan–Vyetnam münasibətlərinin inkişafına, ölkələrimiz və xalqlarımız arasında dostluq və əməkdaşlığın daha da möhkəmlənməsinə mühüm töhfələr vermişdir.

Bu ağır itki ilə əlaqədar Sizə, mərhumun ailəsinə və yaxınlarına, bütün Vyetnam xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 sentyabr 2018-ci il*

**İRAN İSLAM RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB HƏSƏN RUHANİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizdə törədilmiş terror aktı nəticəsində insanların həlak olması və yaralanması xəbəri bizi olduqca kədərləndirdi.

Biz bu dəhşətli hadisədən son dərəcə hiddətlənir, terrorizmi pisləyir, onun bütün forma və təzahürlərinə qarşı qətiyyətlə mübarizə aparılmasını vacib hesab edirik.

Baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün İran xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 sentyabr 2018-ci il*

## AZƏRBAYCAN CÜDOÇUSU HİDAYƏT HEYDƏROVUN BÜRÜNC MEDAL UĞRUNDA YARIŞINA BAXIŞ

*22 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ailə üzvləri sentyabrın 22-də Bakıda keçirilən cüdo üzrə dünya çempionatında Azərbaycan idmançısı Hidayət Heydərovun bürünc medal uğrunda mübarizə apardığı yarımfinal qarşılaşmasına baxmışlar.*

*73 kiloqram çəki dərəcəsində mübarizə aparan Hidayət Heydərov yarımfinalda Yaponiya idmançısı, dünya çempionu Soiçi Haşimotoya məğlub oldu. O, bürünc medal uğrunda Monqolustan idmançısı Soqtbaatar Send-Oçirlə qarşılaşacaqdır.*

*2013-cü və 2014-cü illərdə yeniyetmələr arasında Avropa çempionu olan Hidayət Heydərov 2015-ci ildə Birləşmiş Ərəb Əmirliklərində keçirilmiş gənc cüdoçuların dünya çempionatında bürünc medal qazanıb. O, 2017-ci ildə «Bakı–2017» IV İslam Həmrəyliyi oyunlarının qalibi olub, həmçinin Avropa çempionu adını qazanaraq, qitənin «Ən yaxşı gənc cüdoçu»su xüsusi mükafatına da layiq görülübdür.*

*Qeyd edək ki, 125 ölkənin iştirak etdiyi cüdo üzrə dünya çempionatında 460 kişi və 298 qadın idmançı mübarizə aparır.*

**TÜRKMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB QURBANQULU BERDIMƏHƏMMƏDOVA**

Hörmətli Qurbanqulu Məlikqulıyeviç!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Azərbaycan–Türkmənistan münasibətləri ortaq dəyər və ənənələrə malik xalqlarımızın iradəsindən qaynaqlanır. Əminəm ki, dövlətlərarası münasibətlərimizin hazırkı yüksək səviyyəsi əməkdaşlığımızın bütün sahələrdə dərinləşməsi üçün daim möhkəm zəmin olacaqdır.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türkmənistan xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 sentyabr 2018-ci il*

## MONQOLUSTAN PREZİDENTİ XALTMAAQİYN BATTULQA İLƏ GÖRÜŞ

*24 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də ölkəmizə işgüzar səfərə gələn Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqa ilə görüşmüşdür.*

*Dövlət başçısı Monqolustan Prezidentini qarşıladı.*

*Sonra birgə foto çəkdirildi.*

*Daha sonra dövlət başçılarının görüşü oldu.*

**Xaltmaaqiyn Battulqa:** Cənab Prezident, bizim bir çox vətəndaşlarımız, xüsusilə idmançılarımız, güləşçilərimiz Bakıda keçirilən çempionatda iştirak edirlər. Onların hamısı böyük məmnuniyyətlə qeyd edirlər ki, ölkəniz möhtəşəm inkişaf edir. Onlar bunu öz gözləri ilə görürlər. Çoxlu ağac əkmisiniz, çox təmiz küçələriniz var, çoxlu sayda müasir binalar, idman qurğuları inşa edilib. Bütün bunlar daha çox gəncin idmana yiyələnməsi üçündür və bu, böyüyən nəslin tərbiyəsinə müsbət təsir göstərir.

**İlham Əliyev:** Cənab Prezident, Sizi görməyimə çox şadam. Azərbaycana xoş gəlmisiniz!

Seçkilərdə qələbə münasibətilə zəng edib məni təbrik edərkən, söhbət zamanı biz Bakıda görüşməklə bağlı razılığa gəldik. Mən Sizi dəvət etdim. Şadam ki, Siz Bakıya gəlmisiniz. Siz tanınmış cüdoçusunuz, buna görə də yarışları izləmək Sizin üçün maraqlı olacaqdır.

Bu görüş bizim ikitərəfli gündəliyimizi, əməkdaşlığımızı gücləndirmək, o cümlədən idman sahəsində qarşılıqlı fəaliyyəti inkişaf etdirməklə bağlı bir çox məsələlərə dair fikir mübadiləsi

aparmaq üçün yaxşı fürsətdir. Siz qeyd etdiniz ki, burada çox idman qurğuları vardır. Bu belədir. Biz son zamanlar çoxlu idman obyektləri, stadionlar inşa etmişik və nəticələr çox yaxşıdır. Bizim idmançılarımız Rio de Janeyro Olimpiadasında 18 medal qazanıblar və idmanın bir çox növlərində, o cümlədən cüdoda da yaxşı nəticələr göstərirlər. Bir daha xoş gəlmisiniz! Mən əminəm ki, Azərbaycana səfəriniz Sizin üçün xoş olacaqdır.

*Görüşdə iqtisadi, kənd təsərrüfatı, ticarət, investisiya, turizm, informasiya-kommunikasiya texnologiyaları, tranzit daşımalar, humanitar, təhsil, xalçaçılıq, Monqolustan tərəfinin Azərbaycan peykinin imkanlarından istifadəsi və «ASAN xidmət» təcrübəsinin bölüşülməsi ilə bağlı məsələlər müzakirə olundu.*

*Söhbət zamanı, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığa dair fikir mübadiləsi aparıldı.*

## BOLQARISTAN RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ KRASİMİR KARAKAÇANOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*25 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 25-də Bolqarıstan Respublikası Baş Nazirinin ictimai asayiş və təhlükəsizlik üzrə müavini, Müdafiə naziri Krasimir Karakaçanovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Bolqarıstanın Baş Nazirinin ictimai asayiş və təhlükəsizlik üzrə müavini, Müdafiə naziri Krasimir Karakaçanov ilk dəfə Azərbaycanda 10 il bundan əvvəl olduğunu qeyd edərək, ötən dövr ərzində Bakıdakı çox böyük inkişafın onlarda dərin təəssürat yaratdığını vurğuladı. Krasimir Karakaçanov bildirdi ki, Azərbaycanda Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə bütün sahələrdə böyük nailiyyətlər əldə edilib və o bu münasibətlə dövlətimizin başçısına təbriklərini çatdırdı.*

*Xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev son illər Azərbaycan ilə Bolqarıstan arasında ikitərəfli münasibətlərin keyfiyyətcə yeni mərhələyə yüksələrək, strateji tərəfdaşlıq xarakteri daşıdığını vurğuladı. Ölkələrimizin bir çox sahələrdə fəal əməkdaşlıq həyata keçirdiyini bildirən dövlətimizin başçısı yüksək səviyyəli səfərlərin bu işdə rolunu qeyd etdi. Enerji sahəsində strateji əməkdaşlığın mövcud olduğunu qeyd edən Prezident İlham Əliyev digər sahələrdə də əlaqələrin genişləndirilməsinin zəruriliyini söylədi.*

*Bildirildi ki, «ADEX–2018» sərgisi dünyanın silah bazarında ixrac üçün təklif olunan hərbi sənaye kompleksinin müxtəlif*

*sahələri üzrə müasir müdafiə texnologiyaları, hərbi texnikanın ən son nümunələri ilə tanış olmaq imkanı yaradır.*

*Görüşdə «ADEX–2018» Azərbaycan Beynəlxalq müdafiə sərgisinin əhəmiyyətinə toxunuldu, Krasimir Karakaçanovun bu tədbirdə iştirakı ikitərəfli münasibətlərimizin inkişafının yaxşı göstəricisi kimi dəyərləndirildi, onun Azərbaycana səfərinin əlaqələrimizin genişləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olundu.*

## AVROPA İNVESTİSİYA BANKININ VİTSE-PREZİDENTİ VAZİL HUDAKIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*25 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 25-də Avropa İnvestisiya Bankının vitse-prezidenti Vazil Hudakın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Avropa İnvestisiya Bankının vitse-prezidenti Vazil Hudak Bakıda əməkdaşlığımızın gələcək imkanlarının müəyyənləşdirilməsi ilə bağlı keçiriləcək görüşlərin əhəmiyyətini qeyd etdi. Daha sonra qonaq Azərbaycanın həyata keçirdiyi TAP və TANAP layihələrinin önəmini vurğuladı.*

*Dövlət başçısı TAP və TANAP layihələrinə verdiyi maliyyə dəstəyinə görə Avropa İnvestisiya Bankına təşəkkürünü bildirdi. Prezident İlham Əliyev artıq TANAP layihəsinin rəsmi açılışı mərasiminin keçirildiyini, TAP layihəsi üzrə isə işlərin davam etdirildiyini vurğulayaraq, bunları əməkdaşlığımızın çox yaxşı göstəricisi kimi dəyərləndirdi. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan iqtisadiyyatının inkişafının hazırkı səviyyəsi və mövcud olan əlverişli biznes mühiti ölkəmizi sərmayə qoyuluşu üçün cəlbedici edib. Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun inkişafı ilə bağlı geniş planların olduğunu deyən Prezident İlham Əliyev ölkəmizin Avropa İnvestisiya Bankı ilə əməkdaşlığı daha da genişləndirməkdə maraqlı olduğunu bildirdi.*

*Söhbət zamanı infrastruktur, alternativ enerji, kənd təsərrüfatı, ekologiya, özəl sektor, sənaye zonalarının fəaliyyəti ilə bağlı əməkdaşlıq ətrafında fikir mübadiləsi aparıldı.*

## «ADEX–2018» III AZƏRBAYCAN BEYNƏLXALQ MÜDAFİƏ SƏRGİSİ İLƏ TANIŞLIQ

*Bakı Ekspo Mərkəzi*

*25 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 25-də Bakı Ekspo Mərkəzində açılmış «ADEX–2018» III Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi ilə tanış olmuşdur.*

*Dövlət başçısı əvvəlcə mərkəzin qarşısında nümayiş etdirilən hərbi məhsullara və texnikaya baxdı.*

*Müdafiə naziri Zakir Həsənov və Müdafiə Sənayesi nazirinin müavini Yəhya Musayev Prezident İlham Əliyevə məlumat verdilər ki, bu il sərgidə dünyanın 29 ölkəsini təmsil edən 224 şirkət iştirak edir. Regionda ən böyük silah və hərbi texnika ekspozisiyalarından ibarət olan genişmiqyaslı bu tədbir müasir silah və avadanlıqların, Azərbaycanın müdafiə sənayesi kompleksinin gücü və qüdrətinin nümayişi üçün geniş imkanlar açır. Azərbaycanın hərbi sənaye kompleksinin geniş təmsil olunduğu sərgidə «Matador», «Marauder» və digər zirehli hərbi texnika, o cümlədən tank əleyhinə raket kompleksi böyük maraqla qarşılanır.*

*Hava hücumundan müdafiə silahlarının və hərbi texnikanın servis xidməti mərkəzinin stendi ilə tanış olan Prezident İlham Əliyevə məlumat verildi ki, Azərbaycan–Belarus birgə müəssisəsi əsasən silahlanma sistemlərinin təkmilləşdirilməsi və modelləşdirilməsi, hərbi elmi-tədqiqat işi, yeni silahlanma sistemlərinin inkişafı, qoşun və silahlanmada nəzarət sistemləri üçün texniki və proqram vasitələrinin təminatının hazırlanması ilə məşğuldur.*

*Belarus Respublikası da artıq Azərbaycan Beynəlxalq müdafiə sərgisinin fəal iştirakçıları sırasındadır. Sərgiyə 10 şirkətlə qatılan Belarus müxtəlif hərbi məhsullarla yanaşı, ağır hərbi texnika da nümayiş etdirir. «Belspetsvneshtechnika» Dövlət Xarici Ticarət Unitar Müəssisəsi yüksək texnoloji məhsulların ixracı sahəsində ixtisaslaşan, hərbi tətbiqlər üzrə texnologiyalar sahəsində intensiv biliyə malik olan aparıcı müəssisədir.*

*Türkiyə Respublikasının «Aselsan» şirkəti də artıq üçüncü dəfədir sərgidə iştirak edir və onun təqdim etdiyi məhsullar da maraqla qarşılanır.*

*Təkərli zirehli texnikanın istehsalı sahəsində ixtisaslaşan Rusiyanın Hərbi Sənaye Şirkəti müdafiə, hüquq-mühafizə və terrora qarşı mübarizə sahələrində silsilə tapşırıqların həllinə görə zirehli texnikanı tədarük etməklə, 50-dən çox ölkədə dövlət orqanları ilə və özəl şirkətlərlə əməkdaşlıq edir.*

*İsrailin «Elbit Systems» şirkəti də sərgiyə böyük maraq göstərir və o, dünyada müdafiə, milli təhlükəsizlik və kommersiya təyinatlı silsilə proqramların hazırlanması ilə məşğul olan beynəlxalq şirkətdir. «Elbit» və onun törəmə müəssisələri aerokosmik, quru və donanma sistemləri, komanda, nəzarət, kommunikasiya, kompüter, məlumat toplama, müşahidə və kəşfiyyat, pilotsuz uçuş sistemlərinin istehsalı üzrə fəaliyyət göstərir.*

*Sonra Prezident İlham Əliyev Baku Ekspo Mərkəzinin daxili pavilyonlarındakı stendlərlə tanış oldu.*

*Qeyd edildi ki, bir sıra ölkələr əvvəlki illərlə müqayisədə milli ekspozisiyaların sahəsini böyüdüblər. Təmsil olunmuş şirkətlərin sayının çoxluğuna görə ilk dördlüyə Türkiyə, Rusiya, İsrail və Belarus daxildir. İştirakçıların coğrafiyası Estoniya, Hindistan və Qazaxıstan kimi ölkələrin hesabına genişlənib. Ümumilikdə ziyarətçi şirkət və qurumlarla birlikdə sərginin coğrafiyası 44 ölkəni əhatə edir. Pavilyonlarda müasir silah və texnika nümayiş olunur. Bu sərgidə Türkiyə Respublikası 41 şirkətlə təmsil olunur. Türkiyə şirkətlərinin ümumi təşkilatçısı olan Müdafiə Sənayeləri Alt Katibliyi qurumunun məqsədi özəl*

*sahibkarlıq qismində beynəlxalq tərəfdaşlarla balanslaşdırılmış əməkdaşlığa imkan yaradan müdafiə sənayesini formalaşdırmaqdır.*

*Türkiyənin 30 illik təcrübəyə malik «Roketsan» şirkəti də sərgiyə məhsullarının geniş çeşidi ilə qatılıb. Şirkət həm yerli, həm də xarici istifadəçilərə özünü təcrübədə doğrultmuş etibarlı həll variantları təklif edir.*

*ABŞ-ın «Vertex International» şirkəti hərbi və hüquq-mühafizə sahələri üçün həll variantları, eləcə də digər sahələrlə yanaşı, müdafiə sektorunda istismar olunan məhsulların təc-hizatçısıdır və 200-dən çox brendi təmsil edir.*

*1991-ci ildən fəaliyyət göstərən Türkiyənin STM şirkəti sis-tem mühəndisliyi, texnoloji təkmilləşdirmə və logistika xidmət-ləri təqdim edir.*

*Ukrayna Müdafiə Sənayesi Təşkilatı hərbi və texniki avadan-lıqların istehsalı, satışı, təmiri, modernləşdirilməsi və ixracı sahələri üzrə fəaliyyət göstərən və 100-dən çox şirkəti birləş-dirən bir qurumdur. Builki sərgidə isə 7 şirkətlə təmsil olunan Ukrayna hərbi-sənaye kompleksi müxtəlif məhsullarını qo-naqlara təqdim edir.*

*Serbiya da sərginin maraqla qarşılanan iştirakçıları arasın-dadır. Bu ölkədən olan «Yugoimport» şirkəti sistem inteqratoru kimi, kompleks döyüş sistemlərinin işlənib hazırlanması və istehsalı üzrə ixtisaslaşıbdır.*

*Ölkəmizin ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayan «Azərsun Holdinq» də «ADEX–2018» III Azərbay-can Beynəlxalq Müdafiə Sərgisində iştirak edir. Ziyarətçilərin böyük marağına səbəb olan stenddə «əsgər payı» quru ərzaq dəsti, konserv və digər qida məhsulları sərgilənir. Bundan əla-və, ziyarətçilərə hazır yeməklər təqdim olunur.*

*Bu il sərgidə ilk dəfə iştirak edən İtaliyanın «Leonardo» şirkəti helikopterlər, aeronavtika, elektronika, müdafiə və təhlü-kəsizlik sistemləri sahəsində fəaliyyət göstərir. O, ən səmərəli hərbi hazırlıq avadanlıqları, «M-345» və «M-346», eləcə də*

*«C-27J» seriyalı hava gəmiləri ilə döyüş təlimi üzrə lider şirkətdir.*

*Ukraynanın «Motor Sich» şirkəti qaz-turbin avadanlıqlarının və helikopterlərin istehsalı, əsaslı təmiri və yenilənməsi xidmətlərini təqdim edir.*

*Prezident İlham Əliyev İran İslam Respublikasının pavilyonunda da oldu. Burada «Iran Electronics Industries» şirkəti, Avionika sənayesi və Dəniz sənayesi təşkilatları təmsil olunur.*

*2015-ci ildə təsis edilmiş Dövlət Sərhəd Xidmətinin «Gəmi İnşası və Təmiri Mərkəzi» gəmilərin inşası, bütün növ üzən qurğuların təmiri və onlara texniki qulluq işləri ilə məşğuldur. Zavod müasir struktura və qabaqcıl tərsanəyə malikdir. Şirkət indiyədək «Şahdağ» və «Tufan» tipli çoxlu patrul gəmiləri inşa edibdir.*

*Dövlət başçısı Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin pavilyonunda nümayiş etdirilən hərbi məmulatlara baxdı. Qeyd edildi ki, nazirliyin tabeliyinə verilmiş müəssisələrdə qısa müddətdə yenidən qurulma işləri aparılıb, son illərdə həmin müəssisələrin maşın və avadanlıq parkı yenilənib, bu məqsədlə dünyanın inkişaf etmiş ölkələrindən ən son texnoloji avadanlıqlar alınıb quraşdırılıbdır.*

*Müdafiə Sənayesi Nazirliyi aviasiya, naviqasiya, cihazqayırma və digər istiqamətlər üzrə dünyanın inkişaf etmiş ölkələri ilə sıx əməkdaşlıq qurub. 2009-cu ildən başlayaraq, nazirliyin müəssisələrində istehsal olunan məhsullar xaricdə keçirilən beynəlxalq müdafiə sərgilərində də nümayiş olunur.*

*Müasir silah və texnikanın, habelə milli müdafiə sahəsində Azərbaycanın gücünün və qüdrətinin böyük nümayişinə çevrilən sərgidə son illərdə ölkəmizdə istehsal olunmuş yüngül və ağır hərbi texnika nümayişə çıxarılıb. Atıcı silahlarla təchiz olunmuş universal «Gürzə» avtomobili, müxtəlif çaplı atıcı silahlar, raket başlıqları, pilotsuz uçuş aparatları və digər hərbi texnika sərginin maraq doğuran eksponatları sırasındadır.*

*Sərginin fəal iştirakçılarından olan «Aselsan» şirkəti sifarişçilərinə hərbi rabitə vasitələri, radiolokasiya stansiyaları, radioelektron mübarizə avadanlığı, elektron və optik cihazlar, çoxfunksiyalı məlumat idarəetmə sistemi, yerüstü, hava, dəniz və kosmik tətbiqlər üçün yüksək texnologiyalı sistem variantlarını təqdim edir.*

*Hərbi Dəniz Donanması sahəsində 135 illik təcrübəyə malik olan «Damen» şirkəti istehsal etdiyi keşikçi katerlərini, patrul və döyüş gəmilərini, dəniz desantına dəstək, köməkçi dəniz və bir çox sahilyanı gəmiləri sərgi ziyarətçilərinə təqdim edir.*

*Dünyada hərbi sənaye kompleksinin inkişafı ilə diqqət çəkən ölkələrdən biri olan İsrail Bakıda keçirilən sərgiyə 14 şirkətlə qatılıb. Bu şirkətlər hava gəmiləri, zirehli texnika, donanma platformaları, havada və kosmosda ən son texnikanın, kibertexnologiyaların tətbiqi ilə yanaşı, müasir müdafiə sistemlərinin işlənib hazırlanması və istehsalını, o cümlədən hərbi donanma və kosmik sistemlər üçün innovativ həll variantlarını təklif edir.*

*Bu ölkənin «Rafael Advanced Defense Systems Ltd» şirkəti bütün dünyada sifarişçilər üçün hava, quru, donanma və kosmik tətbiqlər üzrə yüksək texnoloji müdafiə sistemlərinin geniş çeşidini layihələndirir, hazırlayır və istehsal edir.*

*«Azərbaycan silahının təkamülü» adı altında çıxış edən Azərbaycan Hərb Tarixi Muzeyi sərgidə qədimdən müasir dövrədək ölkəmizin ərazisində mövcud olmuş dövlətlərin döyüşlərdə istifadə etdikləri texnika və silahlar, həmçinin geyim nümunələri də daxil olmaqla, 50-dək eksponat nümayiş etdirir.*

*Dünyada nüfuzlu hərbi sənaye kompleksinə malik olan Rusiyanı sərgidə 25 şirkət təmsil edir. Bu ölkənin «Rosoboronexport» şirkəti qlobal silah bazarının liderlərindən biridir və Rusiyanın illik silah satışının 85 faizdən çoxunu əhatə edir.*

*Fransa Respublikasını təmsil edən «Naval Group» şirkəti hərbi dəniz müdafiəsi sahəsində Avropa lideridir. Şirkət əsasən sualtı qayıqları və gəmiləri layihələndirir və inşa edir.*

*Fransanın sərgidəki digər iştirakçısı isə «Thales» şirkətidir. Şirkət sərgidə hava hərəkətinin idarəolunması, hava müşahidə sistemləri, zirehli maşınlar, təlim və simulyasiya üzrə məhsul və xidmətlərini təqdim edir.*

*Dövlət başçısına məlumat verildi ki, Belarusun «Belspetsvneshtechnika» şirkəti hazırda sistem inteqratoru kimi xidmət edir və bu ölkədə müdafiə sektorunun müxtəlif sənaye sahələrində ixtisaslaşmış 20-dən artıq təşkilatı bir araya gətirən Dövlət Hərbi Sənaye Komitəsinin ixtiralarından yararlanır.*

*AMEA-nın Yüksək Texnologiyalar Parkı da sərgidə ilk dəfədir iştirak edir. Stenddə hərb sahəsində müasir elmi və texnoloji nailiyyətlərə əsaslanan innovasiya yönümlü yeni texnologiyaların hazırlanması, işlənilməsi və təkmilləşdirilməsi məqsədilə görülən işlər nümayiş etdirilir.*

*Prezident İlham Əliyev Pakistan İslam Respublikasının pavilyonunda oldu. Bildirildi ki, ölkəmizlə hərbi əməkdaşlığa malik Pakistan bu sərgiyə hərbi sənaye məhsullarının geniş çeşidi ilə qatılıb. Bu ölkədə istehsal olunan hərbi məhsullar hərbi sənaye kompleksinin bütün istiqamətlərini əhatə edir.*

*Çinin «CETC International» şirkəti elektron informasiya sahəsi üçün innovativ və xüsusi həll variantları ilə sərgi ziyarətçilərinin qarşısına çıxıb. Qeyd edək ki, bu il müdafiə və xüsusi təyinatlı məhsulları, hərbi nəqliyyat vasitələrini və texnikanı, eləcə də silah və sursatları təqdim edən yerli eksponentlərin sayı artıbdır.*

*Müdafiə Sənayesi Nazirliyi, eləcə də nazirliyin nəzdindəki struktur və zavodlar, o cümlədən Müdafiə Nazirliyi və ANAMA agentliyi sərgidə fəal iştirak edir.*

*Ümumilikdə sərgidə quru qoşunları və hərbi hava qüvvələrinin texnika və silahları, hərbi aviasiya silahları, Hava Hücumundan Müdafiə sistem və vasitələri, xüsusi təyinatlı əmlak və vasitələr, informasiya texnologiyaları, kosmik texnologiyalar, ordunun inzibati və texniki təchizatı ilə bağlı yeniliklər nümayiş olunur.*

*Beləliklə, Ekspo Mərkəzində açılmış «ADEX–2018» III Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi  dünyanın silah bazarında ixrac üçün təklif olunan hərbi sənaye kompleksin müxtəlif sahələri üzrə müasir müdafiə texnologiyaları və hərbi texnikanın ən son nümunələri ilə tanış olmaq imkanı yaradır. Bu sərgi ən son silah nümunələrinin nümayiş olunması və beynəlxalq hərbi-texniki əməkdaşlıq sahəsində yeni müqavilələrin imzalanması üçün artıq əla platformaya çevrilibdir.*

*Dünyanın 29 ölkəsini təmsil edən 224 şirkəti  bir araya gətirən, regionda ən böyük silah və hərbi texnika ekspozisiyalarından ibarət olan genişmiqyaslı bu tədbir müasir silah və avadanlıqların, Azərbaycanın müdafiə sənayesi kompleksinin gücü və qüdrətinin nümayişi üçün də geniş imkanlar açır.*

## XÜSUSİ OLİMPİYA KOMİTƏSİNİN SƏDRİ TİMOTİ ŞRİVERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*25 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 25-də Xüsusi Olimpiya Komitəsinin sədri Timoti Şriverin başçılıq etdiyi dünya şöhrətli idmançılar Bart Konner, Nadya Komaniç və Vladimir Qribiçin daxil olduğu nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı Xüsusi Olimpiya Hərəkatı Gənc Liderlərin XX Qlobal Forumunun Azərbaycanda təşkilindən məmnunluğunu ifadə etdi və qonaqların ölkəmizlə yaxından tanış olması üçün bu tədbirin yaxşı imkan yaradacağına ümidvar olduğunu bildirdi.*

*Nümayəndə heyətinin üzvləri ölkəmizdə gedən inkişaf proseslərinin onlarda dərin təəssürat yaratdığını vurğulayaraq təbriklərini çatdırdılar. Xüsusi Olimpiya Hərəkatının 50 illik tarixə malik olduğunu və dünyanın 172 ölkəsini əhatə etdiyini deyən Timoti Şriver Xüsusi Olimpiya Hərəkatının 50-ci ildönümünə həsr olunan forumun Bakıda təşkil edilməsinə göstərilən dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. O, Azərbaycanın mötəbər beynəlxalq idman yarışlarına, o cümlədən «Formula-1» və hazırda Bakıda keçirilən cüdo üzrə dünya çempionatına və eləcə də digər mühüm yarışlara ev sahibliyi etməsini yüksək qiymətləndirdi.*

*Prezident İlham Əliyev Xüsusi Olimpiya Hərəkatına və Xüsusi Olimpiya Hərəkatı Gənc Liderlərin XX Qlobal Forumuna ölkəmizin verdiyi töhfədən məmnunluğunu bildirdi, Xüsusi Olimpiya Hərəkatının 50 illiyi və əldə olunan nailiyyətlər mü-*

*nasibətilə təbriklərini çatdırdı. Dövlət başçısı bütün dünyanı əhatə edən və özündə 5 milyona yaxın insanı birləşdirən bu hərəkatın əqli və fiziki imkanları məhdud insanların cəmiyyətə inteqrasiya olunması işinə verdiyi dəstəyin önəmini qeyd etdi və Azərbaycanda bu istiqamətdə mühüm tədbirlərin, o cümlədən bir sıra sosial proqramların həyata keçirildiyini vurğuladı.*

## «AZƏRSPACE-2» PEYKİNİN ORBİTƏ BURAXILMASI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

*26 sentyabr 2018-ci il*

Əziz həmvətənlər!

Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Bu gün «Azərspace-2» peykimiz orbitə çıxarıldı. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik etmək istəyirəm. Bu, ölkəmizin növbəti qələbəsidir, dövlətimizin növbəti uğurudur.

Son 5 il ərzində Azərbaycan orbitə 3 peyk çıxarıbdır. Azərbaycan bu gün dünyanın kosmik klubunun üzvüdür və dünyanın kosmik sənayesində öz mövqelərini möhkəmləndirir. Peyklərin orbitə çıxarılması dövlətimizin gücünü, bizim siyasətimizi göstərir. Bizim artıq 3 peykimiz var: «Azərspace-1» telekommunikasiya peyki, «Azərsky» müşahidə peyki və «Azərspace-2».

Bildiyiniz kimi, bu il Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi qeyd edilir. Mənim sərəncamımla 2018-ci il «Azərbaycan Xalq Cümhuriyyəti ili» elan edilibdir. Eyni zamanda, gələn ay biz müstəqilliyimizin bərpasının 27-ci ildönümünü qeyd edəcəyik. Biz «Azərspace-2» peykimizin orbitə çıxarılmasını Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə, Azərbaycanın dövlət müstəqilliyinə həsr edirik.

Bu peyklərin çox böyük əhəmiyyəti vardır. İlk növbədə, Azərbaycan informasiya təhlükəsizliyi baxımından daha da önəmli addım atır. Bu gün peyklərimiz vasitəsilə Azərbaycan telekanalları dünyaya öz verilişlərini təqdim edə bilirlər. Bu gün Azərbaycan telekommunikasiya sahəsində xarici tərəfdaşlardan

asılılığını tam aradan götürübdür. Eyni zamanda, kadr hazırlığı üçün Azərbaycanın kosmik sənayesinin inkişafı önəmli rol oynayır. Peykləri idarə edən kadrlar azərbaycanlı mütəxəssislərdir və onların böyük əksəriyyəti gənclərdir.

Kosmik sənayenin inkişafı bu sahədə beynəlxalq əməkdaşlığımızı da dərinləşdirir. Biz dünyanın bu sahədə böyük təcrübəyə malik olan aparıcı şirkətləri ilə sıx əməkdaşlıq edirik.

Peyklərin eyni zamanda, kommersiya tərəfi vardır. Bu gün Azərbaycan öz məhsulunu ixrac edir və peyklərin fəaliyyəti nəticəsində ölkəmizə valyuta gəlir. Azərbaycanın kosmik sənayedə əldə etdiyi uğurlar eyni zamanda, qeyri-neft sektorumuzu inkişaf etdirir, qeyri-neft sənayemizi irəliyə aparır. Təsadüfi deyil ki, bu ilin 8 ayının göstəricilərinə görə, Azərbaycanda qeyri-neft sənayesi təxminən 11 faiz artıbdır.

«Azərsky» müşahidə peyki vasitəsilə biz nəinki ölkəmizin, dünyanın istənilən nöqtəsində baş verən bütün hadisələri daim müntəzəm olaraq izləyə və nəzarət edə bilirik.

Azərbaycanın müdafiə və hərbi potensialının gücləndirilməsi işində «Azərsky» peykinin xüsusi rolu vardır. Bu peykin fəaliyyəti nəticəsində biz bu sahədə də xaricdən asılılığı tamamilə aradan qaldırdıq və bir çox ölkələrə peyk xidməti göstəririk.

İnfrastruktur layihələrimizin icrası və mövcud infrastrukturun qorunması üçün peyklərin böyük əhəmiyyəti vardır. Kənd təsərrüfatının inkişafı, ekoloji vəziyyətə nəzarət, torpaqlardan səmərəli şəkildə istifadə edilməsi – bütün bu işlərdə «Azərsky» müşahidə peykinin xüsusi rolu vardır.

Bir sözlə, əziz vətəndaşlar, əziz dostlar, bu gün ölkəmizin həyatında növbəti əlamətdar gündür. Azərbaycan qısa müddət ərzində dünyanın kosmik klubunun dəyərli üzvünə çevrilib və qarşıya qoyduğu bütün vəzifələri uğurla icra edir. Bizim yolumuz inkişaf yoludur, tərəqqi yoludur və bu gün Azərbaycan dünyada müasir texnologiyaların inkişafında öz dəyərli sözünü deyir.

«Azərspace-2» telekommunikasiya peykinin orbitə çıxarılması bizim növbəti tarixi qələbəmizdir. Bundan sonra da Azərbaycan yalnız uğurlar, qələbələr yolu ilə gedəcəkdir.

Bir daha sizi bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm, hər birinizə cansağlığı, xoşbəxtlik arzulayıram.

Sağ olun.

## CÜDO ÜZRƏ DÜNYA ÇEMPİONATINDA İDMANÇILARIMIZIN FİNAL YARIŞINA BAXIŞ

*Milli Gimnastika Arenası*

*26 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ailə üzvləri, Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqa və Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer sentyabrın 26-da Milli Gimnastika Arenasında keçirilən yarışları izləmişlər.*

*Çempionatın 7-ci günündə də yarışlar gərgin idman mübarizəsi şəraitində keçdi. Cüdoçularımızdan yalnız 100 kiloqramdan yuxarı çəki dərəcəsində Uşanqi Kokauri finala qədər addımlaya bildi. Uşanqi Kokauri belaruslu Vladislav Siarpitskiyə, Polşa idmançısı Moisey Sarnavskiyə, çexiyalı Lukas Krpalekə və özbəkistanlı Bekmurod Oltıboevə qalib gələrək, finala yüksəldi. Həlledici görüşdə gürcüstanlı Quram Tuşişviliyə məğlub olan cüdoçumuz gümüş medalla kifayətləndi.*

*2016-cı ildə Avropa kubokunun qalibi olan Uşanqi Kokauri həmin il Kazanda keçirilən Avropa çempionatının bürünc medalını qazandı.*

*Qeyd edək ki, 125 ölkənin iştirak etdiyi cüdo üzrə dünya çempionatında 460 kişi və 298 qadın idmançı mübarizə aparır.*

**ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB Sİ CİNPİNƏ**

Hörmətli cənab Sədr!

Çin Xalq Respublikasının Yaranması Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Azərbaycan–Çin əlaqələri qədim tarixə və xoş ənənələrə malikdir. Bu ənənələri özündə bariz şəkildə əks etdirən dövlətlərarası münasibətlərimizin hazırkı yüksək səviyyəsi əməkdaşlığımızın bütün sahələrdə dərinləşməsinə mühüm təsir göstərir.

İnanıram ki, ölkələrimiz arasındakı dostluq münasibətləri, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Çin xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 sentyabr 2018-ci il*

**İNDONEZİYA RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB COKO VİDODOYA**

Hörmətli cənab Prezident!

Sulavesi adasında baş vermiş təbii fəlakətin çoxsaylı insan tələfatı və dağıntılar törətməsi barədə xəbərdən son dərəcə kədərləndim.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün İndoneziya xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 sentyabr 2018-ci il*

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*27 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sentyabrın 27-də IX Azərbaycan–Rusiya Regionlararası Forumunda iştirak etmək üçün ölkəmizə səfərə gələn Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə təkbətək görüşü olmuşdur.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli Vladimir Vladimiroviç, icazə verin, Sizi Azərbaycanda bir daha salamlayım, xoş gəlmisiniz!

Biz Sizi görməyimizə həmişə çox şadıq. Sizin bugünkü səfəriniz xüsusi xarakter daşıyır. Biz bu gün ilk dəfə olaraq, rekord miqdarda – 1000-ə yaxın iştirakçı toplayan Azərbaycan–Rusiya Regionlararası Forumun işində iştirak edirik. Bu da tədbirə göstərilən böyük marağa dəlalət edir. Biz Sizinlə bu ayın əvvəlində Soçidə görüşmüşdük, bu gün isə Bakıda görüşürük. Bu bizim münasibətlərimizin səviyyəsinin parlaq göstəricisidir. Biz siyasi, iqtisadi, nəqliyyat, energetika, humanitar sahələrdə fəal əməkdaşlıq edirik və bütün istiqamətlərdə böyük tərəqqi görürük. Biz bu barədə indicə forum iştirakçılarına danışdıq, bununla onlara fəal işləmələri və əməkdaşlığımızı inkişaf etdirmələri üçün daha bir impuls verdik. Rusiya bizim üçün münasibətlərimizin ən yüksək səviyyədə olduğu çox mühüm və dəyərli tərəfdaş, dost və qonşudur. Düşünürəm ki, gələcək illərdə biz əməkdaşlığımızı yalnız inkişaf etdirmək, ölkələrimizin biznes qurumları üçün daha yaxşı şərait yaratmaq və bütün istiqamətlərdə qarşılıqlı fəaliyyəti möhkəmləndirmək yolu ilə gedəcəyik. Bir daha «Xoş gəlmisiniz!» – deyirəm və səfərə görə təşəkkür edirəm.

**V l a d i m i r  P u t i n:** Çox sağ olun, hörmətli İlham Heydər oğlu!

Bakıya dəvətə və cüdo üzrə dünya çempionatında olmaq imkanına görə çox sağ olun. Mən bunun necə layiqli, çox yüksək beynəlxalq səviyyədə təşkil edildiyini, təşkilatçıların, cənab Vizer başda olmaqla, Beynəlxalq Cüdo Federasiyasının məmnunluğunu görürəm. Mənə indi burada hər şeyin necə peşəkarlıqla təşkil edildiyini dedilər. Bu, təkcə cüdonun deyil, bütövlükdə dünya idmanının inkişafına böyük töhfədir.

Əlbəttə, bu gün regionlararası forumda bizim iştirakımız da bu qısa işgüzar səfərin əhəmiyyətli tərkib hissəsidir. Doğrudur, biz bu yaxınlarda Soçidə görüşdük, amma münasibətlərimizin yüksək səviyyəsini və həcmini nəzərə alaraq, bizim həmişə danışmağa sözümüz vardır. Necə deyərlər, MDB-nin sammit meydanlarında da ünsiyyətimiz gözlənilir. Amma şübhəsiz, çox əladır ki, bu şəraitdən istifadə edərək, ikitərəfli münasibətlər haqqında danışmaq imkanı vardır. Biz hələ Soçidə qeyd etmişdik ki, münasibətlərimiz həm iqtisadiyyat, həm də digər sahələrdə müsbət inkişaf edir. İndi gərək elə edək ki, Sizin Rusiyaya səfərinizin gedişində bizim qarşılıqlı fəaliyyətimizə verilən impuls itməsin və Sizinlə imzaladığımız çox əhəmiyyətli sənədlər işləsin. Düşünürəm ki, biz bu gün elə bu barədə danışacağıq. Sağ olun.

* * *

*Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin söhbətlərini çay süfrəsi arxasında davam etdirdilər.*

## IX AZƏRBAYCAN–RUSİYA REGİONLARARASI FORUMUN RƏSMİ AÇILIŞI MƏRASİMİ

*Heydər Əliyev Mərkəzi*

*27 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin sentyabrın 27-də Heydər Əliyev Mərkəzində keçirilən IX Azərbaycan–Rusiya Regionlararası Forumun rəsmi açılışı mərasimində iştirak etmişlər.*

*Azərbaycan və Rusiya prezidentləri açılış mərasimində çıxış etdilər.*

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Hörmətli Vladimir Vladimiroviç!

Hörmətli qonaqlar!

Əziz dostlar, xanımlar və cənablar!

İlk növbədə, Rusiya Federasiyasının Prezidenti Vladimir Vladimiroviç Putini, eləcə də onu müşayiət edən şəxsləri Azərbaycanda salamlamaq istərdim, xoş gəlmisiniz! Sizi görməyimizə həmişə çox şadıq.

Rusiya və Azərbaycan prezidentlərinin bu gün regionlararası forumda iştirakı həmin forumun fəaliyyətinə nə qədər böyük əhəmiyyət verdiyimizi sübut edir. Bu, IX forumdur. Gələn il yubiley forumu olacaqdır. Biz şadıq ki, ilk forum 2010-cu ildə Azərbaycanda keçirilib. Bununla da çox fəal regionlararası əməkdaşlığa təkan verilib. 1000 nəfər tutan bu salonun

tamamilə dolması bu foruma nə qədər böyük marağın olduğuna dəlalət edir.

Biz Vladimir Vladimiroviçlə müntəzəm görüşürük. Bu yaxınlarda – sentyabrın əvvəlində mən Rusiya Federasiyasına rəsmi səfər etdim, biz çox məhsuldar danışıqlar apardıq. Gündəliyin bütün məsələləri üzrə çox mükəmməl fikir mübadiləsi oldu. Bir aydan da az müddətdən sonra Rusiya Prezidentinin Azərbaycanda olması bizim aramızda mövcud münasibətlərin parlaq sübutudur. Mənim səfərim çərçivəsində fəaliyyətin əksər sahələrini əhatə edən və uzun illər əvvəlcədən bizim münasibətlərimizin gələcəkdə daha da inkişafını müəyyənləşdirəcək 16 sənəd imzalandı. Həmçinin qeyd etməliyəm ki, Rusiya Prezidenti Vladimir Vladimiroviç Putin son 5 il ərzində 4-cü dəfədir ki, Azərbaycanda olur. Mən də müntəzəm olaraq Rusiyaya səfər edirəm, bu da bizim tərəfdaşlığımızın, ölkələrimiz arasında dost, mehriban qonşuluq münasibətlərinin parlaq sübutudur.

Ticari-iqtisadi əlaqələrə gəlincə, biz inkişaf dinamikasını görürük, bu, olduqca güclü təəssürat oyadır, bu, artmaqda olan dinamikadır. Ötən il də, bu il də əmtəə dövriyyəsi artıb. Rusiya Azərbaycan üçün idxal üzrə də bir nömrəli tərəfdaşdır və bizim qeyri-neft sektorunun məhsullarının ixracı üzrə də bir nömrəli tərəfdaşdır.

Həmçinin qarşılıqlı investisiyalarla əlaqədar layihələr həyata keçirilir. Biz burada da müsbət dinamikanı görürük. Energetika, neft-qaz sahələrində çox möhkəm əlaqələr mövcuddur. Biz mənim Rusiya Federasiyasına rəsmi səfərim çərçivəsində «Rosneft» ilə SOCAR şirkətləri arasında əməkdaşlıq barədə mühüm sənəd – müqavilə imzaladıq. Eləcə də 20 ildən artıqdır ki, Azərbaycanda LUKoyl şirkəti uğurla işləyir, bizim üçün mühüm investordur. Elektroenergetika sahəsində bizim enerji sistemləri paralel rejimdə işləyir. Biz mənim sentyabr səfərim çərçivəsində yüksəkgərginlikli elektrikötürücü xəttin ikinci növbəsinin tikintisi ilə bağlı məsələləri müzakirə etdik. Bu xəttin tikintisi elektrik mübadiləsini daha çox nizama salmağa

və bu sahədə üçüncü ölkələrlə əlaqələri genişləndirməyə imkan verəcəkdir.

Biz nəqliyyat sahəsində çox fəal əməkdaşlıq edirik. Bizim birgə reallaşdırdığımız «Şimal–Cənub» layihəsi artıq öz nəticələrini verir. Ötən illə müqayisədə biz bu il həmin dəhlizlə yükdaşımaların nəqlinin 100 dəfədən çox artdığını görürük. Həm də bu, yalnız başlanğıcdır. Hesab edirik ki, bu dəhliz Avrasiyanın ən mühüm nəqliyyat xətlərindən biri olacaq, bununla ölkələrimizin daha da yaxınlaşmasına kömək edəcək və tranzit potensialımızı artıracaqdır. Həmçinin qeyd etmək istərdim ki, təkcə Azərbaycanın milli aviaşirkəti Rusiyanın müxtəlif şəhərlərinə həftədə 50-dən çox reys həyata keçirir. Əgər Rusiyanın aviadaşıyıcılarını da əlavə etsək, biz vətəndaşlarımızın öz aralarında necə ünsiyyət saxladıqlarını və əlaqələrimizin intensivliyini görərik.

Turizm sahəsində də biz Rusiya vətəndaşları tərəfindən Azərbaycanı ziyarətin çox əhəmiyyətli dərəcədə artdığını görürük. Hələ başa çatmamış 9 ay ərzində 700 minədək rusiyalı Azərbaycanı ziyarət edib. Əminəm ki, bu rəqəm də gələcəkdə artacaqdır.

Bank sahəsində çox yaxşı əməkdaşlıq və perspektivlər mövcuddur. Azərbaycanda VTB kimi iri Rusiya bankı fəaliyyət göstərir. Yeri gəlmişkən, Azərbaycan bu bankın ən iri xarici səhmdarıdır. Həmçinin «Qazprombank» nisbətən bu yaxınlarda Azərbaycanın 400 milyon dollardan artıq dəyəri olan iri sənaye layihəsini maliyyələşdirib. Yəni bütün bunlar bizim əməkdaşlığımızın mühüm elementləridir.

Maşınqayırma bizim əməkdaşlığımızın nisbətən yeni sahəsidir. Azərbaycanda artıq KamAZ, «Ural» avtomobilləri buraxılır. Artıq yüzlərlə belə avtomobil konveyerlərdən düşürülüb. Eləcə də bizim ölkəmizdə QAZ avtomobillərinin istehsalı haqqında razılıq əldə olunub. Yəni biz bütün istiqamətlərdə çox səmərəli dinamika görürük və bütün bunlar bizim münasibətlərimizin ruhunu, xarakterini səciyyələndirir.

Əlbəttə ki, bizim münasibətlərimizin təməlində tarixi, mədəni əlaqələrimiz, xalqlarımızın yaxınlığı durur. Biz birlikdə humanitar əlaqələrin inkişafı üzərində çox fəal işləyirik. Gələn ay Bakıda Rusiya və Azərbaycan prezidentlərinin himayəsi altında növbəti humanitar forum keçiriləcək. Bu beynəlxalq forum artıq humanitar xarakterli məsələlərin, mədəniyyətlərarası dialoqun, konfessiyalararası münasibətlərin müzakirəsi üçün mühüm qlobal meydana çevrilibdir. Azərbaycanda tədrisin rus dilində aparıldığı 341 məktəb, Rusiyanın aparıcı ali təhsil ocaqları olan Moskva Dövlət Universitetinin və Seçenov adına Tibb Universitetinin filialları fəaliyyət göstərir.

Həmçinin mədəniyyət sahəsində çox sıx qarşılıqlı fəaliyyət vardır. Burada Rusiya–Azərbaycan münasibətləri barədə çox danışmaq olar, sadəcə, bugünkü forumun formatına görə hamısını əhatə etmək mümkün deyil. Amma biz münasibətlərin gələcəkdə də fəal inkişafına istiqamətlənmişik. Həmçinin düşünürəm ki, bizim gələcək əməkdaşlığımız çərçivəsində gələn il üçün nəzərdə tutulan Xalq Təsərrüfatının Nailiyyətləri sərgisində Azərbaycan pavilyonunun açılması mühüm addım olacaq. Bu tarixi bina ötən əsrin ortalarında Azərbaycan pavilyonu olub, biz onu bərpa edirik. Düşünürəm ki, biz belə mühüm beynəlxalq sərgi meydanında iştirak edəcəyik və öz nailiyyətlərimizi nümayiş etdirəcəyik.

Rusiya regionları ilə də bizim çox sıx münasibətlərimiz mövcuddur. Rusiya Federasiyasının 20-yə yaxın subyektinin Azərbaycanla müvafiq razılaşmaları vardır. Bizim Rusiya regionlarında, eləcə də Rusiya regionlarının Azərbaycanda ticarət nümayəndəlikləri açılır.

Əminəm ki, regionlararası əməkdaşlıq ölkələrimizi birləşdirən bütün dost, mehriban qonşuluq münasibətləri kompleksini üzvi sürətdə tamamlayacaqdır.

Mən Prezident Vladimir Vladimiroviç Putinə bu gün Azərbaycanda olduğuna görə təşəkkürümü bildirmək istərdim. Bu bi-

zim üçün çox qiymətlidir. Biz buna dostluğun, ölkəmizə hörmətin əlaməti kimi baxırıq. Əlbəttə, sizin qarşınızda çıxış etməyimiz sizin apardığınız işin əhəmiyyətini nəzərə çatdırır. Mən foruma uğurlar, ölkələrimizin və xalqlarımızın rifahı naminə gələcək nailiyyətlər arzulayıram. Sağ olun.

## Rusiya Prezidenti Vladimir Putinin çıxışı

Hörmətli İlham Heydər oğlu!

Dostlar, xanımlar və cənablar!

Azərbaycan Prezidenti kimi, mən də bu gün belə mötəbər auditoriyaya bir neçə kəlmə deməkimkanımız olduğu üçün məmnunluğumu ifadə etmək istəyirəm. Doqquzuncu regionlararası forum əslində onu göstərir ki, biz bütün bu illər ərzində nəinki vaxtı hədər itirməmişik, biz fəal işləmişik, həm də bütün istiqamətlərdə. Bu da öz nəticələrini verir. Mən bəzi məsələləri təkrar edəcəyəm, bəzilərini əlavə olaraq xatırladacağam. Amma hər halda, bu salonda həm elm, həm yaradıcı ziyalılar, həm biznes nümayəndələri, həm siyasətçilər toplaşıblar və bütün bunlar birlikdə yüksəlişə doğru yaxşı nəticələr verir.

Qeyd edim ki, regionlararası əlaqələr bizim dövlətlərarası münasibətlərimizin mühüm tərkib hissəsidir. Rusiya Federasiyasının təxminən 70 regionu Azərbaycanın regionları ilə sıx işləyir. Burada liderlər sözsüz ki, Moskva vilayəti və Sankt-Peterburqdur, amma təkcə onlar yox, həm də Stavropol, Krasnodar diyarları, Həştərxan, Nijeqorod, Çelyabinsk, Volqoqrad, Saratov, Sverdlovsk vilayətləri.

Bütövlükdə Rusiya ilə Azərbaycan arasında münasibətlərdən danışarkən qeyd etmək istərdim ki, dövlətlərimiz arasında münasibətlər mehriban qonşuluq və qarşılıqlı hörmət prinsipləri əsasında qurulur. Biz həmişə maraqlar balansı axtarırıq və onu tapırıq. Azərbaycan Prezidentinin indicə haqqında söylədiyi Soçi danışıqlarının gedişində bizim dövlətlərarası əlaqələrimizin gələcək quruculuğu üçün əlavə normativ baza yaradan

bir sıra sənədlər, razılaşmalar imzaladıq. Qeyd edim ki, indi Azərbaycan bazarında artıq Rusiyanın iştirakı ilə təxminən 700 birgə şirkət fəaliyyət göstərir. Birbaşa Rusiya sərmayələrinin ümumi həcmi isə 1 milyard yarım dollardan çox təşkil edir. Qarşılıqlı, səmərəli biznes əlaqələrinin qurulmasına Rusiya–Azərbaycan İşgüzar Şurası böyük kömək göstərir. Təkcə ötən il bu Şura ümumilikdə yarım milyard dollara yaxın məbləğdə dəyəri olan 42 birgə layihəni dəstəkləyib. Azərbaycanda Rusiyanın energetika korporasiyaları uğurla işləyir. Bu barədə artıq deyilib, «Rosneft» şirkəti Azərbaycanın Dövlət Neft Şirkəti ilə birgə yaxın vaxtlarda «Qoşadaş» neft-qaz yatağının kəşfiyyatına və mənimsənilməsinə başlayacaq. LUKoyl Azərbaycanın enerji layihələrinə 4 milyard dollara yaxın sərmayə qoyub. Bu barədə də burada deyildi. Bizim neftin nəqli üzrə gələcək inhisarımız olan «Transneft» Azərbaycan neftinin Bakı–Novorossiysk neft kəməri ilə ixracının etibarlı tranzitini təmin edir.

Biz maşınqayırma sahəsində kooperasiyanın dərinləşdirilməsi üçün yaxşı imkanlar görürük. Bu barədə də artıq bu gün danışıldı. KamAZ işləməyə başlayıb. Orada artıq texniki yığım və avtomobillərə xidmət həyata keçirilir. «AvtoVAZ» «Lada» avtomobillərinin satışı üzrə Azərbaycanın bütün regionlarında geniş pərakəndə şəbəkə yaradıb. Respublikada 40-dan çox şöbə yaradılıb. Öz növbəsində, Azərbaycandan olan sərmayədarlar Rusiyada kənd təsərrüfatı obyektlərinin inşasında iştirak edirlər. Onların arasında, məsələn, Nijeqorod vilayətində istixana kompleksidir. Sərmayələrin həcmi milyard rubldan artıq təşkil edir. Eləcə də Krasnodar diyarında ərzaq məhsulları buraxılışı üzrə birgə müəssisəni misal çəkə bilərəm.

2017-ci ildə Azərbaycanın kənd təsərrüfatı məhsullarının Rusiyaya satışı, demək olar, 12 faiz artıb. Bu, yarım milyard dollarlıq ümumi həcmdir. Bizim tərəfdaşlarımız bu sahəyə yüksək maraq göstərirlər. 30-dan çox Azərbaycan şirkətinin

sentyabrın 17-dən 20-dək Moskvada Beynəlxalq Ərzaq sərgisində iştirakı buna sübutdur.

Rusiya və Azərbaycan birgə infrastruktur layihələri həyata keçirirlər. Məsələn, Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizinin yaradılması davam edir. Bu, Avropa və Asiya bazarlarını yaxınlaşdırmağa yönələn, İran, Azərbaycan və Rusiyadan keçən dəhlizdir. Həqiqətən, irimiqyaslı böyük iş çərçivəsində ölkələrimizin inşaatçıları Samur çayı üzərində sutkada 37 mindən çox maşın buraxmaq qabiliyyəti olan yeni körpü tikirlər.

Xəzər dənizinin statusu haqqında Konvensiya da bizim dövlətlərimiz arasında qarşılıqlı faydalı kooperasiya üçün yeni imkanlar açıb. Bu, irəliyə doğru gedən qərardır. Sözsüz, orada hamının işləməsi, tammiqyaslı implementasiyaya nail olmaq üçün çox iş görmək lazımdır. Amma artıq mövcud sənədlərin imzalanması Xəzər regionunda əməkdaşlıq üçün bizə yaxşı baza yaradır. Ümid edirik ki, Rusiya və Azərbaycan şirkətləri Xəzər regionunda perspektivli layihələrin reallaşdırılması ilə fəal məşğul olacaqlar. İlk növbədə, nəqliyyat, yükdaşımaları, neft-qaz hasilatı, ekologiya və sözsüz ki, Xəzərin bioehtiyatlarının və biomüxtəlifliyinin qorunması sahəsində.

Turizm sahəsində ikitərəfli əlaqələr intensiv inkişaf edir. Yeri gəlmişkən, Azərbaycan sahibkarlarının sayəsində Yessentukidə sanator-kurort mərkəzi inşa edilib. Jeleznovodskda mehmanxana kompleksi ucaldılır. Həmçinin Xəzərdə birgə dəniz kruiz səyahətlərini inkişaf etdirməyi planlaşdırırıq.

Əlbəttə, Rusiya və Azərbaycan humanitar əməkdaşlığın genişləndirilməsinə xüsusi əhəmiyyət verir. Azərbaycan Prezidenti bu barədə indicə danışdı – Bakıda bizim 2 iri ali məktəbin – Moskva Dövlət Universitetinin və Seçenov adına Tibb Universitetinin filialları fəaliyyət göstərir. Elmi və tələbə mübadilələri genişlənir. Rostovun Nəqliyyat Yolları Universiteti, Həştərxan Universiteti azərbaycanlı tərəfdaşlarla yüksək peşəkar kadrların hazırlanmasına dair proqramlar işləyib hazırlayır, ilk növbədə, iqtisadi ixtisaslar

üzrə. Biz sözsüz ki, ölkələrimizin təhsil, mədəniyyət və elm sahələrində əlaqələrini gələcəkdə də hər cür stimullaşdırmaq niyyətindəyik. Xüsusilə qeyd edirəm, biz Prezidentlə Soçidə də bu haqda danışmışıq. Biz bunu görürük və Azərbaycanda rus dilinə marağı yüksək dəyərləndiririk. Həm də təkcə Azərbaycan vətəndaşlarının rus dilinə marağını yox, eyni zamanda, dövlət, şəhər bələdiyyələri tərəfindən göstərilən köməyi yüksək dəyərləndiririk. Biz bütün bunların hamısını görürük. Prezidentin haqqında dediyi 300-dən çox məktəb, əlbəttə, bazadır, amma ən əsas baza insanların ürəyində, beyinlərindədir. Bu, əməkdaşlığa, əlaqələrin qorunmasına və inkişafına aşkar cəhd deməkdir.

Hörmətli dostlar və həmkarlar! Mən Rusiya və Azərbaycan regionlarının fəal iştirak etdiyi, ölkələrimizin qarşılıqlı fəaliyyətinin yalnız bəzi istiqamətlərinə toxundum. Əməkdaşlıq üçün imkanlar həqiqətən, çox genişdir. Həm də regional səviyyədə bizim qarşılıqlı fəaliyyətimizin konkret istiqamətlərini ilk növbədə, siz – bu salonda toplaşanlar və sizin yerlərdəki həmkarlarınız müəyyənləşdirir. Mən sizə bu işdə hər cür uğurlar arzulamaq istəyirəm. Diqqətinizə görə təşəkkür edirəm.

## RUSİYA VƏ MONQOLUSTAN PREZİDENTLƏRİ İLƏ BİRGƏ CÜDO ÜZRƏ DÜNYA ÇEMPİONATININ KOMANDA YARIŞLARINA BAXIŞ

*Milli Gimnastika Arenası*

*27 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin, Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqa və Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer sentyabrın 27-də Milli Gimnastika Arenasında keçirilən cüdo üzrə dünya çempionatının sonuncu – səkkizinci günündə qarışıq komanda yarışlarına baxmışlar.*

*Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizə işgüzar səfərə gələn Rusiya Prezidenti Vladimir Putini qarşıladı.*

*Rusiya Prezidenti Azərbaycan Prezidenti və ailə üzvləri, Monqolustan Prezidenti və Beynəlxalq Cüdo Federasiyasının prezidenti ilə görüşdü.*

*Bakıda keçirilən cüdo üzrə dünya çempionatının sonuncu günündə komanda yarışlarına start verildi. Yaponiya, Koreya və Fransa komandaları gərgin idman mübarizəsi şəraitində keçən qarşılaşmalardan sonra yarımfinala vəsiqə qazandılar. Bunun ardınca Almaniya ilə qarşılaşmadan qalib ayrılan Rusiya yığması da yarımfinala çıxdı. Finalda Yaponiya və Fransa komandaları üz-üzə gəldilər.*

*Azərbaycan yığmasının çıxışlarına gəlincə, Avstriya ilə qarşılaşmada rəqibini 5:1 hesabı ilə məğlub edən cüdoçularımız dörddəbir finalda Yaponiya yığmasına uduzdular. Ancaq*

*seçməmiz təsalliverici görüşdə iştirak hüququ qazandı və onun rəqibi Niderland yığması oldu. Bu mərhələdə Azərbaycan yığması rəqibindən üstün olmağı bacardı. Millimiz 4:2 hesabı ilə qalib gələrək, çempionatın bürünc medalı uğrunda mübarizəyə vəsiqə qazandı.*

*Azərbaycan millisi Bakıda keçirilən cüdo üzrə dünya çempionatında fərdi yarışları 11-ci pillədə başa vurdu. Komandamızın üzvlərindən Uşangi Kokauri gümüş, Hidayət Heydərov isə bürünc medal qazandı.*

*Bakıdakı dünya çempionatında cəmi 22 ölkə medal qazana bildi, 14 qızıl medalın yarısı Yaponiyanın oldu. Qalan qızıl medallardan 2-si Koreya Respublikasına, hərəyə 1 medal Fransa, Gürcüstan, İran, Ukrayna və İspaniyaya nəsib oldu. Mundialda 125 ölkədən 800-dək cüdoçu mübarizə aparırdı.*

*Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Azərbaycan yığmasının üzvləri ilə görüşdülər.*

**İlham Əliyev:** Sizi bu gözəl qələbə münasibətilə təbrik etmək istəyirəm. Bizim idmançılarımız gümüş və bürünc medal qazandılar. Digər idmançılarımız da çox gözəl döyüş nümayiş etdirdilər, komandamız qabaqcıl komandalar sırasındadır. Bütün bunlar çox böyük nailiyyətlərdir, Azərbaycan cüdo məktəbinin böyük uğurudur və siz bütün xalqımızı sevindirirsiniz.

Cüdo üzrə dünya çempionatının Azərbaycanda keçirilməsi özlüyündə böyük bir hadisədir. Bu onu göstərir ki, Azərbaycan dünya miqyasında uğurlu inkişaf yolunda çox böyük addımlar atıb. Əlbəttə, siz hamınız istəyirdiniz ki, idmançılarımız gözəl döyüş nümayiş etdirsinlər, belə də oldu. Həm medallar qazanıldı, həm də medal qazanmayan idmançılarımız çox ləyaqətli döyüş nümayiş etdirdilər. Mən bu münasibətlə sizin hamınızı ürəkdən təbrik etmək, sizə yeni uğurlar arzulamaq istəyirəm. Sizin komanda yarışında döyüşləriniz hələ davam edəcək, siz bürünc medal uğrunda döyüşəcəksiniz, rəqibiniz də çox güclüdür və biz hamımız sizə uğurlar arzulayırıq.

Onu da bilməliyik ki, bu idmandır, idmanda qələbə də olur, məğlubiyyət də. Əsas odur ki, bizim idmançılarımız ləyaqətli döyüş nümayiş etdirsinlər. Fəxr edirik ki, bizim görkəmli cüdoçularımız var – Elnur, Nazim, Elxan, Natiq, olimpiya və dünya çempionları, veteranlar Sizin üçün böyük nümunədir. Mehman da yadımdadır, Olimpiya oyunlarında biz onun döyüşlərini böyük maraqla izləmişik. Hesab edirəm ki, bizim cüdoçularımız bundan sonra da ancaq irəliyə gedəcək, xalqımızı, Vətənimizi sevindirəcəklər.

*Sonra Prezident İlham Əliyev çıxışını rus dilində davam etdirdi: (çıxışın tərcüməsi)*

– Bizim komandada elə uşaqlar var ki, onlar Azərbaycan dilini o qədər də yaxşı bilmirlər. Buna görə mən onlara da müraciət etmək, onları uğurları, nailiyyətləri münasibətilə təbrik etmək istərdim. Siz ölkəmizi həmişə ləyaqətlə təmsil etmisiniz və xalqımızı sevindirmisiniz. Sizi təbrik edirəm və gələcəkdə sizə uğurlar diləyirəm.

*Sonra xatirə şəkilləri çəkdirildi.*

*Prezident İlham Əliyev çempionatda iştirak edən və mükafat qazanan Azərbaycan yığmasının üzvlərindən, cüdo üzrə olimpiya çempionlarından və məşqçi heyətindən bir qrupunu Rusiya Prezidenti Vladimir Putinə təqdim etdi.*

## TACİKİSTAN RESPUBLİKASINA SƏFƏR

*27 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün sentyabrın 27-də Tacikistan Respublikasına səfərə gəlmişdir.*

*Düşənbə şəhərinin Beynəlxalq Aeroportunda Prezident İlham Əliyevi Tacikistanın Baş Nazirinin müavini Azim İbroxim və digər rəsmi şəxslər qarşıladılar.*

## MDB DÖVLƏT BAŞÇILARI ŞURASININ MƏHDUD TƏRKİBDƏ GÖRÜŞÜNDƏ İŞTİRAK

*Düşənbə*

*28 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Düşənbədə MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə keçirilən görüşündə iştirak etmişdir.*

*Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.*

*Azərbaycan və Tacikistan prezidentləri birgə foto çəkdirdilər.*

*Sonra görüşdə iştirak edən dövlət başçıları birgə foto çəkdirdilər.*

*Tacikistan Prezidenti Emoməli Rəhmon çıxış edərək, qonaqları salamladı və iclasın işinə uğurlar arzuladı. Qeyd etdi ki, ötən dövrdə ənənələrə uyğun olaraq, ölkələr arasında münasibətlərin möhkəmlənməsinə və inkişafına xüsusi əhəmiyyət verilibdir.*

*Tacikistan Prezidenti ölkəsinin MDB çərçivəsində fəaliyyəti barədə məlumat verdi. Prezident Emoməli Rəhmon Tacikistanın Şuraya sədrliyi dövründə müxtəlif sahələr üzrə 40 iclasın keçirildiyini diqqətə çatdırdı. Bildirdi ki, ötən dövrdə terrorizm, ekstremizm, narkotiklərin qeyri-qanuni dövriyyəsi, iqtisadi sahədə cinayətkarlıq, qanunsuz miqrasiya, insan alverinə qarşı mübarizə məsələləri qarşılıqlı fəaliyyətin əsas istiqamətlərini təşkil edib. «MDB çərçivəsində qəbul edilən sənədlərə müvafiq olaraq, iqtisadi sahədə əməkdaşlıq müsbət nəticələr verib» –*

*deyən Tacikistan Prezidenti humanitar sahənin inkişafına da xüsusi diqqət yetirildiyini vurğuladı.*

*Emoməli Rəhmon iclası açıq elan etdi.*

*Sonra MDB İcraiyyə Komitəsinin sədri, icraçı katib Sergey Lebedev Şuranın iclasının gündəliyi barədə məlumat verdi.*

## MDB DÖVLƏT BAŞÇILARI ŞURASININ GENİŞ TƏRKİBDƏ İCLASINDA İŞTİRAK

*Düşənbə*

*28 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Düşənbədə MDB Dövlət Başçıları Şurasının nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə keçirilən iclasında iştirak etmişdir.*

*İclasda Prezident Emoməli Rəhmon Tacikistanın sədrliyi dövründə Şuranın fəaliyyəti haqqında məlumat verdi. O bu iclasın nəticəsi olaraq qəbul ediləcək qərarların Şuranın gələcək fəaliyyətinə töhfə verəcəyinə əminliyini ifadə etdi. Emoməli Rəhmon 2019-cu ildə MDB-yə sədrliyin Türkmənistana keçməsi barədə Şuranın qərarını elan etdi.*

*Türkmənistan Nazirlər Kabinetinin sədr müavini Purli Ağamuradov MDB-yə sədrliyin Türkmənistana keçməsi ilə bağlı qəbul edilən qərara verdikləri dəstəyə görə dövlət başçılarına minnətdarlığını bildirdi. O, sədrlik dövründə Türkmənistanın MDB məkanında əməkdaşlığın daha da genişlənməsi üçün səylərini əsirgəməyəcəyini vurğuladı.*

*MDB İcraiyyə Komitəsinin sədri, icraçı katib Sergey Lebedev Şuranın məhdud tərkibdə iclasında müzakirə olunmuş məsələlər barədə məlumat verdi və Şuranın növbəti iclasının 2019-cu ilin oktyabrında Türkmənistanın paytaxtı Aşqabadda keçiriləcəyini diqqətə çatdırdı.*

*Rusiya Federal Məclisi Federasiya Şurasının sədri, MDB Parlamentlərarası Assambleyanın sədri Valentina Matviyenko kosmik fəzanın sülh məqsədilə tədqiqi və istifadəsi sahəsində*

*əməkdaşlığa dair hazırlanmış Konvensiyanın müddəaları ilə iclas iştirakçılarını tanış etdi.*

*Rusiya Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy isə 1941–45-ci illər Böyük Vətən müharibəsində Qələbənin 75 illiyinin bayram edilməsi ilə bağlı hazırlanmış sənəd barədə məlumat verdi. Hər iki sənəd yekdilliklə qəbul olundu.*

*İclasda bəzi prosedur məsələlərinə baxıldı.*

*Sonra dövlət və hökumət başçıları iclasda müzakirə olunmuş bir sıra sənədləri imzaladılar.*

## MDB DÖVLƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ TƏŞKİL OLUNMUŞ RƏSMİ QƏBULDA İŞTİRAK

*Düşənbə*

*28 sentyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun adından MDB dövlət başçılarının şərəfinə təşkil olunmuş rəsmi qəbulda iştirak etmişdir.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Tacikistan Respublikasına səfəri sentyabrın 28-də başa çatdı.*

## AZƏRBAYCAN RESPUBLİKASI PROKURORLUQ ORQANLARININ ƏMƏKDAŞLARI VƏ VETERANLARINA

Hörmətli prokurorluq əməkdaşları və veteranlar!

Sizi Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyi münasibətilə təbrik edirəm.

Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin qərarı ilə 1 oktyabr 1918-ci ildə yaradılmış prokurorluq orqanları bir əsrlik şərəfli inkişaf yolu keçmişdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev milli prokurorluğun demokratik və hüquqi cəmiyyətdə rolunu nəzərə alaraq, 17 iyul 1998-ci ildə imzaladığı sərəncamla oktyabr ayının 1-ni prokurorluq işçilərinin peşə bayramı günü kimi təsis etmişdir.

Prokurorluq orqanlarında həyata keçirilən hüquqi islahatlar nəticəsində Azərbaycan Prokurorluğu milli maraqların və qanunun aliliyinin təmin olunmasına, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsinə xidmət edən müasir dövlət təsisatına çevrilibdir.

Prokurorluq orqanlarına müasir dünyagörüşlü, bilikli və dövlətçilik ideyalarına sadiq gənc hüquqşünasların qəbulu prokurorluğun fəaliyyətinin təkmilləşdirilməsinə təkan veribdir.

Bu gün prokurorluq orqanları qanunların icra və tətbiq olunmasına prokuror nəzarətini və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirməklə, istintaq və dövlət ittihamının müdafiəsi sahəsindəki fəaliyyəti ilə dövlətin və cəmiyyətin qanunla qorunan mənafelərinin müdafiə edilməsində əhəmiyyətli rol oynayır.

Əminəm ki, 100 illik tarixi olan Azərbaycan Prokurorluğunun əməkdaşları bundan sonra da qanunçuluğun, insan hüquq

və azadlıqlarının etibarlı müdafiəsini təmin edəcək, cinayətkarlığa qarşı mübarizədə əzmkarlıq nümayiş etdirəcək və onların üzərinə düşən vəzifələri ləyaqətlə yerinə yetirəcəklər.

Sizi bir daha əlamətdar yubiley münasibətilə təbrik edir, dövlətimizin tərəqqisi naminə fəaliyyətinizdə nailiyyətlər arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 oktyabr 2018-ci il*

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FRANK-VALTER ŞTAYNMAYERƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Alman Birliyi Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Biz Azərbaycan–Almaniya münasibətlərinə böyük əhəmiyyət veririk. Bu baxımdan siyasi, iqtisadi və humanitar sahələrdə əlaqələrimizin gündən-günə genişlənməsi məmnunluq doğurur.

İnanıram ki, ölkələrimiz arasındakı əməkdaşlıq, eləcə də çoxtərəfli müstəvidə qarşılıqlı fəaliyyətimiz bundan sonra da müvəffəqiyyətlə davam edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Almaniya xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 oktyabr 2018-ci il*

**KOREYA RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB MUN CE-İNƏ**

Hörmətli cənab Prezident!

Koreya Respublikasının milli bayramı münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan Respublikası ilə Koreya Respublikası arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 oktyabr 2018-ci il*

## ÇEX RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ MİLAN EKERT İLƏ GÖRÜŞ

*3 oktyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Çex Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Milan Ekertin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Milan Ekert Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Milan Ekert etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Dövlət başçısı Azərbaycan–Çexiya ikitərəfli münasibətlərinin səviyyəsindən və ölkələrimiz arasında qarşılıqlı fəaliyyətdən məmnunluğunu ifadə etdi, eyni zamanda, əlaqələrimizin Azərbaycan–Avropa İttifaqı və Azərbaycan–NATO əməkdaşlığı baxımından da önəmini vurğuladı. Prezident İlham Əliyev ölkələrimizin həyata keçirilən əməkdaşlığın digər sahələrdə də yaxşı nəticə verməsində maraqlı olduğunu bildirdi və buna nail olunacağına əminliyini ifadə etdi.*

*Prezident İlham Əliyev bu baxımdan parlamentlərarası, hökumətlərarası, biznes icmaları arasında əlaqələrin və qarşılıqlı səfərlərin bu işə yaxşı töhfə verə biləcəyini vurğuladı. Dövlət başçısı səfirə fəaliyyətində uğurlar arzuladı.*

*Fövqəladə və Səlahiyyətli səfir Milan Ekert ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirdi, bu il həm Azərbaycanda, həm də Çexiyada respublika yaranmasının 100 illiyinin qeyd edilməsinin əlamətdar hadisə olduğunu diqqətə çatdırdı.*

*Səfir vurğuladı ki, ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasından keçən 25 il ərzində ikitərəfli münasibətlərimizin inkişafında böyük nəticələr əldə edilib. Milan Ekert səfirlik fəaliyyəti dövründə əlaqələrimizin daha da genişləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini bildirdi.*

**BEYNƏLXALQ ŞAHMAT FEDERASİYASININ PREZİDENTİ CƏNAB ARKADİ DVORKOVİÇƏ**

Hörmətli Arkadi Vladimiroviç!

Beynəlxalq Şahmat Federasiyasının prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Dünyada şahmat ənənələrinin inkişafı naminə bu məsul vəzifədə Sizə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 oktyabr 2018-ci il*

**BEYNƏLXALQ ŞAHMAT FEDERASİYASININ VİTSE-PREZİDENTİ CƏNAB MAHİR MƏMMƏDOVA**

Hörmətli Mahir Ələsgəroviç!

Beynəlxalq Şahmat Federasiyasının vitse-prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Həmvətənimizin belə məsul vəzifəyə seçilməsi Azərbaycanda şahmatın inkişafına və şahmatçılarımızın beynəlxalq miqyasda nailiyyətlərinə verilən yüksək qiyməti bariz şəkildə əks etdirir.

Qarşıdakı işinizdə Sizə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 oktyabr 2018-ci il*

**İRAQ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB BƏRHAM SALİHƏ**

Hörmətli cənab Prezident!

İraq Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə İraq arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost İraq xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 oktyabr 2018-ci il*

**MALDİV RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İBRAHİM MƏHƏMMƏD SOLİHƏ**

Hörmətli cənab Solih!

Maldiv Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı münasibətlər birgə səylərimizlə bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 oktyabr 2018-ci il*

## MÜQƏDDƏS TAXT-TACIN AZƏRBAYCANDAKI APOSTOL NUNSİSİ ARXİYEPİSKOP POL FİTZPATRİK RASSEL İLƏ GÖRÜŞ

*4 oktyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də Müqəddəs Taxt-Tacın ölkəmizdəki apostol nunsisi arxiyepiskop Pol Fitzpatrik Rasselin etimadnaməsini qəbul etmişdir.*

*Arxiyepiskop Pol Fitzpatrik Rassel Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Pol Fitzpatrik Rassel etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan Prezidenti İlham Əliyev apostol nunsisi ilə söhbət etdi.*

*Dövlət başçısı Azərbaycan ilə Vatikan arasında münasibətlərin çox yüksək səviyyədə olduğunu vurğulayaraq qeyd etdi ki, biz bu günə kimi Roma Papası Fransiskin Azərbaycana səfərinin təəssüratı altındayıq. Prezident İlham Əliyev həmin səfər zamanı Roma Papası Fransisklə keçirdiyi görüşləri, eləcə də özünün Vatikana səfərini məmnunluqla xatırlatdı. Roma Papası Fransiskin ölkəmizə səfərini tarixi hadisə kimi dəyərləndirən Prezident İlham Əliyev onun ölkəmizdə olarkən Azərbaycanla yaxından tanışlığının, insanlarla təmasda olmasının, eləcə də Azərbaycandakı dini icmaların nümayəndələri ilə görüşünün önəmini qeyd etdi. Prezident İlham Əliyev bu yaxınlarda Roma Papası Fransiskin Mehriban xanım Əliyevanı qəbul etdiyinə görə minnətdarlığını çatdırdı və qeyd etdi ki, bu görüş Mehriban xanım Əliyevada dərin təəssürat hissi yaradıbdır. Prezident İlham Əliyev salamlarını və ən xoş arzularını Roma Papası Fransiskə çatdırmağı xahiş etdi. Münasibətlərimizin*

*yaxşı tarixə malik olduğunu və bir çox sahələri əhatə etdiyini qeyd edən Prezident İlham Əliyev bildirdi ki, mədəniyyət sahəsindəki əlaqələrimiz xüsusi əhəmiyyət daşıyır və bu əməkdaşlığımız həm ikitərəfli münasibətlərin yaxşı əlamətidir, eyni zamanda, mədəniyyətlərarası və sivilizasiyalararası qlobal prosesin mühüm elementlərindən biridir. Biz bu əməkdaşlığı yüksək qiymətləndiririk və əminik ki, əlaqələrimiz bundan sonra da möhkəmlənəcəkdir. Dövlət başçısı ümidvar olduğunu bildirdi ki, arxiyepiskop Pol Fitzpatrik Rassel fəaliyyəti müddətində münasibətlərimizin daha da inkişaf etdirilməsi işinə öz töhfəsini verəcəkdir.*

*Xoş sözlərə görə minnətdarlığını ifadə edən arxiyepiskop Pol Fitzpatrik Rassel Vatikan ilə Azərbaycan arasında çox yaxşı münasibətlərin mövcud olduğunu vurğuladı. O, bir neçə həftə bundan əvvəl Roma Papası Fransisklə görüşdüyünü qeyd edərək bildirdi ki, həmin görüş zamanı Papa Fransisk Azərbaycana səfərini məmnunluqla xatırlatdı və eyni zamanda, xoş hisslərlə xanım Mehriban Əliyevanın səfərini gözlədiklərini qeyd etdi.*

*Dövlətimizin başçısı bildirdi ki, Mehriban xanım Əliyeva Papa Fransisklə görüşünün çox səmimi və dostluq şəraitində keçdiyini deyib. Prezident İlham Əliyev bunun əməkdaşlığımızın yaxşı göstəricisi olduğunu qeyd edərək bildirdi ki, Azərbaycan–Vatikan əlaqələri bir daha dünyaya nümayiş etdirir ki, müxtəlif coğrafi ərazilərdə yaşayan insanlar, fərqli mədəniyyətlərin, ayrı-ayrı dinlərin nümayəndələri bir-biriləri ilə necə uğurla əməkdaşlıq edə və dostluq əlaqələri qura bilərlər.*

*Arxiyepiskop Pol Fitzpatrik Rassel Prezident İlham Əliyevin fikirlərinə tam şərik olduğunu bildirərək qeyd etdi ki, Vatikan ilə Azərbaycan arasında əlaqələr, sözün əsl mənasında, bir nümunədir.*

## ABŞ ETNİK ANLAŞMA FONDUNUN PREZİDENTİ MARK ŞNAYER İLƏ GÖRÜŞ

*8 oktyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 8-də ABŞ Etnik Anlaşma Fondunun prezidenti Mark Şnayeri qəbul etmişdir.*

*Mark Şnayer Prezident İlham Əliyevlə Bakıda və ABŞ-da keçirdikləri görüşləri məmnunluqla xatırlatdı.*

*Söhbət zamanı Azərbaycanda müxtəlif xalqların və etnik qrupların, o cümlədən yəhudi icması nümayəndələrinin dinc yanaşı və əmin-amanlıq şəraitində yaşamaları üçün hər cür şəraitin yaradıldığı qeyd olundu, onların Azərbaycanın ictimai həyatında fəal iştirak etdiyi vurğulandı.*

*Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi bildirildi, ABŞ Etnik Anlaşma Fondunun bu işə töhfə verdiyi qeyd olundu.*

## MİLLİ PARKIN ƏRAZİSİNDƏ YENİDƏN QURULMUŞ «MİLAN EKSPO–2015» SƏRGİSİNDƏ AZƏRBAYCAN PAVİLYONU İLƏ TANIŞLIQ

*8 oktyabr 2018-ci il*

*Azərbaycanın «Milan Ekspo–2015» Ümumdünya sərgisində milli pavilyonu sökülərək, Bakıya gətirilib və Dənizkənarı Milli Parkın ərazisində yenidən qurulmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 8-də pavilyonla tanış oldular.*

*Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov yenidən qurulan pavilyon barədə Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya məlumat verdi.*

*Qeyd edək ki, bu bina Dənizkənarı Milli Parkın ərazisində bütün fəsillərdə daimi istifadəyə uyğunlaşdırılıb. Burada Azərbaycan mətbəxini, musiqisini və mədəniyyətini təbliğ edən instalyasiyalar quraşdırılıb, müxtəlif iaşə xidməti göstərmək üçün binada müvafiq şərait yaradılıb, terras qurulubdur.*

*Heydər Əliyev Fondunun və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə Azərbaycan ilk dəfə «Milan Ekspo–2015» Ümumdünya sərgisində milli pavilyonla iştirak edib. Bu layihə Azərbaycan tarixinin və mədəni irsinin, ölkənin zəngin ekoloji, enerji potensialı və nadir biomüxtəlifliyinin beynəlxalq miqyasda tanıdılması istiqamətində böyük rol oynayıb. 2015-ci il mayın 31-dən oktyabrın 31-dək davam edən «Milan Ekspo–2015» sərgisini 23 milyondan çox insan ziyarət edib. Bu müddətdə Azərbaycanın milli pavilyonunda isə 3 milyon 250 mindən çox izləyici olub. «Azərbaycan: biomüxtəlifliyin xəzinəsi» adlandırı-*

*lan dördmərtəbəli milli pavilyon Milanda 1800 kvadratmetr ərazidə təşkil olunmuşdur. Azərbaycan «Milan Ekspo–2015» Ümumdünya sərgisinin bütün mərhələlərində seçilən dövlətlər sırasında olub. Xarici mətbuat, o cümlədən İtaliyanın aparıcı kütləvi informasiya vasitələri milli pavilyonun tikinti və dizayn işlərinin yekunlaşdırılmasına görə Azərbaycanın lider olduğunu qeyd ediblər və milli pavilyonumuz «Milan Ekspo» sərgisinin incisi adlandırılıb. Milli pavilyonun əsas özəlliyindən biri onun 3 biosferdən təşkil olunması idi. Diametri 10 metr olan xüsusi şüşə konstruksiyalardan hazırlanmış biosferlər ətraf mühiti və qədim mədəniyyəti daim harmoniyada saxlamağı və qorumağı bacaran Azərbaycanı təcəssüm etdiribdir.*

*Sərgi müddətində pavilyonun 4-cü mərtəbəsində restoran fəaliyyət göstərib. Burada Azərbaycan milli mətbəxinin nümunələri və konsert proqramları təqdim olunub. Pavilyondakı monitorlarda Azərbaycanın musiqi və kinematoqrafiya incilərinə, adət və ənənələrinə, incəsənətinə dair müxtəlif materiallar nümayiş etdirilib. Ziyarətçilər, həmçinin Azərbaycanın müxtəlif regionlarında mövcud olan zəngin biomüxtəlifliyi, nadir landşaftları, təbii ehtiyat və tarixi abidələri əks etdirən videoçarxları izləyiblər. Sərginin keçirildiyi müddətdə Azərbaycanın milli pavilyonu «Milan Ekspo–2015» Təşkilat Komitəsi tərəfindən «Dizayn və materiallar» nominasiyası üzrə qalib elan olunub. Təşkilat Komitəsi Azərbaycan pavilyonunun tərtibatında günəş şüalarını azaldan şüşə, metal və taxta sistemlərin innovativ qaydada işlənilməsinin ekoloji baxımdan əhəmiyyətli olduğunu və dizayn elementlərinin seçildiyini qeyd edib. Bir sözlə, pavilyonumuz ekoloji təmiz, asan emal edilən materiallardan inşa olunubdur.*

*Burada «Dubay Ekspo–2020» sərgisində qurulacaq Azərbaycan milli pavilyonunun layihəsi Prezident İlham Əliyevə təqdim olundu. Layihə ilə tanış olan dövlət başçısı «Dubay Ekspo–2020» sərgisində milli pavilyonun tikintisinə başlanılmasına dair müvafiq tapşırıqlar verdi. Eyni zamanda, dövlət başçısı*

*«Dubay Ekspo–2020» sərgisində milli pavilyonun da sərgidən sonra sökülərək, ölkəmizə gətirilməsi məsələsinə baxılmasına dair tapşırıq verdi.*

*«Milan Ekspo–2015» Ümumdünya sərgisindən sonra sökülərək, Dənizkənarı Milli Parkın ərazisində yenidən qurulan milli pavilyonumuzun inzibati binası 4 mərtəbədən ibarətdir və 6000 kvadratmetr ərazisi vardır. Burada sakinlər, eləcə də şəhərimizin qonaqlarının istirahəti üçün əlavə olaraq 4000 kvadratmetrə yaxın ərazidə müxtəlif ağac və bitki növlərindən ibarət yaşıllıq zolaqları salınıb, istirahət üçün sahələr yaradılıbdır. Ərazidə torpaq münbitləşdirilib, müasir işıqlandırma sistemi quraşdırılıb, meydançalar yaradılıb, avtomobil və velosipedlərin parklanması üçün dayanacaq sahəsi ayrılıbdır. Pavilyon sakinlərin və şəhərimizin qonaqlarının rahatlığı üçün müasir istirahət guşələrinin yaradılması istiqamətində reallaşdırılan layihələrin bir hissəsidir.*

*«Milan Ekspo–2015» Ümumdünya sərgisində Azərbaycanın milli pavilyonu şimal və cənub, şərq və qərb arasında körpü rolunu oynayan, qədim tarixi, zəngin mədəniyyəti ilə seçilən ölkəmizin bənzərsiz təbii və mədəni xəzinəsini əks etdirib. Onun yaradılmasında hər bir detala xüsusi diqqət yetirilib. Pavilyonun dalğavarı taxta divarları Azərbaycana xas olan küləyi, həmişə burada dövr edən mədəni və yaradıcı axını simvolizə edibdir.*

## İSPANİYA KRALI ƏLAHƏZRƏT VI FELİPEYƏ

Əlahəzrət!

İspaniya Krallığının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirməkdən məmnunluq duyuram.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost İspaniya xalqına daim sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, 9 *oktyabr 2018-ci il*

## NAZİRLƏR KABİNETİNİN 2018-ci İLİN DOQQUZ AYININ SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASINDA İŞTİRAK

*9 oktyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə oktyabrın 9-da Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.*

*Dövlət başçısı iclası giriş nitqi ilə açdı.*

### Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqi

Bu gün biz cari ilin doqquz ayının yekunlarını müzakirə edəcəyik və ilin sonuna qədər görüləcək işlər haqqında danışacağıq. Deməliyəm ki, 2018-ci il ölkəmiz üçün uğurlu il olubdur. İlin əvvəlindən qarşımıza qoyduğumuz bütün vəzifələr uğurla və vaxtında icra edilir. Azərbaycan 2018-ci ildə də öz dinamik inkişafını təmin edir və ölkəmiz əmin-amanlıq, sabitlik, təhlükəsizlik şəraitində yaşayır.

Bugünkü dünyada vəziyyəti nəzərə alsaq, deməliyik ki, bu gün sabitlik, təhlükəsizlik hər bir ölkə üçün əsas amillərdən biridir. Azərbaycanda isə təhlükəsizlik, əmin-amanlıq, sabitlik qorunur, möhkəmlənir. Sabitliyin, uğurlu inkişafımızın təməlində düşünülmüş siyasətimiz və xalq tərəfindən bizim siyasətimizə göstərilən dəstək dayanır. Dünyada və xüsusilə yaşadığımız bölgədə vəziyyət gərgin olaraq qalır, yeni qarşı-

durma, münaqişə ocaqları yaranır. Əvvəlki illərdə yaranmış gərgin vəziyyət, əfsuslar olsun ki, aradan qaldırılmır. Belə vəziyyətdə biz, əlbəttə ki, özümüzü mümkün olan xarici risklərdən daha da ciddi qorumalıyıq və qoruyuruq. Bir daha qeyd etmək istəyirəm, Azərbaycanda daxili risklər mənbəyi yoxdur və biz öz siyasətimizlə, görülən işlərlə özümüzü mümkün olan təhlükələrdən qoruyuruq və qoruyacağıq. Azərbaycan xalqının rahat həyatını təmin edirik və edəcəyik.

Bu istiqamətdə bir çox addımlar, o cümlədən xarici siyasətlə bağlı addımlar atılır. Deyə bilərəm ki, 2018-ci ildə Azərbaycanın beynəlxalq mövqeləri daha da möhkəmlənib. Mənim həmkarlarımla həm ikitərəfli, həm də çoxtərəfli formatlarda bir çox görüşlərim olub. Doqquz ay ərzində mən 12 xarici səfər etmişəm və 15 dövlət və hökumət başçısı Azərbaycana səfər edibdir. Bu onu göstərir ki, Azərbaycanın çox çevik və çoxşaxəli xarici siyasəti vardır. İkitərəfli formatda əldə edilmiş razılaşmalar icra edilir, Azərbaycan dünyada etibarlı tərəfdaş kimi tanınır və bizim sözümüzə inanırlar. Çünki sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur.

Bu il qonşu ölkələrlə əlaqələrimiz yeni pilləyə qalxıbdır. Mənim qonşu ölkələrin dövlət və hökumət başçıları ilə çoxsaylı görüşlərim olub. Əldə edilmiş razılaşmalar həm ikitərəfli əlaqələrimizi möhkəmləndirir, eyni zamanda, regionda sabitliyin, təhlükəsizliyin, əməkdaşlığın inkişafına xidmət göstərir. Müsəlman ölkələri ilə bizim əlaqələrimiz həmişə olduğu kimi, diqqət mərkəzindədir. Bu bizim xarici siyasətimizin prioritet məsələlərindən biridir. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının fəal və dəyərli üzvüdür və bütün beynəlxalq təşkilatlarda, beynəlxalq tədbirlərdə biz islam həmrəyliyini göstəririk və bunu təbliğ edirik. Təsadüfi deyil ki, keçən il bizdə «İslam həmrəyliyi ili» elan olunmuşdur. Bizim islam aləmində birliyin, həmrəyliyin möhkəmləndirilməsi işindəki fəaliyyətimiz müsəlman dünyasında çox yüksək qiymətləndirilir. İslam Əməkdaşlıq Təşkilatı bizim fəaliyyətimizi yüksək qiymətləndirir. Biz bu istiqa-

mətdə səylərimizi davam etdiririk və etdirəcəyik. Təsadüfi deyil ki, bu il Azərbaycanın ikinci şəhəri, Bakıdan sonra bu dəfə Naxçıvan şəhəri «İslam mədəniyyətinin paytaxtı» adına layiq görüldü. Biz bunu bütün müsəlman aləminin bizə olan hörmətinin təzahürü kimi qəbul edirik, qiymətləndiririk. Əlbəttə, bu qərar bizim islam aləmində oynadığımız müsbət rol ilə bağlıdır və biz bu istiqamətdə səylərimizi davam etdirəcəyik. İslam aləmində həmrəyliyin, birliyin möhkəmləndirilməsi üçün səylərimizi davam etdirəcəyik, eyni zamanda, islam dəyərlərini dünyaya çatdırmaq üçün bundan sonra da addımlar atılacaqdır. Bildiyiniz kimi, Azərbaycanda multikulturalizmlə bağlı bir çox tədbirlər keçirilib və həm islam aləmində, həm Avropada bizim bu səylərimiz yüksək qiymətləndirilir, bu səylərin gözəl nəticələri vardır.

Bu il bizim iştirakımızla bir neçə önəmli beynəlxalq hadisə baş verib. Onların arasında Xəzər dənizinin hüquqi statusuna dair Konvensiyanın qəbul edilməsini mən xüsusilə qeyd etmək istərdim. Hesab edirəm ki, bu, tarixi sənəddir və bu sənəddə Azərbaycanın milli maraqları tam şəkildə öz əksini tapıb. Xəzəryanı 5 ölkə uzun danışıqlardan sonra razılığa gəlib. Yəni bu onu göstərir ki, bütün ölkələrin maraqları bu Konvensiyada təmin edilib. Hesab edirəm ki, bu, bölgənin, regionun inkişafı, iqtisadi imkanların genişləndirilməsi üçün çox önəmli, çox ciddi hüquqi sənəddir.

Bu il Azərbaycanda «Qoşulmama Hərəkatı»nın Xarici İşlər nazirlərinin böyük konfransı keçirilibdir. Azərbaycan bu təşkilatda uğurla fəaliyyət göstərir və gələn ildən başlayaraq, bu təşkilata, dünyanın ən böyük təşkilatlarından biri olan «Qoşulmama Hərəkatı»na sədrlik edəcəkdir. Bakıda «Qoşulmama Hərəkatı»nın Zirvə görüşü keçiriləcəkdir. Biz bu il Avropa İttifaqı ilə əlaqələrimizin inkişafı istiqamətində növbəti ciddi addım atdıq. Bu ilin yayında Avropa İttifaqı ilə Azərbaycan arasında «Tərəfdaşlıq prioritetləri» sənədi imzalanıb və hesab edirəm ki, bu çox önəmli addımdır, önəmli

sənəddir. Bu sənəddə bir çox önəmli məsələlər öz əksini tapıb. O cümlədən bu sənəddə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı olan müddəalar həm ədalətlidir, həm də bizim mövqemizi və maraqlarımızı tam şəkildə ifadə edir. Bu sənəddə göstərilir ki, Azərbaycanın suverenliyi, sərhədlərinin toxunulmazlığı, ərazi bütövlüyü Avropa İttifaqı tərəfindən dəstəklənir. Eyni zamanda, NATO Zirvə görüşünün yekununda qəbul edilmiş bəyannamədə Azərbaycanın ərazi bütövlüyünə dəstək bir daha ifadə edilib. Bütün bu sənədlər Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində bizim mövqemizi daha da möhkəmləndirir. Onsuz da münaqişənin həlli üçün kifayət qədər geniş hüquqi baza vardır, eyni zamanda, yeni addımlar, xüsusilə ölkəmizin suverenliyi, sərhədlərinin toxunulmazlığı, ərazi bütövlüyü ilə bağlı mötəbər beynəlxalq təşkilatların qərar və qətnamələri, sazişlərdə əks olunan müddəalar bizim mövqemizi daha da möhkəmləndirir.

Münaqişə ilə bağlı danışıqların indiki mərhələsi ictimaiyyət üçün bəllidir. Ermənistan tərəfinin cəhdləri nəticə vermədi, Ermənistan–Azərbaycan münaqişəsi ilə bağlı danışıqların formatı dəyişməz olaraq qalır. Bu danışıqlar Ermənistan və Azərbaycan arasında aparılıb, aparılır və aparılmalıdır. İki ölkənin Xarici İşlər nazirlərinin iki görüşü bunu bir daha sübut edir. Son vaxtlar baş vermiş digər hadisələr onu göstərir ki, danışıqlar formatı dəyişməz olaraq qalır və bu münaqişə tezliklə beynəlxalq hüququn norma və prinsipləri əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqların predmeti olmayıb, bu gün də deyil və heç vaxt da olmayacaqdır. Biz bundan sonra da öz prinsipial mövqemizdə qalacağıq. Ümid edirəm ki, Ermənistanın yeni rəhbərliyi öz siyasətində konstruktivlik nümayiş etdirəcək və torpaqlarımız tezliklə işğalçılardan azad olunacaqdır.

Bununla yanaşı, əlbəttə ki, biz öz hərbi qüdrətimizi artırırıq və artıracağıq. Azərbaycan Ordusu dünya miqyasında 50 ən güclü

ordu sırasındadır və beynəlxalq reytinqlər də, həyat da bunu göstərir, bizim hərbi uğurlarımız da buna dəlalət edir. Bu il Bakıda 2 dəfə möhtəşəm hərbi parad keçirilib və bu paradlarda bizim hərbi qüdrətimiz həm xalqımıza, həm dünyaya nümayiş etdirilibdir. Bu gün Azərbaycan Ordusu ən müasir silahlarla, texnika ilə təchiz edilib, bu proses davam etdirilir. Biz bundan sonra da ən müasir hərbi texnikanı alacağıq, yeni müqavilələr imzalanır. Əvvəlki illərdə imzalanmış müqavilələr əsasında ən müasir silahlar ölkəmizə gətirilir, onların bir hissəsi hərbi paradlarda göstərilib, bir hissəsi göstərilməyibdir.

Demək olar ki, biz bu gün öz hərbi potensialımızı maddi-texniki təchizat baxımından tam təmin etmişik. Biz bundan sonra yalnız ən müasir texnika, silah almaq fikrindəyik və bu texnikanı bizə satmaq istəyən ölkələrin sayı artır. Onsuz da bu məsələ ilə bağlı heç bir çətinlik yoxdur. Əvvəlki illərlə müqayisədə bu gün biz seçim edirik, nəinki hansısa bir təchizatçıya bağlıyıq. Ona görə biz bu gün bir çox ölkələrdən hərbi təyinatlı məhsullar alırıq. Bu il Bakıda III Beynəlxalq Müdafiə Sənayesi Sərgisi uğurla keçirildi. Bir çox aparıcı şirkətlər öz məhsullarını nümayiş etdirdilər. Azərbaycan öz hərbi-texniki potensialını ortaya qoydu. Bu gün biz hərbi texnikanın istehsalı işində uğurla inkişaf edirik. Azərbaycanda 1000-dən çox adda hərbi təyinatlı məhsul istehsal olunur. Hərbi texnikanın, sursatların istehsalı ilə bağlı bizim yeni planlarımız var və biz onları da həyata keçirəcəyik. Bir sözlə, bu gün ölkəmizin hərbi potensialı ən yüksək səviyyədədir. Ordumuzun döyüş qabiliyyəti də yüksək səviyyədədir. Bizim ordumuz bunu döyüş meydanında da göstərib və nümayiş etdiribdir.

Əlbəttə, bizim bütün planlarımızı həyata keçirmək üçün iqtisadiyyatımız uğurla inkişaf etməlidir və bu istiqamətdə ardıcıl addımlar atılır. Əgər bizim güclü iqtisadi imkanlarımız olmasaydı, heç bir planımızı icra etmək mümkün olmazdı. Bizim iqtisadiyyatımız siyasi maraqlarımızı təmin edir. İqtisadi müstəqillik imkan verir ki, biz beynəlxalq müstəvidə də

müstəqil siyasət aparaq. Əgər biz iqtisadi cəhətdən kimdənsə asılı olsaydıq, belə imkanlar məhdud ola bilərdi. Biz isə iqtisadi cəhətdən heç kimdən asılı deyilik. Hesab edirəm ki, bu bizim tarixi nailiyyətimizdir.

Eyni zamanda, 2018-ci ildə iqtisadi sahədə islahatların dərinləşməsi işində çox önəmli addımlar atılıbdır. Hesab edirəm, bu ilin 9 ayının göstəriciləri deməyə əsas verir ki, biz istədiyimizə nail oluruq. İqtisadi göstəricilərə gəldikdə isə deməliyəm ki, bu ilin 9 ayında bizim iqtisadiyyatımız, yəni ümumi daxili məhsul 0,8 faiz artıbdır. Qeyri-neft sektorunda artım isə 1 faizdir. Sənaye istehsalı 2 faiz, qeyri-neft sənayesi 10,8 faiz artıbdır. Bu göstərici Azərbaycanda aparılan sənayeləşmə siyasətinin nəticəsidir.

Bildiyiniz kimi, son illərdə kənd təsərrüfatının inkişafına, xüsusilə bölgələrdə məşğulluğun artırılmasına böyük diqqət, qayğı və dəstək göstərilir. Biz kənd təsərrüfatının ardıcıl artımını görürük. Ümid edirəm ki, növbəti illərdə bu artım daha da böyük olacaq. Kənd təsərrüfatı 9 ayda 4,3 faiz artıb. Hesab edirəm ki, bu da kifayət qədər yaxşı göstəricidir.

İnflyasiya cəmi 2,6 faiz, əhalinin gəlirləri isə 9,5 faizdir. Yəni gəlirlər inflyasiyanı üstələyir. İnflyasiyanın aşağı səviyyədə olması, il ərzində daha da düşməsi göstərir ki, bizim maliyyə vəziyyətimiz çox sabitdir və makroiqtisadi vəziyyət möhkəmdir.

Bu ilin 9 ayında ölkə iqtisadiyyatına 9 milyard dollar sərmayə qoyulub. Sevindirici hal ondan ibarətdir ki, bu vəsaitin 5,6 milyard dolları qeyri-neft sektoruna qoyulub. Bu, iqtisadiyyatımızın bundan sonra da şaxələndirilməsinə xidmət edəcəkdir.

Valyuta ehtiyatlarımız artır. Bu gün bizim valyuta ehtiyatlarımız 45 milyard dollara çatıb. İlin əvvəlindən bəri biz əlavə 3 milyard dollar yığmışıq. Bu bir daha onu göstərir ki, biz öz vəsaitimizə böyük qənaətlə yanaşırıq. Həm ölkə qarşısında duran vacib məsələləri həll edirik, investisiya layihələrini, infrastruktur

layihələrini icra edirik, sosial məsələlərin həllini təmin edirik, həm də ehtiyatlarımızı artırırıq və əminəm ki, ilin sonuna qədər daha da artıracağıq. Bu bizim bundan sonra da uğurlu inkişafımız üçün çox önəmli amildir.

9 ayda xarici ticarət dövriyyəsi 37 faiz artıb. İxrac da təxminən bir o qədər artıb. Bu da çox müsbət haldır. Qeyri-neft ixracı isə təxminən 14 faiz artıb. Hesab edirəm ki, bu da çox gözəl göstəricidir. Bu ilin 9 ayında ölkəmizdə 85 min daimi iş yeri açılıbdır.

Bax, budur sosial-iqtisadi inkişafımızın əsas göstəriciləri. İstənilən mötəbər beynəlxalq maliyyə qurumu bu nəticələri görərkən bir qənaətə gələ bilər ki, Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edir. Azərbaycanda çox düşünülmüş iqtisadi siyasət aparılır. Azərbaycan iqtisadiyyatı qarşısında gələcəkdə heç bir ciddi problem yoxdur. Sadəcə olaraq, biz gərək bu sahədə öz islahatlarımızı davam etdirək. Bu barədə bu gün danışılacaq ki, öz iqtisadi potensialımızdan maksimum istifadə edə bilək.

Əlbəttə, qeyd etdiyim kimi, ölkəmizin uğurlu inkişafı üçün yerli istehsalın artması ən önəmli amillərdən biridir. Dövlətin dəstəyi ilə bu istiqamətdə bir çox layihələr icra edilir. O cümlədən, dövlətin birbaşa maliyyə dəstəyi ilə böyük, nəhəng müəssisələr yaradılır. Misal üçün, bu il Polipropilen zavodunun açılışı, hesab edirəm ki, çox əlamətdar hadisədir. Bu zavodun açılışında İtaliya Prezidenti mənimlə birlikdə iştirak etmişdir. İlin sonuna qədər «SOCAR Polymer»in ikinci layihəsi – yüksəksıxlıqlı Polietilen zavodu da istifadəyə veriləcəkdir. Bu zavodlara qoyulan sərmayənin həcmi 800 milyon dollardan çoxdur. Əlbəttə, bizim qeyri-neft sənayemizin inkişafı üçün bu zavodların böyük əhəmiyyəti olacaq. Ölkəmizə böyük həcmdə valyuta gələcək. İlin sonuna qədər Azot Gübrəsi zavodu istifadəyə verilməlidir. Orada da sərmayələr yüz milyonlarla dollar həcmindədir.

Yaxın gələcəkdə Azərbaycanın Türkiyədəki «Star» Neftayırma zavodu istifadəyə veriləcək. Biz bu zavoda çox böyük sərmayə – 6 milyard dollardan çox vəsait qoymuşuq. Biz oradan hər

il yüz milyonlarla dollar gəlir götürəcəyik. Yəni həm ölkə daxilində, həm də xaricdə qoyulan sərmayələr gələcəkdə bizə böyük xeyir gətirəcək və ölkəmizin dayanıqlı inkişafını təmin edəcəkdir. Bu il bir çox sənaye müəssisələri açılıb və bu proses davam etdiriləcəkdir.

2018-ci il bizim enerji siyasətimizin inkişafı üçün önəmli il olubdur. Bu ilin may ayında biz Bakıda «Cənub Qaz Dəhlizi»nin rəsmi açılışını qeyd etdik. Bu, tarixi hadisədir. Ondan bir ay sonra Türkiyədə TANAP layihəsinin açılışını etdik və «Cənub Qaz Dəhlizi» layihəsi uğurla icra edilir. Bu 4 layihənin hamısında çox gözəl nəticələr vardır. Bu il biz qaz hasilatımızı artıracağıq, artıq «Şahdəniz-2»dən qaz gəlir. Gələn il, ondan sonrakı illərdə daha da artacaqdır. Yəni biz tam hədəfə çatmaq üçün bütün işləri görürük və mənə verilən son məlumatlara görə, «Cənub Qaz Dəhlizi»nin son hissəsi olan TAP layihəsinin icrası ilə bağlı da heç bir problem yoxdur.

«Cənub Qaz Dəhlizi»nin uğurla başa çatması bizim üçün yeni imkanlar, yeni üfüqlər açacaq. Biz bir çox ölkələrin bazarlarına öz resurslarımızla çıxacağıq. Ondan sonra bunu nəzərə alaraq, biz o ölkələrdə yeni infrastruktur layihələri icra edə bilərik. Bu barədə danışıqlar gedir və əvvəlcədən bir şey demək istəmirəm. Amma biz sadəcə olaraq, digər ölkələrə qazı yalnız ixrac etmək yox, ondan sonra qaz təsərrüfatının idarə edilməsi ilə də məşğul olmaq istəyirik. Bu həm səmərəliliyi, gəlirimizi daha da artıracaq, həm də çalışacağımız ölkələrdə yeni infrastrukturun yaradılmasına gətirib çıxaracaqdır.

Əlbəttə ki, ilin 9 ayının yekunları haqqında danışarkən Bakı Beynəlxalq Dəniz Ticarət Limanını qeyd etməmək mümkün deyil. Bu da tarixi layihədir, Xəzər dənizinin ən böyük limanıdır. Liman may ayında istifadəyə verildi. Beləliklə, Şərq–Qərb nəqliyyat dəhlizinin uğurlu fəaliyyəti üçün çox önəmli infrastruktur layihəsi həyata keçirildi. Bundan sonra biz, əlbəttə ki, öz tranzit imkanlarımızı artıracağıq. Bu gün biz nəinki Şərq–Qərb, eyni zamanda, Şimal–Cənub nəqliyyat dəhlizinin də fəal iştirak-

çısıyıq. Bu dəhliz vasitəsilə göndərilən yüklərin həcmi artır. Mən bu rəqəmi səsləndirmişdim, bir daha demək istəyirəm ki, ilin əvvəlindən Şimal–Cənub nəqliyyat dəhlizi ilə Azərbaycan ərazisindən daşınan yüklərin həcmi 100 dəfədən çox artıbdır. Bu hələ başlanğıcdır. Biz indi tərəfdaş ölkələrlə bu layihənin tam həyata keçirilməsi üçün çox ciddi danışıqlar aparırıq. Azərbaycanın həm texniki təcrübəsi, həm də mütəxəssisləri və maliyyə resursları vardır. Azərbaycan ərazisində bütün işləri biz özümüz gördük. Başqa yerlərə də öz maliyyə imkanlarımızı cəlb edə bilərik ki, bu dəhliz tam gücü ilə işləsin və ölkəmizə əlavə valyuta gətirsin. Bizim əsas məqsədimiz budur. Əlbəttə, tranzit ölkələrin siyasi çəkisi də, siyasi imkanları da artır. Regionda əməkdaşlığın inkişafı üçün o ölkələrin rolu artır. Biz istəyirik ki, bizim rolumuz artsın. Biz istəyirik ki, Azərbaycan ilə daha çox hesablaşsınlar. Biz istəyirik ki, Azərbaycandan daha çox məsələlər asılı olsun və buna nail oluruq.

Regionda baş verən hadisələr, bizim təşəbbüsümüzlə icra edilən nəhəng enerji, nəqliyyat layihələri, digər sahələrdə apardığımız işlər siyasi çəkimizi yüksək dərəcədə artırıb. Bu gün Azərbaycan çox dəyərli, böyük hörmətə, yüksək beynəlxalq nüfuza malik olan bir ölkədir. Təkcə bizim yaratdığımız imkanlara görə yox, eyni zamanda, bəlkə də ilk növbədə, ona görə ki, bizim sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur. Biz prinsipial siyasət aparırıq. Bütün prinsipial məsələlərlə bağlı öz mövqemizi ortaya qoyuruq, ölkəmizin milli maraqlarını layiqincə yerinə yetiririk və bundan sonra da bu yolla gedəcəyik.

* * *

**M i k a y ı l  C a b b a r o v** (*Vergilər naziri*): Möhtərəm cənab Prezident!

Hörmətli iclas iştirakçıları!

2018-ci ilin ötən 9 ayı ölkəmizdə makroiqtisadi sabitliyin, iqtisadi artımın davam etməsi və maliyyə dayanıqlılığının daha da güclənməsi ilə əlamətdar olub. Ölkə iqtisadiyyatı yüksək inkişaf dinamikasını saxlamağa müvəffəq olub, mürəkkəb xarici risklər və çağırışlar şəraitində yüksək dayanıqlılıq və sabitlik nümayiş etdirib. Bu, cənab Prezident, Sizin rəhbərliyinizlə reallaşdırılan strateji inkişaf kursunun uğurla həyata keçirilməsi və iqtisadiyyatın şaxələndirilməsi siyasətinin məntiqi nəticəsidir.

Ölkə iqtisadiyyatında müşahidə olunan müsbət trendlər fonunda cari ilin 9 ayında 5 milyard 298 milyon manat həcmində proqnoza qarşı 5 milyard 306 milyon manat vergi toplanılıb, proqnoza 100,2 faiz əməl olunubdur.

Ödənilən vergilərin 65,8 faizi qeyri-neft sektorunun payına düşür.

Diqqətinizə çatdırmaq istərdim ki, neft-qaz sektorunda həyata keçirilən investisiya layihələrinin aktiv fazasının başa çatması qeyri-neft sektorundan vergi daxilolmalarına təsir etsə də, qeyri-neft sektorunun digər sahələrindən daxilolmaların artması, həmçinin neft sektorundan olan artım hesabına 2018-ci ilin 9 ayında əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1,6 faiz və ya 81,4 milyon manat çox vəsait toplanılıbdır.

Cari ilin 9 ayında qeyri-neft sektorunun özəl bölməsindən vergi yığımları 7 faiz artıb, onun qeyri-neft vergilərində xüsusi çəkisi ötən ilin müvafiq dövründəki 51 faizdən 59 faizə yüksəlibdir.

Regionların sosial-iqtisadi inkişafı konsepsiyasının uğurla həyata keçirilməsi, o cümlədən yeni iş yerlərinin açılması

vergitutma bazasının genişləndirilməsi ilə nəticələnib, hesabat dövründə regionlardan vergi daxilolmaları 508 milyon manat təşkil etməklə, ötən ilin müvafiq dövrü ilə müqayisədə 12 faiz artıbdır. Tədiyə növləri üzrə aparılan təhlil göstərir ki, qeyri-neft sektorundan daxil olan bütün vergi növləri üzrə artım qeydə alınıbdır.

Cənab Prezident, Siz vergi orqanları qarşısında «kölgə iqtisadiyyatı»nın səviyyəsinin azaldılması, şəffaflığın və bərabərliyin təmin edilməsi, vergi mədəniyyətinin yüksəldilməsi kimi mühüm tapşırıqlar qoymusunuz.

Bunlardan ən önəmlisi sahibkarlıq fəaliyyətinin şəffaflığı problemidir. Azərbaycanda yaradılmış əlverişli iqtisadi mühit, böyük daxili istehlak bazarının mövcudluğu, ixracın təşviqi üçün görülən tədbirlər insanları sahibkarlıq fəaliyyətinə stimullaşdırır. Lakin bu sahədə hələ də uçotsuz fəaliyyət, qeyri-rəsmi məşğulluq, real dövriyyənin gizlədilməsi və vergidən yayınma cəhdlərinin geniş yayıldığı ilə qarşılaşırıq.

Bu kimi halların qarşısının alınması olduqca vacibdir. Təkcə ona görə yox ki, bu, vergi yığımı üçün böyük potensialdır və büdcə gəlirlərinin artırılması üçün olduqca əhəmiyyətlidir. Həm də ona görə ki, qanunauyğun fəaliyyət göstərən vergiödəyicilərinin mənafeləri bu haqsız rəqabətə uduzmasın. Bu fəaliyyətin həm dövlət, həm də vətəndaş üçün faydalı olmasının əsas şərti hər kəsin qanun qarşısında bərabər olmasıdır.

Sadələşdirilmiş verginin əhatə dairəsinin hər il genişləndirilmə təhlili nəticəsində müəyyən edilib ki, verilən bu dəstəkdən sui-istifadə hallarının sayı artır. Kifayət qədər dövriyyəyə malik, böyük əməliyyatlar aparan bir sıra iri vergiödəyiciləri tərəfindən dövriyyələrin «parçalanması», müxtəlif yollarla sadələşdirilmiş vergi tutma rejimində qalmaqla, vergidən yayınmaq üçün cəhdlər edilir.

Ayrı-ayrı sahələrin inkişafı üçün tətbiq olunan vergi güzəştlərinin əhəmiyyəti danılmazdır, lakin istehsalçılarda gəlir və xərclər uçotunun olmadığı bir şəraitdə bu, məhsulları satış

məqsədləri üçün əldə edən üçüncü şəxslərin vergidən yayınmalarına əlavə imkanlar yaradır.

Əlbəttə, vergiödəyicilərin fəaliyyətində uçot sisteminin zəifləməsində müəyyən qədər vergi orqanlarının da payı olub. Vergiödəyicilərin öz təsərrüfat fəaliyyəti nəticələrinin hesablanmasının gəlir və xərclər üzərində deyil, ən asan üsulla – dövriyyənin hesablanmasına yönəldilməsi, bunun nəticəsində audit institutunun əhəmiyyətini itirməsi, vergiödəyicilərdən ödənilməli olan vergi məbləğindən artıq ödəmə həcminin ilbəil artması, özəl biznesə qarşı qəbuledilməz metodların tətbiqi kimi xoşagəlməz halları qeyd etmək olar. Nəticə etibarilə illərlə yaranmış artıq ödəmələr cari ilin vergi proqnozunun icrasında obyektiv çətinliklər yaradır.

Uzun müddət formalaşmış vergi ödəmə vərdişlərinin dəyişdirilməsi çətin, lakin həllini tələb edən prosesdir. Vergi administrasiyası bu istiqamətdə öz fəaliyyətinin vergi mühitinin şəffaf, bərabər, hamı üçün eyni və əvvəlcədən təxmin edilən prinsiplər əsasında qurulmasını davam etdirəcəkdir.

Cari ildə göstərilən problemlərin həlli, vergitutma bazasının genişləndirilməsi, biznesin açıq və şəffaf fəaliyyətinin təmin edilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirilib. Nazirlik tərəfindən vergiödəyicilər ilə şəffaf münasibətlərin qurulmasına yönəlmiş tədbirlərin həyata keçirilməsi hesabına qeyri-neft sektorunda dövriyyələr 7,1 faiz artaraq, 44 milyard manatı ötübdür. Ticarətdə dövriyyə 18,4 faiz, o cümlədən pərakəndə ticarət dövriyyəsi 27,9 faiz artıb. Bu dinamika şəffaflaşmanın erkən əlamətləri kimi qəbul edilə bilər. Vergiödəyicilərə öz uçot sənədləşmə işlərini qaydaya salmağa imkan yaratmaq üçün səyyar vergi yoxlamalarının sayı 3 dəfə azaldılıbdır.

Zati-alilərinizin tərəfindən Vergilər Nazirliyi ilə Dövlət Gömrük Komitəsinin fəaliyyətinin daha sıx əlaqələndirilməsi məqsədilə bu ilin aprel və iyun aylarında imzalanmış sərəncamlara ayrıca toxunmaq istərdim.

Dövlət Gömrük Komitəsi ilə birlikdə idxal-ixrac əməliyyatlarına effektiv nəzarət sisteminin qurulması istiqamətində tədbirlər həyata keçirilir. Xüsusi olaraq, Vahid Risk Platformanın tətbiqini qeyd etmək istərdim. Bu sahədə rastlaşdığımız əsas problemlərdən biri üçüncü şəxslər üçün malları idxal edən vergiödəyiciləri ilə bağlıdır. Düzdür, bəzi məsələlərin həllini hələlik başa çatdıra bilməmişik. Oktyabrın 5-də hər iki qurumun keçirdiyi birgə kollegiya iclasında açıq qalan məsələlərin həlli yolları müzakirə edildi. Ümidvarıq ki, Dövlət Gömrük Komitəsi ilə birlikdə bu işləri cari ilin sonuna qədər yekunlaşdıra biləcəyik. Hesab edirik ki, həyata keçirilən tədbirlərin çox müsbət fiskal nəticələri olacaqdır.

Tapşırığınıza uyğun olaraq, aksizli malların dövriyyəsinə vergi nəzarəti gücləndirilib, ən iri 30 istehsalçıda cari ilin avqustun 1-dən aksiz postları qurulub. Bir məhsul növünün adı altında faktiki olaraq digərinin istehsalının, saxta aksiz markalarından istifadənin və aksiz markası olmadan məhsul satışının qarşısı alınıb. Nəticədə araq istehsalı və daxili bazarda satış həcmi cari ilin ötən dövrü ilə müqayisədə avqust və sentyabr ayları üzrə orta hesabla 3 dəfə artıbdır.

Aksizsiz tütün məhsullarının daxili bazarda satışının qarşısının alınması, təqsirkar şəxslərin məsuliyyətə cəlb edilməsi istiqamətində keçirilən tədbirlər nəticəsində daxili bazarda qaçaqmalın payı cari ilin əvvəlindəki 19 faizdən 3 faizə enib. İlin əvvəlindən dövlətin nəfinə müsadirə olunan və təhvil verilən tütün məmulatlarının dəyəri 13 milyon manatdan çoxdur. Qanunsuz olaraq daxili bazara yol tapmış tütün məhsullarının müsadirə edilərək, satışdan çıxarılması nəticəsində yerli məhsulların istehsalında canlanma yaranıb. Belə ki, yerli istehsalçıların daxili bazarda satış həcmi ötən ilin yanvar–avqust ayları ilə müqayisədə cari ilin müvafiq dövründə 75 faiz artıbdır.

2018-ci ilin 9 ayı ərzində vergi ödəməkdən yayınma faktları üzrə istintaq olunan cinayət işləri üzrə vurulmuş ziyandan 17,6

milyon manat məbləğin ödətdirilməsi təmin edilib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 25 faiz çoxdur.

Prioritetlərimiz sırasında vergiödəyicilərdən daxil olan şikayətlərin baxılması işinin təkmilləşdirilməsi və rəqəmsal texnologiyaların tətbiqinin genişləndirilməsini qeyd etmək istərdim.

Qarşımıza qoyduğunuz tələblərə əsasən, vergi administrasiyasının açıq və şəffaf fəaliyyəti istiqamətində proses davam etdirilir. Vergi orqanı ilə vergiödəyicisi arasında qarşılıqlı inam atmosferinin yaradılması, vergilərin könüllü ödənilməsinə keçidin təmin edilməsi üçün bütün qüvvələr səfərbər olunubdur.

Vergilər Nazirliyi vergiödəyiciləri ilə münasibətdə insan faktorunun rolunu minimuma endirmək məqsədilə, vergi nəzarəti proseslərinin avtomatlaşdırılmasına çalışır. «Blokçeyn» texnologiyası əsasında qurulmuş həllər daxil olmaqla, qərəzsiz və dəqiq təhlil-qeydiyyat sistemlərinin tətbiqi istiqamətində işlərə başlanılıb. Vergiödəyicilərin fəaliyyətinin risk modulları üzərindən təhlil olunması, vergidən yayınma hallarının müasir texnologiyalara əsaslanaraq aşkar edilməsi, vergi nəzarəti metodlarının təhlil olunmuş məlumatlar əsasında seçilməsi ilə auditin real funksiyalarının bərpası istiqamətində işlər gücləndirilibdir.

Aparılan islahatların daha bir mühüm qolu vergi qanunvericiliyinin təkmilləşdirilməsi ilə bağlıdır. Cari il ərzində sahibkarların ictimai təşkilatları və konsaltinq şirkətləri ilə sıx təmaslarımız olub. Bu görüşlərdə biz sahibkarları narahat edən məsələləri, onları öz fəaliyyətlərini daha da genişləndirmək üçün maraqlandıran təşviqedici mexanizmləri müzakirə etmişik.

Nəticədə Vergi Məcəlləsinə hazırlanmış dəyişikliklər paketi özündə bir neçə mühüm istiqaməti əhatə edir. Bunlar vergidən yayınmanın və «kölgə iqtisadiyyatı»nın miqyasının azaldılması, iqtisadi artımın və sahibkarlığın effektiv dəstəklənməsi, vergitutma rejiminin təkmilləşdirilməsi və vergitutma bazasının

genişləndirilməsi, inzibatçılığın və nəzarətin gücləndirilməsindən ibarətdir.

Cənab Prezident, bu dəyişikliklər sırasında digər orqanlarla elektron məlumat mübadiləsinin genişləndirilməsi məsələləri ilə bağlı Sizin dəstəyinizə ehtiyacımız vardır. Bu məlumatlara çıxış vergiödəyicilərə keyfiyyətli xidmətin göstərilməsi ilə yanaşı, fəaliyyətimizi daha da məhsuldar edəcəkdir.

Vergi tutma bazasının genişləndirilməsi və sahibkarlıq subyektlərinin fəaliyyət dairəsinin müəyyən edilməsi nəticəsində sadələşdirilmiş verginin sırf kiçik sahibkarlığın istifadə edəcəyi bir vergi növü kimi qalmasına şərait yaradılacaqdır.

Sahibkarlığın inkişafının dəstəklənməsi və biznesin aparılmasının əlverişliliyinin artırılması məqsədilə sadələşdirilmiş vergi dərəcəsinin endirilməsi, pərakəndə ticarət və iaşədə nağdsız ödənişlər üzrə müddətli vergi güzəştlərinin verilməsi, gəlir və xərcin uçotunu aparan kiçik sahibkarların dividend gəlirlərinin vergidən azad olunması, vergiödəyicilər tərəfindən çəkilən qeyri-kommersiya xərclərinin, o cümlədən səhiyyə, təhsil, mədəniyyət və idman sahələrinə ayrılmış ianələrin müəyyən hissəsinin gəlirdən çıxılması kimi təkliflər edilibdir.

Tapşırığınıza əsasən, əməkhaqqının üzərinə düşən fiskal yükün azaldılması islahatı hazırladığımız dəyişikliklər sırasında xüsusi yer tutur.

Bir çox hallarda əməkhaqqı üzrə sosial sığorta və vergi yükünün yüksək olması sahibkarları qeyri-rəsmi əməkhaqqı ödənilməsi praktikasına sövq edir. Bu vəziyyət «kölgə iqtisadiyyatı»nın genişlənməsinin əsas səbəblərindən biridir. İnzibati tədbirlərin görülməsinə baxmayaraq, bu məsələ problem olaraq qalmaqdadır.

İslahatın başlıca məqsədi mövcud əmək münasibətlərinin rəsmiləşdirilməsi, qeyri-neft sektorunun inkişafına əlavə təkan verilməsi və yeni iş yerlərinin açılması üçün sahibkarlarda iqtisadi motivasiyanın yaradılmasıdır. Bu məqsədlə qeyri-neft sektorunda əməkhaqqı ilə əlaqəli olan ödənişlər üçün

uzunmüddətli vergi güzəşti və vahid inzibatçılığın tətbiqi təklif olunur.

Güman edirik ki, islahat nəticəsində qeyri-rəsmi məşğulluğun səviyyəsi azalacaq və sahibkarların əmək münasibətlərini rəsmiləşdirməsinə iqtisadi marağı artacaqdır. Bu proses iqtisadi artıma da öz müsbət təsirini göstərəcəkdir.

Vergi sahəsində aparılan islahatlar, biznes mühitinin cəlbediciliyinin artırılması üçün həyata keçirilən tədbirlər, informasiya texnologiyalarına əsaslanan vergi inzibatçılığının formalaşdırılması sahibkarlığın inkişafına, ölkəmizin tərəqqisi naminə biznes və vergi orqanlarının səmərəli əməkdaşlığına öz töhfəsini verəcəkdir.

Möhtərəm cənab Prezident!

Çıxışımın sonunda icazə verin, Sizi əmin edim ki, Vergilər Nazirliyinin beynəlxalq standartlara cavab verən struktura çevrilməsi istiqamətində qarşımıza qoyduğunuz vəzifələrin icrasının təmin olunması üçün vergi əməkdaşları bütün səy və imkanlarını səfərbər edəcəklər.

Diqqətinizə görə təşəkkür edirəm.

**R a m i n  Q u l u z a d ə** *(Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri)*: Möhtərəm cənab Prezident!

Hörmətli iclas iştirakçıları!

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və cənab Prezident, Sizin rəhbərliyinizlə uğurla həyata keçirilən sosial-iqtisadi siyasət nəticəsində digər sahələr kimi, nəqliyyat, rabitə və yüksək texnologiyalar sahələri də uğurla inkişaf etməkdədir. Sizin 2018-ci il 12 yanvar tarixli Fərmanınızla təsdiq olunmuş Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Əsasnaməsi, eləcə də Dövlət Dəniz və Dövlət Mülki Aviasiya administrasiyalarının nazirliyə birləşdirilməsi bu sahədə effektiv dövlət idarəetmənin və dövlət siyasətinin həyata keçirilməsinə böyük imkan yaradır.

Cənab Prezident!

Dünyada ən dinamik inkişaf edən informasiya-kommunikasiya texnologiyaları sahəsi respublikamızda da prioritet sahə olmaqla, daim diqqət və qayğınızla əhatə edilib. Sizin tərəfinizdən təsdiq edilmiş «Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014–2020-ci illər üçün Milli Strategiya»da və «Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi»ndə sahənin inkişafı ilə bağlı konkret hədəflər müəyyən edilib. Bu istiqamətdə nazirlik tərəfindən bir çox işlər görülüb və layihələr həyata keçirilibdir.

Nazirliyin əsas fəaliyyət istiqamətlərindən olan telekommunikasiya sahəsində yeni texnologiyaların tətbiqi, xidmət şəbəkəsinin müasir standartlara uyğunlaşdırılması və yeni xidmətlərin göstərilməsi üzrə müvafiq işlər aparılır. Bu istiqamətdə regionların telekommunikasiya şəbəkəsində yeni texnologiyaların tətbiqi üzrə şimal, qərb və cənub istiqamətlərində irimiqyaslı layihənin icrasına başlanılıb. Layihə çərçivəsində quraşdırılacaq yeni stansiyalar 1 milyon istifadəçini müasir telekommunikasiya xidmətləri ilə təmin edəcəkdir.

Bakı şəhərində bir xətt üzərindən 3 xidmət – telefon, internet və televiziya xidmətlərinin göstərilməsini təmin edən GPON və yeni simsiz rabitə texnologiyalarına əsaslanan LTE layihələri həyata keçirilir. Bu layihələr nəticəsində ilin sonunadək 42 mindən çox abunəçi sabit genişzolaqlı şəbəkəyə qoşulacaqdır.

Görülən işlər nəticəsində ölkə əhalisinin 80 faizdən çoxu internet istifadəçisidir. Əhalinin və turistlərin ictimai yerlərdə internetə daha rahat çıxışını təmin etmək üçün Bakının 20 parkında ictimai internet istifadəyə verilibdir.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə bu ilin 9 ayı ərzində İKT sektoru üzrə investisiya qoyuluşu 69 faiz artaraq, 225 milyon manat olub. Sektorun gəlirləri 1,1 milyard manatdan 1,2 milyard manata yüksəlib, gəlirlərin artım tempi isə 7,7 faiz təşkil edibdir.

Dünya İqtisadi Forumunun 2017–2018-ci il hesabatına əsasən, Azərbaycan internet istifadəçilərinin faizinə görə dünyanın 137 ölkəsi arasında 34-cü yerdədir. Ölkəmiz bu göstərici üzrə dünyanın orta göstəricisindən 1,7 dəfə, MDB ölkələrinin orta göstəricisindən isə 1,2 dəfə öndədir.

Qeyd etmək lazımdır ki, hesabat dövrü ərzində ölkəmizdə beynəlxalq internet kanallarının ümumi tutumu 820 geqabitədək artırılıb. Ali diqqətinizə çatdırmaq istəyirəm ki, beynəlxalq səs trafikinin etibarlılığını və təhlükəsizliyini təmin etmək məqsədilə cari ildən etibarən Beynəlxalq Telefon Stansiyasının 3 ehtiyat sistemi istismara verilibdir.

Möhtərəm cənab Prezident!

Azərbaycanın təşəbbüsü ilə Avropa və Asiyanı birləşdirən yeni fiber-optik magistralın yaradılmasını nəzərdə tutan Trans–Avrasiya Super İnformasiya Magistralı – TASİM layihəsi üzrə müvafiq danışıqlar davam etdirilir. TASİM Konsorsiumuna daxil olan dövlətlərin operatorları arasında layihənin texniki-iqtisadi əsaslandırılmasının hazırlanması ilə bağlı artıq protokol imzalanıbdır.

İKT-nin geniş tətbiqi, informasiya mübadiləsinin həcminin artması, məlumatların vahid mərkəzdə və təhlükəsiz saxlanılması ölkədə Data Mərkəzin yaradılmasını zəruri edib. Sevindirici haldır ki, regionun ən təhlükəsiz və müasir standartlara cavab verən Data Mərkəzi Azərbaycanda qurulub. Data Mərkəzi beynəlxalq səviyyədə qəbul edilən TIER III yüksək təhlükəsizlik standartlarına cavab verir. Mövcud Data Mərkəzində məlumatların qorunma təhlükəsizliyini artırmaq məqsədilə Yevlax şəhərində ehtiyat Data Mərkəzinin tikintisinə başlanılıbdır.

Ölkəmizdə açıq hökumət məlumatlarının geniş tətbiqinə başlanılıb və «Açıq Hökumət Məlumatları Portalı» yaradılıbdır. Hesabat dövründə portalda olan açıq məlumatların sayı 655-ə çatdırılıbdır.

Elektron mühitin inkişafında önəmli rolu olan «Elektron imza»dan istifadənin genişlənməsi ilə yanaşı, imzaların dövlətlərarası qarşılıqlı tanınması istiqamətində də işlər aparılır. Cari ildə Türkiyə Respublikası ilə «Elektron imza» sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıbdır.

Vətəndaşların telekommunikasiya, poçt və digər xidmətlərlə daha keyfiyyətli təmin olunması məqsədilə «Şəbəkə» xidmət mərkəzləri yaradılır. Hesabat dövründə 7 yeni «Şəbəkə» xidmət mərkəzi istifadəyə verilərək, Bakıda və regionlarda onların sayı 10-a çatdırılıb. Gələcəkdə bu layihə davamlı olaraq həyata keçiriləcək. Telekommunikasiya və poçt sahəsində vətəndaşların müraciətlərini operativ və keyfiyyətli cavablandırmaq üçün yeni vahid Çağrı Mərkəzi yaradılıbdır.

Azərbaycan poçtu beynəlxalq tranzit poçt mərkəzi kimi fəaliyyət göstərməyə başlayıb. Layihə çərçivəsində Çindən sifariş olunan elektron ticarət məhsulları Azərbaycana gətirilir və Azərpoçt tərəfindən tranzit poçt kimi emal olunaraq, artıq dünyanın 20-dək ölkəsinə çatdırılır. Poçt daşımaları «Silk Vey» və AZAL aviaşirkətləri vasitəsilə həyata keçirilir.

Keyfiyyətin və əhatə dairəsinin genişləndirilməsi məqsədilə ölkəmizin bütün ərazisində televiziya yayımı tam olaraq rəqəmli rejimə keçirilib. Bununla da Beynəlxalq Telekommunikasiya İttifaqının bu sahədə müəyyən etdiyi öhdəlik yerinə yetirilib. Bakıda və Abşeron yarımadasında televiziya və radio proqramlarının keyfiyyətli və fasiləsiz yayımının təşkili üçün hesabat dövründə yeni alternativ «Gənclik» teleqülləsi istifadəyə verilibdir.

Cənab Prezident, fəaliyyətimizin əsas istiqamətlərindən biri də İKT sahəsinə marağı artırmaq və gənclərin innovativ ideyalarının biznesə çevrilməsinə dəstək verməkdir. Nazirliyin İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu bu məqsədlə keçirdiyi 6 müsabiqə üzrə ümumilikdə 117 layihəyə qrant ayırıb. Eyni zamanda, Fondun vəsaiti hesabına sahibkarlıq subyektlərinə güzəştli kreditlər verilir.

Sizin və Birinci vitse-prezident xanım Mehriban Əliyevanın tapşırığına əsasən, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında müasir standartlara cavab verən yeni İnnovasiya Mərkəzinin yaradılması ilə bağlı işlərə start verilib. Mingəçevir Yüksək Texnologiyalar Parkında isə kompüter avadanlıqlarının istehsalı üzrə layihə icra olunmaqdadır.

Azərbaycan 2001-ci ildən etibarən Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin üzvüdür. Ölkəmizdə regionun ilk nüvə sterilizasiya qurğusu yaradılıb. Bu qurğu tibbi ləvazimatların, ərzaq məhsullarının, kənd təsərrüfatı məhsullarının dünya praktikasında mövcud olan ən təhlükəsiz şəkildə sterilizasiya edilməsinə imkan verir.

Cənab Prezident!

Sizin təşəbbüsünüz və dəstəyinizlə həyata keçirilən nəhəng regional layihələr ölkəmizin nəqliyyat qovşağına çevrilməsinə, tranzit potensialının güclənməsinə xidmət edir. Bu il mayın 14-də açılışı olmuş Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Xəzər dənizi hövzəsində ən böyük liman kompleksi olmaqla, bölgənin əhəmiyyətli tranzit nöqtəsinə çevrilibdir.

Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən gəmilərin dövlət qeydiyyatı və dövlət reyestrinin aparılması, habelə gəmilərin standartlara uyğunluğunun yoxlanılması, dəniz üzgüçülüyünün təhlükəsizliyi və liman nəzarətinin həyata keçirilməsinin təkmilləşdirilməsi ilə bağlı işlər aparılmaqdadır.

Qeyd edim ki, 2017–2018-ci illərdə hava, avtomobil, su, dəmir yolu nəqliyyatı sahəsində 12 ölkə ilə 15 saziş və memorandum imzalanıb. Beynəlxalq sərnişindaşıma ilə bağlı 25 istiqamət üzrə müntəzəm beynəlxalq marşrut rəsmiləşdirilib. Avtomobil nəqliyyatı sahəsində sərnişin və yükdaşımalar üzrə tənzimlənmə mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlanaraq, aidiyyəti üzrə təqdim edilibdir.

Ümumilikdə nəqliyyat sektoru üzrə artım tempi ötən 9 ay ərzində 1,3 faiz olubdur.

Cənab Prezident, Sizin diqqət və qayğınızla mülki aviasiya sahəsində böyük uğurlar əldə olunub. Hazırda Azərbaycanda müasir standartlara cavab verən 6 beynəlxalq aeroport fəaliyyət göstərir.

Regionda alternativi olmayan Avropa və Asiya Arasında Hava Axınlarının Optimallaşdırılması Mərkəzi bu il istifadəyə verilib. Məhz bu üstünlüyə görə xarici aviaşirkətlər hər hansı məcburi eniş zərurəti yaranarkən bizim aeroportdan istifadə edirlər.

Aviasiya təhlükəsizliyi üzrə qəbul edilmiş Dövlət Proqramının icrası uğurla həyata keçirilir. Azərbaycan uçuşların təhlükəsizliyi üzrə ən yüksək 1-ci kateqoriya statusunu bu il yenidən saxlayıb. Heydər Əliyev Beynəlxalq Aeroportu bu il 5 ulduz statusu ilə dünyanın ən möhtəşəm hava limanları siyahısına daxil edilibdir.

Möhtərəm cənab Prezident!

Sonda fürsətdən istifadə edərək, bu sahənin inkişafına göstərdiyiniz diqqət və qayğıya görə Sizə öz minnətdarlığımı bildirirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

**V i d a d i  M u r a d o v** (*«Azərxalça» Açıq Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri*): Möhtərəm cənab Prezident!

Hörmətli iclas iştirakçıları!

Dövlətimizin ən çox diqqət yetirdiyi sahələrdən biri də tariximizin və milli mədəniyyətimizin mühüm göstəricisi olan xalçaçılıqdır. Bu sahədə ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş strateji kurs Sizin rəhbərliyinizlə uğurla davam etdirilir.

Cənab Prezident, Sizin proqram xarakterli çıxışlarınızda xüsusi olaraq vurğulanıb ki, xalçaçılıq bizim milli sənətimizdir, eyni zamanda, xarici bazarlara çıxışı olan məhsuldur, ölkəmizə valyuta gətirən, işsizliyi, xüsusilə də qadınlar arasında işsizliyi aradan qaldıran sahədir.

Xalçaçılığın çox böyük potensialı vardır. Dövlət vəsait ayırıb, bütün xalça fabrikləri dövlət hesabına tikilir, bütün avadanlıqlar dövlət vəsaiti hesabına alınır. Biz bütün istehsal zəncirini ardıcıllıqla yaratmalıyıq. Sizin xalçaçılığın inkişafı ilə bağlı imzaladığınız sərəncamlar, «Azərbaycan Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018–2022-ci illər üçün Dövlət Proqramı» ölkəmizdə ənənəvi xalq üsulu ilə kütləvi xalça istehsalını, onun qeyri-neft sektorunun aparıcı sahəsinə çevrilməsini təmin edir.

Milli mədəniyyətimizin inkişafında böyük rolu olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva xalçaçılığın yaşadılmasında xalçaçıların problemlərinin aradan qaldırılmasında, onların fəaliyyət imkanlarının genişləndirilməsində, nailiyyətlərinin beynəlxalq miqyasda təbliğində xidmətləri misilsizdir. Onun təşəbbüsü ilə Azərbaycan xalçaçılıq sənəti UNESKO-nun Qeyri-maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin V sessiyasında UNESKO-nun bəşəriyyətin qeyri-maddi irsinin nümunələri siyahısına daxil edilibdir.

Zati-aliləri, Sizin 2016-cı il 5 may tarixli Sərəncamınızla yaradılmış «Azərxalça» Açıq Səhmdar Cəmiyyəti 2016–2017-ci illərdə Füzuli, Ağdam, Şəmkir, Tovuz, Ağstafa, Qazax, İsmayıllı, Qəbələ, Quba və Xaçmaz rayonlarında filiallar yaradıb. Bu filialların hər birində 150 nəfər toxucunun, 14 nəfər inzibati-təsərrüfat işçisinin çalışması üçün müasir iş şəraiti yaradılıb, Azərbaycanda istehsal edilmiş 43 dəzgah quraşdırılıb və hazırda milli və orijinal çeşnilər əsasında xalçalar toxunur.

Ümumi sayı 900 nəfərə yaxın olan toxucularımızın əksəriyyəti gənclərdir. Filialların stabil fəaliyyətinin təmin olunması üçün Sizin müvafiq sərəncamınızla ayrılmış 2 milyon manat vəsaitlə «Hyundai» markalı 18 avtobus da alınıbdır.

Filiallarda indiyədək Azərbaycan xalçalarının Bakı, Qarabağ, İrəvan, Naxçıvan, Quba, Gəncə, Şirvan, Qazax–Borçalı, Təbriz qrupları üzrə 1330 ədəd, 4401 kvadratmetr xalça to-

xunub. Yerli və xarici bazarlarda «Azərbaycan brendi» olaraq 287 ədəd, 853 kvadratmetr xalça satılıbdır.

Tapşırığınıza uyğun olaraq, Azərbaycan xalçaçılığının inkişafı ilə bağlı həyata keçirilən işlərə İqtisadiyyat Nazirliyi tərəfindən lazımi kömək göstərilir, dəstək verilir. Bu il Sizin sərəncamlarınızla «Azərxalça»nın daha 10 filialının yaradılması üçün vəsait ayrılıb. 2018-ci ilin əvvəlindən Bakının Sabunçu rayonunun Nardaran qəsəbəsində, Naxçıvan şəhərində, Abşeron rayonunun Qobu qəsəbəsində, Qobustan, Şabran, Lənkəran, Kürdəmir, Tərtər, Goranboy, Biləsuvar rayonlarında, rayonunda Cəbrayıl rayonundan olan məcburi köçkünlərin məskunlaşdığı qəsəbədə filial binaların tikintisinə başlanılıb. Lənkəran filialının tikintisi artıq başa çatdırılıb, burada 116 nəfər işlə təmin olunubdur. Digər filial binaların tikintisi isə bu ilin sonunadək başa çatdırılacaqdır. Həmçinin 20 emalatxana binasının tikintisi, infrastrukturunun yaradılması, avadanlıq və dəzgahlarla təchizatı üçün «Azərxalça» Açıq Səhmdar Cəmiyyətinə Azərbaycan Respublikasının dövlət büdcəsində investisiya xərcləri üçün nəzərdə tutulmuş vəsaitdən 37 milyon 475 min manat vəsait ayrılıbdır.

Şirvan bölgəsinin tarixi xalçaçılıq ənənələrinə malik İsmayıllı rayonunda güclü kadr potensialını nəzərə alaraq, imzaladığınız 2018-ci il 27 avqust tarixli Sərəncamınızla İsmayıllıda yeni xalça istehsalı emalatxanasının tikintisinə Prezidentin ehtiyat fondundan 2 milyon 400 min manat vəsait yönəldilib. Hazırda tikinti-inşaat işlərinin aparılması üçün hazırlıq işlərinə başlanılıbdır.

2019-cu ildə Bakı şəhərinin Qaradağ rayonunda, Gəncə, Mingəçevir, Şəki şəhərlərində, Xızı, Masallı, Zaqatala, Bərdə rayonlarında, Ağcabədi rayonunda Laçın rayonundan olan məcburi köçkünlərin məskunlaşdığı Taxtakörpü qəsəbəsində, Goranboy rayonunda Xocalı rayonundan olan məcburi köçkünlərin məskunlaşdığı Aşağı Ağcakənd qəsəbəsində xalça istehsalı emalatxanaları yaradılacaqdır. Bunun üçün yerli icra hakimiyyəti orqanları ilə birlikdə müvafiq tədbirlər həyata

keçirilir, tikinti işlərinin aparılması üçün ərazilər müəyyənləşdirilir.

Cəmiyyətin fəaliyyət istiqamətlərindən biri də xalçaçılığın yerli potensiala əsaslanan xammal bazasının yaradılmasıdır. Bu məqsədlə Sumqayıt Kimya Sənaye Parkında Əyirici-Boyaq fabrikinin tikintisinə başlanılıb. Türkiyə, Fransa və İtaliya istehsalı olan avadanlıqlarla təchiz ediləcək fabrik son illərin böyükmiqyaslı iqtisadi layihələrindən biridir. Bu müəssisədə təmiz yun, yun iplik, təbii və kimyəvi boyaq maddələri hazırlanacaq. Fabrikin fəaliyyəti nəticəsində ilk növbədə, «Azərxalça»nın filiallarının, özəl xalçaçılıq müəssisələrinin yun ipliyə olan tələbatı ödəniləcək, idxaldan asılılıq tamamilə aradan qaldırılacaqdır. Əyirici-Boyaq fabrikinin xammalla təmin olunması məqsədilə Naxçıvan şəhərində, Qobustan, Şabran, Bərdə rayonlarında, Sabirabad Sənaye Məhəlləsində regional yun və boyaq bitkilərinin tədarükü məntəqələri də yaradılır.

2019-cu ildə də bu istiqamətdə görülən işlər davam etdiriləcək, Şəki şəhərində, Masallı və Hacıqabul rayonlarındakı sənaye məhəllələrində daha 3 regional tədarük məntəqəsi yaradılacaqdır. Müasir texniki avadanlıqlarla təmin ediləcək bu məntəqələrdə il ərzində 1500 ton yun və boyaq bitkiləri xammalı toplanılacaqdır.

Azərbaycan Respublikasının dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu üçün nəzərdə tutulmuş vəsaitdən Əyirici–Boyaq fabrikinin tikintisi və avadanlıqlarla təchizatı üçün 27 milyon 420 min manat, regional yun və boyaq bitkilərinin tədarükü məntəqələrinin yaradılması məqsədilə 6 milyon 500 min manat ayrılıbdır.

ASC-nin istehsalı olan xalçaların satışa çıxarılması prosesinin intensivləşdirilməsi məqsədilə 2019-cu ildə Sumqayıt Kimya Sənaye Parkında Hazır Xalçaların Emal Mərkəzi də inşa ediləcəkdir.

«Azərxalça» respublikanın rayonlarında xalçaçılıq üzrə tədris-hazırlıq kursları təşkil edir. Kurslara cəlb olunanların əksəriyyəti gənclərdir. Tədrisi uğurla başa vuran toxuculara sertifikat verilir və onlar filiallarda daimi işlə təmin olunurlar. Eyni zamanda, xalçaçı-rəssamlar, yun və boyaq bitkilərinin tədarükü və emalı, hazır xalçaların emalı, xalça ticarəti və xalçaçılığın inkişafı üçün vacib olan digər istiqamətlər üzrə mütəxəssislər də hazırlanır.

Bu il sentyabr ayının 18-də Masallı Sənaye Məhəlləsinin açılışı zamanı verdiyiniz tapşırığa uyğun olaraq təşkil edilmiş tədris mərkəzinə tərəfinizdən baxış keçirilib, dəyərli tövsiyələr verilibdir.

2019-cu ilin sonunadək «Azərxalça»nın istehsal, tədarük və emal müəssisələrinin yaradılması ilə 5000-dən çox vətəndaş iş yeri ilə təmin ediləcəkdir.

2017–2018-ci illərdə «Azərxalça»nın istehsalı olan xalçalar Rusiya, Amerika Birləşmiş Ştatları, Almaniya kimi ölkələrdə keçirilən beynəlxalq xalça satış-sərgilərində təqdim olunub. İndi Avropanın, Amerika Birləşmiş Ştatlarının, Yaponiyanın, Rusiyanın böyük xalça şirkətləri ilə danışıqlar aparılır, əməkdaşlıq haqqında müqavilələr hazırlanır. Bu müqavilələr əsasında həm hazır xalçalar satılacaq, həm də sifarişlərlə müxtəlifölçülü xalçaların toxunmasına başlanılacaqdır.

Cənab Prezident!

Sizin diqqət və qayğınız sayəsində «Azərxalça» Açıq Səhmdar Cəmiyyəti ölkəmizin əsas xalçaçılıq mərkəzi kimi, öz fəaliyyətini uğurla davam etdirir. İcazə verin, Azərbaycan xalçaçılıq sənətinə göstərdiyiniz böyük diqqət və qayğıya görə ölkəmizin bütün xalçaçıları adından Sizə öz dərin minnətdarlığımı bildirim. Sizi əmin edirik ki, Azərbaycan xalçaçıları bu sənətin inkişafı üçün bundan sonra da böyük səylə çalışacaq və etimadınızı doğruldacaqlar.

Diqqətinizə görə təşəkkür edirəm.

*Prezident İlham Əliyev iclasda yekun nitqi söylədi.*

## YEKUN NİTQİ

İlin sonuna 3 aydan az vaxt qalır. Əminəm ki, biz ilin sonuna qədər nəzərdə tutduğumuz bütün işləri görəcəyik, o cümlədən Dövlət İnvestisiya Proqramı tam icra ediləcəkdir. Mənə bu yaxınlarda məruzə edildi, Dövlət İnvestisiya Proqramının icrası ilə bağlı vəziyyət yaxşıdır. Cədvəl üzrə nəzərdə tutulmuş bütün layihələr icra edilir.

Bir neçə ay bundan əvvəl biz büdcəyə dəyişiklik etdik. Çünki əlavə vəsait daxil edildi. Hesab etdik ki, bu il görülə biləcək işlərin icrası üçün əlavə vəsait ayıraq, o cümlədən sosial məsələlərin həlli üçün. Dürüstləşmə edildi və büdcəmizin həcmi artırıldı. Bu özlüyündə bir göstəricidir, onu göstərir ki, bizim maliyyə vəziyyətimiz daha da yaxşılaşır. Elə imkanlar yaranıb ki, biz il ərzində büdcəyə dəyişiklik edərək, büdcəmizin həcmini artıra bilərik. Dünya miqyasında belə hallara çox da tez-tez rast gəlinmir. Azərbaycan iqtisadiyyatı istənilən dövrdə öz dayanıqlılığını nümayiş etdirir. Hətta bir neçə il bundan əvvəl dünyanı bürümüş maliyyə-iqtisadi böhranının ikinci dalğası dövründə də Azərbaycan iqtisadiyyatı dayanıqlılığını təmin etmişdir.

Gələn ilin büdcəsi ilə bağlı ilkin məruzələr edildi. Gələn ilin büdcəsi həm investisiya yönümlü, həm də sosial yönümlü olacaqdır. Bütün sosial layihələr icra ediləcək. Dövlət kapital qoyuluşu üçün kifayət qədər vəsait də nəzərdə tutulur. Əsas məsələ ondan ibarətdir ki, biz bu vəsaitdən səmərəli şəkildə istifadə edək, ölkə qarşısında duran əsas məsələlərin həllini təmin edək, prioritetləri düzgün seçək. Dövlət İnvestisiya Proqramımız iqtisadiyyatın real sektoruna xidmət göstərməlidir, eləcə də bu günə qədər öz həllini tapmayan infrastruktur layihələrin icrasına istiqamətləndirilməlidir.

Bu il iqtisadi sahədə köklü islahatlar davam etdirilir. Biz bu islahatların nəticələrini görürük. Xüsusilə vergi və gömrük sistemində aparılan islahatlar böyük dəyişikliyə, müsbətə doğru dəyişikliklərə səbəb olur. İslahatlar davam etdirilməlidir. Bu gün sahibkarları, ictimaiyyəti narahat edən vergi və gömrük sahəsində işlərlə, məsələlərlə bağlı bütün lazımi addımlar atılmalıdır ki, bu xoşagəlməz hallara son qoyulsun.

Gömrük orqanları bu il 800 milyon manatdan çox əlavə vəsait toplayıbdır. Mən bunu yüksək qiymətləndirirəm. Əminəm ki, ilin sonuna qədər bu məbləğ daha da artacaq. Bu onu göstərir ki, ilk növbədə, Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edir, idxal artır və idxalın artımı da sənayenin inkişafı ilə bağlıdır. Nəzərə alsaq ki, ixrac idxalı böyük dərəcədə üstələyir, biz idxalın artımına müsbət hal kimi yanaşmalıyıq.

Bizim xarici ticarətimizin müsbət saldosu 9 ayda 6,5 milyard dollar təşkil edir. Bilirəm, bəziləri hesab edirlər ki, idxalın artımı müəyyən problemlər yarada bilər. Təbii ki, bu belədir. Amma o təqdirdə ki, ixracımız artmasın. İxracımız idxaldan daha yüksək templərlə artır. Əgər 9 ay ərzində 6,5 milyard dollar müsbət saldomuz varsa, deməli, ilin sonuna qədər bu daha da artacaqdır. İdxalın artımı sənayenin inkişafı ilə bilavasitə bağlı olan məsələdir, insanların rifah halının yaxşılaşması ilə bağlıdır. Gömrük rüsumlarının artırılmasının səbəblərindən biri də məhz idxalın artımıdır. Ancaq deməliyəm ki, digər amillər də müsbət rol oynayır. O cümlədən struktur islahatları, şəffaflıq, korrupsiyaya, rüşvətxorluğa qarşı ciddi mübarizə gömrük orqanlarında 800 milyon manatdan çox əlavə vəsaitin toplanılmasına səbəb olubdur.

Vergi orqanlarında da ciddi struktur islahatları aparılır. Bu barədə nazir məlumat verdi. Mən qeyd etməliyəm ki, bizim əsas vəzifəmiz «kölgə iqtisadiyyatı»nın aradan qaldırılmasıdır. Düzdür, heç bir ölkədə buna 100 faiz nail olunmayıb, hər bir ölkədə «kölgə iqtisadiyyatı» var, amma bunun dərəcəsi vardır. Azərbaycanda «kölgə iqtisadiyyatı»nın kəskin şəkildə azalması üçün çox ciddi addımlar atılır. Vergidən yayınma halları əvvəlki

illərdə kütləvi xarakter daşıyırdı. Bu, imkan vermirdi ki, biz öz potensialımızı tam gücü ilə işə salaq. Bu gün bu hallara son qoyulur. Bütün dövlət orqanları vergi orqanlarına kömək göstərməlidir. Müvafiq göstərişlər verilir. Vergidən yayınmaya son qoyulmalıdır. Bu həm iri, həm kiçik sahibkarlara aiddir. Sahibkarlar bilməlidirlər ki, əgər onlar sahibkar kimi fəaliyyətlərini davam etdirmək istəyirlərsə, vergiləri tam ödəməlidirlər. Heç kimə heç bir güzəşt edilmir və edilməyəcək. Bilirəm ki, bəzi sahibkarlar bəzi dövlət məmurlarına arxalanırlar, o dövr artıq keçibdir. Heç kimə arxalanmasınlar. Əgər hansısa bir dövlət məmuru sahibkarlara xüsusi şərait yaratmaq üçün qanunsuz əməllər edəcəksə, çox ciddi şəkildə cəzalandırılacaqdır. Bütün müvafiq qurumlara göstəriş verilib, ilk növbədə, Vergilər Nazirliyinə. Bu nazirlik heç nəyə baxmadan, dövlət maraqlarını rəhbər tutaraq, öz siyasətini aparmalıdır. Bütün dövlət qurumları, eləcə də sahibkarlar bu sahədə öz dəstəyini verməlidir. Dəstək verməyən isə cəzalandırılacaqdır.

Uçot sisteminin yaradılması prioritet məsələlərdən biridir. Mən əvvəlki illərdə də bu məsələni dəfələrlə qoymuşdum. Ancaq əfsuslar olsun ki, biz müəyyən səbəblərə görə uçot sisteminin yaradılmasına çata bilməmişik. İndi bu sistem yaradılır. Qeyri-rəsmi məşğulluğun aradan qaldırılması üçün də praktiki addımlar atılır. Hesab edirəm ki, biz 9 ayda vergilərin bu səviyyədə toplanılmasına – nəzərə alsaq ki, əvvəlki illərdə bu sahədə çox böyük pozuntular olub – vergi orqanlarının çox fəal və məqsədyönlü fəaliyyəti nəticəsində nail ola bilmişik.

Şəffaflıq vergi və gömrük orqanlarında tam təmin edilməlidir, struktur islahatları davam etdirilməlidir. Korrupsiyaya, rüşvətxorluğa qarşı ən ciddi mübarizə aparılır və aparılacaqdır. Bu kompleks tədbirlər biznes mühitinin yaxşılaşdırılmasına öz dəstəyini verəcək. Sağlam rəqabətin təmin edilməsi üçün indi şərait yaradılır. İnhisarçılığa qarşı mübarizə çox ciddi xarakter alıbdır. Bir daha demək istəyirəm ki, bütün aidiyyəti qurumlar,

özəl və dövlət şirkətləri mənim sözlərimdən nəticə çıxarsınlar. Vergi və gömrük sistemləri Azərbaycanda şəffaflığın nümunəsi olmalıdır. Mən göstəriş vermişəm ki, bu sahədə Avropanın aparıcı dövlətlərinin təcrübəsi Azərbaycanda tam tətbiq edilsin. Bu istiqamətdə işlər gedir.

İqtisadiyyatın rəqabətliliyinin artırılması üçün biz bundan sonra da fəal işləyəcəyik. Bildiyiniz kimi, Azərbaycanın bu sahədəki reytinqləri ən yüksək səviyyədədir. Mən bunu dəfələrlə demişəm və bir daha qürur hissi ilə deyə bilərəm ki, Davos Forumunun hesablamalarına əsasən, biz iqtisadi rəqabətliliyə görə dünyada 35-ci yerdəyik. Ancaq biz daha da qabağa getməliyik. Ona görə Davos Forumunun hesabatı tam təhlil edilməlidir və təhlil edilir. Bəzi müddəalar var ki, biz orada geridə qalmışıq. Onlara mütləq baxmalıyıq və iqtisadiyyatın rəqabətliliyini daha da artırmalıyıq.

Qeyri-neft sektorunun inkişafı üçün çox böyük işlər görülür, addımlar atılır. Xüsusilə son dövrdə qəbul edilmiş qərarlar çox böyük canlanmaya gətirib çıxarıb. Təkcə onu demək kifayətdir ki, investisiya təşviqi sisteminin tətbiqindən sonra 300-dən çox investisiya təşviqi sənədi verilib. Bu layihələrin icrası nəticəsində 20 min iş yeri yaradılıb. İnvestisiya təşviqi mexanizminin işə düşməsindən sonra icra edilən və nəzərdə tutulan layihələrin ümumi investisiya həcmi 2,7 milyard manatdır. Əgər biz bu sistemi tətbiq etməsəydik, heç kim gəlib bu vəsaiti Azərbaycana qoymazdı. Baxın, bir ciddi islahatın aparılması ilə təxminən 3 milyard manat investisiya cəlb etmişik, 20 min insan üçün isə iş yeri yaratmışıq.

Mən giriş sözümdə sənaye istehsalı ilə bağlı bəzi məsələləri qeyd etdim. Xüsusilə bu yaxınlarda orbitə çıxarılmış «Azərspace-2» peykini qeyd etmək istərdim. Bu, böyük nailiyyətdir. Bu, kosmik dövlət kimi, Azərbaycanın mövqelərini daha da möhkəmləndirir. Bizim indi 3 peykimiz vardır. «Azərspace-2» peykinin orbitə çıxarılması bizim böyük qələbəmizdir. Eyni zamanda, bu sahədə görüləcək işlər bizə əlavə vəsait gətirəcək. Onu da qeyd

etməliyəm ki, peykin imkanlarının, demək olar, yarısı, bəlkə də yarıdan çoxu artıq satılıb. Qalan təqribən 40 faiz hələ ki, bölüşdürülməyib. Peykin xidmət potensialı da bölüşdürüləcək. Bu, kommersiya baxımından çox əlverişli layihədir, özünü tam doğruldacaq və bizə böyük həcmdə valyuta gətirəcəkdir. Bu bir ixrac növüdür. Kadr hazırlığı, texnologiyaların inkişafı baxımından çox önəmli layihədir. Biz haqlı olaraq fəxr edə bilərik ki, bizim indi 3 peykimiz vardır.

Bakıda Neftayırma zavodunun yenidən qurulması, modernləşdirilməsi prosesi gedir. Bu da çox önəmli sənaye layihəsidir. Bu bizə imkan verəcək ki, daha keyfiyyətli neft məhsulları istehsal edək. Yenidənqurma başa çatdıqdan sonra Azərbaycanda istehsal olunacaq benzin «Avro-5» standartına cavab verəcək. Bu da ölkəmizin ekoloji vəziyyətinə müsbət təsir göstərəcəkdir. Bu zavodun yenidən qurulması, modernləşdirilməsi bizə böyük iqtisadi səmərə verəcəkdir.

Neftçala Sənaye Parkında «Xəzər» adlı avtomobillər artıq istehsal olunur. Bu da çox gözəl hadisədir. Mənə verilən məlumata görə, 300-ə yaxın avtomobil istehsal olunub. Onların böyük hissəsi, 200-dən çoxu artıq satılıb. Bu zavodun illik istehsal gücü 10000 ədəd avtomaşındır. Əgər daxili tələbat və ixrac tələbatı olarsa, zavod bu səviyyəyə qalxa bilər.

Sənaye parkları ilə bağlı qeyd etməliyəm ki, Sumqayıt Kimya Sənaye Parkında yeni müəssisələr yaradılır. Orada da 2 milyard dollardan çox sərmayə nəzərdə tutulur. Gələn il bir neçə önəmli, vacib müəssisə açılacaqdır.

Mingəçevir Sənaye Parkında 2 böyük İplik fabriki işləyir. Orada 750 insan işlə təmin olunub. İşləyənlər əsasən qadınlardır. Bu iplik fabriklərinə 80 milyon dollar sərmayə qoyulub. Bu bizim ixrac imkanlarımızı genişləndirir və biz mahlıcı orada ipə çevirərək, daha da valyutatutumlu məhsul ixrac edirik. Bu prosesin davamı olmalıdır ki, biz artıq hazır məhsula da nail ola bilək.

Bu il mənim iştirakımla Masallı Sənaye Parkının açılışı olubdur. Hacıqabul və Sabirabad rayonlarında sənaye məhəllələrinin yaradılması prosesi davam edir.

Sahibkarlara bundan sonra da dövlət öz dəstəyini göstərəcəkdir. Bu günə qədər Sahibkarlığın İnkişafı Fonduna 2,2 milyard manat vəsait ayrılıbdır. Bu proses davam etdirilir. Mənə verilən məlumata görə, bu il də kreditləşmə uğurla gedir, tələbat çoxdur. Bu çox sevindirici haldır. Əminəm ki, Sahibkarlığın İnkişafı Fondunun fəaliyyəti nəticəsində gələn il də ölkəmizdə minlərlə iş yeri yaradılacaqdır.

Mən giriş sözümdə qeyd etdim ki, kənd təsərrüfatının inkişafı daim diqqət mərkəzindədir. 4,3 faiz artım müsbət haldır. Amma əminəm ki, kənd təsərrüfatı sahəsində aparılan islahatlar daha da böyük nəticələrə çatmağa imkan verəcəkdir. 9 ayda 5700 kənd təsərrüfatı texnikası alınıb. Texnika ilə təminat xeyli dərəcədə yaxşılaşıb. Kənd Təsərrüfatı Nazirliyi indi çox ciddi islahatlar aparır.

Mən bu islahatları dəstəkləyirəm. Hesab edirəm ki, bu islahatlar nəticəsində kənd təsərrüfatının uzunmüddətli, dayanıqlı inkişafı təmin ediləcək, düşünülmüş, sistemli qaydada, torpaqların münbitliyini nəzərə alaraq, əkin sahələrinin səmərəliliyini təmin edərək və ilk növbədə, məhsuldarlığı artıraraq, mövcud olan torpaq fondumuzdan istifadə edərək, istehsalı xeyli artıra bilərik. Eyni zamanda, kənd təsərrüfatının ekstensiv inkişafı da nəzərdə tutulmalıdır. Biz bir çox meliorasiya layihələrimizi icra etmişik və icra edəcəyik. 192 min hektar sahədə 45 aqroparkın yaradılması nəzərdə tutulur. Onların 4-ü mənim iştirakımla açılıb. Verilən məlumata görə, ilin sonuna qədər açılan aqroparkların sayı 13-ə çatacaqdır.

İri fermer təsərrüfatlarında, taxılçılıqda nəticələr çox yaxşıdır. Təqribən hektardan orta hesabla 50 sentner məhsul götürülür. İri fermer təsərrüfatlarında tətbiq olunan texnoloji prosesi də bütün təsərrüfatlara yaymalıyıq. Belə olan halda, biz mövcud əkin sahəsindən daha çox məhsul yığa bilərik. Bu il taxılçılıqda

artım olub, 3 milyon ton taxıl tədarük edilibdir. Buğda yığımında məhsuldarlıq 30 sentnerə çatıb. Pis nəticə deyil. Amma hesab edirəm ki, daha da artmalıdır və artacaqdır.

Pambıqçılıqda gələn ilin proqramı ilə bağlı məruzə edildi. Biz pambıqçılığı daha səmərəli şəkildə inkişaf etdirməliyik. Məhsuldarlıq artmalıdır. Keçən ilin məhsuldarlığı bizi heç cür qane edə bilməzdi. Bunun bir çox səbəbləri vardır. Göstəriş verilmişdir ki, səbəblər araşdırılsın və biz pambıqçılığı məhsuldarlıq hesabına inkişaf etdirək.

Eyni zamanda, əgər biz statistikaya baxsaq görərik ki, 2016-cı ildə Azərbaycanda 90 min ton pambıq tədarük edilmişdir – 2015-ci ili mən demirəm, o illərdə, ümumiyyətlə, məhsuldarlıq çox aşağı idi – keçən il 207 min ton, yəni 2 dəfədən çox. Bu il təqribən 250–260 min ton pambığın tədarükü nəzərdə tutulur. Yəni artım dinamikası çox müsbətdir.

Onu da qeyd etməliyəm ki, hazırda ölkəmizdə pambıqçılıqda 190 mindən çox insan işləyir. Biz pambıqçılığı inkişaf etdirməyə başlayandan sonra bu insanlar işlə təmin olundular. Biz pambığın alış qiymətini bir neçə dəfə artırmışıq. Bu yaxınlarda son dəfə artırdıq ki, pambıqçılıqla məşğul olanlar daha çox pul qazansınlar. Bu gün 190 min insanın işi vardır.

İndi müasir texnologiyalar tətbiq edilir. Burada da elmi yanaşma tətbiq olunur. Əminəm ki, biz məhsuldarlığı böyük dərəcədə artıra bilərik. Məhsuldarlıq hektardan minimum 20 sentner olmalıdır. Ancaq indi biz bilirik ki, müasir texnologiyaların tətbiq olunduğu, düzgün aqrotexniki xidmət göstərildiyi bir vaxtda məhsuldarlıq daha da artır. Mən rəqəm səsləndirmək istəmirəm, ancaq hesab edirəm ki, burada inkişaf üçün çox böyük potensial vardır.

Üzümçülüklə bağlı işlər yaxşı gedir. Bu il biz yeni üzüm bağlarının salınmasını müşahidə edirik. Mənim iştirakımla ən yüksək beynəlxalq standartlara cavab verən yeni Şərab zavodu fəaliyyətə başlayıb və bu zavodun çox böyük ixrac potensialı vardır. Biz üzümçülüyün, şərabçılığın şöhrətini bərpa edirik,

qaytarırıq. Bu, fermerlər üçün çox gəlirli bir sahədir. Biz bu sahəni bərpa etməklə, həm öz ixrac imkanlarımızı genişləndiririk, həm də kəndlilərə, fermerlərə gözəl şərait yaradırıq.

Üzümçülük mənzərəni də gözəlləşdirir. Mən bu il Şamaxı rayonunda böyük üzüm bağları ilə tanış olarkən gördüm ki, bu bağlar, həmçinin Şərab zavodunun açılışı bölgəyə tam yeni bir mədəniyyət gətirir.

Azərbaycanda üzümçülüyün çox böyük ənənələri vardır. Biz bu ənənələri bərpa edirik və eyni zamanda, bu gün dünyanın ən qabaqcıl texnologiyalarını cəlb edirik. Təsadüfi deyil ki, ixracımız artır. İndi Azərbaycan şərab evlərini açmağa başlayıb. Artıq bir neçə ölkədə şərab evləri fəaliyyətə başlayır. Bizim şərabımıza böyük maraq vardır. Biz şərabçılıqla bağlı olan bütün məsələləri çox ciddi təhlil etmişik. Bir çox boşluqlar var idi – həm istehsalatda, həm uçotda, həm də aksiz markalarının yapışdırılmasında. Sanki kimsə bu boşluqları qəsdən edirdi ki, orada qeyri-şəffaf vəziyyət yaradılsın. Mən buna başqa bir izahat verə bilmərəm.

Çünki bunlar o qədər də çətin olmayan, yəni böyük intellektual potensial tələb etməyən məsələlərdir. Elə bil qəsdən qatma-qarışıqlıq salınıb ki, burada həm vergilərdən yayınsınlar, həm də qanunsuz istehsalla məşğul olsunlar. Şərab əvəzinə araq istehsal olunurdu. Məsələ çox ciddi araşdırılır. Bu sahədə tam şəffaflıq təmin edilməlidir. Şərab zavodlarının fəaliyyəti üçün bütün şərait yaradılıb, təki onlar təmiz işləsin. Əgər yenə məhsulları gizlədəcəklərsə, uçota düşməyən məhsulu satacaqlarsa, onlar çox ciddi cəzalandırılacaqlar, onu bilsinlər. Burada tam şəffaflıq olmalıdır. Bu çox gəlirli sahədir. Sadəcə olaraq, gərək sahibkarlar öz tamahlarını cilovlaya bilsinlər.

Xüsusilə nəzərə alınmalıdır ki, dövlət öz dəstəyini göstərir – ixrac missiyalarını təşkil edir, şərab evlərinin yaradılmasını təmin edir, ixracla bağlı danışıqlar aparır. Mən şəxsən bir neçə həmkarımla Azərbaycanın qeyri-neft ixracının artırılması ilə bağlı danışıqlar aparmışam və biz nəticəyə gəlmişik. Bütün

bunları biz edirik, sahibkarlar da öz məsuliyyətini dərk etmə-lidirlər.

Mən regional inkişafla bağlı konfransların birində bəzi kənd təsərrüfatı məhsullarının istehsalını, istehlakını sadalayarkən, özüm də o arayışı görəndə təəccüb etdim ki, biz xaricdən zeytun idxal edirik. O zeytun ki, bizdə, Abşeron yarımadasında hər tində bitə bilər. Ona görə çox ciddi göstəriş verildi ki, yeni zeytun bağları salınsın, onların suvarılması təmin edilsin və Azərbaycanda zeytun yağı istehsalı təşkil olunsun. Bu günə qədər olan istehsal bizi qane edə bilməzdi. Mənim bu istiqamətdə göstərişlərim yerinə yetirilir və son bir neçə il ərzində yeni zeytun bağları salınıbdır. Yüzlərlə, bəlkə də minlərlə hektar sahələrdə yeni zeytun bağları salınır. Bizim istehsalımız artır, zeytun yağı istehsalı artır, yağı ixrac etməyə başlamışıq. Özü də çox keyfiyyətli zeytun yağıdır. Biz zeytunçuluğun inkişafı, zeytun yağının ixracı ilə bağlı dünya miqyasında öz dəyərli yerimizi tuturuq.

Mənim iradlarımı tütünçülüyə də aid etmək olar. Bu sahə də, demək olar ki, batıb gedirdi. Heç bir dövlət dəstəyi göstə-rilmirdi.

Ancaq biz bu məsələ ilə məşğul olmağa, qurutma kameralarının yaradılmasına, tütün istehsalının təşviqi üçün addımlar atmağa başlayanda dərhal gözəl nəticələri gördük. Biz tütün istehsal edə-edə xaricdən siqaret alırıq. Elə ölkələr var ki, orada tütün, ümumiyyətlə, bitmir, onlar bizə siqaret ixrac edirlər. Bu absurddur, dözülməzdir. Sadəcə, ona görə ki, bu məsələ ilə məşğul olmurdular və bu sahəni başlı-başına buraxmışdılar. Bəlkə hesab edirdilər ki, belə də olmalıdır. İndi biz vəziyyəti tam dəyişdiririk. Azərbaycanda yeni siqaret fabrikləri yaradılır. Biz özümüzü siqaretlə yüksək dərəcədə təmin edəcəyik, ixrac potensialı da yaradılır. Tütünçülükdə vəziyyət necədir? Əgər 2015-ci ildə 3400 ton quru tütün istehsal olunubsa, bu il 6000 ton quru tütün istehsalı nəzərdə tutulur, təxminən 2 dəfə çox. 9000

insan tütünçülükdə işləyir, yaxşı pul qazanır. Bax, görülən işlərin nəticəsi budur.

Tərəvəzçilik ənənəvi ixrac sektorumuzdur. Ancaq biz burada da işlərimizi təkmilləşdirməliyik. Deməliyəm ki, Rusiyaya pomidor ixracında Azərbaycan birinci yerdədir. Biz çalışmalıyıq ki, bu birinciliyi saxlayaq. Onu da qeyd etməliyəm ki, Azərbaycanda bir çox istixanalar salınır. Son məlumata görə, təqribən 400 hektar sahədə yeni istixanalar salınır, onların da böyük əksəriyyəti pomidor istehsalına hesablanıb. Baxmalıyıq ki, nə qədər əlavə bazar bizim istehsalımızı həzm edə bilər. Eyni zamanda, biz gərək pomidorun emalını da təmin edək ki, məhsulumuz xaricə daha da yüksək qiymətə satıla bilsin.

Meyvəçilik sahəsində də müsbət irəliləyiş vardır. Qeyd etməliyəm ki, bizdə xurma ixracı 2 dəfə artıb, narçılıq inkişaf edir. Mən fındıqçılıqla bağlı xüsusi müşavirə də keçirmişdim və nəticələr göz qabağındadır. 2016-cı ildə fındıq bağlarının sahəsi təqribən 30–35 min hektar idi.

Bu gün yeni bağların salınması hesabına bu rəqəm 70 min hektara çatıb və qarşıya hədəf qoyulub ki, 2020-ci ildə 83 min hektara çatdırılsın. Bu məşğulluqdur, gəlirdir, valyutadır. Bu, ölkəmizə bəlkə də yüz milyonlarla dollar gətirəcək. Ölkəmizə deyəndə, fermerlərə, onlar da bu pulu xərcləyəcəklər, öz güzəranlarını yaxşılaşdıracaqlar, daha yaxşı yaşayacaqlar və bizim tədiyə balansımıza da bunun müsbət təsiri olacaqdır. Hazırda fındıqçılıqda 17 min insan işləyir, yaxşı gəlir götürürlər.

Baramaçılıqda, ümumiyyətlə, vəziyyət bəlkə də ən acınacaqlı idi. Biz, demək olar ki, bu sahəni tamamilə itirmişdik. 2015-ci ildə məlumat verildi ki, cəmi 236 kiloqram barama istehsal olunub və baramaçılar heç bilmirdilər ki, onu hara təhvil versinlər. Bütün bir zəncir sistemini – həm stimullaşdırma, həm maarifləndirmə, həm tinglərin gətirilməsini, indi də Qaxda barama mərkəzini yaratdıq. Bu işlər gözəl nəticə verdi və bu il 500 tondan çox barama tədarük edilib. 2016-cı ildə 3000 insan bu işlərə cəlb olunub, keçən il 10

min, bu il isə 22 min. Beləliklə, bu insanlar 30–40 günə o qədər də böyük əziyyət çəkmədən yaxşı pul qazanır və Şəki İpək kombinatı da daha böyük həcmlə işləyir. Orada da yüzlərlə iş yeri yaradılıb. Əlbəttə ki, biz Şəki İpək kombinatının modernləşdirilməsi ilə məşğuluq. Həm iş yerlərinin artırılması, həm də ixrac imkanlarının genişləndirilməsi istiqamətində işlər aparılacaqdır.

Mən kənd təsərrüfatı ilə bağlı yekun olaraq demək istəyirəm ki, ilk növbədə, biz daxili tələbatı təmin etməliyik, məhsuldarlığı artırmalıyıq, elmi yanaşmanı tətbiq etməliyik və ixrac imkanlarımızı genişləndirməliyik.

Bu sahədə kiçik sahibkarlıq da öz rolunu oynayır və oynayacaqdır. İndi ABAD – «Ailə Biznesinə Asan Dəstək» mərkəzləri yaradılır. Mən bunu alqışlayıram. Bu daha da geniş vüsət almalıdır. Müşavirələrin birində mən özəl sektora müraciət etmişdim. Demişdim ki, onlar da bu təşəbbüsü dəstəkləsinlər. İndi özəl şirkətlər ABAD mərkəzləri ilə müqavilələr bağlayıb sponsorluq edirlər. Bir neçə milyon manat dəyərində sponsorluq ki, fermerə, ailə təsərrüfatlarına dəstək olsun.

Əlbəttə ki, kənd təsərrüfatının inkişafı, o cümlədən özünüməşğulluq sisteminin tətbiqi ilə də bağlı olacaqdır. Bu sistem təkcə kənd təsərrüfatı sahəsini əhatə etməyəcək. Burada da hər il 6-7 min iş yeri yaradılmalıdır. Özünüməşğulluq proqramı işsizliyin, xüsusilə bölgələrdə işsizliyin, yoxsulluğun aradan qaldırılması üçün çox önəmli bir vasitə, alət olacaqdır. Eyni zamanda, bu gün dövlətdən sosial yardım alan ailələr dövlət tərəfindən, dövlət dəstəyi ilə onlara lazımi vəsait veriləndən sonra öz həyatlarını özləri quracaqlar və öz maliyyə imkanlarını xeyli dərəcədə artırmış olacaqlar.

«ASAN xidmət» mərkəzlərinin inşası davam etdirilir. İlin sonuna qədər iki şəhərdə – İmişli və Şəkidə yeni mərkəzlər açılacaq və gələn il 4-5 mərkəzin açılması nəzərdə tutulub. Son məlumata görə, «ASAN xidmət» mərkəzlərinə 24 milyon müraciət olunub. Demək olar ki, müraciət edənlərin 100 faizi göstərilən xidmətlərdən razı və məmnundurlar.

Sosial sahədə ciddi islahatlar aparılır. Nazirliyin yeni rəhbərliyinə mənim tərəfimdən tapşırıqlar verilib ki, sosial ədaləti pozanlara qarşı çox ciddi tədbirlər görülsün. Bu sahədə rüşvətxorluğa, korrupsiyaya qarşı mübarizə çox ciddi aparılmalıdır və hazırda aparılır, şəffaflıq təmin edilir, bu sahədə yol verilmiş pozuntular aradan qaldırılır. İnzibati və institusional yollarla bu sahədə də ən müasir elektron texnologiyalar tətbiq olunmalıdır ki, şəffaflıq və ədalət tam təmin edilsin.

Mənə görülən işlərlə bağlı müntəzəm olaraq məlumat verilir. Sosial sahədə biz «ASAN xidmət»in analoqunu yaradırıq – Dayanıqlı və Operativ Sosial Təminat mərkəzləri, bunun adı da yaxşıdır, mənası da – DOST mərkəzləri. Hesab edirəm ki, bu sahədə vətəndaşlar yaxın gələcəkdə müsbət dəyişiklikləri görəcəklər və artıq görürlər. İndi yerlərdən məlumat gəlir, ancaq biz hələ islahatların birinci mərhələsindəyik.

Şəhid ailələri, Qarabağ müharibəsi əlilləri üçün evlərin tikintisi daha da sürətlə gedəcək. Mən bu il bir evin açılışında iştirak edərkən bildirdim ki, bu sahədə işləri sürətləndirmək üçün əlavə vəsait veriləcək. Ondan sonra bu il bu məqsədlər üçün Prezidentin ehtiyat fondundan 20 milyon manat ayrıldı ki, şəhid ailələrinə, müharibə veteranlarına, əlillərinə yüzlərlə mənzil və maşın verilsin.

Məcburi köçkünlərin problemləri daim diqqət mərkəzindədir. Deyə bilərəm ki, artıq 100-dən çox şəhərcik salınıb. Bu il əlamətdar hadisə baş verib, ilk dəfə olaraq özəl sektor məcburi köçkünlər üçün böyük şəhərcik salıb, Qobu qəsəbəsində 1000-dən çox mənzil özəl sektor tərəfindən inşa edilib və köçkünlərə təqdim olunubdur. Mən bunu alqışlayıram. Hesab edirəm ki, bu proses Azərbaycanda vüsət almalıdır. Bizim iri, böyük maliyyə imkanlarına malik şirkətlərimiz vardır. Onlar gərək sosial məsuliyyətlərini göstərsinlər.

Bu il Sumqayıt şəhərində, Kürdəxanı, Mehdiabad, Ramana, Masazır qəsəbələrində, Abşeron, Tərtər, Qaradağ rayonlarında məcburi köçkünlər üçün binalar, evlər tikilir və onların

sərəncamına verilir. 9 ayda 2900 məcburi köçkün ailəsi evlərlə, mənzillərlə təmin olunub. İlin sonuna qədər əlavə 2800 ailə evlərlə, mənzillərlə təmin ediləcək. Beləliklə, bu il 5700 ailə – təxminən 25 min insan evlərlə, mənzillərlə təmin olunacaqdır. Bax, bu, görülən işlərin nəticəsidir. Belə olan halda, ilin sonuna qədər evlərlə, mənzillərlə təmin edilmiş məcburi köçkünlərin sayı 300 minə çatacaqdır.

Bundan sonra da, gələn il də bu məqsədlər üçün kifayət qədər vəsait nəzərdə tutulacaq. Amma biz bu sahədə də çox ciddi islahatlar aparmalıyıq, uçot aparılmalıdır, şəffaflıq təmin edilməlidir. Əfsuslar olsun ki, bu gün belə deyil. Bəzi hallarda köçkün olmayan vətəndaş gedib yalandan öz adını yazdırır, sonra dövlətdən mənzil alır. Belə hallar var və köçkünlər xoşagəlməz hallarla üzləşirlər. Növbə ilə bağlı məsələlər vardır. Yəni ədalətsizliklər aradan qaldırılmalıdır və pozuntulara yol açan boşluqlar da bağlanılmalıdır. Növbədə dayanan, ən ağır vəziyyətdə yaşayan vətəndaş ilk növbədə mənzil almalıdır, belə göstəriş verilibdir. Mənzil ancaq köçkünə verilməlidir. Bəzi hallarda məlumat gəlir ki, köçkünlər üçün tikilmiş evlərdə başqa vətəndaşlar yaşayır. Bəzi hallarda biləndə ki, misal üçün, ev söküləcək, yeni evə köçürüləcəklər, yerli icra orqanları, digər qurumlar gedib oraya pul müqabilində köçkün olmayan adamların adlarını yazdırırlar. Bu, ən böyük vicdansızlıqdır. Köçkünlərin vəziyyətindən istifadə edib əsassız imtiyaz, gəlir əldə etmək ən böyük günahdır, vicdansızlıqdır. Bunu edənlərin vicdanı, imanı yoxdur. Ona görə bunlara qarşı çox ciddi mübarizə aparılır və aparılacaq, onlar eşitsinlər. Burada çox ciddi şəffaflıq və uçot təmin edilməlidir və ediləcəkdir.

İnfrastruktur layihələri ilə bağlı ilin sonuna nəzərdə tutulan bütün məsələlər öz həllini tapır. Qazlaşdırılma 94 faizə çatıb, hədəf 95 faiz idi, ilin sonuna qədər biz buna nail olacağıq. Bu ilin sonuna qədər «Şimal-2» Elektrik Stansiyasının istifadəyə verilməsi nəzərdə tutulur. Bu bizim sistemimizə əlavə 400 meqavat enerji verəcək. Bu çox böyük gücdür. Enerji

sistemimizdə çox ciddi islahatlar, təhlil aparılır. Yay ayında baş vermiş o qəzanın səbəbləri tam araşdırılıb və müvafiq inzibati ölçülər götürülübdür. İnvestisiya qoyuluşu, bizim enerji təsərrüfatının texniki vəziyyəti ilə bağlı çox ciddi addımlar atılıb, bu işlərə beynəlxalq məsləhətçilər cəlb edilibdir. Biz bu il və gələn il bu sahəyə əlavə vəsait ayıracağıq ki, həm generasiya güclərinin yaradılması, ötürücü xətlərin, yarımstansiyaların tam dayanıqlılığı təmin edilsin. Mövcud stansiyaların generasiya güclərinin artırılması üçün əlavə addımlar atılacaq. Çünki vaxtilə tikilmiş stansiyalar tam gücü ilə işləmir. Mənə məlumat veriləndə cədvələ baxıram ki, 80 meqavat nəzərdə tutulub, cəmi 15 meqavat işləyir. Bunları belə səmərəsiz şəkildə istismar ediblər ki, bəziləri, demək olar, öz potensialını itiribdir. Biz bunları bərpa edəcəyik. Təbii ki, müəyyən qədər vaxt lazım olacaqdır.

Ancaq bu sahədə tam yeni bir yanaşma olmalıdır. Biz bu gün də elektrik enerjisini ixrac edirik, bizdə kifayət qədər potensial vardır. Gələcəkdə perspektivləri nəzərə alaraq, özümüzü təmin etməklə, ixracımızı da artıracağıq.

Digər infrastruktur layihələri ilə bağlı işlər qrafik üzrə gedir. Bu il 1200 kilometr yol çəkilib. Hədəf 2000 kilometr idi. Biz bu hədəfə çatacağıq. Bu il 600 kəndin yolları abadlaşdırılır. İçməli su layihələri, meliorativ tədbirlər uğurla icra edilir. Bu il biz 100 min hektar torpağa su gətirmişik, 270-dən çox subartezian quyusu qazılıb, hələ ilin sonuna qədər 30-u da qazılacaqdır.

Mən burada bəzi layihələri səsləndirmək istərdim, meliorativ tədbirlərlə bağlı konkret hansı addımlar atılıb – Yuxarı Mil kanalının tikintisi nəticəsində 1900 hektar, Hacıqabul rayonunun Muğan, Padar qəsəbələrində, Qarasu kəndində – 2720 hektar, Abşeron yarımadasında Abşeron magistral kanalında yenidən qurulma işlərinin aparılması nəticəsində 7000 hektar, Şəmkir–Samux–Goranboy suvarma kanalının ikinci növbəsi – təxminən 12 min hektar, Neftçala magistral kanalının nasos stansiyasının birlikdə tikintisi – 12500, Araz çayının yeni

qolunun beton üzlüyə alınması – 13100, Şabran rayonu – 1700, Qax rayonu – 900 hektara yaxın, Xəzər, Pirallahı, Xızı rayonlarında meyvə bağlarının salınması – 1600, Xəzər rayonunun Qoşaqışlaq ərazisində – 750, Sabirabad, Salyan rayonlarında yerləşən qış otlaqlarında – 11000, Sabirabad rayonunun Sarxanbəyli, Moranlı, Bala Həşimxanlı, Əliləmbəyli kəndinin əkin sahələrinin təminatının yaxşılaşdırılması üçün «H» kanalının yenidən qurulması – 7500, Qazax rayonunun Xanlıqlar, Kəmərli, Aslanbəyli, Qaymaqlı, İkinci Şıxlı kəndlərinin əkin sahələrinin su ilə təminatı üçün – 500, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin suvarılması ilə bağlı – 280, Samur–Abşeron suvarma sisteminin yenidən qurulması nəticəsində Xızı, Siyəzən, Şabran rayonlarında 20 min hektara yaxın və digər layihələr, o cümlədən subartezian quyular – 8700 hektar. Cəmi 1 il ərzində bu qədər torpaq su ilə təmin edilibdir. Əlbəttə ki, biz məhsuldarlığı da artıracağıq. Təkliflər hazırlanır, gələn il biz bu istiqamətdə əlavə işlər görəcəyik.

Sosial infrastrukturla bağlı da bir neçə kəlmə demək istərdim. Bu il Bakıda 20-yə yaxın məktəb əsaslı təmir edilib və ya tikilibdir. Bölgələrdə yüzlərlə məktəb təmir edilib, o cümlədən 137 modul tipli məktəbin tikintisi nəzərdə tutulur. 42 tibb müəssisəsində təmir-tikinti işləri aparılıbdır.

Ölkəmizin ekoloji vəziyyətinin yaxşılaşdırılması üçün işlər görülür, təhlil aparılır. İlk növbədə, neftlə çirklənmiş ərazilər təmizlənir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinə müvafiq göstəriş verilib, vəsait ayrılıbdır. Abşeron yarımadasında neftlə çirklənmiş yerlər tam təmizlənəcək, həmin yerlərdə bağlar, yaşıllıqlar, göllər salınacaqdır.

Bu işlər gedir, gələn ildə də bunlar nəzərdə tutulur. Xəzərin sahilində yeni təmizləyici qurğuların yaradılması istiqamətində işlər gedir. Burada da vəziyyət bizi tam qane edə bilməz. Havanı çirkləndirən məişət obyektlərinə ciddi xəbərdarlıq edilib. Axsam saatlarında Bakı şəhərini tüstü bürüyür. Şadlıq evlərində tüstü təmizlənmədən havaya sovrulur. Onlara çox

ciddi xəbərdarlıq edilib, kim əməl etməyəcəksə, o şadlıq evinin, məişət obyektinin qapısı bağlanacaqdır.

Mən tapşırmışam ki, bunun üçün hüquqi əsaslar hazırlansın. Bildiyimə görə, birinci xəbərdarlıqdan sonra bir çox məişət obyektləri təmizləyici qurğuları quraşdırmağa başlayıb. Onların hamısına məsləhətim budur ki, bu işi tezləşdirsinlər. Çünki ikinci xəbərdarlıq olmayacaq, bir də görəcəklər ki, obyekt əldən çıxdı.

Tezliklə bütün böyük-kiçik məişət obyektlərində havanı çirkləndirən, havaya tüstü, kanserogen buraxan obyektlərdə təmizləyici qurğular quraşdırılmalıdır, müvafiq qurumlar monitorinq aparmalıdır. Mən Bakı Şəhər İcra Hakimiyyətinə, Ekologiya və Təbii Sərvətlər Nazirliyinə göstəriş verdim ki, mənə dərhal məlumat verilsin və dərhal ölçü götürüləcəkdir.

Ağacların kəsilməsi halları azalıb, amma tam aradan qaldırılmayıbdır. Bir daha deyirəm – əgər Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəyi olmadan kimsə bir ağac kəsərsə, onda özündən küssün.

Bakı şəhərində və digər şəhərlərdə qanunsuz tikililərə son qoyulmalıdır və son qoyulur. Müvafiq sərəncam imzalanıb, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin icazəsi olmadan bir dənə də bina tikilə bilməz. Bu məsələ ilə bağlı mən əvvəllər də fikirlərimi bildirmişəm.

Bu gün deyə bilərəm ki, artıq bu məsələ öz həllini tapıb. Çünki əvvəlki dövrlərdə bələdiyyələr təqsiri rayon icra hakimiyyətlərinin, rayon icra hakimiyyətləri Bakı Şəhər İcra Hakimiyyətinin, Bakı Şəhər İcra Hakimiyyəti bələdiyyələrin, yəni bir-birinin üstünə atırdılar. Amma əslində hamısı əlbir idilər. Çünki qanunsuz tikililərdən böyük qazanc əldə edirdilər. Buna son qoyulub, artıq sərəncam imzalanıbdır. Yəni bu qaydanı pozan cinayət məsuliyyətinə cəlb ediləcək və qanunsuz tikilən binalar dərhal söküləcəkdir.

Bakı dünyanın ən gözəl şəhərlərindən biridir və kiminsə tamahı naminə biz şəhərimizi eybəcər hala sala bilmərik.

Şəhərsalma qaydaları var, mərtəbələrin yerə görə hündürlüyü var, hava axınının müvafiq qaydaları var. Bizdə isə bu pozulurdu. Elə bil ki, böyük bir sədd tikirdilər. Havanın keçməsi üçün heç bir imkan qalmırdı, həyətlərdə ağacları qırıb binalar tikirdilər. Yerli orqanlar buna həm göz yumurdular, həm də yəqin ki, əlbir idilər. İndi buna son qoyulub. Mən bunu bildirmək istəyirəm. Vətəndaşlara da müraciət edərək, ilk növbədə, təşəkkürümü bildirmək istəyirəm.

Çünki bir çox hallarda vətəndaşların fəallığı nəticəsində o tamahkar adamlar istədiklərinə nail ola bilməmişlər. Çünki vətəndaşlar dururdular, keşik çəkirdilər, qoymurdular, xəbər verirdilər və onların fəallığını mən alqışlayıram.

Dəfələrlə demişəm ki, ictimai nəzarət güclü olmalıdır, artıq biz bunu görürük. Ona görə bir daha vətəndaşlara müraciət edirəm. Əgər haradasa görsəniz ki, qanunsuz nəsə tikilir, dərhal məlumat verin, ilk növbədə, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə, Bakı Şəhər İcra Hakimiyyətinə və Prezident Administrasiyasına. Bu sahədə də qayda-qanun yaradılır.

Şəhər nəqliyyatı sahəsində də irəliləyiş vardır. Biz şəhər nəqliyyatının təkmilləşdirilməsi işində islahatlar aparırıq – həm yol-nəqliyyat hərəkətinin tənzimlənməsi, həm yeni yolların açılması, həm də nəqliyyat vasitələrinin alınması istiqamətində.

Bu il şəhərimizə əlavə 300 yeni müasir avtobus gətiriləcək. Mən göstəriş vermişəm, gələn il də minimum 300, əgər maliyyə imkanımız olsa, 500 yeni avtobus gətirilməlidir. Dövlət bu sahədə öz liderliyini göstərməlidir. Çünki son vaxtlar baş vermiş dəhşətli qəzalar bizim hamımızı çox üzür və bu, vətəndaşlar üçün çox böyük faciədir, böyük itkidir. Nəyə görə? Çünki sükan arxasında oturan öz məsuliyyətini dərk etmir. Onun psixoloji, narkoloji durumuna, peşəkarlığına lazımi qaydada nəzarət olunmur, sadəcə olaraq, pul naminə.

Şirkətə pul lazımdır. Ona görə də bədbəxt hadisələr baş verir. Avtobus qatara çırpılır, günahsız insanlar həlak olur. Mühafizə orqanları belə hallara çox ciddi reaksiya verməlidir və

belə hallar nəzarətdə olmalıdır. Çünki bəzi hallarda bu hadisəni törədənlər müəyyən müddətdən sonra məsuliyyətdən yayınır. Ona görə buna son qoymaq üçün müvafiq qurumlar tərəfindən çox ciddi təftiş aparılmalıdır. Avtobusların məxsus olduğu şirkətlər çox ciddi nəzarətə götürülməlidir. Avtobusların texniki parametrləri ilə bağlı çox ciddi təftiş aparılmalıdır.

Mən bir daha demək istəyirəm, əfsuslar olsun ki, özəl sektor bu sahədə istədiyimizə nail ola bilmədi. Bu sahə, ümumiyyətlə, özəl sektorun ixtiyarına buraxılmışdı.

Belə bir fikir var idi ki, onlar bunu məsuliyyətlə, yaxşı idarə edəcəklər. Amma biz nəyi görürük? Gedirlər sıradan çıxmış, sınıq-salxaq avtobusları gətirib salırlar bizim küçələrimizə. Həm insanlar, həm hava üçün təhlükədir, həm də, ümumiyyətlə, heç bir normaya sığmır. İndi bizim dövlət qurumumuz var – «Bakubus» şirkəti. Onların xətti ilə biz bu işi davam etdirməliyik. Əgər özəl şirkətlər bu sahədə işləmək istəyirsə, öz işlərində çox ciddi dəyişiklik etməli və dövlət orqanları da onlara çox ciddi nəzarət etməlidir.

Mən məişət tullantıları ilə bağlı müvafiq göstəriş vermişəm. Bu sahə Bakı şəhərində lazımi səviyyədə tənzimlənmir. Ona görə vahid bir zəncir yaradılmalıdır – qapıdan Balaxanı Məişət Tullantıları Emalı zavoduna qədər.

Müvafiq qurumlar bu məsələ ilə bağlı təkliflər hazırlayır. Mən göstəriş vermişəm ki, bu işlərə beynəlxalq məsləhətçilər cəlb edilsin, bu sahədə də dünyanın aparıcı şəhərlərinin mövcud təcrübəsi Azərbaycanda tam tətbiq olunsun.

Bakı Şəhər İcra Hakimiyyətinə göstəriş vermişəm ki, binaların həyətləri abadlaşdırılsın, orada həm yaşlı insanlar, həm də uşaqlar üçün şərait yaradılsın, həyətlər bütün qanunsuz tikililərdən təmizlənsin, lift təsərrüfatı təzələnsin, harada ki, ehtiyac var, yeni liftlər qoyulsun. Yəni mənzil-kommunal təsərrüfatının yenilənməsi istiqamətində çox ciddi addımlar atılacaqdır.

Bakı şəhərində yeni parklar, bulvarlar salınır. Bakı indi gözəl parklar, xiyabanlar şəhəridir. Köhnə, yararsız vəziyyətdə olan sənaye müəssisələri şəhərin mərkəzindən köçürülür, yeni gözəl parklar salınır. Bu il də həmin parklardan biri Babək prospektində, Heydər Əliyev Mərkəzinin aşağısında, Yusif Səfərov küçəsində salınıb və vətəndaşların sərəncamına verilibdir. Biz bu istiqamətdə işlərimizi davam etdirəcəyik.

Dəmir yolu ilə bağlı bəzi layihələri qeyd etmək istərdim. Mən ilin əvvəlində demişdim ki, bu ilin sonuna qədər Bakı–Gəncə sürət qatarının işə salınması prosesi başa çatmalıdır. İlin sonuna artıq az vaxt qalıb. Yəqin ki, biz bunu görəcəyik. Hər halda, kifayət qədər vəsait ayrılıb. Digər istiqamətlər üzrə – Bakı–Yalama dəmir yolunun yenidən qurulması istiqamətində, Bakı–Qəbələ dəmir yolunun çəkilişi ilə bağlı işlər gedir.

Bakı dairəvi avtomobil yolunun tikintisi davam edir. Bu da şəhər nəqliyyatı üçün çox önəmli bir layihə olacaq və bunu biz metro tikintisi ilə uzlaşdırmalıyıq. Onu da qeyd etməliyəm ki, bu ilin Dövlət İnvestisiya Proqramında metro tikintisi üçün də kifayət qədər vəsait ayrılıbdır.

Gələn ilin əvvəlində biz növbəti regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramını qəbul edəcəyik. Bu il üçüncü proqramın icrası başa çatır. Proqram, demək olar ki, artıqlaması ilə icra edilib. İndi dördüncü proqram hazırlanır, son mərhələdədir. Dördüncü proqramda bu gün hələ də görə bilmədiyimiz işlər öz əksini tapmalıdır ki, qarşımızda duran bütün vəzifələr icra edilsin. Sağ olun.

## ABŞ DÖVLƏT KATİBİ KÖMƏKÇİSİNİN MÜAVİNİ CORC KENT İLƏ GÖRÜŞ

*9 oktyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin yeni təyin olunmuş müavini Corc Kenti qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edildi.*

*Dövlət başçısı ABŞ Prezidenti Donald Trampın Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi və «Cənub Qaz Dəhlizi»nin rəsmi açılışı ilə bağlı göndərdiyi məktublarda Azərbaycan–ABŞ münasibətləri ilə əlaqədar ifadə etdiyi fikirlərə və xoş sözlərə görə minnətdarlığını bildirdi.*

*Söhbət zamanı təhlükəsizlik sahəsində əməkdaşlığa toxunuldu, ölkəmizin Əfqanıstanda sülhməramlı əməliyyatlara töhfəsi və ikitərəfli əsasda Əfqanıstan hökumətinə verdiyi dəstək yüksək qiymətləndirildi.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər müzakirə olundu, enerji sahəsində uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi, ABŞ-ın «Cənub Qaz Dəhlizi» layihəsinə verdiyi dəstək xüsusi qeyd olundu.*

*Söhbət zamanı, həmçinin qeyri-neft sektoru, o cümlədən ticarət, informasiya texnologiyaları, sərmayə qoyuluşu, kənd təsərrüfatı sahələrində əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparıldı.*

## XIZI RAYONUNDA «YENİ YAŞMA» KÜLƏK ELEKTRİK PARKININ AÇILIŞI MƏRASİMİ

*11 oktyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 11-də Xızı rayonunun Yeni Yaşma və Şurabad qəsəbələrinin ərazisindəki 50 MVt-lıq «Yeni Yaşma» külək elektrik parkının açılışında iştirak etmişlər.*

*Dövlət başçısı və xanımı külək elektrik parkının rəmzi açılışını bildirən lenti kəsdilər.*

*«Azərenerji» ASC-nin prezidenti Baba Rzayev məlumat verdi ki, «Yeni Yaşma» külək elektrik parkı bu il yenidən qurulub. Xızı rayonunun Yeni Yaşma və Şurabad qəsəbələrində yerləşən külək elektrik stansiyasında yenidənqurma işlərini Almaniyanın «Berlin Vind» şirkəti aparıb. Yanvar ayında ilk turbin işə salınmaqla, ay üzrə cəmi 200 min kVt/saat elektrik enerjisi istehsal olunurdusa, hazırda 20 külək turbini tam gücü ilə işləyir və elektrik enerjisinin istehsalı ay üzrə 9 milyon kVt/saata yaxındır. Parkın ərazisində inzibati bina inşa edilib, burada idarəetmə mərkəzi, işçi heyəti üçün xidməti otaqlar, habelə elektrik avadanlığının–yuvaların quraşdırılması üçün 20 kV-luq bölmə və təlim-tədris mərkəzi yaradılıbdır. İdarəetmə mərkəzində turbinlərin iş rejimləri, istismar vəziyyəti, texniki parametrləri, küləyin sürəti, növbəti günlər üçün külək proqnozu və enerji istehsalı onlayn izlənilir. Stansiyanın səmərəli fəaliyyətini təmin etmək üçün müasirtipli «rele» mühafizəsi, avtomatika və SCADA sistemi yaradılıb. İstehsal olunan elektrik enerjisinin ümumi enerji sisteminə ötürülməsi üçün «Yaşma» hava xəttinə qoşulmaqla, «Sitalçay» yarımstansiyasına 110 kV-luq hava xətti çəkilib. Bir sıra xarici*

*şirkətlər tərəfindən yerli mütəxəssislər üçün treninqlər təşkil edilib, həmçinin xarici ölkələrdə keçirilən müxtəlif sertifikatlaşdırılmış kurslarda yerli mütəxəssislərin iştirakı təmin olunubdur.*

*Hazırda stansiyanın idarə edilməsi, servis və istismar işləri tamamilə yerli mütəxəssislər tərəfindən icra olunur. Parkda alternativ və bərpaolunan enerji mənbələri üzrə kadr hazırlığı məqsədilə xüsusi təlim-tədris mərkəzi fəaliyyət göstərir. Parkın ümumi ərazisi 540 hektardır. Burada 9800 poqonmetr uzunluğunda qəfəsli çəpər çəkilib, ümumi sahəsi 571 kvadratmetr olan anbar binası tikilib, gübrə və yağ depoları, zəhərli maddələrin saxlanılması üçün xüsusi otaq və xidməti bölmələr yaradılıbdır. Ərazidən səmərəli istifadə olunması üçün torpaq nümunələri İtaliyada laborator müayinədən keçirilib və nəticələrə əsasən, 450 hektar sahədə zeytun və badam bağları salınıbdır. Bağların suvarılması məqsədilə Taxtakörpü–Ceyranbatan su kanalının 72-ci kilometrliyində suqəbuledici baş qurğu tikilib, 23 kilometrlik su xətti çəkilib, su anbarı və nasos stansiyası inşa edilibdir. Bakı–Quba–Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 55-ci kilometrliyindən 1,8 kilometrlik yeni avtomobil yolu çəkilibdir.*

*«Yeni Yaşma» külək elektrik parkı Cənubi Qafqazın ən böyük külək elektrik parkıdır. Stansiyanın istismara verilməsi nəticəsində Azərbaycanda alternativ enerjinin ümumi istehsalda payı 0,7 faizdən 1,8 faizədək artacaqdır.*

*Dövlət başçısına 3,6 MVt gücündə «Yaşma Bağları» külək elektrik parkı və 1,7 MVt gücündə «Şurabad» külək elektrik parkı barədə də məlumat verildi. Prezident İlham Əliyevin sərəncamına uyğun olaraq, Bakı–Quba yolunun digər tərəfində yerləşən Yaşma Bağları ərazisindəki 4 turbin təmir olunaraq, istismara hazır vəziyyətə gətirilib. Elektrik enerjisinin şəbəkəyə ötürülməsi üçün 35 kV-luq yarımstansiya inşa edilib və 3,8 kilometr uzunluğunda hava xətti çəkilibdir. «Şurabad» külək elektrik parkında da 1,7 MVt gücündə 2 turbinlə bağlı təftiş işləri*

*aparılıb, stansiyaya məxsus 35 kV-luq yarımstansiya elektrik enerjisinin şəbəkəyə ötürülməsi üçün yenidən qurularaq, istismara verilib. Turbinlərin idarə edilməsi SCADA sisteminə inteqrasiya olunubdur.*

*Sonda külək elektrik parkının kollektivi ilə xatirə şəkli çəkdirildi.*

## Bakı–Quba–Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunda aparılan tikinti işlərinin gedişi ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 11-də Bakı–Quba–Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunda tikinti işlərinin gedişi ilə tanış olmuşlar.*

*Avtomobil yolunun 45-ci kilometrliyindən, H.Z.Tağıyev qəsəbəsindən başlayan 92 kilometr uzunluğunda yol 1B texniki dərəcəyə uyğun olaraq inşa edilibdir. Qeyd edək ki, regionların davamlı inkişafının təmin olunması üçün müasir yol infrastrukturunun yaradılması müstəsna əhəmiyyət daşıyır. Son illərdə regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurla icrası nəticəsində ölkəmizdə magistral, yerli əhəmiyyətli şəhərlərarası və kəndlərarası avtomobil yolları əsaslı şəkildə yenidən qurularaq, təkmilləşdirilib, həmçinin yeni avtomobil yolları, körpülər və yol ötürücüləri inşa edilərək, əhalinin istifadəsinə verilibdir. Bu tədbirlərin davamı kimi, Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizinin tərkib hissəsi olan M-1 Bakı–Quba–Rusiya Federasiyası ilə dövlət sərhədi yeni avtomobil yolunun H.Z.Tağıyev qəsəbəsindən başlayaraq tikilməsi ilə bağlı Prezident İlham Əliyevin imzaladığı sərəncam mühüm əhəmiyyət daşıyır. Artıq Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi layihənin icrası məqsədilə sürətlə və keyfiyyətlə tikinti işləri aparır.*

*Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlət başçısına məlumat verdi ki, Bakı–Quba–Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 45-ci kilometrliyindən, H.Z.Tağıyev qəsəbəsindən başlayan 92 kilometr uzunluğunda olan yol 1B texniki dərəcəyə uyğun inşa edilir. 4 hərəkət zolaqlı olacaq yolun layihəsi 4 lotdan ibarətdir və hazırda tikinti işləri 1-ci lotda aparılır. Bu hissədə yolun beton örtüyünün sökülərək, qaldırılması və yol yatağının yenidən tikilməsi işləri görülür. Artıq 1-ci lot üzrə layihənin 0–7-ci kilometrlik hissəsində asfaltlanma işləri əksər ərazidə yekunlaşdırılıb. Bundan əlavə, 1-ci lot üzrə 2 yol qovşağı, yol ötürücü körpü, kanal körpüsü, 4 yeraltı avtomobil keçidi, müxtəlif ölçülərdə 33 beton borunun tikintisi, meliorasiya xətləri ilə kəsişmələrdə müvafiq tədbirlərin görülməsi, müxtəlif gərginlikli elektrik-rabitə xətlərinin, su, beynəlxalq əhəmiyyətli qaz və neft xətlərinin köçürülməsi, yolun ayırıcı zolağında ümumilikdə 31 min poqonmetr beton baryerlərin tikilməsi nəzərdə tutulub. Layihələndirilən magistral yol əsasən yaşayış məntəqələrindən və sənaye müəssisələrindən kənar keçir.*

*Yeni yolun tikinti layihəsinə uyğun olaraq, əsas qəsəbə və rayon mərkəzlərindən magistrala giriş-çıxış yolları çəkiləcək. Yolun ətraf mühitə, o cümlədən faunaya mənfi təsirini azaltmaq məqsədilə heyvanlar üçün yolaltı keçidlərin tikintisi və səsboğucu qurğuların quraşdırılması nəzərdə tutulur. Yeni inşa edilən yol 92 kilometrdən sonra Şabran rayonunun Gəndob kəndindən Rusiya sərhədinədək uzanan 60 kilometrlik yola birləşəcək. Bununla da yeni avtomobil yolunun uzunluğu 152 kilometr təşkil edəcək. Ödənişli olacaq yeni avtomobil yolunun tikintisi nəqliyyat xidmətlərini daha da yaxşılaşdırmaqla yanaşı, bölgədə turizmin inkişafına əlavə təkan verəcək, Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizi ilə yük və sərnişin-daşımalarında əsas rol oynayaraq, respublikamızın iqtisadi maraqlarına uyğun olaraq, yüklərin, o cümlədən tranzit yüklərin daha geniş*

*cəlb edilməsinə, yük həcminin çoxalmasına və gəlirlərin artmasına, ölkəmizin nəqliyyat infrastrukturunun inkişafına, yeni iş yerlərinin açılmasına və bir çox sosial problemlərin həllinə şərait yaradacaqdır.*

## İdrisqışlaq–Qasımqışlaq–Xaspolad–Zərqava–Aspərəsti–Çayqışlaq avtomobil yolunun açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 11-də Quba rayonunda 11 yaşayış məntəqəsini birləşdirən və uzunluğu 33 kilometr olan İdrisqışlaq–Qasımqışlaq–Xaspolad–Zərqava–Aspərəsti–Çayqışlaq avtomobil yolunun açılışını etmişlər.*

*Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov məlumat verdi ki, 4-cü texniki dərəcəyə uyğun tikilmiş 2 hərəkət zolaqlı yolun hərəkət hissəsinin eni 6 metrdir. Bütün texniki standartlara uyğun salınmış yol üzərində zəruri yerlərdə siqnal dirəkləri, yol nişanları və göstərici lövhələr quraşdırılıb. Ümumi uzunluğu 528 metr olan suötürücü borular tikilib, yol cizgi xətləri çəkilibdir. Avtomobil yolunun tikintisi 11 yaşayış məntəqəsini birləşdirərək, sərnişin və yükdaşımanı xeyli yaxşılaşdırmağa imkan verəcək. Beləliklə, yeni yol mənzil başına rahat və təhlükəsiz çatmağa hərtərəfli şərait yaradacaq. Bu layihənin icrası ümumilikdə nəqliyyat vasitələrinin təhlükəsiz hərəkətini də təmin edəcək. Bir sözlə, yeni yolun inşası yolboyu yaşayan vətəndaşların sosial rifahına birbaşa təsir göstərəcək, kənd təsərrüfatı məhsullarının rahat və tez daşınmasına münbit şərait yaradacaqdır.*

*Bundan başqa, bu layihə digər mühüm bir məqamı da özündə birləşdirir. Belə ki, yerli və xarici turistlərin ərazidə yerləşən istirahət mərkəzləri və tarixi mədəniyyət abidələri ilə tanış olmasına da hərtərəfli şərait yaranacaqdır.*

*İdrisqışlaq–Qasımqışlaq–Xaspolad–Zərqava–Aspərəsti–Çayqışlaq avtomobil yolu Prezident İlham Əliyevin bu ilin sentyabrında imzaladığı sərəncama əsasən tikilibdir.*

*Dövlət başçısına Quba–Xaçmaz avtomobil yolunun yenidən qurulması barədə də məlumat verildi. Bildirildi ki, regionların 2014–2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun yenidən qurulan yol 78,4 min nəfər əhalinin yaşadığı 11 yaşayış məntəqəsini birləşdirir. 3-cü texniki dərəcəyə aid 2 zolaqlı yolun uzunluğu 22 kilometr, eni isə 7 metrdir.*

*Bundan əlavə, Prezident İlham Əliyevə Quba–Qonaqkənd avtomobil yolunun tikintisinin layihəsi barədə məlumat verildi. Uzunluğu 46 kilometr olan yolun üzərində tikiləcək 9 körpünün layihəsi hazırlanıb. Bununla yanaşı, Quba–Susay–Xınalıq avtomobil yolu da yenidən qurulacaqdır.*

*Layihə ilə tanış olan dövlət başçısına məlumat verildi ki, 4-cü texniki dərəcəyə uyğun inşa olunacaq yolun uzunluğu 55,7 kilometr, hərəkət hissəsinin eni 6 metrdir. İki hərəkət zolağından ibarət olan yolun tikilməsi bu bölgədə təxminən 5000 nəfər əhalinin yaşadığı 6 yaşayış məntəqəsini, həmçinin Quba şəhərini Xınalıq kəndi ilə birləşdirərək, sərnişin və yükdaşımanı xeyli yaxşılaşdıracaqdır.*

*Sonra dövlət başçısı Quba rayonunun İdrisqışlaq–Qasımqışlaq–Xaspolad–Zərqava–Aspərəsti–Çayqışlaq avtomobil yolunun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Sonda xatirə şəkli çəkdirildi.*

## Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun əsaslı təmirdən sonra fəaliyyəti ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 11-də Kənd Təsərrüfatı Nazirliyinin Qubada Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun əsaslı təmirdən sonra fəaliyyəti ilə tanış olmuşlar.*

*Dövlət başçısı və xanımı elmi tədqiqat institutunun binasında yaradılan şəraitlə maraqlandılar.*

*Kənd Təsərrüfatı naziri İnam Kərimov bildirdi ki, Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutu 1926-cı ildə fəaliyyətə başlayıb və 1964-cü ildən Quba rayonunun Zərdabi qəsəbəsində yerləşir. İnstitutda 59 nəfər işçi çalışır, onların arasında elmlər və fəlsəfə doktorları vardır. Prezident İlham Əliyevin 2015-ci ildə imzaladığı Kənd Təsərrüfatı Nazirliyi sistemində fəaliyyət göstərən elmi-tədqiqat müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi haqqında sərəncamına əsasən, Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun ümumi sahəsi 3504 kvadratmetr olan inzibati laboratoriya binası əsaslı təmir edilib. Kommunal sistemləri yenilənib, yardımçı təsərrüfat binaları tikilibdir. İnstitutda müasir avadanlıqlarla təchiz olunmuş torpaq, bitki və su analizi ilə məşğul olan aqroekologiya və analiz, bitkilərin mikroklonal çoxaltma üsulu ilə artırılması laboratoriyaları yaradılıb. Laboratoriyalarda alınmış bitki sortlarının böyüdülməsi və uyğunlaşdırılması məqsədilə xüsusi istixana-tingçilik kompleksi tikilibdir.*

*Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunda yaradılmış yeni sahələrdə 35 iş yeri açılıb. Burada 73 hektar ərazidə Lənkəran çayçılıq filialı, 19 hektarda Abşeron təcrübə stansiyası, 50 hektarda Qəbələ, 97 hektarda isə Göyçay dayaq məntəqələri yerləşir. Bundan əlavə, Zaqatala dayaq məntəqəsi, Zərdabi elmi təcrübə stansiyası və Quba yardımçı təcrübə təsərrüfatı da institutun balansına daxildir.*

*Qeyd olundu ki, təcrübə bazaları əsasən ötən əsrin 50-ci illərində yaranıb. Onların istifadəsində olan ümumi torpaq sahəsi 662 hektardır, onun 557 hektarı isə əkinə yararlı ərazidir. Əsas vəzifələri bitki genofondunun toplanılması, saxlanılması və seleksiyada istifadə olunması, daha məhsuldar yeni meyvə sortlarının yaradılması, yeni bitki becərmə texnologiyasının işlənməsi və fermerlərə elmi-texniki dəstəyin göstərilməsi olan Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun 50 hektar*

*ərazisində 2017–2018-ci illərdə müasir və məhsuldar meyvə bağları salınıb. Almaniyanın Meyvə və Bitkilərin Seleksiyası Elmi-Tədqiqat İnstitutu, Belarusun Meyvəçilik Elmi-Tədqiqat İnstitutu və Kənd Təsərrüfatı Akademiyası, İngiltərənin «Meosis» Elmi-Tədqiqat Şirkəti, İspaniyanın «Viveros-veron» Tingçilik və Tədqiqat Şirkəti ilə əlaqələr quran Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutu Çinin «Anxoy» Aqrar Universiteti və Fransanın meyvəçiliklə məşğul olan «Luare» Kənd Təsərrüfatı Palatası ilə də geniş əməkdaşlıq həyata keçirir.*

*Prezident İlham Əliyevə əsas hədəfi ixrac potensialının gücləndirilməsi, bağçılığın dayanıqlı inkişafı, keyfiyyətli məhsul istehsalı və innovativ fermerlərin formalaşmasına dəstək olan «Ağıllı bağ layihəsi» barədə məlumat verildi. Həmçinin ixtisaslı mexanizatorların vahid reyestri, fermerlər və mexanizatorları əlaqələndirəcək vahid kommunikasiya sisteminin yaradılması, mexanizatorların peşəkarlıq səviyyəsi və digər göstəricilərin ölçülməsi və onların ölkə üzrə lokasiyasının öyrənilməsi məqsədini daşıyan «AqroUber» layihəsindən də danışıldı.*

*Dövlət başçısına yeni yaradılmış Dövlət Aqrar Ticarət Şirkətinin fəaliyyəti barədə məlumat verilərkən bildirildi ki, indiyə qədər 300-dən çox fermerin müraciətinə baxılıb. Onlardan alınan 300 min kiloqramdan çox məhsul satışa çıxarılıb. Bu yaxınlarda Cocuq Mərcanlıda 15 fermerin məhsulunun satışı məqsədilə Memorandum imzalanıbdır.*

*Azərbaycan Prezidentinə «Kənddən şəhərə» layihəsi haqqında da məlumat verildi. Qeyd olundu ki, layihə çərçivəsində müasirtipli yarmarkaların təşkili, pərakəndə satış mərkəzlərinin qurulması, onlayn sifariş üçün mobil tətbiqin yaradılması nəzərdə tutulur. Layihənin icrası fermerlərin satış bazarlarına birbaşa çıxış probleminin həllində kömək olacaq və şəhər əhalisi kənd məhsullarını innovativ yollarla, əlverişli qiymətlərlə əldə etmək imkanı qazanacaqdır. Layihənin tərkib hissəsi olaraq, Aqrar Birja yaradılacaq və bu yolla kənd təsərrüfatı məhsullarının həm satıcıları, həm də alıcıları vahid platfor-*

*mada birləşəcək, kənd təsərrüfatı məhsullarının qiymət-məlumat bazası yaradılacaqdır.*

## QUBADA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*11 oktyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 11-də ulu öndər Heydər Əliyevin Quba şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoymuşlar.*

*Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev abidənin ətrafında aparılan abadlıq işləri və rayonda icra olunan layihələr barədə dövlət başçısına məlumat verdi.*

### Quba Rayon Mərkəzi Xəstəxanasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 11-də Quba Rayon Mərkəzi Xəstəxanasının açılışında iştirak etmişlər.*

*Dövlət başçısı və xanımı xəstəxananın rəmzi açılışını bildirən lenti kəsdilər.*

*Səhiyyə naziri Oqtay Şirəliyev dövlət başçısına tibb müəssisəsində yaradılan şərait barədə məlumat verdi. Qeyd olundu ki, Quba Rayon Mərkəzi Xəstəxanası 1964-cü ildə istifadəyə verilib, lakin uzun illər təmir işlərinin aparılmaması səbəbindən bina istismara yararsız vəziyyətdə idi. 230 çarpayılıq yeni xəstəxana binasının tikintisi ilə əlaqədar 2015-ci ildə başlanan inşaat işləri bu ilin sentyabrında başa çatdırılıb. Xəstəxana binasında müasir tibbi avadanlıqlar quraşdırılıb. Cərrahiyyə, terapiya, uşaq xəstəlikləri, nevrologiya, ginekologiya, travmatologiya şöbələrinin yaradıldığı bu tibb müəssisəsində LOR,*

*infeksion xəstəliklər, şüa-diaqnostika, reanimasiya, qəbul, laboratoriya, təcili tibbi yardım şöbələri və Perinatal Mərkəz də fəaliyyət göstərəcək. Ərazidə əsas korpusla yanaşı, Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin Quba rayon şöbəsi və digər yardımçı sahələr üçün binalar inşa olunubdur.*

*Burada yaradılmış şəraitdən görünür ki, vətəndaşların hərtərəfli tibbi xidmətlə təmin edilməsi, onların müalicə və müayinə işinin yüksək səviyyədə təşkili, gələcəyimiz olan uşaqların sağlam yetişməsi istiqamətində icra edilən layihələr dövlət başçısının daim diqqətində və nəzarətindədir. Belə müasir tibb müəssisəsinin istifadəyə verilməsi yalnız Quba sakinlərinə deyil, eyni zamanda, region əhalisinə hərtərəfli tibbi xidmət göstərməyə imkan verir. Onu da deyək ki, 2004–2018-ci illərdə ölkə üzrə 17 şəhər və rayonda mərkəzi xəstəxanalar yenidən tikilib. Bu illər ərzində regionlarda yerləşən 28 xəstəxana binası əsaslı təmir olunub. Artıq Goranboy, Qazax, Qobustan və Şəmkir Rayon Mərkəzi xəstəxanalarının tikintisi də başa çatdırılıb, Abşeron, Füzuli və Qəbələ Rayon Mərkəzi Xəstəxana binalarının inşası isə davam edir.*

*Sonra Prezident İlham Əliyev səhiyyə ocağının kollektivi ilə görüşdü.*

*Dövlət başçısı görüşdə çıxış etdi.*

## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Bu gün Quba şəhərində çox əlamətdar gündür. Qubada Mərkəzi Rayon Xəstəxanası açılır. Mən bu münasibətlə sizi ürəkdən təbrik edirəm. Bu çox gözəl tibb müəssisəsidir, ən yüksək, müasir standartlara cavab verir. Həm xarici görünüşü, həm də daxili tərtibatı və dizaynı çox gözəldir. Əlbəttə, burada quraşdırılan tibbi avadanlıq ən yüksək standartlara malikdir. Əminəm ki, xəstələrə çox gözəl tibbi xidmət göstəriləcək və xəstələr şəfa tapacaqlar.

Bu tibb müəssisəsi həkimlərin iş yeridir və həkimlərin iş yeri belə gözəl səviyyədə olmalıdır. Bu xəstəxanada bütün şöbələr vardır. Burada bütün xəstəliklərin müalicəsi mümkündür. Eyni zamanda, diaqnostikası da mümkündür. Onu da deməliyəm ki, bir neçə il bundan əvvəl mənim təşəbbüsümlə Quba şəhərində Müalicə-Diaqnostika Mərkəzi də yaradılıbdır. Bu xəstəxana Qubada ikinci böyük tibb müəssisəsidir. Əminəm ki, Quba sakinləri bu imkanlardan istifadə edəcəklər.

Belə müasir xəstəxananın bölgədə yaradılması bizim siyasətimizi göstərir. Bu gün Azərbaycanın bütün bölgələrində, hər bir rayonunda müasir tibb müəssisəsi yaradılıb və yaradılır. Bu il 6 şəhərdə yeni böyük xəstəxananın istifadəyə verilməsi nəzərdə tutulub. Artıq ikinci xəstəxana bu gün istifadəyə verilir. Bundan əvvəl Naftalan Şəhər Xəstəxanası istifadəyə verilibdir. İlin sonuna qədər 4 xəstəxananın tikintisinin başa çatdırılması nəzərdə tutulur. Gələn il 4 şəhər xəstəxanası istifadəyə veriləcək, yaxud da ki, tikintisi davam etdiriləcəkdir. Beləliklə, Azərbaycanda bir dənə də şəhər qalmayacaq ki, orada ən müasir xəstəxana olmasın. Nəhayət, biz ölkəmizin səhiyyə sahəsinin maddi-texniki bazasının yaradılmasının tamamlanmasını görəcəyik. Bu doğrudan da böyük hadisədir. Çünki bu gün ölkəmizdə göstərilən tibbi xidmətin səviyyəsi yüksəlir, imkanlar artır. Biz bu imkanlardan istifadə edib bu gün vətəndaşlara çox gözəl xidmət göstərə bilirik. Siz bilirsiniz ki, bir neçə ildir ölkəmizdə müayinədənkeçmə – diaqnostika aparılır. Bu il 5 milyondan çox insan bu imkanlardan istifadə edib. Onların bəzilərində olan xəstəliklər aşkarlanıb, onlara tibbi xidmət göstərilib, tövsiyələr verilibdir. Əgər ciddi xəstəlik varsa, Bakı şəhərinə göndəriliblər.

Son 15 il ərzində Azərbaycanda 600-dən çox yeni tibb müəssisəsi tikilib və ya əsaslı şəkildə təmir edilibdir. Bu bizim insanların sağlamlığına verdiyimiz böyük töhfəmizdir. İnsanların sağlamlığı ən vacib məsələdir. Bu gün statistikaya, Ümumdünya Səhiyyə Təşkilatının hesablamalarında Azərbay-

canın artan reytinqinə baxdıqda görürük ki, bu sahədə çox yaxşı nəticələr vardır. Azərbaycanda insan ömrünün uzunluğu artır, körpə-ana ölümü azalır. Əlbəttə, bu istiqamətdə daha da böyük addımlar atılacaq. Amma prinsipcə, səhiyyə sisteminin maddi bazasının yaradılması prosesi başa çatmaq üzrədir.

İnsan sağlamlığını şərtləndirən bir çox amillər vardır. Onların arasında ilk növbədə, sağlam həyat tərzidir. Mən bütün vətəndaşlara buradan müraciət edirəm ki, sağlam həyat tərzi hər bir vətəndaş üçün əsas prinsip olmalıdır. Diaqnostika, əlbəttə ki, çox vacib rol oynayır. Bu gün ölkəmizdə mövcud olan laboratoriyalar bütün analizləri edə bilər. Vətəndaşlar hər il kütləvi şəkildə müayinədən keçirlər və beləliklə, ciddi xəstəliklərin qarşısı alınır. Profilaktika çox önəmli rol oynayır. Digər tərəfdən, ölkəmizin ekoloji vəziyyəti, əlbəttə ki, insanların sağlamlığına birbaşa təsir göstərir. Bu istiqamətdə də çox vacib addımlar atılır. Havanı çirkləndirən müəssisələrdə, ictimai obyektlərdə təmizləyici qurğular quraşdırılır. İçməli su layihələri uğurla icra edilir, o cümlədən Quba şəhərində 5 il bundan əvvəl mənim iştirakımla içməli su layihəsi istifadəyə verilibdir. İndi müvafiq qurumlar qida təhlükəsizliyi ilə bağlı çox ciddi məşğuldurlar. Keyfiyyətsiz, bəzi hallarda saxta üsullarla hazırlanan qidalar aşkarlanır. Bu cinayətlərə yol verənlər isə cinayət məsuliyyətinə cəlb edilir. İdman, əlbəttə ki, insanların sağlamlığı üçün çox önəmli bir amildir. İdmanla məşğul olmaq üçün indi ölkəmizdə bütün şərait vardır.

Yəni biz bu sahəyə kompleks şəkildə yanaşırıq. Səhiyyə sisteminin təkmilləşdirilməsi sosial siyasətimizin əsas istiqamətlərindən biridir və bu yolda çox böyük addımlar atmışıq, böyük uğurlar əldə etmişik. Onlardan biri də bu gözəl tibb müəssisəsidir.

Quba şəhərinin inkişafına həmişə böyük diqqət göstərilib. Mən Prezident kimi, Quba rayonuna 10 dəfə səfər etmişəm. Bu, 11-ci səfərimdir. Səfərlər zamanı bir çox obyektlərin açılışlarında iştirak etmişəm. Quba rayonunun inkişafı ilə bağlı çox ciddi

tapşırıqlar verilmişdir. Onlar da uğurla icra edilir. Rayonda infrastruktur layihələri icra edilir. Mən içməli su layihəsini qeyd etdim. Bir neçə il bundan əvvəl «Şahdağ» Elektrik Stansiyasının tikintisi nəticəsində nəinki Quba rayonunun, bütün bölgənin elektrik təminatı xeyli dərəcədə yaxşılaşıb. Avtomobil yollarının çəkilməsi davam etdirilir. Bu gün biz bir kənd yolunun açılışını qeyd etdik. Quba rayonunun əksər kəndlərində yollar artıq yaxşı vəziyyətdədir. Qalan layihələr də növbəti illərdə icra ediləcək. Digər infrastruktur layihələri ilə bağlı addımlar atılır. Ev təsərrüfatlarının 75 faizi təbii qaz ilə təmin edilib, 48 məktəb tikilib, 7 məktəb əsaslı təmir edilibdir. «ASAN xidmət» Mərkəzi, Gənclər evi, Şahmat məktəbi yaradılıb. Quba şəhərində bir çox sosial və iqtisadi-sənaye obyektləri, o cümlədən «Azərxalça» İstehsalat Birliyinin Quba filialı yaradılıb. Yəni iş yerlərinin yaradılması, turizmin inkişafı üçün addımlar atılır. İndi Qubada turistlərin sayı da artır, həm yerli, həm xarici qonaqlar gəlirlər, yeni hotellər açılır. Bu gün mən yeni tingçilik müəssisəsinin fəaliyyəti ilə tanış olmuşam. Kənd təsərrüfatının inkişafı üçün bunun çox böyük əhəmiyyəti olacaqdır.

Ona görə Quba rayonunun kompleks şəkildə inkişafı –sosial-infrastruktur layihələrimiz, iş yerləri ilə bağlı olan layihələr, turizm, kənd təsərrüfatı diqqət mərkəzindədir. Rayon bu istiqamətdə bundan sonra da inkişaf edəcək. Əlavə göstərişlər də veriləcək. Mən daim rayonlardan gələn təkliflərə baxıram və o təkliflərin böyük hissəsi öz həllini tapır. Biz bunları regionların sosial-iqtisadi inkişafı proqramı çərçivəsində icra edirik.

Növbəti layihələr haqqında da sizə məlumat vermək istəyirəm. Quba şəhərində 5 kommunal ev vardır. O evlərin vəziyyəti o qədər də yaxşı deyil. Onların əvəzinə 48 mənzilli yeni yaşayış binası tikiləcək. Bu məsələ ilə bağlı müvafiq göstəriş veriləcək. Bir məktəbin tikintisi üçün əlavə vəsait ayrılacaq və kənd yollarının çəkilişi ilə bağlı əlavə tapşırıqlar veriləcək, o cümlədən Quba–Xınalıq yolunun yeni xətti çəkiləcəkdir. Siz

bilirsiniz ki, mənim təşəbbüsümlə təqribən 10 il bundan əvvəl biz Xınalığa yeni yol çəkdik. Artıq 10 il, bəlkə 10 ildən də bir qədər çox vaxt keçib və bu yolun təmirinə ehtiyac vardır. Mənə verilən məlumata görə, yeni bir istiqamət vardır. Susay kəndindən Xınalıq kəndinə yeni yolun çəkilişi planımızdadır. O, 30 kilometrlik yoldur, eyni zamanda, o yoldan Qrız kəndinə də təxminən 5 kilometrlik yol çəkiləcək. Müvafiq göstəriş veriləcəkdir.

Eyni zamanda, Quba–Qonaqkənd yolunun tamamilə yenidən qurulması ilə bağlı müvafiq göstəriş veriləcək. Bu yolun bir hissəsi Rustov kəndinə qədər artıq çəkilib. Rustov kəndindən Qonaqkəndə qədər məsafə çox böyükdür və çox böyük maliyyə tələb edən layihədir. Ancaq biz bunu etməliyik. Çünki o yol üzərində bir çox kəndlər var, minlərlə insan yaşayır və indi yol çox pis vəziyyətdədir. Yəni belə yol bizə yaraşmır.

Bax, bu layihələr növbəti mərhələdə icra ediləcək. Vəsait dərhal ayrılacaq. Digər layihələrlə bağlı, əlbəttə ki, vətəndaşlar, Quba rayonunun sakinləri müraciət etsinlər. Çünki biz indi regionların sosial-iqtisadi inkişafına dair dördüncü Dövlət Proqramının üzərində işləyirik. Dördüncü proqram gələn ilin əvvəlində qəbul ediləcək və bu gün Quba rayonunda hələ öz həllini tapmayan layihələr o proqrama salınmalıdır və salınacaqdır.

Sizi bu gözəl hadisə münasibətilə bir daha təbrik edirəm və sizə uğurlar arzulayıram. Sağ olun.

* * *

**K ə m a l ə H e y b ə t o v a** *(xəstəxananın həkimi)*: Möhtərəm cənab Prezident və çox hörmətli Mehriban xanım! İcazə verin, Quba rayonunun sakinləri adından Sizləri salamlayım və rayonumuza «Xoş gəlmisiniz!» – deyim.

Bu gün bizim üçün çox əlamətdar bir gündür. Quba Diaqnostika Mərkəzindən sonra rayonumuzda möhtəşəm bir tibb

ocağı Sizin xeyir-duanızla istifadəmizə verilir. Siz hər bir zaman çalışmısınız ki, dünya tibb sahəsində əldə edilmiş ixtiralar və yeniliklər Azərbaycanda da tətbiq olunsun. Bu bir reallıqdır. Təkcə paytaxt Bakımızda deyil, respublikanın bütün bölgələrində ən müasir tibbi avadanlıqlarla təmin olunan səhiyyə ocaqları tikilir. Bəli, biz bu gün Quba Rayon Mərkəzi Xəstəxanasının timsalında bunun bir daha şahidi oluruq. Buna görə əhalimiz adından Sizə dərin minnətdarlığımı bildirirəm. Sizi əmin edirəm ki, əhalimizə layiqli tibbi xidmət göstərəcək, Sizin insan amilinə verdiyiniz dəyərə layiqli töhfəmizi verəcəyik.

Cənab Prezident, bilirik ki, insanların sağlamlığı Sizin və çox hörmətli Mehriban xanım üçün prioritet bir məsələdir. Biz hər birimiz Sizin diqqət və qayğınızı hər zaman hiss edirik. Vətəndaşlarımızın ildə bir dəfə pulsuz tibbi müayinələrdən keçirilməsi buna bariz nümunədir. Tapşırığınıza əsasən aparılan tibbi müayinələr zamanı hətta özünü sağlam bilən bir çox insanda bəzi xəstəliklərin ilkin simptomlarını aşkar etmişik. Əgər bu insanlar vaxtında müayinə olunmasaydılar, daha ağır fəsadlarla üzləşə bilərdilər. Bu xəstəxanada belə tibbi müayinələr daha mütəşəkkil və daha yaxşı keçiriləcəkdir. Bu bir mədəniyyətdir və bu mədəniyyəti bizə Siz aşıladınız. Bunun üçün Sizə bir daha dərin minnətdarlığımızı bildiririk.

Sizin bizə olan qayğınız təkcə bununla bitmir. Bütün bölgələrimiz kimi, Quba rayonu da gündən-günə gözəlləşir və sürətlə inkişaf edir. Bu gün Qubada insanların əhval-ruhiyyəsində bir yüksəliş, rayonumuzda bir canlanma hiss olunur. Küçələr abadlaşır, parklar, xiyabanlar salınır. Beynəlxalq standartlara uyğun turizm obyektləri fəaliyyət göstərir. Bəli, bu gün fəxrlə deyə bilərik ki, Quba bölgənin turizm mərkəzinə çevrilib. Heç də təsadüfi deyil ki, rayonumuz turistlərin ən çox üz tutduğu məkanlardan biridir. Bütün bunlar Sizin fəaliyyətinizin sayəsində mümkün olubdur.

Cənab Prezident, Siz və Mehriban xanım hər bir azərbaycanlı üçün Vətəni sevməyin, xalqına, dövlətinə layiqli xidmətin

nümunəsisiniz. Vətən qarşısında öz xidməti borcunu yerinə yetirən oğlunuz Heydərin andiçmə mərasimində iştirakınız buna bariz nümunədir.

Cəmşid Naxçıvanski adına Hərbi liseyin kursantının anası kimi, bu hisslər mənə çox doğmadır. Sizə bir daha dərin minnətdarlığımızı bildiririk. Allah Sizi və ailənizi qorusun. Çox sağ olun, var olun.

## «Günəş» körpələr evi-uşaq bağçasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 11-də Quba şəhərində 100 yerlik «Günəş» körpələr evi-uşaq bağçasının açılışında iştirak etmişlər.*

*Dövlət başçısı və xanımı Körpələr evi-uşaq bağçasının rəmzi açılışını bildirən lenti kəsdilər.*

*Bağçada yaradılmış şəraitlə tanışlıq zamanı dövlət başçısına məlumat verildi ki, Körpələr evi-uşaq bağçasının inşasına ötən il başlanılıb. Bu ilin sentyabrında isə tikinti işləri yüksək keyfiyyətlə başa çatdırılıbdır. Ümumi sahəsi 1439 kvadratmetr olan bina ikimərtəbəlidir. Yataq, yemək və istirahət otaqlarının olduğu bağçada uşaqlar üçün musiqi otağı və idman zalı yaradılıb. Burada balacaların təlim-tərbiyəsi və onların ilkin biliklərə yiyələnmələri üçün hər cür şərait vardır. Otaqların hamısı zəruri avadanlıqlarla təchiz olunub. Körpələr evi-uşaq bağçasında 25 nəfərin daimi işlə təmin edilməsi nəzərdə tutulubdur.*

*Bağçanın ərazisində uşaqların əylənməsi üçün meydança yaradılıb, müxtəlif attraksion və idman qurğuları quraşdırılıb, ətraf ərazidə geniş abadlıq işləri görülüb, binaların fasadları rənglənibdir.*

*Qeyd edək ki, ölkəmizdə uşaqların sosial müdafiəsinin gücləndirilməsinə, onların sağlam və xoşbəxt böyümələrinə yüksək*

*diqqət göstərilir. Prezident İlham Əliyevin qayğısı sayəsində indi ölkəmizin hər yerində müasir uşaq bağçaları, uşaq evləri inşa olunur, zəruri avadanlıqlarla təchiz edilir.*

*Azərbaycanda yeni uşaq tərbiyə müəssisələrinin inşası sahəsində görülən işlərə dövlətimizlə yanaşı, Birinci vitse-prezident xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da xüsusi töhfə verir. Fondun məktəbəqədər tərbiyə müəssisələrinin yenidən qurulması ilə bağlı həyata keçirdiyi layihələr bu baxımdan çox mühüm rol oynayır. Heydər Əliyev Fondunun «Məktəbəqədər təhsil müəssisələrinin inkişafı» proqramı bir daha sübut edir ki, uşaqların təlim-tərbiyəsi Fondun fəaliyyətinin əsas istiqamətlərindən biridir. Fondun təhsillə bağlı fəaliyyət dairəsində məktəbəqədər təhsil müəssisələrinin yenidən qurulmasına, bu sahədə ciddi keyfiyyət dəyişikliyinə nail olunmasına geniş yer ayrılıbdır.*

*Ölkəmizdə balacaların sağlam və bilikli yetişmələrinə hesablanmış yeni-yeni uşaq müəssisələrinin yaradılması bir daha sübut edir ki, Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətdə bu məsələyə xüsusi yer ayrılır. Beləliklə də, həyata keçirilən bu mühüm layihələr uşaqların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində Azərbaycanda aparılan siyasətin uğurlu və məntiqli nəticəsidir.*

## «ABAD Factory» İstehsalat Kompleksinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 11-də Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan ABAD (Ailə Biznesinə Asan Dəstək) publik hüquqi şəxsin Qubada «ABAD Factory» İstehsalat Kompleksinin açılışında iştirak etmişlər.*

*Dövlət başçısı və xanımı kompleksin rəmzi açılışını bildirən lenti kəsdilər, burada yaradılan şəraitlə tanış oldular.*

*Prezidentin hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi, şöbə müdiri Fuad Ələsgərov, Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev, həmçinin ABAD publik hüquqi şəxsin direktoru Rüfət Elçiyev bildirdilər ki, «Quba ABAD Factory» İstehsalat Kompleksinin yerləşdiyi bina 1956-cı ildə «Mədəniyyət evi» qismində istifadəyə verilmiş və uzun illər istismar nəticəsində yararsız vəziyyətə düşmüşdü. İkimərtəbəli binada ABAD publik hüquqi şəxs tərəfindən «Paşa Holdinq»in dəstəyi ilə əsaslı şəkildə təmir-bərpa işləri aparılıb və müasir avadanlıq quraşdırılıbdır. Kompleksdə bir dəfəyə 140 kiloqram quru meyvə, istehsal gücü saatda 110 kiloqram olan qənnadı məmulatı və 1200 banka olan kompot, gündəlik 1000 litr süd və 600 kiloqram ət məhsulları istehsal edən 5 sahə fəaliyyət göstərəcək. Kompleksin hər istehsal sahəsində növbəlilik prinsipi əsasında 30 nəfərdən ibarət 2 ABAD-çı ailə çalışacaq. Bununla da 30-dək vətəndaş ABAD publik hüquqi şəxsin əməkdaşı kimi, işlə təmin ediləcək. Bundan əlavə, istehsal prosesində ABAD-çıları xammalla təchiz edəcək yeni ABAD-çıların prosesə qoşulması da nəzərdə tutulur ki, bu da ümumilikdə regionda yaşayan 70–80 ailənin məşğulluq və əlavə gəlir əldə etməsinə şərait yaradacaqdır.*

*«Paşa Holdinq»in dəstəyi ilə ABAD publik hüquqi şəxs tərəfindən həyata keçirilən «ABAD Gastro Village» layihəsi çərçivəsində isə «Quba ABAD Factory»nin önündə «Food truck park»ı yaradılıb. Qeyd edək ki, ölkədə turizm sahəsində müşahidə olunan inkişaf meyillərinin saxlanılması üçün daim yeni və cəlbedici ictimai iaşə xidmətlərinin təklif edilməsi zəruridir. Bu baxımdan təkərli qoşqular vasitəsilə icra edilmiş «ABAD Gastro Village» layihəsinin ölkəmizin müxtəlif bölgələrində, əsasən də şimal rayonlarında səyyar şəkildə fəaliyyət göstərmək imkanına malik olması və tərtibat baxımından cəlbedici görünməsi bu layihənin uğurlu olacağını deməyə əsas verir. «ABAD Gastro Village» kompleksinin səyyar yerdəyişmələr istisna olmaqla, daimi dayanıb-durma nöqtəsi «Quba ABAD Factory»nin önündə təşkil edilmiş «Food truck park»ındadır. Burada dönər, burger, şirniyyat və pizzaların hazırlanması və satışı nəzərdə tutulubdur.*

*«Quba ABAD Factory» və «ABAD Gastro Village» komplekslərində ümumilikdə 90–100 nəfər vətəndaşın məşğulluğu təmin ediləcəkdir.*

*ABAD publik hüquqi şəxs Prezident İlham Əliyevin 2016-cı ildə imzaladığı fərmanla yaradılıb. Əsas məqsədi ölkənin sosial-iqtisadi tərəqqisində vətəndaşların fəal iştirakını, kiçik və orta sahibkarlığın inkişafını, əhalinin məşğulluq səviyyəsinin artırılmasını təmin etmək olan ABAD rəqabətqabliyyətli ailə təsərrüfatlarının formalaşdırılmasına dəstək verir, sosial yönümlü layihələrin həyata keçirilməsində birbaşa iştirak edir. ABAD öz fəaliyyətini regional mərkəzlər vasitəsilə qurur. Masallı, Balakən, Quba rayonlarında artıq belə mərkəzlər fəaliyyətə başlayıb. Dekorativ-tətbiqi xalq sənətkarlığı və kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən ailə bizneslərinə dəstək verən layihə çərçivəsində ABAD-çı ailələrə mürəbbə, cem, ət və süd məhsullarının istehsalı üçün xüsusi konteynerlər verilib. İndiyə qədər dekorativ-tətbiqi sənətlə məşğul olan 100-dən çox və kənd təsərrüfatında çalışan onlarla ailəyə dəstək göstərilibdir.*

*Satışları təşkil etmək məqsədilə ABAD paytaxt Bakının müxtəlif yerlərində, həmçinin Şamaxı rayonunun Dəmirçi kəndində mərkəzlər açıbdır.*

**«Qubaekoaqrar» MMC-nin Kənd Təsərrüfatı Mallarının İstehsalı zavodunun istifadəyə verilməsi mərasimi**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 11-də «Qubaekoaqrar» Məhdud Məsuliyyətli Cəmiyyətinin Kənd Təsərrüfatı Mallarının İstehsalı zavodunun açılışında iştirak etmişlər.*

*Əvvəlcə İqtisadiyyat naziri Şahin Mustafayev dövlət başçısına Quba–Xaçmaz iqtisadi rayonunda İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondunun maliyyə dəstəyi ilə regionda yaradılan və fəaliyyəti genişləndirilən müəssisələr barədə məlumat verdi. Bildirildi ki, bu iqtisadi rayonda ümumi dəyəri 376 milyon manat olan 2624 layihənin maliyyələşdirilməsinə 201 milyon manat güzəştli kredit verilib. Bu çərçivədə yaradılmış müəssisələr xarici ölkələrə məhsul ixracına başlayıb. Belə ki, Xaçmazdakı Fındıq Emalı zavodu ötən il 2 milyon dollar dəyərində fındıq, Logistika Mərkəzi və Meyvə Emalı zavodu 500 min dollar dəyərində quru meyvə, Qusarda Regional Logistika Mərkəzi isə 6,2 milyon dollarlıq meyvə ixrac edib. Keçən il 186,4 min hektar meyvə bağından ümumilikdə 955 min ton meyvə istehsal olunub. Məhsulun 29 faizi əsasən Rusiya, Ukrayna, İtaliya, İsveçrə və Almaniya olmaqla, xarici bazarlara ixrac edilibdir. Ötən il Quba–Xaçmaz iqtisadi rayonu üzrə 263,3 min ton meyvə yığılıb ki, bunun 125,2 min tonu Qubanın payına düşür.*

*Sonra dövlət başçısı zavodu işə saldı.*

*İqtisadiyyat naziri Şahin Mustafayev və müəssisənin rəhbəri Emin Məmmədzadə zavodda görülən işlərlə bağlı dövlət başçısına ətraflı məlumat verdilər.*

*Bildirildi ki, «Qubaekoaqrar» MMC-nin Kənd Təsərrüfatı Mallarının İstehsalı zavodu sutkada 4 ton fındıq və 2 ton quru meyvə istehsalı gücünə malikdir. Müəssisədə meyvələrin qurudulması, fındığın qovrulması və qablaşdırılması, alma çipsi istehsalı xətləri quraşdırılıb. Əhalidən tədarük edilmiş meyvələr ilk növbədə, çeşidlənir, yuyulur, içlikdən təmizlənir, dilimlənir və xüsusi qaydada qablaşdırılaraq, qurudulması üçün sobaya yerləşdirilir. Sobada hər bir meyvə növünün xüsusiyyətləri nəzərə alınaraq, onlar üçün proqramlaşdırılmış xüsusi rejimdə qurutma prosesi həyata keçirilir. Müəssisədə tələbata uyğun olaraq, əsasən alma, armud, gavalı, ərik, üzüm və alça quruları, həmçinin alma çipsi istehsal olunaraq, müxtəlif çəkilərdə paketlənir. Meyvə quruları sənaye üsulu ilə istehsal olunduğu üçün dadına, əmtəə görünüşünə və yüksək səviyyədə qablaşdırılmasına görə fərqlənir.*

*Fındığın emalı xəttində isə məhsul ilkin olaraq qurudulur, qabıqdan təmizlənir, çeşidlənir və sonra sobada xüsusi rejimdə qovrulur. Qovrulmuş fındığın soyudulduqdan sonra müxtəlif çəkilərdə vakuum paketlənməsi həyata keçirilir. İstehsal olunan məhsulların daxili bazarla yanaşı, «made in Azerbaijan» brendi adı altında xarici bazarlara, xüsusilə Rusiya və ərəb ölkələrinə ixracı nəzərdə tutulur.*

*Hazır məhsullarla tanışlıq zamanı dövlət başçısına məlumat verildi ki, zavodun xammala olan tələbatı Quba və ətraf rayonlardan tədarük edilən məhsullar hesabına ödəniləcək. Bu isə kiçik ailə təsərrüfatlarının inkişafına müsbət təsir göstərəcək və regionda yeni meyvə bağlarının salınmasına stimul yaradacaqdır. Yetişdirilən meyvələr emal olunaraq, xarici bazarlara çıxarılacaq ki, bu da regionun ixrac potensialının artırılmasına səbəb olacaqdır.*

*Müəssisənin xammala tələbatının davamlı olaraq ödənilməsinin təmin edilməsi məqsədilə növbəti mərhələdə tutumu 2000 ton olan soyuducu anbar kompleksinin qurulması, mövcud istehsal gücünün 2 dəfə artırılması, cem və mürəbbə istehsa-*

*lının təşkili nəzərdə tutulur. Ümumi dəyəri 3,6 milyon manat olan investisiya layihəsinin maliyyələşdirilməsinə İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən güzəştli kredit ayrılıb və bu layihəyə investisiya təşviqi sənədi verilibdir. İlkin mərhələ üzrə müəssisədə ildə təqribən 2,6 milyon manat dəyərində və ya 1,3 min ton məhsul istehsalı nəzərdə tutulur.*

*Regionlarda belə emal müəssisəsinin yaradılması dünyanın qabaqcıl texnologiya və təcrübələrinin tətbiqinə, kənd təsərrüfatında ixrac yönümlü və rəqabətqabliyyətli məhsul istehsalına, yeni meyvə bağlarının salınmasına, eləcə də ixracın həcminin çoxalmasına və coğrafiyasının genişləndirilməsinə nail olunması ilə yanaşı, məşğulluğun artırılmasına da səbəb olacaqdır. Bu layihənin icrası nəticəsində 38 nəfər daimi işlə təmin edilibdir.*

## Gənclər parkında yaradılmış şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 11-də Quba şəhərində Gənclər parkında yaradılmış şəraitlə tanış olmuşlar.*

*Dövlət başçısına parkda görülən işlər barədə məlumat verildi.*

*Bildirildi ki, parkın inşasına bu ilin fevralında başlanılıb. Ərazisi 0,66 hektar olan bu istirahət məkanı 4 hissədən ibarətdir. Burada yaşlı insanlar üçün hissə, idman zonası, gənclər və uşaqlar üçün guşələr yaradılıb. Bundan başqa, Gənclər parkında 300 kvadratmetr sahəsi olan 2 mərtəbəli restoran da fəaliyyət göstərəcək. Parkda uşaqların vaxtlarını səmərəli keçirmələri üçün attraksionlar qoyulub, geniş yaşıllıq zonaları salınıb, müxtəlif dekorativ ağac və gül kolları əkilib, işıqlandırma sistemi yaradılıbdır. Bir sözlə, bu parkda Quba sakinləri və qonaqların istirahəti üçün hərtərəfli şərait vardır.*

*Qeyd edək ki, ölkəmizdə gənclər siyasətinin formalaşdırılması istiqamətində çoxşaxəli tədbirlər görülür. Ümummilli lider*

*Heydər Əliyevin adı ilə bağlı olan dövlət gənclər siyasəti uğurlu nəticələrlə yadda qalır. «Azərbaycan Gəncliyi 2005–2009-cu illərdə» Dövlət Proqramı bu prosesdə çox mühüm rol oynayıb. «Azərbaycan Gəncliyi 2011–2015-ci illərdə» Dövlət Proqramı da bu tədbirlərin məntiqi davamı kimi çıxış edib. Bu gün ölkəmizdə gənclərin vətənpərvərlik, dövlətçilik prinsiplərinə, həmçinin tarixi və mədəni keçmişimizə, milli-mənəvi dəyərlərə rəğbət ruhunda tərbiyə olunması prioritet istiqamətlərdəndir. Əsas məqsəd təbii ki, onların cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında yaxından iştirakına stimul verməkdir. Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, gənclərin intellektual və yaradıcı potensialının üzə çıxarılması, xüsusilə regionlarda yaşayan gənclərin fəallığının artırılması istiqamətində məqsədyönlü layihə və proqramlar həyata keçirilir. Ölkəmizin bölgələrində müasir tələblərə cavab verən sosial infrastruktur obyektləri tikilir. Qubada salınmış Gənclər parkı da bu məqsədə xidmət edir.*

## LƏNKƏRAN RAYONUNA SƏFƏR

*15 oktyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 15-də Lənkəran rayonuna səfərə gəlmişlər.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Lənkəran şəhərində Heydər Əliyev Xatirə parkında ulu öndərin yeni ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstələri qoydular.*

*Lənkəran Rayon İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov dövlət başçısına və xanımına Heydər Əliyev Xatirə parkında görülən abadlıq işləri barədə məlumat verdi.*

*Bildirildi ki, Xatirə parkında şəhər sakinləri və qonaqların istirahəti üçün hərtərəfli şərait yaradılıbdır.*

# İSTİSU VƏ SAĞLAMLIQ MƏRKƏZİNİN TƏQDİMATI MƏRASİMİNDƏ LƏNKƏRAN RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ VƏ MÜƏSSİSƏNİN KOLLEKTİVİ İLƏ GÖRÜŞ

*15 oktyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 15-də İstisu və Sağlamlıq Mərkəzinin təqdimatı mərasimində iştirak etmişlər.*

*Son illər bölgələrdə müasir mehmanxana və sağlamlıq komplekslərinin istifadəyə verilməsi Azərbaycanın iqtisadi potensialını nümayiş etdirməklə yanaşı, ölkəyə gələn turistlərin sayının artmasına da böyük təkan verir. Lənkəranın Haftoni qəsəbəsində inşası yenicə başa çatmış Lənkəran İstisu və Sağlamlıq Mərkəzi də bu istiqamətdə həyata keçirilən əsaslı addımlardan biridir. Bu kompleksin inşası regionun turizm imkanlarının artırılması baxımından mühüm əhəmiyyət daşıyır. Təxminən 11 hektar sahəsi olan kompleksdə hotel, tibb mərkəzi və müxtəlif termal hamamlar fəaliyyət göstərəcəkdir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva mərkəzdə görülən işlərlə tanış oldular.*

*Layihənin rəhbəri Nəriman Topçubaşov məlumat verdi ki, Lənkəran İstisu Sanatorisi ilk dəfə 1958-ci ildə istifadəyə verilib. 1974-cü ildə ərazidə dördmərtəbəli sanatori binası inşa edilibdir.*

*Bildirildi ki, Lənkəran İstisu və Sağlamlıq Mərkəzinin inşasına 2016-cı ilin noyabrında başlanılıb. Mərkəzin 182 nömrəlik hotel binası ən yüksək standartlar səviyyəsində inşa olunub. Kompleksə daxil olan digər xidmət sahələrinin inşası davam etdirilir. Hotel binasının interyerinin tərtibatında orijinal mebel*

*və aksesuarlardan istifadə olunub. Hotelin doqquzmərtəbəli binasında istər uzunmüddətli müalicəvi istirahət, istərsə də həftə sonlarında asudə vaxt keçirmək üçün hər cür şərait yaradılıbdır.*

*Prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, hoteldə xidmət göstərəcək heyət yüksək hazırlıq kursu keçəcək və onların əksəriyyətini yerli kadrlar təşkil edəcəkdir. Bu əməkdaşlar hotelin istənilən xidmət sahəsində qonaqlara yüksək səviyyəli qulluq göstərilməsi ilə bağlı xüsusi təlim kurslarına cəlb olunacaqlar. Kompleksdə müasir restoranlar fəaliyyət göstərir. Restoranlarda turistlərə Azərbaycan və dünya mətbəxinin nümunələri təqdim olunacaqdır.*

*Dövlət başçısı və xanımı hoteldə nömrələrdə yaradılan şəraitlə tanış oldular.*

*Məlumat verildi ki, müxtəlif kateqoriyalı bu nömrələr ən müasir tələblər səviyyəsindədir və yüksək dizaynı ilə seçilir.*

*Lənkəran İstisu və Sağlamlıq Mərkəzində yerləşən ikimərtəbəli tibb mərkəzi də müasir avadanlıqlarla təchiz edilib. Müasir laboratoriya, rentgen və ultrasəs müayinələri üçün lazımi şəraitin yaradıldığı mərkəzdə elektroterapiya, fizioterapiya, jet masaj, maqnitoterapiya, hidroterapiya, hidrokolonoterapiya, palçıq müalicəsi, mexanoterapiya otaqları vardır. Burada müalicə alanlar masaj və palçıq applikasiya otaqlarından istifadə edə bilərlər. Tibbi mərkəzdə aptek də fəaliyyət göstərəcəkdir.*

*Prezident İlham Əliyev istisu vannaları ilə tanış oldu.*

*Hazırda Lənkəran İstisu və Sağlamlıq Mərkəzində 12 aktiv su mənbəyi, o cümlədən 7 quyu və 5 bulaq mövcuddur. Mənbələr istilik dərəcəsinə əsasən izotermal, termal və hipertermal sular olaraq qruplaşdırılıb. Termal su yatağı üzrə xloridli-natriumlu-kalsiumlu sular üstünlük təşkil edərək, karbon və azot qazlı sular qrupuna daxildir. Bundan əlavə, termal suyun tərkibində sulfat aniomları, kalium və kükürd vardır. Bu tip sular müalicəvi-mineral sular və mineral sular qrupuna aid edilir.*

*Bildirildi ki, Lənkəran İstisu və Sağlamlıq Mərkəzində qan dövranı, sinir, sümük-əzələ sistemləri, birləşdirici toxumanın, tənəffüs orqanlarının, həzm sisteminin xəstəlikləri, maddələr mübadiləsi və qidalanma pozuntuları, dəri və dərialtı toxumanın və sidik-cinsiyyət sistemi xəstəliklərinin müalicəsi nəzərdə tutulub. Mərkəzin fəaliyyətə başlaması əksəriyyəti yerli işçilər olmaqla, təqribən 250 nəfər üçün iş yerinin yaranmasına səbəb olacaqdır.*

*Burada 46 avtomobil-yerlik qapalı, 80 avtomobil-yerlik açıq avtodayanacaq da yaradılıb. Ölkə vətəndaşlarının və xarici qonaqların xidmətinə verilən bu müasir kompleks respublikamızın turizm infrastrukturuna, xüsusilə də müalicəvi turizmin inkişafına mühüm töhfə verəcək. Beləliklə, Lənkəran İstisu və Sağlamlıq Mərkəzi ölkəmizin turizm və müalicəvi turizm sektorunda özünəməxsus yer tutacaq. Bütün bunlar bir daha sübut edir ki, regionların sosial-iqtisadi inkişafı dövlət proqramları çərçivəsində görülən kompleks işlər nəticəsində ölkənin iqtisadi qüdrəti yüksəlib, işgüzar fəallıq artıb, bölgələrdə sahibkarlıq fəaliyyəti daha da genişlənibdir. Prezident İlham Əliyevin tövsiyələrinə uyğun olaraq, son illər ölkəmizin turizm potensialının inkişaf etdirilməsi, müasir turizm infrastrukturunun yaradılması, mövcud turizm potensialının beynəlxalq aləmdə tanıdılması, turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi istiqamətlərində çoxsaylı tədbirlər davam etdirilir və daha da genişləndirilir.*

*Komplekslə tanışlıqdan sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva rayon ictimaiyyətinin nümayəndələri və müəssisənin kollektivi ilə görüşdülər.*

*Dövlət başçısı görüşdə çıxış etdi.*

## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Sizi ürəkdən salamlayıram, Lənkəran rayonunda yenidən olmağımdan çox şadam. Bu mənim Lənkərana Prezident kimi, 10-cu səfərimdir. Hər səfərdə yeni obyektlərin açılışında iştirak edirəm və şadam ki, Lənkəranda yeni gözəl obyektlərin sayı çoxalır. Bu gün Lənkəranda yaradılmış İstisu sanatorisinin fəaliyyəti ilə tanış oldum. Tanışlıq çox gözəl təəssürat bağışladı, çox gözəl istirahət zonasıdır, gözəl hoteldir. Siz bilirsiniz ki, bu yerdə sovet vaxtında sanatori olub. O sanatorinin görüntüləri bu stenddə göstərilir, tamamilə yararsız vəziyyətə düşmüşdü və əlbəttə ki, müasir tələblərə cavab vermirdi. Şadam ki, yeni tikilən hotel, istirahət müalicə mərkəzi dünyanın ən yüksək standartlarına cavab verir. Burada 182 otaqda qonaqlar, yerli sakinlər dincələcək, müalicə alacaq, öz sağlamlıqlarını bərpa edəcəklər. Bu gözəl turizm obyektinin açılışı bir daha onu göstərir ki, ölkəmizin bütün regionları sürətlə inkişaf edir və bölgələrdə dünya səviyyəli çox gözəl obyektlər, o cümlədən turizm obyektləri yaradılır.

Lənkəran rayonunda turizmin inkişafı sürətlə gedir. Keçən il mən burada olarkən dəniz sahilində yerləşən hotelin açılışında iştirak etdim. Mənə indi məlumat verildi ki, o hotel 100 faiz işləyir, yəni otaqların 100 faizi qonaqlar tərəfindən götürülüb, istifadə olunur. Hazırda Bakı–Astara yolunun çəkilişindən sonra Lənkərana gələn turistlərin sayı daha da artır və artacaqdır. Bu gün biz yeni gözəl hotelin açılışını qeyd edirik.

Bildiyiniz kimi, bütövlükdə turizmin inkişafı ölkəmizdə sürətlə gedir. Bu, prioritet məsələdir və son illər ərzində görülmüş tədbirlər nəticəsində ölkəmizə gələn qonaqların sayı kəskin şəkildə artıbdır. Gələn turistlərin sayı 2016-cı ildə 22 faiz, keçən il 20 faiz, bu ilin 9 ayında isə əlavə olaraq 6 faiz artıbdır. 9 ayda xaricdən gələn qonaqlar Azərbaycanda ancaq bank kartları ilə 1 milyard manat səviyyəsində pul xərcləyiblər. Ancaq bank kartları ilə xərclənən bu məbləğ ilin sonuna qədər daha da

artacaq. Əlbəttə, onlar nağd pul da xərcləyirlər və bu, ölkə iqtisadiyyatına böyük dəstəkdir. Beləliklə, son illər ərzində turizmə göstərilən diqqət öz nəticəsini verir.

Turizmin inkişafını şərtləndirən bir çox amillər var və onların hamısı Azərbaycanda mövcuddur. İlk növbədə, nəqliyyat infrastrukturu – indi ölkəmizdə 6 beynəlxalq aeroport fəaliyyət göstərir. Onlardan biri Lənkəran aeroportudur ki, mənim təşəbbüsümlə hələ 10 il bundan əvvəl əsaslı şəkildə təmir olunub, demək olar ki, yenidən qurulubdur. İndi Lənkəran aeroportundan beynəlxalq reyslər təşkil edilir. Mənə məlumat verildi ki, həftədə 3-4 reys fəaliyyət göstərir. Bu həm rayon sakinlərinin, həm cənub zonasında yaşayan vətəndaşların rahatlığını, həm də turistlərin gəlişini təmin edir.

Dəmir yolu nəqliyyatı Azərbaycanda yenilənir, yeni xətlər çəkilir. O cümlədən təbii ki, Şimal–Cənub nəqliyyat dəhlizi bu bölgədən keçəcək. Yəqin eşitmisiniz, mən çıxışlarımın birində demişdim ki, Bakı–Lənkəran dəmir yolunun istiqaməti də dəyişdiriləcək, sahilboyu gedən dəmir yolu xətti köçürüləcək ki, həm daha da rahat olsun, həm sürət artsın, həm də sahil zonasını turizm infrastrukturuna cəlb edək.

Avtomobil yolları çəkilir. Mən keçən ay Bakı–Astara avtomobil yolunun açılışını etdim, gözəl tədbir keçirildi. Bildiyiniz kimi, indi yolun məsafəsi təxminən 40 kilometr qısalıb və bu gün dünya miqyasında ən gözəl yollardan biridir. Mən Bakıdan Astaraya o yolla gəlmişəm, adam zövq alır, gözəl, hamar, mənzərəli bir yoldur, sağ-sol meşələr, dağlar. Beləliklə, Bakıdan Lənkərana, Astaraya gəlmək üçün insanlar daha rahat yoldan istifadə edəcəklər.

Bizim tarixi abidələrimiz turizmi inkişaf etdirən vacib amillərdən biridir. Bizim zəngin tariximiz, mədəniyyətimiz, tarixi abidələrimiz xarici qonaqların marağına səbəb olur. Gözəl mətbəximiz, o cümlədən cənub zonasının xüsusi ləzzətli mətbəxi, hesab edirəm ki, dünya səviyyəsində məşhurdur. Ölkəmizə gələn turistlər xalqımızın qonaqpərvərliyi sayəsində

özlərini evlərindəki kimi hiss edirlər. Ölkəmizin ümumi inkişafı, əlbəttə ki, turistləri cəlb edir. Əgər Azərbaycan inkişafda olan ölkə olmasaydı, əlbəttə, ictimai sabitlik, təhlükəsizlik olmasaydı, turistlər də gəlməzdi. Bu gün dünyada baş verən hadisələr göz qabağındadır, risklər, təhlükələr artır və turistlər daha əmniyyətli yerləri seçirlər, ona görə də təsadüfi deyil ki, məhz Azərbaycana üz tuturlar. Bütün bu amillərin vəhdəti turizmin inkişafını şərtləndirir. Əlbəttə, belə gözəl istirahət mərkəzlərinin, hotellərin tikintisi turistləri daha da cəlb edəcək. Biz gərək indi dünyada çox ciddi təbliğat aparaq və bu təbliğat nəticəsində xaricdə yaşayan insanlar bizi daha da çox tanısınlar.

Ölkəmizdə müalicəvi turizm də inkişaf edir. İstisu və Sağlamlıq Mərkəzinin yaradılması bu istiqamətdə önəmli addımdır. Bu vaxta qədər Naftalan şəhərində bir neçə beşulduzlu hotel istifadəyə verilib. Biz Naftalanın turizm mərkəzi, müalicəvi mərkəz kimi şöhrətini bərpa etdik. Orada oynaq xəstəlikləri, daxili orqanların xəstəlikləri müalicə olunur. Qalaaltı – o da sovet vaxtında İttifaq məkanında məşhur bir turizm mərkəzi idi. İndi biz oranı beynəlxalq mərkəzə çevirdik, orada daha çox böyrək xəstəlikləri müalicə olunur. Naxçıvanda «Duzdağ» müalicəvi mərkəz ağciyər xəstəlikləri üçün çox faydalıdır. Lənkəran İstisu sanatorisinin şəfalı suları da insanların sağlamlığını təmin edəcəkdir.

Yəni müalicəvi turizm istiqamətində işlər gedir, idman turizmi inkişaf etdirilir. Şahdağ artıq dünya səviyyəli bir dağ-xizək mərkəzinə çevrilib. Ondan sonra açılmış Tufandağ yeni xizək mərkəzidir. Beləliklə, turizm Azərbaycanda inkişaf edəcək, turizm sahəsində on minlərlə iş yeri yaradılır. İndi mənə verilən məlumata görə, təkcə bu sanatoridə ən yaxşı mövsümdə 250-yə qədər yeni iş yeri açılacaq və burada yerli vətəndaşlar işlə təmin olunacaqlar. Ölkə iqtisadiyyatına daha da böyük həcmdə vəsait, investisiyalar qoyulacaq və xarici qonaqlar pul xərcləyəcəklər. Ona görə mən çox şadam ki, Lənkəran

rayonunda belə gözəl turizm mərkəzi yaradılıb. Bu, Lənkəranın iqtisadi potensialına növbəti töhfədir.

Bütövlükdə, son illərdə Lənkəran rayonunda çox böyük işlər görülüb. İlk növbədə, biz infrastruktur layihələrinə böyük diqqət göstərmişik. Yadımdadır, ilk dəfə Prezident kimi Lənkərana gələndə burada, demək olar ki, təbii qaz yox idi. Bu gün nəinki Lənkəran şəhərində, hətta Lənkəran rayonunda qazlaşdırılmanın səviyyəsi 95 faizdir. Yəni demək olar ki, biz bu problemi həll etmişik. Elektrik enerjisi ilə həmişə problemlər var idi. 2005-ci ildə Astarada tikilmiş modul tipli elektrik stansiyasının fəaliyyəti nəticəsində bu problem də indi öz həllini tapır. Eyni zamanda, Astarada 80, Lerikdə 16 meqavat gücündə elektrik stansiyalarının tikintisi başa çatıb. Bunlar bütün bölgəyə xidmət göstərən elektrik stansiyalarıdır.

5 il bundan əvvəl Lənkəranın içməli su problemi həll olundu. Yadımdadır, o günü də biz birlikdə qeyd etmişdik. Kənd yollarının 75 faizi yenidən quruldu və bu proses davam etdirilir, gələn il əlavə vəsait ayrılacaq. İnfrastrukturla bağlı bütün məsələlər həll olunur, görülən işlər göz qabağındadır, 40-dan çox məktəb tikilib və ya təmir edilib, müasir Olimpiya İdman Kompleksi tikilibdir. 2003-cü ildə birinci Olimpiya İdman Kompleksi yaradıldı, ancaq əfsuslar olsun ki, o vaxt keyfiyyət o qədər də yaxşı deyildi və o, sıradan çıxdı. Göstəriş verdim ki, Lənkəran şəhərində mütləq ən gözəl Olimpiya İdman Mərkəzi yaradılsın və biz bu gün onun açılışını qeyd edəcəyik. Lənkəran aeroportunu qeyd etdim, Müalicə-Diaqnostika Mərkəzi tikilib, Mərkəzi Şəhər Xəstəxanası əsaslı bərpa edilibdir. Bu gün «Azərxalça» İstehsalat Birliyinin filialının açılışını qeyd edəcəyik. Orada da 100-dən çox insan işlə təmin ediləcək. Yəni biz bu məsələlərə kompleks şəkildə yanaşırıq ki, Lənkəran rayonunun inkişafı daha da sürətlə getsin. Əlbəttə ki, növbəti illərdə görüləcək işlər haqqında da biz indidən düşünürük. Gələn ilin əvvəllərində regionların sosial-iqtisadi inkişafı üzrə dördüncü Dövlət Proqramı qəbul ediləcək. Qalan bütün

məsələlər o proqramda öz əksini tapacaq. Bilirəm ki, binaların dam örtükləri ilə bağlı problemlər var, biz onları həll edəcəyik. Proqramımızda hələ kənd yollarının çəkilişi, məktəblərin tikintisi vardır. Biz bütün bunları həll edəcəyik ki, Lənkəran rayonunda bir dənə də problem qalmasın. Sizi bir daha salamlayıram, təbrik edirəm və yeni uğurlar arzulayıram.

**S a k i n:** Cənab Prezident, biz də Sizi təbrik edirik. Bu gün ilk dəfə Prezident seçilməyinizin 15 ili tamam olur. Siz bu 15 ildə Lənkəranda gördüyünüz işləri sadaladınız, hamısına görə çox sağ olun. Təşəkkür edirəm. Allah Sizi qorusun.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun.

* * *

*Sakinlər göstərdiyi yüksək diqqət və qayğıya görə Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya minnətdarlıqlarını bildirdilər.*

## Olimpiya İdman Kompleksinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 15-də Lənkəran Olimpiya İdman Kompleksinin açılışında iştirak etmişlər.*

*Dövlət başçısı və xanımı Lənkəran Olimpiya İdman Kompleksinin rəmzi açılışını bildirən lenti kəsdilər.*

*Gənclər və İdman naziri Azad Rəhimov kompleksdə yaradılmış şərait barədə dövlət başçısına və xanımına ətraflı məlumat verdi.*

*Bildirildi ki, kompleksin tikintisinə 2013-cü ildə başlanılıb. Prezident İlham Əliyevin sərəncamları ilə Lənkəran Olimpiya İdman Kompleksinin tikintisinin davam etdirilməsinə ümumilikdə 15 milyon manat vəsait ayrılıb. Yüksək keyfiyyətlə aparılan tikinti işləri bu ilin oktyabrında başa çatdırılıbdır.*

*Kompleks müasirliyi ilə diqqəti cəlb edir. Bu, ölkəmizdə idmançıların ixtiyarına verilən sayca 44-cü Olimpiya İdman Kompleksidir. Ümumi ərazisi 6 hektar olan idman qurğusunda bütün zəruri infrastruktur yaradılıbdır.*

*Diqqətə çatdırıldı ki, 788 tamaşaçı-yerlik universal idman salonunda idmanın müxtəlif növləri üzrə yarışlar təşkil etmək mümkündür. Belə komplekslərin yaradılması Azərbaycanın idman ölkəsi kimi nüfuzunu yüksəltməklə yanaşı, regionlarda yaşayan gənclərin idmana həvəsinin artırılması, onların potensialının üzə çıxarılması və ümumilikdə idmanın kütləviliyinin təmin edilməsində mühüm əhəmiyyət daşıyır. Kompleksin əhəmiyyətini artıran cəhətlərdən biri də burada müasir mehmanxananın yaradılmasıdır. 53 yerlik mehmanxananın üçmərtəbəli binasında idmançıların qalması və istirahəti üçün hər cür imkan vardır. Mehmanxanada birnəfərlik, ikinəfərlik, üçnəfərlik, VİP otaqlar və 70 yerlik konfrans zalı mövcuddur.*

*Lənkəran Olimpiya İdman Kompleksinin ağır atletika və trenajor zalında idmançılar üçün hərtərəfli şərait yaradılıb. Məşqçilərin otaqları da məhsuldar fəaliyyət üçün hər cür imkana malikdir. Boks zalında məşqlərin keçirilməsi və yarışların təşkili üçün mükəmməl şərait vardır. İdmançılara hakim nəzarəti də yüksək səviyyədə təşkil olunub. Güləş zalı Beynəlxalq Güləş Federasiyasının standartlarına uyğun tikilib. Bu zalda 90 tamaşaçı yeri vardır. Güləşçilərin məşqlərinin yüksək səviyyədə keçirilməsi üçün ən xırda incəliklər belə, nəzərə alınıbdır.*

*Qeyd edildi ki, Lənkəran Olimpiya İdman Kompleksinə daxil olan restoran və mətbəxdə də xidmətin müasir səviyyədə təşkili üçün hər cür şərait yaradılıbdır.*

*Buradakı üzgüçülük hovuzu ən müasir standartlara cavab verir. Hovuzun uzunluğu 25 metr, eni isə 12 metrdir. Ölkəmizdə yeniyetmə və gənclərin idmanın üzgüçülük növünə də marağı ildən-ilə artır. Bu zalda üzgüçülük yarışlarını 135 nəfər izləyə biləcək. Müasir standartlara cavab verən futbol meydançasında*

*keçiriləcək yarışları tribunalardan 1300-ə qədər tamaşaçı izləyəcək. Burada mini-futbol meydançası da idmançıların ixtiyarına verilib. Basketbol və voleybol meydançaları idmansevərlərə dəyərli töhfədir. Kompleks, həmçinin qaz, su-kanalizasiya, elektrik, rabitə xətləri ilə təchiz olunub. Həyətdə geniş abadlıq-quruculuq işləri görülüb, yaşıllıqlar salınıb, istirahət guşələri yaradılıbdır.*

## «Azərişıq» ASC tərəfindən müasir üslubda yeni inşa edilmiş 110/35/10 kV-luq «Lənkəran-2» yarımstansiyasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Lənkəranda «Azərişıq» ASC tərəfindən müasir üslubda yeni inşa edilmiş 110/35/10 kV-luq «Lənkəran-2» yarımstansiyasının açılışında iştirak etmişdir.*

*1974-cü ildə tikilmiş 110/10 kilovoltluq yarımstansiyanın gərginlik sinfi dəyişdirilərək, 110/35/10 kilovoltluq gərginlik sinfinə keçirilməsi, onun gücünün 32 meqavolt amperdən 50 meqavolt amperə çatdırılması böyük əhəmiyyət daşıyır. Yarımstansiyada 35 kilovoltluq gərginlik sinfi yaradılıb, bununla da Lənkəran, Lerik və Masallı rayonlarının 35 kilovoltluq dairəvi elektrik təchizat sxemi qurulubdur. Bu isə elektrik enerjisinin dayanıqlılığının və etibarlılığının artırılmasına, yüklərin bir mənbədən digər mənbə üzərinə keçirilməsinə, həmçinin çəltikçiliyin, çayçılığın və kənd təsərrüfatının digər sahələrinin inkişafı üçün lazım olan elektrik enerji təchizatına müsbət təsir edir. Yarımstansiyada 110 kilovoltluq açıq paylayıcı, 35 və 10 kilovoltluq qapalı paylayıcı qurğular quraşdırılıb. Yarımstansiya müasir standartlara cavab verən elektron tipli «rele» mühafizəsi və avtomatika sistemləri ilə təchiz edilib və məsafədən idarə olunan SCADA dispetçer sisteminə qoşulubdur. Yenidən qurulmuş «Lənkəran-2» yarımstansiyası Lənkəran şəhəri, 4 kənd və qəsəbə daxil olmaqla, 17500 abonenti elektrik*

*enerjisi ilə təchiz edir. Eyni zamanda, bir sıra strateji obyektlər də bu yarımstansiyadan qidalanır.*

*Qeyd edək ki, Masallıda da yenidən qurulmuş «Türklə» yarımstansiyasının gücü 32 meqavolt amperə çatdırılıb. 110 kilovoltluq «Türklə» və «Lənkəran-1» yarımstansiyaları vasitəsilə Masallı və Lənkəran rayonlararası 35 kilovoltluq dairəvi elektrik təchizat sxemi qurulub ki, bu da Lənkəran rayonunda, o cümlədən Liman şəhərində ikinci qida mənbəyinin yaradılması, bununla da hər iki rayonun elektrik təchizatının dayanıqlılığının artırılması deməkdir. Yarımstansiyada 110 kilovoltluq açıq paylayıcı, 35 və 10 kilovoltluq qapalı paylayıcı qurğular quraşdırılıb, elektron tipli «rele» mühafizəsi və avtomatika sistemləri ilə təchiz edilib və məsafədən idarə olunan SCADA dispetçer sisteminə qoşulubdur. Yeni yarımstansiya 70 min əhalini və 516 obyekti elektrik enerjisi ilə təchiz edir.*

## Hirkan–Daştatük–Biləsər avtomobil yolunun əsaslı təmirdən sonra açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 15-də Hirkan–Daştatük–Biləsər avtomobil yolunun əsaslı təmirdən sonra açılışında iştirak etmişlər.*

*Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya yolun texniki göstəriciləri barədə məlumat verdi.*

*Bildirildi ki, yolun uzunluğu 22 kilometrdir. Hirkan–Daştatük–Biləsər avtomobil yolu uzun müddət təmir olunmadığı və burada yola asfalt qatı vurulmadığı üçün hərəkət hissəsi sıradan çıxmış vəziyyətdə idi. Bu isə xüsusən payız–qış mövsümündə nəqliyyat vasitələrinin hərəkətində problemlər yaradırdı. Rayonun 7 yaşayış məntəqəsini birləşdirən Hirkan–Daştatük–Biləsər avtomobil yolunun tikintisinə Azərbaycan Prezidentinin*

*sərəncamına əsasən dövlət büdcəsinin investisiya xərclərindən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 9,1 milyon manat vəsait ayrılıb. Görülən işlər nəticəsində Hirkan–Daştatük–Biləsər avtomobil yolu 2 hərəkət zolaqlı olmaqla, 4-cü texniki dərəcəyə uyğun şəkildə yenidən qurulubdur.*

*Məlumat verildi ki, yolun hərəkət hissəsinin eni 6, çiyinlər də daxil olmaqla, yol yatağının eni isə 8–10 metr təşkil edir. Yol boyunca müxtəlif diametrli suötürücü borular tikilib, zəruri yerlərdə yol nişanları quraşdırılıb, yol-cizgi və yolgöstərici xətlər çəkilib, avtobus dayanacaqları inşa edilibdir.*

*Avtomobil yolunun tikintisi Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin «7 saylı Yol İstismarı» MMC tərəfindən yüksək keyfiyyətlə aparılıb. Dağlıq ərazidə yerləşən, eləcə də Hirkan Milli Parkı ərazisindən keçən Hirkan–Daştatük–Biləsər avtomobil yolunun tikintisi 7 yaşayış məntəqəsinin rayon mərkəzi ilə nəqliyyat əlaqəsinin yaxşılaşdırılmasında, həmçinin bu bölgədə iqtisadiyyatın və kənd təsərrüfatının inkişafında mühüm əhəmiyyət kəsb edəcəkdir.*

*Prezident İlham Əliyevə Astara rayonunun Oyakəran–Tüləküvan–Təngərud avtomobil yolunun tikintisi barədə də məlumat verildi. Bildirildi ki, 9000 nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən bu yolun uzunluğu 11 kilometrdir.*

*Dövlət başçısının sərəncamı ilə bu yolun tikintisinə 3,4 milyon manat vəsait ayrılıb. Avtomobil yolu 2 hərəkət zolaqlı olmaqla, 4-cü texniki dərəcəyə uyğun yenidən qurulub. Dağlıq ərazidə yerləşən Oyakəran–Tüləküvan–Təngərud avtomobil yolunun tikintisi əhatə etdiyi yaşayış məntəqələrinin rayon mərkəzi ilə nəqliyyat əlaqəsinin yaxşılaşdırılmasında, həmçinin bu bölgədə iqtisadiyyatın, kənd təsərrüfatının, habelə turizmin inkişafında mühüm rol oynayacaq. Yük və sərnişindaşımanı xeyli yaxşılaşdırmağa imkan verən yolun tikinti işləri Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin «49 saylı Yol İstismarı» MMC tərəfindən həyata keçirilibdir.*

*Dövlət başçısı Astara rayonunun Taxtakəran–Miki, Taxtakəran–Toradi kəndlərarası avtomobil yollarının tikintisi ilə də maraqlandı.*

*Məlumat verildi ki, 12 min nəfər əhalinin yaşadığı və 38 yaşayış məntəqəsini birləşdirən kəndlərarası avtomobil yollarının yenidən qurulması məqsədilə ümumilikdə 11,5 milyon manat vəsait ayrılıb. Yolların tikintisi yüksək səviyyədə həyata keçirilib. Həmin yolların ümumi uzunluğu 27,4 kilometrdir. Bu yollar da 2 hərəkət zolaqlı olmaqla, 4-cü texniki dərəcəyə uyğun yenidən qurularaq, sərnişin və yük daşınmasını xeyli yaxşılaşdırmağa imkan verəcəkdir. Bu həmçinin yerli və xarici turistlərin ərazidə yerləşən istirahət mərkəzlərinə rahat getmələrinə və tarixi mədəniyyət abidələri ilə tanış olmalarına şərait yaradacaqdır.*

*Dövlət başçısına və xanımına Astaraçay üzərində tikiləcək körpü və körpüyə qədər olan yolun planı barədə də məlumat verildi.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Hirkan–Daştatük–Biləsər avtomobil yolunun rəmzi açılışını bildirən lenti kəsdilər.*

## «AZƏRXALÇA» ASC-nin LƏNKƏRAN FİLİALININ AÇILIŞI MƏRASİMİ

*15 oktyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 15-də «Azərxalça» Açıq Səhmdar Cəmiyyətinin Lənkəran filialının açılışında iştirak etmişlər.*

*Dövlət başçısı və xanımı müəssisənin rəmzi açılışını bildirən lenti kəsdilər.*

*«Azərxalça» Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Vidadi Muradov Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya ölkəmizdə xalçaçılığın inkişafı və bu müəssisənin fəaliyyəti barədə məlumat verdi.*

*Qədim el sənətlərindən olan xalçaçılığın inkişafı ilə bağlı son illərdə görülən işlər bəhrəsini verir. Bu sahənin inkişafına xüsusi diqqət göstərən Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində artıq bir çox bölgələrdə xalça fabrikləri açılıb. «Azərxalça» ASC-nin ilkin olaraq Horadiz şəhərində, Ağdam, Ağstafa, Xaçmaz, İsmayıllı, Qazax, Qəbələ, Quba, Şəmkir və Tovuz rayonlarında xalça emalatxanalarının tikintisi nəzərdə tutulmuşdu. Artıq Horadiz, Şəmkir, Quba, Xaçmaz və İsmayıllıdakı müəssisələr Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilib. Bu müəssisələri xammalla təmin etmək üçün Sumqayıt Kimya Sənaye Parkında ümumi investisiya həcmi 27 milyon 420 min manat olan Əyirici-Boyaq fabrikinin, Naxçıvan şəhərində, Qobustan, Şabran, Bərdə və Sabirabad rayonlarında regional yun və boyaq bitkilərinin tədarükü məntəqələrinin inşası davam etdirilir. Artıq Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə Naxçıvan şəhərində, Qobustan, Şabran, Sabunçu, Lənkəran, Abşeron, Kürdəmir, Biləsuvar, Goranboy və Tərtər rayonlarında*

*xalça emalatxanalarının tikintisi və təchizatı işlərinə başlanılıb. Bundan başqa, İsmayıllı rayonunda daha bir xalça istehsalı emalatxanası tikilir.*

*Dövlət başçısı Lənkəranda xalça emalatxanasının tikintisi, avadanlıq və dəzgahlarla təchizatı və infrastrukturunun yaradılması üçün 2018-ci ilin dövlət büdcəsindən vəsaitin ayrılması barədə sərəncam imzalayıb. 2019-cu ildə əlavə olaraq 10 şəhər və rayonda belə müəssisələrin tikintisi nəzərdə tutulub. «Azərxalça» ASC-nin artıq istifadəyə tam hazır olan Lənkəran filialı da bu sırada mühüm yerlərdən birini tutur.*

*Bildirildi ki, «Azərxalça» ASC-nin Lənkəran filialının binasının ümumi sahəsi 1249 kvadratmetrdir. Ələt–Astara–İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun 199-cu kilometrliyində yerləşən filialın binasının tikintisinə bu ilin martında başlanılıb. Tikinti işləri yüksək keyfiyyətlə aparılıb. Burada 150 toxucu və 14 inzibati-təsərrüfat işçisinin çalışması nəzərdə tutulub. Bina toxuculuq emalatxanası, inzibati otaq, anbar, yeməkxana, tibb otağı, xalça satışı salonu, konfrans zalı və digər bölmələrdən ibarətdir. Emalatxanada müxtəlif ölçülü 43 dəzgahda Azərbaycan xalçaları toxunulacaq. Əsasən Astara, Lerik, Lənkəran, Masallı və Yardımlı rayonlarının kəndlərində toxunulan orijinal xalça çeşnilərinə üstünlük veriləcək. Bu çeşnilər dünya muzeylərində, şəxsi kolleksiyalarda mühafizə olunan, həmçinin bölgənin müxtəlif kəndlərindən toplanan qədim və orijinal xalçalar əsasında «Azərxalça»nın rəssamları tərəfindən hazırlanıb. Emalatxana zəruri xammal və ləvazimatlarla – müxtəlif rəngli yun iplərlə, həvə, qayçı, bıçaq kimi alətlərlə təmin edilibdir.*

*Qeyd olundu ki, müəssisədə çalışan toxucular Lənkəran şəhərinin və rayonun digər yaşayış məntəqələrinin sakinləridir. Onlar bir neçə ay ərzində «Azərxalça»nın burada təşkil olunmuş tədris-hazırlıq kurslarına cəlb edilib, xalçaçılıq üzrə bacarıq və vərdişlərini təkmilləşdiriblər. Tədris-hazırlıq kursu fəaliyyətə başladıqdan sonra da işini davam etdirəcək. Bu kursun məzunları «Azərxalça» ASC-nin sertifikatını alacaqlar. Xalça*

*satışı salonunda «Azərxalça» ASC-də toxunmuş xalça və xalça məmulatlarının sərgisi və satışı da həyata keçiriləcək.*

*Sonra dövlət başçısı və xanımı müəssisənin kollektivi ilə görüşüb söhbət etdilər.*

**S e v d a  C ə b r a y ı l o v a** *(xalçaçı)*: Cənab Prezident, xoş gəlmisiniz, Sizi görməyimizə çox şadıq! Çoxdandır ki, Sizi gözləyirdik. Bu gözəl hədiyyəyə görə bütün xalçaçı qızlar adından Sizə minnətdarıq.

**İ r a d ə  Ə l i y e v a** *(xalçaçı)*: Çox sağ olun ki, bizim zəhmətimizə belə dəyər vermisiniz, keçmiş xalçalarımızı bizə qaytarmısınız. Çox sağ olun, Sizə çox-çox təşəkkür edirik.

**N a r g i l ə  Q ə n b ə r o v a** *(emalatxananın müdiri)*: Xoş gəlmisiniz! Sizin sərəncamınız və Mehriban xanımın xalçaçılara qayğısı sayəsində bizim üçün belə bir gözəl bina tikildi. Çox sağ olun.

**İ l h a m  Ə l i y e v:** Təbrik edirəm sizi.

**N a r g i l ə  Q ə n b ə r o v a:** Burada 116 toxucu işləyir, 15 şagirdimiz vardır. Demək olar ki, bütün şəraitlə təmin olunmuşuq. Belə gözəl müəssisə xalçaçı xanımların ixtiyarına verilib. Buna görə çox sağ olun. Mən «Azərxalça»nın işçisi olaraq, 40 ilə yaxındır ki, bu sənətdə çalışıram. Amma biz heç vaxt belə şərait, belə gözəl bina görməmişdik. Bizim xəyallarımızı gerçəkləşdirdiniz, ağlımıza gəlməyəni bizim üçün həyata keçirdiniz. Çox sağ olun. Allah Sizi qorusun. Bu gün sevincimizin həddi-hüdudu yoxdur.

**İ l h a m  Ə l i y e v:** Sağ olun, mən sizi ürəkdən təbrik edirəm.

**S e v d a  C ə b r a y ı l o v a:** Cənab Prezident, bu gün Sizin Prezidentliyinizin 15 illik yubileyidir. Təbrik edirik! Mən Sizi sevən bir insan kimi deyirəm bunu, buna haqqım da var. Çünki yaşım buna yol verir. Siz hər ikiniz idmanı da ucaltdınız, musiqiyə də böyük qiymət verirsiniz. Əminəm ki, indi xalçaçılığı da dünya səviyyəsinə ucaldacaqsınız. Hər şey əladır. Ancaq bir təəssüfüm var, yaşım 57-dir, kaş 17 olaydı.

**İ l h a m Ə l i y e v:** 57 nədir ki? Bu il mənim də 57 yaşım olacaqdır.

**S e v d a C ə b r a y ı l o v a:** Allah övladlarınızı, nəvələrinizi saxlasın. Oğlunuz hərbi xidmətdədir, sağ-salamat gəlsin. Bu, bütün ailələrə, övladlarını hərbi xidmətdən yayındıran valideynlərə bir nümunədir. Nəvələrim böyüyür, inşallah, o vaxta qədər yaşasam onları mütləq cəbhəyə, hara lazımdırsa göndərəcəyəm. Allah köməyiniz olsun, Mehriban xanım, muğamı dünyada tanıdırsınız, idmanı inkişaf etdirirsiniz. Muğamı da, idmanı da çox sevirəm.

**İ l h a m Ə l i y e v:** Siz xalçaçılığı yaşadırsınız. Şadam ki, Azərbaycanda belə xalça fabriklərinin tikintisi geniş vüsət alıb. Bu mənim iştirakımla açılan sayca altıncı Xalça fabrikidir. «Azərxalça»nın xətti ilə ölkəmizdə yaxın gələcəkdə 30 fabrik yaradılacaqdır. Hər fabrikdə 100-dən çox işçi çalışır. Mənə verilən məlumata görə, burada 116 işçi vardır. Demək olar ki, onların hamısı qadınlardır. Qadınlar üçün iş yerləri, belə gözəl şərait yaradırıq. Belə gözəl binada işləmək də xoşdur, adama zövq verir. Siz bizim qədim sənətimizi yaşadırsınız, burada şagirdlər də var, təlimlər keçirilir. Bu, deməyə əsas verir ki, xalçaçılıq sənəti Azərbaycanda əbədi yaşayacaqdır.

**X a l ç a ç ı l a r:** Əlbəttə, Sizin sayənizdə, cənab Prezident.

**İ l h a m Ə l i y e v:** Bu sənəti yaşadan sizsiniz. Mən sizi bu gözəl hadisə münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Demək istəyirəm ki, Azərbaycanda xalçaçılığın çox böyük gələcəyi vardır. Biz qədim ənənələrimizi qorumaqla, xalçaçılığı inkişaf etdiririk. Hazırda Sumqayıt şəhərində Əyirici-Boyaq fabriki tikilir. Fabrik tikiləndən sonra özümüzü həm boya ilə, həm də ipliklə təmin edəcəyik. Bölgələrdə yun qəbulu məntəqələri yaradılır ki, keyfiyyətli xammal tədarük edilsin. Yəni xalçaçılıq Azərbaycanda tam yerli xammal əsasında inkişaf edəcək. Bir daha demək istəyirəm ki, ən önəmlisi, hər fabrikdə qadınlar üçün 100-dən çox, bəzilərində 120, 130, 150 iş yeri, gözəl şərait yaradılır ki, siz burada işləyəsiniz, yaxşı pul qazanasınız və bu sənəti əbədi yaşadasınız. Sağ olun.

**S e v d a  C ə b r a y ı l o v a:** Çox sağ olun. Sizə nə qədər minnətdarlıq etsək, yenə də azdır. Hər dəfə buraya gəlməyiniz bizim üçün bayramdır. Gözləyirik, xalça emalatxanamıza tez-tez gəlin. Allah köməyiniz olsun.

**İ l h a m  Ə l i y e v:** Mən keçən il də, bu il də gəlmişəm. 15 il ərzində bu, mənim Prezident kimi, Lənkərana 10-cu səfərimdir. Bundan sonra hələ xeyli açılışlar olacaq, bəlkə bu fabrikin ikincisini də yarada bilərik.

**X a l ç a ç ı l a r:** İnşallah.

**N a r g i l ə  Q ə n b ə r o v a:** Onsuz da müraciət edənlərin sayı çoxdur. Bəlkə də 100-ü keçib.

**S e v d a  C ə b r a y ı l o v a:** Sizinlə birinci dəfədir ünsiyyətdə oluruq, cənab Prezident. Bu, tarixə düşdü. Biz öz nənələrimizin xalçasını toxuyuruq.

**N a r g i l ə  Q ə n b ə r o v a:** Biz həmişə xalça toxumuşuq. Amma Lənkərana aid olan xalçaları, çeşniləri toxumamışıq. Bunu Siz yaratdınız.

**İ l h a m  Ə l i y e v:** Lənkəranın çox qədim xalçaçılıq məktəbi, sənəti vardır. Burada sırf Lənkəran məktəbinin xalçaları toxunur. Mən sizi ürəkdən təbrik edirəm. Sağ olun.

**X a l ç a ç ı l a r:** Sağ olun, var olun.

## Lənkəran Dövlət Aqrar İnkişaf Mərkəzinin istifadəyə verilməsi mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Kənd Təsərrüfatı Nazirliyinin Lənkəran Dövlət Aqrar İnkişaf Mərkəzinin istifadəyə verilməsi mərasimində iştirak etmişdir.*

*Ölkəmizdə əsas kənd təsərrüfatı regionlarından olan Lənkəranda son illərdə bu sahədə görülən işlər əhəmiyyəti ilə seçilir. Bu baxımdan Kənd Təsərrüfatı Nazirliyinin Lənkəran Dövlət Aqrar İnkişaf Mərkəzinin fəaliyyəti böyük maraq doğurur. Burada Kənd Təsərrüfatı Nazirliyi və onun tabeli*

*qurumları tərəfindən bitkiçilik, heyvandarlıq və texniki nəzarət xidmətləri üzrə ümumilikdə 63 növ xidmət göstərilir. Mərkəzdə 58 nəfər çalışır.*

*Qeyd edək ki, Dövlət Aqrar İnkişaf mərkəzlərinin yaradılmasında məqsəd Kənd Təsərrüfatı Nazirliyinin yerli bölmələrinin vahid mərkəzdən idarə olunmasını təşkil etmək, fermerlərlə işin gücləndirilməsi, elektron xidmətlər və innovativ texnologiyadan istifadə ilə bağlı maarifləndirmə işləri aparmaqdır. Mərkəzlərin təşkili aqrar sektorda xidmətlərin göstərilməsində bir sıra üstünlüklər yaradır. Bu üstünlüklərdən «vahid pəncərə» prinsipinin tətbiqini, şəffaflığın artırılmasını, fermerlərlə əlaqələrin qurulması mexanizminin təkmilləşdirilməsini qeyd etmək olar.*

*Mərkəz Lənkəran şəhərində qeydiyyatda olan vətəndaşlara xidmət göstərəcək. Lənkəran Regional Toxum Sertifikatlaşdırma Mərkəzi Lənkəran, Masallı, Lerik, Yardımlı və Astara rayonlarını əhatə etməklə, bu rayonlarda toxum və ting istehsalçılarının əkinlərinin qeydiyyatının təşkili, kənd təsərrüfatı bitkilərinin toxumluq əkinlərinin və tinglərin sort eyniliyinin və təmizliyinin, xəstəlik və zərərvericilərlə yoluxmanın müəyyənləşdirilməsini, habelə onların sertifikatlaşdırılmasının təşkilini, toxum və ting istehsalı ilə məşğul olmaq istəyən fiziki və hüquqi şəxslərin attestasiyası məqsədilə müvafiq rəy verilməsini təşkil edir.*

*Lənkəran Regional Aqrokimya Laboratoriyası torpaq mülkiyyətçiləri və sahibkarlara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədilə yaradılıb, müasir cihaz və avadanlıqlarla təchiz edilibdir.*

## Qida Təhlükəsizliyi İnstitutunun Lənkəran Regional Sınaq Laboratoriyasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Qida Təhlükəsizliyi Agentliyinin Qida Təhlü-*

*kəsizliyi İnstitutunun Lənkəran Regional Sınaq Laboratoriyasının açılışı mərasimində iştirak etmişdir.*

*8 şöbədən ibarət laboratoriyada inzibati və laborator baxış otaqları yaradılıb. Gün ərzində 300 sınaq aparmaq potensialına malik laboratoriyanın kimyəvi və bioloji tullantıların zərərsizləşdirilməsi, insinerator, soyuducu kamera və vivarium kimi yardımçı tikililəri vardır. Burada kimyəvi tullantıların neytrallaşdırma, o cümlədən bioloji tullantıların ozonlaşdırma texnologiyası əsasında zərərsizləşdirilməsi həyata keçirilir.*

*Nümunə qəbulu, toksikologiya, fiziki-kimyəvi müayinələr, mikrobiologiya, virusologiya, parazitologiya, karantin ekspertiza şöbələrində zəruri laborator müayinələrin aparılması üçün müasir avadanlıq quraşdırılıb, hər cür şərait yaradılıbdır.*

## ASTARA RAYONUNA SƏFƏR

*15 oktyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Astara rayonuna səfərə gəlmişdir.*

*Dövlət başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Astara şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Astara Rayon İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayev Prezident İlham Əliyevə abidənin ucaldıldığı Heydər Əliyev parkında yaradılan şərait və son illərdə rayonda həyata keçirilən layihələr barədə məlumat verdi.*

## «ASTARA ŞƏHƏRİNİN İÇMƏLİ SU TƏCHİZATI SİSTEMLƏRİ» LAYİHƏSİNİN İCRASININ BAŞA ÇATMASI MÜNASİBƏTİLƏ KEÇİRİLƏN İCLASDA RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*15 oktyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də «Astara şəhərinin içməli su təchizatı sistemləri» layihəsinin başa çatması münasibətilə keçirilən mərasimdə iştirak etmişdir.*

*«Azərsu» Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov dövlət başçısına «Astara şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin tikintisi» layihəsi haqqında məlumat verdi.*

*Prezident İlham Əliyevin təsdiqlədiyi regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində 2015-ci ildə «Astara şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi»nin icrasına başlanılıb. Layihə 2035-ci ilədək perspektiv inkişaf nəzərə alınmaqla, Astara şəhərində 28,5 min nəfərin içməli su və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Layihə çərçivəsində gələcəkdə rayonda 73 min nəfərin yaşadığı 27 kəndə də içməli suyun verilməsi nəzərdə tutulur. Ümumilikdə bu layihədən 102 min sakin faydalanacaq. Astara, Lənkəran şəhərlərini və ətraf kəndləri içməli su ilə təmin etmək üçün mənbə olaraq Xanbulan su anbarı seçilib. İstehlakçıların keyfiyyətli içməli su ilə təmin edilməsi üçün su anbarının yaxınlığında məhsuldarlığı sutkada 30 min kubmetr və ya saniyədə 347 litr olan müasirtipli qum süzgəcli təmizləyici qurğu tikilib.*

*2013-cü ildən etibarən bu mənbə hesabına Lənkəran şəhəri və 5 kənd, 2017-ci ildən isə magistral kəmər boyunca yerləşən 15 kənd keyfiyyətli və dayanıqlı içməli su ilə təmin olunur.*

*Sutəmizləyici qurğuda suyun təmizlənməsi heç bir kimyəvi reagentlərdən istifadə olunmadan aparılır və onun keyfiyyət göstəriciləri Ümumdünya Səhiyyə Təşkilatının standartlarına tam cavab verir. Burada emal prosesi tam avtomatlaşdırılıb və SCADA sistemi ilə vahid mərkəzdən idarə olunur. Emal prosesindən keçən suyun anbarlara ötürülməsi məqsədilə məhsuldarlığı saatda 750 kubmetr olan nasos stansiyası quraşdırılıb. Suyun optimal idarə olunması və özüaxımlı rejimdə paylanılması məqsədilə dəniz səviyyəsindən 38 metr yüksəklikdə ümumi tutumu 20 min kubmetr olan 3 su anbarı inşa edilib. 10000 kubmetr tutumu olan su anbarı Lənkəran şəhəri və ətraf kəndlər, hər birinin tutumu 5000 kubmetr olan 2 su anbarı isə Astara şəhəri və ətraf kəndlər üçün nəzərdə tutulub. Anbarlara daxil olan və çıxan suyun miqdarı, anbarlarda toplanan su ehtiyatının həcmi, suyun təzyiqi, siyirtmələrin iş rejimi və işçi vəziyyəti, eləcə də suyun bulanıqlıq səviyyəsi və qalıq xlorun miqdarı onlayn rejimdə tənzimlənir. Suyun anbardan Astara şəhərinə nəqli məqsədilə diametri 710 millimetr olan polietilen borularla 29,2 kilometr uzunluğunda magistral su xətti inşa edilib. Gələcəkdə Astara rayonunun 27 kəndinin su təchizatının yaxşılaşdırılması məqsədilə magistral kəmərdən hər bir kəndə çıxışlar verilibdir.*

*Diqqətə çatdırıldı ki, istehlakçılara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədilə layihə çərçivəsində Astara müştəri xidmətləri sahəsi üçün müasirtipli inzibati bina tikilib. Ümumi sahəsi 220 kvadratmetr olan binada işçi otaqları, İT otağı, iclas zalı zəruri avadanlıqlarla təchiz edilib. İnzibati binanın həyətində abadlıq və yaşıllaşdırma işləri aparılıbdır.*

*Dövlət başçısı Astara şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin rəmzi açılışını bildirən düyməni basdı.*

*Bildirildi ki, layihə çərçivəsində Astara şəhərində 109 kilometr içməli su şəbəkəsinin inşası tam başa çatıb və bütün abunəçilərə ev birləşməsi verilərək, 4300 su sayğacı quraşdırılıbdır. Suyun optimal idarə olunması məqsədilə şəbəkə üzərində 327 müxtəlif diametrli siyirtmə, yanğın təhlükəsizliyi məqsədilə 274 yanğın hidrantı quraşdırılıb. Astara şəhərində kanalizasiya şəbəkəsinin yaradılması üçün uzunluğu 70,5 kilometr olan kanalizasiya şəbəkəsi, 8 kilometr tunel tipli kanalizasiya kollektoru, 2 kanalizasiya nasos stansiyası və məhsuldarlığı sutkada 6000 kubmetr olan tullantı sutəmizləyici qurğunun inşası da layihələndirilibdir. Layihənin növbəti mərhələsində kanalizasiya infrastrukturunun yaradılması nəzərdə tutulur.*

*Qeyd edildi ki, layihənin icrasına qədər Astara şəhərində ötən əsrin 80-ci illərində yaradılmış su təchizatı infrastrukturundan istifadə olunurdu. Şəhərə içməli su Astara rayonunun Qapıçıməhəllə kəndində yerləşən drenaj quyularından verilirdi. Şəhərdə mövcud olan 41 kilometr uzunluğunda paylayıcı şəbəkə istismara yararsız vəziyyətə düşmüşdü. «Azərsu» ASC şəhərin 15 min sakininin 30 faizinə xidmət göstərirdi və içməli su fasiləli rejimdə verilirdi. Əhalinin qalan hissəsi isə tələbatını fərdi qaydada ödəyirdi. Ümumilikdə regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarına uyğun olaraq, 50 şəhər və rayon mərkəzində içməli su təchizatı və kanalizasiya layihələri icra olunur. İndiyədək bu şəhərlərin 25-də su və kanalizasiya şəbəkələrinin, 11-də isə su şəbəkəsinin inşası yekunlaşıb. Bu ilin sonuna qədər daha 3 şəhərdə işlərin başa çatdırılması nəzərdə tutulur.*

*Sonra Prezident İlham Əliyev Astara rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Mən sizi salamlayıram. Bu gün Astara şəhərində çox gözəl, əlamətdar bir gündür. Biz Astara şəhərinə rəsmi olaraq içməli

suyun verilməsini qeyd edirik. Mənə verilən məlumata görə, artıq 2 aya yaxındır ki, evlərə təmiz içməli su verilir. Bu çox gözəl hadisədir. Mən də bu gün gəlmişəm ki, bu gözəl hadisəni sizinlə birlikdə rəsmi qaydada qeyd edim.

İçməli su insan sağlamlığı üçün əsas şərtdir. Bunu hər kəs bilir. Astara şəhərində də bu problem öz həllini tapdı. Beləliklə, şəhər sakinlərinə Ümumdünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su verilir. Növbəti mərhələdə artıq bir çox kəndlərə də suyun verilməsi nəzərdə tutulur. Əlbəttə, növbəti illərdə bu məqsədlə əlavə vəsait ayrılacaq ki, bu problem öz həllini tapsın. İçməli su layihələrinin icrası böyük maliyyə vəsaiti, çox böyük investisiyalar tələb edir. Biz bunu edirik ki, insanlar çox təmiz, keyfiyyətli su ilə təmin olunsunlar. Çünki bir daha demək istəyirəm ki, sağlamlıq üçün, normal həyat tərzi üçün içməli su əsas şərtdir.

Bir çox rayonlarımızda içməli su layihələri icra edilir. Artıq açılışlar da olub, növbəti illərdə də açılışlar olacaqdır. Qarşıya məqsəd qoyulub ki, Azərbaycanın bütün şəhərlərində 100 faiz tam standartlara uyğun içməli su layihələri icra edilsin və beləliklə, biz ölkə qarşısında duran əsas infrastruktur məsələlərini həll etmiş oluruq.

Digər layihələrə gəldikdə, Astara rayonunda infrastrukturun yaradılması sürətlə gedir, qazlaşdırılma 83 faizdir, kənd yollarının tikintisi geniş vüsət alıb. Mənə verilən məlumata görə, Astara rayonunun kənd yollarının 92 faizi yenidən qurulub. Bu çox gözəl göstəricidir. Gələn ilin Dövlət İnvestisiya Proqramında yeni, növbəti layihə nəzərdə tutulur. Beləliklə, hesab edirəm ki, bütün kəndlərin yolları çox gözəl səviyyəyə çatdırılacaqdır.

Keçən ay Bakı–Astara avtomobil yolunun açılışı oldu. Bu, ən yüksək səviyyəli, çox rahat, təhlükəsiz yoldur. Bilirsiniz ki, yolun yeni istiqaməti müəyyən edilib, yeni tras çəkilib və yolun uzunluğu 40 kilometr qısalıbdır. Bu yol heç bir şəhərə girmədən düz Astaraya qədər gəlir. Beləliklə, yolboyu yaşayış məntəqələrinin rahatlığı təmin edilir. Əvvəllər bütün yolboyu

yerləşən şəhərlərə yük maşınları girirdi və insanları narahat edirdi. İndi yolboyu şəhərlərimiz – Lənkəran, Masallı, Cəlilabad, Biləsuvar, Salyan bu problemdən azad olunub. Bir qalıb ki, Astara şəhərinin də problemi həll olunsun, biz bunu da edəcəyik. Azərbaycan–İran sərhədinə qədər yeni yol çəkiləcək. Belə olan halda, qonşu ölkəyə yük maşınları və vətəndaşlar Astara şəhərinə girmədən birbaşa sərhədə gedəcəklər. Biz bu layihə üzərində işləyirik, müəyyən işlər görülüb, torpaq ayrılıb, hətta torpağın birinci layları da hamarlanıb. Həm bu il, həm gələn il əlavə vəsait ayrılacaq. Hesab edirəm ki, gələn ilin ortalarına qədər mövcud Bakı–Astara trasından Azərbaycan–İran sərhədinə qədər yeni tras çəkiləcək və heç bir tranzit yük maşını Astara şəhərinə girməyəcək. Biz bunu da edəcəyik ki, Astara sakinləri bu problemlərdən azad olsunlar.

Digər layihələrə gəldikdə, bildiyiniz kimi, 2005-ci ildə Astara şəhərində modul tipli elektrik stansiyası tikilibdir. Bu stansiya həm rayona, həm də bütün bölgəyə xidmət edir. Beləliklə, elektrik enerjisi ilə təchizat məsələləri də həll olunub. Bu gün içməli su layihəsinin açılışını edirik, qazlaşdırılmanı dedim, kənd yolları çəkilir. Yəni Astarada əsas infrastruktur məsələləri, demək olar ki, öz həllini tapmaqdadır.

Sosial infrastruktura gəldikdə, rayonda son illərdə 35 məktəb, Olimpiya İdman Kompleksi tikilib, Mərkəzi Rayon Xəstəxanası əsaslı şəkildə təmir edilib, digər sosial obyektlər yaradılır. Astara rayonunun çox böyük turizm potensialı vardır. Bakı–Astara yolu istifadəyə veriləndən sonra turistlərin sayı da artacaqdır. Xarici turistlər Astaraya üz tuturlar. Burada turizm infrastrukturu, istirahət zonaları, o cümlədən bulvar kompleksi yaradılır. Astara sakinləri üçün bulvar kompleksinin yaradılmasına əlavə vəsait ayrılıbdır ki, bu istirahət zonası daha da böyük ərazini əhatə etsin.

Bilirsiniz ki, keçən il Lənkəranda bu zonanın inkişafına təkan verəcək çayçılıq, çəltikçilik, sitrusçuluq üzrə müşavirə keçirilmişdir. Müşavirədən sonra dövlət proqramları qəbul edilmişdir və bu sahədə də irəliləyiş vardır. Ona görə kənd təsərrü-

fatının ənənəvi sahələrinin inkişafı gündəlikdə duran əsas məsələlərdən biridir. Turizm infrastrukturunun yaradılması öz həllini tapır. Yeni iş yerlərinin yaradılması prosesi də gedir. Çünki kənd təsərrüfatına verilən böyük dəstək məşğulluğu artırır, insanlar daha da yaxşı imkanlar əldə edirlər, öz rifah halını yaxşılaşdırırlar və bu gözəl diyarda işlər daha da yaxşı gedəcəkdir.

Artıq qeyd etdiyim kimi, gələcəkdə Bakı–Astara avtomobil yolunun İran sərhədinə çatdırılması layihəsi icra olunacaq. Burada kommunal evlərdə yaşayan insanlar üçün 48 mənzildən ibarət yeni yaşayış binası tikiləcək. Gələn ilin investisiya proqramında yeni kənd yollarının layihəsi nəzərdə tutulur. Hesab edirəm ki, bu məsələlər həll ediləndən sonra biz əsas infrastruktur layihələrini yerinə yetirmiş oluruq. Gələcəkdə, sadəcə olaraq, bu imkanlardan istifadə edilməlidir ki, rayonun potensialı daha da artsın. Sahibkarlığın, qeyri-neft sektorunun, kənd təsərrüfatının inkişafı, burada yeni emal müəssisələrinin yaradılması nəzərdə tutulur. Ənənəvi kənd təsərrüfatı sahələri daha da sürətlə inkişaf etməlidir. Bu məqsədlə lazımi tədbirlər görülür, dövlət tərəfindən kifayət qədər böyük diqqət göstərilir.

Astara rayonunda və qonşu rayonlarda son illər ərzində görülmüş işlər çox böyük maliyyə vəsaiti tələb edən işlərdir. Həm elektrik, həm qaz, həm də yol təsərrüfatlarının, Lənkəran Beynəlxalq Aeroportunun yaradılması, su layihələrinin icrası, magistral yolların çəkilişi, kənd təsərrüfatına verilən dəstək böyük maliyyə vəsaiti tələb edir. Biz bunu da edirik və etməliyik. Çünki regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı bunu tələb edir. Bu proqramı da biz qəbul etmişik və bu ilin sonunda üçüncü Dövlət Proqramı başa çatır. Demək olar ki, biz proqramı artıqlaması ilə icra etmişik, o cümlədən proqramda Astara rayonuna aid olan bütün məsələlər artıqlaması ilə öz həllini tapıbdır.

Deyə bilərəm ki, sonuncu böyük layihə bu gün rəsmi qaydada istifadəyə verilir. Bu gözəl hadisə münasibətilə sizi bir daha təbrik edirəm.

## Dənizkənarı park-bulvar kompleksinin ikinci hissəsinin tikintisi çərçivəsində yaradılmış şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Astarada dənizkənarı park-bulvar kompleksinin ikinci hissəsinin tikintisi çərçivəsində yaradılmış şəraitlə tanış olmuşdur.*

*Ölkəmizdə yeni-yeni istirahət guşələri, park və xiyabanların yaradılması və onların vətəndaşların ixtiyarına verilməsi həyata keçirilən sosial-iqtisadi layihələrin tərkib hissələrindən biridir. Prezident İlham Əliyevin tapşırığına əsasən son illərdə paytaxt Bakı ilə yanaşı, respublikanın digər şəhər və rayonlarında da yeni park, xiyaban, istirahət guşələrinin yaradılması, mövcudlarının isə əsaslı şəkildə yenidən qurulması istiqamətində mühüm işlər görülüb. Bu məsələyə Astarada da xüsusi diqqətlə yanaşılır.*

*Bu rayonda yeni istirahət məkanlarının yaradılması istiqamətində reallaşdırılan ən mühüm layihələrdən biri də Astara şəhərində dəniz sahilboyu park-bulvar kompleksinin ikinci hissəsidir. Məlumat verildi ki, park-bulvar kompleksində rayon sakinlərinin və qonaqların istirahətinin yüksək səviyyədə təşkili, onların asudə vaxtlarının yaddaqalan və mənalı keçməsi üçün geniş imkanlar yaradılıb. Xəzərin sahilindəki bu kompleks həm də Astara şəhərinin simasının daha da gözəlləşdirilməsi, onun inkişaf tempinin nümayiş olunması baxımından da çox əhəmiyyətlidir. Dövlətimiz tərəfindən vətəndaşların istirahətlərini mənalı təşkil etmək və onların asudə vaxtlarını səmərəli keçirmək üçün bütün zəruri addımlar atılır. Bu istiqamətdə son illərdə çox mühüm işlər görülüb. Bu kompleksdəki şərait də bunu sübut edir. Bu həm də dünyada hökm sürən iqtisadi böhran dövründə ölkəmizdə sosial layihələrin ardıcıl və məqsədyönlü şəkildə həyata keçirildiyini aydın şəkildə nümayiş etdirir.*

*Dövlət başçısı elektromobillə kompleksin ərazisini gəzdi.*

*Astara şəhərində dənizkənarı park-bulvar kompleksi ərazisinin genişləndirilməsi ilə bağlı inşaat işlərinə Prezident İlham Əliyevin 2017-ci il iyunun 8-də imzaladığı sərəncama əsasən başlanılıb. Tikinti işləri 2018-ci ilin avqust ayında başa çatdırılıb. Park-bulvar kompleksinin ikinci hissəsinin ərazisi 10 hektar sahəni əhatə edir. Bu istirahət məkanının 500 metrlik hissəsi Xəzər dənizinin sahili boyunca uzanır. Ərazidə 52 metr hündürlüyündə Dövlət bayrağı ucaldılıb, qala divarı, fəvvarə kompleksi, süni şəlalə quraşdırılıbdır. Bundan başqa, istirahət məkanında 2 hektar sahəsi olan «Zirvə» idman klubuna məxsus Atçılıq mərkəzi, avtokartinq meydançası, açıq fitnes meydançası tikilib, velosiped zolağı salınıb, uşaqlar üçün attraksionlar, oturacaqlar, işıq dirəkləri və suvarma sistemi quraşdırılıbdır. Ərazidə genişmiqyaslı yaşıllıq işləri görülüb, gül, dekorativ kol və ağaclar, həmçinin yerli meşə ağacları əkilibdir.*

*Belə layihələrin icrası Astaranın abadlaşdırılması, gözəlləşdirilməsi və müasirləşdirilməsi istiqamətində görülən işlərin davamlı olduğunu və bu işlərin yüksək keyfiyyətlə və vaxtında yerinə yetirildiyini bir daha sübut edir.*

## QEYDLƏR

**1. Gürcüstan,** G ü r c ü s t a n   R e s p u b l i k a s ı – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min $km^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 5–7.

**2. Mamuka Baxtadze** (d.1982) – Gürcüstanın siyasi və dövlət xadimi. 2018-ci ildən Gürcüstan Respublikasının Baş Naziridir. – 5–7.

**3. İosif Kobzon** (1937–2018) – SSRİ və Rusiya Federasiyasının Xalq artisti, estrada müğənnisi, ictimai xadim, pedaqoq, Rusiya Federasiyası Dövlət Dumasının deputatı olmuşdur.

Azərbaycan Respublikasının «Dostluq» və «Şöhrət» ordenləri ilə təltif edilmişdir. – 8.

**4. Rusiya,** R u s i y a   F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon $km^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 8, 12–23, 206–218.

**5. Şahin Mustafayev,** Ş a h i n   A b d u l l a   o ğ l u (d.1965) – 2008–2013-cü illərdə Azərbaycan Respublikasının İqtisadi İnkişaf naziri, 2013–2016-cı illərdə İqtisadiyyat və Sənaye naziri olmuşdur. 2016-cı ilin yanvarından Azərbaycan Respublikasının İqtisadiyyat naziridir. – 11.

**6. Ramil Usubov,** R a m i l  İ d r i s  o ğ l u (d.1948) – general-polkovnik. 1994–2019-cu illərdə Azərbaycan Respublikasının Daxili İşlər naziri olmuşdur. 2019-cu il iyun ayından Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibidir. Azərbaycan Respublikasının «Azərbaycan Bayrağı» və «Şöhrət» ordenləri ilə təltif edilmişdir. – 11.

**7. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezident Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999–2000 və 2008–2012-ci illərdə Rusiya hökumətinin başçısı, 2012 və 2018-ci ildə yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 12–23, 206–218.

**8. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildən muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq, Dağlıq Qarabağın işğalına başladılar. Dağlıq Qarabağın və ətraf rayonların işğaldan azad edilməsi üçün BMT-nin 822, 853, 874, 884 saylı qətnamələri olmasına baxmayaraq, Ermənistan silahlı qüvvələri hələ də Azərbaycan torpaqlarını işğal altında saxlayırlar. – 13, 19, 20, 28, 29, 72, 106, 112, 113, 172, 173, 175, 245, 287.

**9. SOCAR,** A z ə r b a y c a n  R e s p u b l i k a s ı  D ö v l ə t  N e f t  Ş i r k ə t i (ARDNŞ) – Azərbaycan Respublikası ərazisində neft sərvətlərindən istifadəni vahid siyasət əsasında həyata keçirən, neft sənayesinin idarəetmə strukturunu təkmilləşdirən, yanacaq enerji kompleksinin inkişafını təmin edən şirkət. Respublikanın bütün ərazisində (quru və dənizdə) neft və qaz yataqlarının

axtarışı, kəşfiyyatı və işlənməsi, emalı və nəqli, həmçinin onlardan alınan məhsulların daxili və xarici bazarlarda satışı ilə məşğul olur. 1992-ci ildə «Azərneft» Dövlət Konserninin və «Azərneftkimya» İstehsalat Birliyinin bazasında yaradılmışdır. ARDNŞ Azərbaycan Respublikasının təmsilçisi kimi, dünyanın tanınmış neft şirkətləri ilə «Hasilatın Pay Bölgüsü» Sazişi üzrə 30-a qədər neft müqaviləsi imzalamışdır. – 15.

**10. Türkiyə,** T ü r k i y ə C ü m h u r i y y ə t i – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min $km^2$, əhalisi 80,8 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı Prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 28, 30, 32–34, 100–119, 162, 192.

**11. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlayıb. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş Naziri, 2014-cü ilin sentyabrında və 2018-ci ilin aprelində yenidən Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 31– 34, 100–119, 162.

**12. Özbəkistan,** Ö z b ə k i s t a n R e s p u b l i k a s ı – Orta Asiyanın mərkəzində dövlət. Sahəsi 447,4 min $km^2$, əhalisi 33 milyon nəfərdir. Özbəkistanın tərkibinə Qarakalpak Muxtar Respublikası və 12 vilayət daxildir. Dövlətin başçısı Prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Daşkənd şəhəridir. – 28.

**13. Şavkat Mirziyoyev** (d.1957) – Özbəkistanın siyasi və dövlət xadimi. 2016-cı ildən Özbəkistan Respublikasının Prezidentidir. – 34.

**14. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1,4 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının Sədridir. Paytaxtı Pekin şəhəridir. – 32, 122–123, 204.

**15. LUKoyl** – neft şirkəti. 1993-cü ildə Rusiya Federasiyası Hökumətinin qərarı ilə yaradılmışdır. Nəhəng sənaye-maliyyə kompleksinə malik olan şirkət Rusiya, MDB və dünyanın bir çox ölkələrində neft məhsullarının kəşfiyyatı, hasilatı, emalı və satışı ilə məşğul olur. Şirkət 1993-cü ildən Azərbaycanda fəaliyyət göstərir. – 18.

**16. İran,** İran İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 81 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş Nazir təşkil, Prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 19, 183.

**17. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna 2 sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından Rusiya, ABŞ və Fransa həmsədr ölkələrdir. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh

yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 19.

**18. Qazaxıstan,** Q a z a x ı s t a n R e s p u b l i k a s ı – Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7 milyon $km^2$, əhalisi 18 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Nur-Sultan şəhəridir. – 20, 27–36.

**19. Qırğız Respublikası** – Orta Asiyanın şimal-şərqində dövlət. Sahəsi 200 min $km^2$, əhalisi 6 milyon nəfərdir. İnzibati ərazisi 7 vilayətə, 40 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Bişkek şəhəridir. – 24–36.

**20. Sooronbay Jeenbekov** (d.1958) – Qırğızıstanın siyasi və dövlət xadimi. 2017-ci ildən Qırğız Respublikasının Prezidentidir. – 25–36.

**21. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay ( 1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli Fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də «Azərbaycan vətəndaşlığı haqqında» Qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci

tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 25, 51, 87, 103, 119, 152, 167,168, 200, 225.

**22. Nursultan Nazarbayev,** Nursultan Abiş oğlu (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi, Millət lideri. 1979-cu ildə Qazaxıstan KP MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin Sədri, Nazirlər Sovetinin Sədri, 1989–91-ci illərdə Qazaxıstan KP MK-nın Birinci katibi, 1990-cı ildə eyni zamanda, Ali Sovetin Sədri, 1991-ci ildə Qazaxıstan SSR-in Prezidenti olmuşdur. 1991-ci ilin dekabrından 2019-cu ilin mart ayına qədər Qazaxıstan Respublikasının Prezidenti olmuşdur. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 27–36.

**23. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri və Xankəndidə yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar, 613 nəfərdən artıq azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış və itkin düşmüşdür. – 29, 113, 172.

**24. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü 1 səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 29, 106, 172, 173, 176.

**25. ATƏT –** Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1973-cü ilin iyulunda Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edir. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 29, 72–73, 176.

**26. İslam Əməkdaşlıq Təşkilatı** (İƏT) – 1969–2011-ci illərdə İslam Konfransı Təşkilatı adlanırdı. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Əməkdaşlıq Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəlmişdir. İqamətgahı Ciddədə yerləşir. Azərbaycan 1991-ci ildən İƏT-in üzvüdür. – 29, 243.

**27. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Avropa Şurasının əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. Qərargahı Strasburqda yerləşir. – 29.

**28. Avropa Parlamenti** – Avropa İttifaqının (Aİ) fövqəlmilli institutlarından biri. 1957-ci ildə Avropa iqtisadi in-

teqrasiya təşkilatları çərçivəsində yaradılmışdır. Seçmək və seçilmək hüququndan Aİ vətəndaşları istifadə edir. Deputat mandatlarının ümumi sayı (2007) 785-dir. Plenar iclasları Strasburqda, komissiyaların işi Brüsseldə keçirilir. Avropa Parlamentinin bütün çağırışlarında başlıca mövqe Avropa Xalq Partiyasına və Avropa Sosialist Partiyasına məxsusdur. Avropa Parlamenti məcburi xarakter daşımayan qərar verir, beynəlxalq problemlərin müzakirəsi zamanı öz səlahiyyətlərindən geniş istifadə edir, qəbul olunan qətnamələr məcburi qüvvəyə malik deyildir. Avropa Parlamenti Azərbaycan Respublikasının Milli Məclisi ilə əməkdaşlıq edir. – 29, 176.

**29. Macarıstan,** M a c a r ı s t a n R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 93 min km$^2$, əhalisi 9,8 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı Dövlət Şurasıdır. Paytaxtı Budapeşt şəhəridir. – 28, 34–35.

**30. Bakı–Tbilisi–Qars** – Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. 30 oktyabr 2017-ci ildə istifadəyə verilmişdir. Yolun uzunluğu 826 km-dir. – 31, 32, 56, 105, 112.

**31. TANAP –** Trans – Anadolu qaz boru kəməri. Kəmər 2018-ci ildə istifadəyə verilmişdir. Kəmərin uzunluğu 2000 km-dir. Borudan ildə təxminən 16 milyard m$^3$ qaz ötürüləcək. Qaz Türkiyə – Bolqarıstan və Türkiyə –Yunanıstan sərhədindən Avropa ölkələrinə nəql ediləcək. – 93, 55, 104, 112, 249.

**32. Viktor Orban** (d.1963) – Macarıstanın siyasi xadimi. 1998–2002-ci illərdə Macarıstanın Baş Naziri olmuşdur. 2010-cu ildən yenidən Macarıstan Respublikasının Baş Naziridir. – 34–35.

**33. Makedoniya,** Ş i m a l i M a k e d o n i y a R e s p u b - l i k a s ı – Cənubi Avropada dövlət. Sahəsi 25,3 min km$^2$, əhalisi 2

milyon nəfərdir. Dövlət başçısı Prezident, ali qanunverici orqanı birpalatalı Məclisdir. Paytaxtı Skopye şəhəridir. – 38.

**34. George İvanov** (d.1960) – Makedoniyanın dövlət və siyasi xadimi. 2009 – 12 may 2019-cu illərdə Makedoniya Respublikasının Prezidenti olmuşdur. – 38.

**35. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 378 min $km^2$, əhalisi 127 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 40–41.

**36. Taro Kono** (d.1963) – Yaponiya siyasətçisi. 2017-ci ildən Yaponiyanın Xarici İşlər naziridir. – 40–41.

**37.** «**İtoçu**» **–** Yaponiya şirkəti. 1858-ci ildə yaradılmışdır. Dünyanın 68 ölkəsində şirkətləri və firmaları vardır. 1996-cı ilin avqustundan Bakıda fəaliyyət göstərir. – 40.

**38.** «**İnpeks**» – Yaponiya neft korporasiyası. 1966-cı ildə yaradılmışdır. – 40.

**39.** «**Azəri–Çıraq–Günəşli**» **–** Xəzərin Azərbaycan sektorunda ən iri neft yataqları bloku. Bakıdan təxminən 120 km şərqdə yerləşən bu yataqlar Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) adından *bp* şirkəti tərəfindən işlənilir. – 40.

**40. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Enerji naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara Bəyannaməsi»ni imzalamışlar. Uzunluğu 1695 km olan kəmər 2006-cı ildə istifadəyə verilmişdir. – 40, 104, 112.

**41. Tacikistan,** T a c i k i s t a n R e s p u b l i k a s ı – Orta Asiyanın cənub-şərqində dövlət. Sahəsi 143,1 min $km^2$, əhalisi

9 milyon nəfərdir. İnzibati ərazisi Bədəxşan Muxtar Vilayətinə, 2 vilayətə və 45 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Düşənbə şəhəridir. – 44, 219–224.

**42. Emoməli Rəhmon,** E m o m ə l i  Ş ə r i f  o ğ l u (d.1952) – Tacikistanın siyasi və dövlət xadimi. 1992-ci ildə Tacikistan Ali Sovetinin Sədri olmuşdur. 1994-cü ilin noyabrından Tacikistan Respublikasının Prezidentidir. «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 44, 219–224.

**43. Pakistan,** P a k i s t a n  İ s l a m  R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 804 min km$^2$, əhalisi 207,8 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı İslamabad şəhəridir. – 45.

**44. Arif Alvi** (d.1949) – Pakistanın siyasi və dövlət xadimi. 2018-ci ildən Pakistan İslam Respublikasının Prezidentidir. – 45.

**45. Xorvatiya,** X o r v a t i y a  R e s p u b l i k a s ı – Cənubi Avropada dövlət. Sahəsi 56,6 min km$^2$, əhalisi 4,3 milyon nəfərdir. İnzibati ərazisi 20 vilayətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Zaqreb şəhəridir. – 46–65.

**46. Elmar Məmmədyarov,** E l m a r  M ə h ə r r ə m  o ğ l u (d.1960) – tarix elmləri namizədi, diplomat. 1995–98-ci illərdə Azərbaycan Xarici İşlər Nazirliyində Beynəlxalq Təşkilatlar İdarəsinin başçısı, 1998–2003-cü illərdə ABŞ-da Azərbaycan səfirliyində müşavir, 2003–2004-cü illərdə İtaliyada Azərbaycan Respublikasının səfiri, 2004-cü ildən Azərbaycan Respublikasının Xarici İşlər naziridir. – 50.

**47. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Avropa İttifaqına 28 dövlət daxildir. (Böyük Britaniya hökuməti artıq qurumdan çıxmaq üzrədir).

Avropa İttifaqının yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 53, 56, 63, 176, 244.

**48. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» Proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldə yerləşir. – 54, 56, 63, 64, 161, 245.

**49. «Cənub Qaz Dəhlizi»** – Azərbaycanda hasil olunan enerjidaşıyıcılarını Gürcüstan və Türkiyə ərazisindən Qərb bazarlarına nəql edir. – 55, 59, 60, 249, 287.

**50. Əfqanıstan,** Əfqanıstan İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,8 min km$^2$, əhalisi 31,6 milyon nəfərdir. İnzibati ərazisi 34 vilayətə bölü-

nür. Dövlət başçısı Prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 56, 63, 112, 161, 287.

**51. Roma katolik kilsəsi –** Roma Papasının rəhbərlik etdiyi dünyanın ən böyük xristian kilsəsi. Dünya katolik kilsəsi – 1 Latın mərasim kilsəsindən və 22 Şərqi katolik kilsədən ibarətdir. Bu kilsələrin hamısı Roma Papasına tabedir. Kilsə keşişlərini həvariyinlərin varisləri kimi, Roma Papasını isə müqəddəs Pyotrun varisi kimi tanıyırlar. 1054-cü ildə İstanbul patriarxı və Roma Papasının nümayəndələri arasında ayrılma baş verdi. Bundan sonra birinci kilsə Pravoslav kilsəsi, yaxud Şərqi pravoslav kilsəsi, ikinci isə Katolik kilsəsi adlanır. – 65.

**52. Fransisk** (*əsl adı Jorqe Mario Bergoglio*) (d.1936) – 266-cı Roma Papası, indiki Vatikan hökmdarı. Cənubi amerikalı və Yezuit ordenindən ilk Papa. 2013-cü ildə Roma Papası seçildikdən sonra Fransisk adını qəbul etmişdir. – 65, 235, 236.

**53. Kərim Kərimov,** K ə r i m A b b a s ə l i o ğ l u (1917–2003) – görkəmli hərbi xadim, general-leytenant, mühəndis. 25 il ərzində Kosmik Uçuşlar üzrə Dövlət Komissiyasına başçılıq etmiş K.Kərimovun adı keçmiş SSRİ-də kosmosun öyrənilməsi, bir çox nadir elmi-texniki layihələrin həyata keçirilməsi ilə sıx bağlı olmuşdur. O, Azərbaycan Milli Elmlər Akademiyasının Fəxri üzvü, Sosialist Əməyi Qəhrəmanı, Lenin və SSRİ Dövlət mükafatları laureatı adlarına layiq görülmüş, Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 68.

**54. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti UNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 69, 238.

**55. Süleyman Sani Axundov,** Süleyman Rzaquluoğlu (1875–1939) – dramaturq, jurnalist, uşaq yazıçısı, pedaqoq. S.S.Axundovun «Qorxulu nağıllar» kitabının Azərbaycanın uşaq ədəbiyyatında xüsusi yeri vardır. Azərbaycan Yazıçılar və Şairlər İttifaqının ilk sədri olmuşdur. – 71.

**56. Abdulla Şaiq,** Abdulla Mustafa oğlu Talıbzadə (1881–1959) – Azərbaycan yazıçısı, müəllim və ictimai xadim. Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi. Yaradıcılığında realizm və romantizm meyilləri daha güclüdür. Abdulla Şaiq uşaq ədəbiyyatının görkəmli nümayəndələrindəndir. – 71.

**57. NATO Parlament Assambleyası** (NATO PA) – 1955-ci ildə yaradılmışdır. NATO PA Şimali Atlantika İttifaqının konsultativ parlamentlərarası təşkilatı ilə birgə fəaliyyət göstərir. NATO PA Şimali Atlantika İttifaqının bütün üzv dövlətlərinin qanunverici orqanları, NATO və onun üzv ölkələrinin parlamentləri arasında əməkdaşlıq əlaqələri yaradır.

NATO PA-da NATO-nun 28 üzv dövlətinin 257 nümayəndəsi vardır. Assambleyanın rəhbər orqanı Daimi Komitədir. Onun tərkibinə hər bir nümayəndə heyətinin rəhbəri daxildir.

«Soyuq müharibə»yə son qoyulduqdan sonra Assambleya Mərkəzi və Şərqi Avropa, həmçinin başqa ölkələrlə əlaqə

yaratmağa çalışır. Hazırda Assambleyanın prezidenti Karl A. Lamersdir. Mənzil-qərargahı Brüsseldə yerləşir. – 75–76.

**58. Arif Məlikov,** A r i f C a h a n g i r o ğ l u (1933–2019) – bəstəkar. Azərbaycan Respublikası və SSRİ Xalq artisti. 1961-ci ildə yazdığı «Məhəbbət əfsanəsi» baleti ona xüsusi şöhrət qazandırmışdır. Bu balet dünya ölkələrinin bir çox teatrlarında tamaşaya qoyulmuşdur. Azərbaycan Respublikasının «Şöhrət», «İstiqlal» və «Heydər Əliyev» ordenləri ilə təltif edilmişdir. – 77–78.

**59. Meksika,** M e k s i k a B i r l ə ş m i ş Ş t a t l a r ı – Şimali Amerikanın cənubunda dövlət. Sahəsi 1,97 milyon km$^2$, əhalisi 133,1 milyon nəfərdir. Meksika federasiyadır, inzibati ərazisi 31 ştata və federal mərkəzi əyalətə bölünür. Dövlət və hökumət başçısı Prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir. (Deputatlar Palatası və Senat). Paytaxtı Mexiko şəhəridir. – 79.

**60. Enrike Penya Nyeto** (d.1966) – Meksikanın siyasi xadimi. 2012–2018-ci illərdə Meksika Birləşmiş Ştatlarının Prezidenti olmuşdur. – 79.

**61. Total S.A.** – Fransanın neft şirkəti. 1954-cü ildə təşkil olunmuşdur. Bir çox ölkələrdə neftin kəşfiyyatı, emalı və satışı ilə məşğul olur. – 99.

**62. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi Tədqiqat Göz

Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə UNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə Milli Məclisin üzvü olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 102, 117, 120, 163, 164, 165, 166, 235, 236, 238, 283, 288, 290, 292, 297, 302, 304, 306, 308, 310, 313, 320, 323.

**63. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu,

xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin ses-

siyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın ozamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inte-

qrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən Prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 102, 112, 118, 120,127, 143, 152, 169, 170, 225, 257, 297, 311, 312.

**64. Qafqaz İslam Ordusu** – Azərbaycanın istiqlalı elan olunduqdan (1918,28 may) sonra Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti hərbi yardım üçün rəsmi olaraq Osmanlı dövlətinə müraciət etdi. 1918-ci ildə Batumda iki dövlət arasında bağlanan müqavilənin (Batum müqaviləsi – 1918) şərtlərinə uyğun olaraq, Mürsəl paşanın komandanlığı altında Beşinci Qafqaz firqəsi Azərbaycana göndərildi. Bu firqəyə rəhbərlik Nuru paşaya həvalə edildi. Qafqaz İslam Ordusu, türk və Azərbaycan hərbi qüvvələri Gəncə ermənilərini tərk-silah edib, Qaraməryəm, Kürdəmir, Şamaxı, Binəqədi döyüşlərində bolşevik-daşnak qüvvələrinə ağır zərbələr endirərək, bütün cəbhəboyu onları geri çəkilməyə məcbur etdilər. Bu əməliyyat Azərbaycan dövlətinin paytaxtı Bakının azad edilməsi ilə nəticələndi. Qafqaz İslam Ordusunun ən uğurlu əməliyyatlarından biri Qarabağı erməni-daşnak quldurlarından, Cümhuriyyətin şimalını isə biçeraxovçu rus müdafiəçilərindən azad etməsi idi. Birinci dünya müharibəsində (1914–1918) Osmanlı dövlətinin məğlub olması nəticəsində (Mudros barışığı, 1918) Qafqaz İslam Ordusu ləğv olundu və türk hərbi hissələri geri çağırıldı. – 102, 104, 107, 110, 111, 113, 168.

**65. Zakir Həsənov,** Z a k i r Ə s g ə r o ğ l u (d.1959) – general-leytenant. 2013-cü ildən Azərbaycan Respublikasının Müdafiə naziridir. «Azərbaycan Bayrağı» və «Rəşadət» ordenləri ilə təltif edilmişdir. – 102, 191.

**66. Əhməd Cavad,** C a v a d M ə h ə m m ə d ə l i A x u n d-z a d ə (1892–1937) – görkəmli şair, yazıçı, tərcüməçi, jurnalist. Azərbaycan Respublikasının himninin müəllifi. XX əsrin 20–30-cu illərində Azərbaycan ədəbiyyatında romantizmin və realizmin qabaqcıl nümayəndələrindən biri olmuşdur. Azərbaycanın ən dəyərli milli ziyalı nümayəndələrini məhv edən sovet totalitar rejiminin repressiya qurbanlarındandır. – 102.

**67. Üzeyir Hacıbəyli,** Ü z e y i r Ə b d ü l h ü s e y n o ğ-l u (1885–1948) – dahi Azərbaycan bəstəkarı, musiqişünas-alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim. Müasir Azərbaycan professional musiqi sənətinin və milli operasının banisi, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. – 102.

**68. Müslüm Maqomayev,** M ü s l ü m M ə h ə m m ə d o ğ-l u (1942–2008) – görkəmli Azərbaycan müğənnisi. Azərbaycan Respublikası və SSRİ Xalq artisti. Bəstəkar Müslüm Maqomayevin nəvəsi. Keçmiş SSRİ məkanında və bir çox xarici ölkələrdə müvəffəqiyyətlə çıxış etmişdir. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 103.

**69. Ağdərə** – Azərbaycan ərazisində (Dağlıq Qarabağ Muxtar Vilayəti) inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1993-cü ildə Ağdərə rayonunun mərkəzi və bir çox kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 107, 114.

**70. Füzuli rayonu** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1386 km$^2$, əhalisi 125,4 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 107, 114.

**71. Cəbrayıl** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1050 km$^2$, əhalisi 76,6 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 107, 114.

**72. Bəxtiyar Vahabzadə,** Bəxtiyar Mahmud oğlu (1925–2009) – Azərbaycanın Xalq şairi, dramaturq, ədəbiyyatşünas. Azərbaycan Dövlət mükafatı laureatı, Ali Sovetin deputatı (1990), Azərbaycan Respublikası Milli Məclisin üzvü (1995, 2000). Azərbaycan Milli EA-nın həqiqi üzvü, akademiki olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 109.

**73. Bakı–Tbilisi–Ərzurum** – «Cənubi Qafqaz» qaz kəməri. Rəsmən 2007-ci ildə açılmışdır. Kəmərin uzunluğu 970 km-dir (442 km Azərbaycandan, 248 km Gürcüstandan, 280 km isə Türkiyə ərazisindən keçir). Kəmərə qaz «Şahdəniz»dən ötürülür. – 112.

**74. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət. Sahəsi 5,5 min km$^2$, əhalisi 440 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi vardır. – 114, 170.

**75. Qız qalası** – Bakı şəhərində tarixi-memarlıq abidəsi. Tədqiqatçıların çoxu tərəfindən müdafiə məqsədilə XII əsrdə tikildiyi qəbul olunmuşdur. Qalanın daş kitabəsində kufi xətti ilə Məsud Davud oğlunun («Qübbə Məsud bin Davud») adı həkk edilmişdir. Qız qalası memarlıq formasına görə Şərqdə yeganə abidədir. Abidənin hündürlüyü 32 m, diametri 16–16,5 m-dir. Divarlarının qalınlığı aşağıda 5 m, yuxarıda 4 m olan Qız qalası silindrik əsas hissədən və ona bitişik bütöv çıxıntıdan ibarət orijinal quruluşa malikdir. Silindrik hissə daxildə səkkizmərtəbəlidir. Bu mərtəbələrdə 250-dək adam yerləşə bilər. Abidənin Qız qalası adlanması haqqında xalq arasında müxtəlif əfsanələr mövcuddur. – 117.

**76. Mədət Quliyev,** M ə d ə t Q ə z ə n f ə r o ğ l u (d.1958) – general-polkovnik. Azərbaycan Respublikasının Milli Qəhrəmanı. 2015–2019-cu ilin iyun ayına qədər Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Xidmətinin rəisi olmuşdur. 20 iyun 2019-cu ildən Azərbaycan Respublikasının Müdafiə Sənayesi naziridir. – 120.

**77. «Sinxua» xəbər agentliyi** – Çin Xalq Respublikası Hökumətinin rəsmi xəbər agentliyi. Dünyaya 7 dildə (çin, ingilis, fransız, rus, ispan, ərəb, yapon) yayımlanır. Agentlik 1931-ci ildə yaradılmışdır. – 122–123.

**78. Si Cinpin** (d.1953) – Çinin dövlət və siyasi xadimi, fəaliyyətdə olan Çin Kommunist Partiyasi Mərkəzi Komitəsinin Baş katibi, 2013-cü ildən Çin Xalq Respublikasının, ÇXR Mərkəzi Hərbi Şurasının Sədridir. – 123, 204.

**79. Malta,** M a l t a R e s p u b l i k a s ı – Cənubi Avropada, Malta arxipelaqında dövlət. Sahəsi 316 km$^2$, əhalisi 476 min nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı Nümayəndələr Palatasıdır. Paytaxtı Valletta şəhəridir. – 142.

**80. Mari-Luiz Preka** (d.1958) – Malta siyasətçisi. 2014–4 aprel 2019-cu illərdə Malta Respublikasının Prezidenti olmuşdur. – 142.

**81. Mübariz İbrahimov,** Mübariz Ağakərim oğlu (1988–2010) – Milli Qəhrəman. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin giziri Mübariz İbrahimov Tərtər bölgəsində xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmancasına həlak olmuşdur. – 148.

**82. Avstriya,** Avstriya Respublikası – Mərkəzi Avropada, Dunay hövzəsində dövlət. Sahəsi 83,8 min km$^2$, əhalisi 8,9 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Vyana şəhəridir. – 154–155, 161.

**83. Sebastian Kurts** (d.1986) – Avstriyanın siyasi və dövlət xadimi. 2013–2017-ci illərdə Avstriyanın Xarici İşlər naziri, 2017 – 28 may 2019-cu illərdə Avstriyanın Federal Kansleri olmuşdur. – 154, 155.

**84. Səudiyyə Ərəbistanı,** Səudiyyə Ərəbistanı Krallığı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 2,15 milyon km$^2$, əhalisi 33 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə bölünür.

Səudiyyə Ərəbistanı mütləq teokratik monarxiyadır. Dövlət başçısı kraldır. Ölkədə bütün hakimiyyət krala məxsusdur. İcra orqanı Nazirlər Şurasıdır, Şuranı kral təyin edir və ona başçılıq edir. Hökumətin nəzdində Məşvərət Şurası vardır. Müsəlmanların 2 müqəddəs şəhəri Məkkə və Mədinə Səudiyyə Ərəbistanındadır. Paytaxtı Ər-Riyad şəhəridir. – 157, 158.

**85. Salman ibn Əbdüləziz Al Səud** (d.1935) – 2015-ci ildən Səudiyyə Ərəbistanının Kralıdır. – 157.

**86. Küveyt,** K ü v e y t  D ö v l ə t i – Qərbi Asiyada dövlət. Sahəsi 17,8 min km$^2$, əhalisi 4,6 milyon nəfərdir. Küveyt konstitusiyalı monarxiyadır. Dövlət başçısı əmirdir. Qanunverici orqan və hökumət əmirə və birpalatalı Milli Məclisə tabedir. Paytaxtı əl-Küveyt şəhəridir. – 160.

**87. Əl-Cabir əs-Sabah** (d.1929) – 2006-cı ildən Küveyt əmiri. Hakimiyyətə gəldikdən sonra ölkədə bir sıra demokratik islahatlar keçirmiş, qadınlara dövlət orqanlarında işləməyə icazə verilmiş, onlar seçib-seçilmək hüququ əldə etmişlər. – 160.

**88. Binəli Yıldırım** (d.1955) – Türkiyənin siyasi xadimi, 2015–2016-cı illərdə Nəqliyyat naziri, 2016–2018-ci illərdə isə Baş Nazir olmuşdur. 2018-ci il iyul – 2019-cu il fevral aylarında Türkiyə Böyük Millət Məclisinin Sədri olmuşdur. – 162.

**89. Rövnəq Abdullayev,** R ö v n ə q  İ b r a h i m  o ğ l u (d.1965) – mühəndis, 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin üzvü. 2003–2005-ci illərdə Heydər Əliyev adına Bakı Neft Emalı zavodunun direktoru olmuşdur. 2005-ci ildən Azərbaycan Dövlət Neft Şirkətinin prezidentidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 163–164.

**90. Həsən Ruhani** (d.1948) –İranın siyasi və dövlət xadimi. 2013-cü ildən İran İslam Respublikasının Prezidentidir. – 183.

**91. Türkmənistan,** T ü r k m ə n i s t a n  R e s p u b l i k a s ı – Orta Asiyanın cənub-qərbində dövlət. Sahəsi 491,2 min km$^2$, əhalisi 5,8 milyon nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Aşqabad şəhəridir. – 185.

**92. Qurbanqulu Berdıməhəmmədov** (d.1957) – Türkmənistanın dövlət xadimi. 2007-ci ildən Türkmənistan Respublikasının Prezidentidir. – 185.

**93. Monqolustan** – Mərkəzi Asiyada dövlət. Sahəsi 1564 min km$^2$, əhalisi 3 milyon nəfərdir. İnzibati ərazisi 18 aymaka bölünür. Ulan-Bator, Dərhan və Erdenet şəhərləri xüsusi ərazi bölgüsünə daxildir. Dövlət başçısı Prezident, ali dövlət hakimiyyəti orqanı Böyük Xalq Xuralıdır. Paytaxtı Ulan-Bator şəhəridir. – 186–187.

**94. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 327,6 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı Prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 133, 237, 266, 287.

**95. Fransa,** F r a n s a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 643,8 min km$^2$, əhalisi 67 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan ibarət parlamentdir. İcra hakimiyyəti Prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 196.

**96. İndoneziya,** İ n d o n e z i y a R e s p u b l i k a s ı – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 1,9 milyon km$^2$, əhalisi 266,3 milyon nəfərdir. İnzibati ərazisi 32 əyalətə və əyalət statusu olan 2 xüsusi inzibati əraziyə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı parlament – Xalq Nümayəndələri Şurasıdır. Paytaxtı Cakarta şəhəridir. – 205.

**97. Coko Vidodo** (d.1961) – 2014-cü ildən İndoneziya Respublikasının Prezidentidir. – 205.

**98. M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialı** – Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində olan ali təhsil müəssisəsi. Filial 2009-cu ildən fəaliyyətə başlamışdır. Universitetdə 6 ixtisas üzrə 489 tələbə təhsil alır. Tədris müəssisəsində Moskvadan ezam olunmuş tanınmış alimlərlə yanaşı, Bakı universitetlərinin yüksək hazırlıqlı alimləri də dərs deyirlər. – 211.

**99. İ.M.Seçenev adına Birinci Moskva Tibb Universitetinin Bakı filialı** – 2015-ci ildə yaradılmışdır. – 211.

**100. Müstəqil Dövlətlər Birliyi**(MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları Saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə Azərbaycan, Belarus, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş Nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 219–224.

**101. Sergey Lebedev** (d.1948) – Rusiyanın dövlət xadimi, RF Xarici Kəşfiyyat Xidmətinin direktoru (2000–2007), ordu generalı. 2007-ci ildən MDB-nin icraçı katibidir. – 222.

**102. Valentina Matviyenko** (d.1949) – Rusiyanın dövlət xadimi. 2003–2011-ci illərdə Sankt-Peterburq şəhərinin meri, 2011-ci ildən Rusiya Federasiyası Federal Şurasının və MDB Parlamentlərarası Assambleyası Şurasının Sədridir. – 222.

**103. İkinci dünya müharibəsi** (1939–1945) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanılmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibəyə başladı. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini tutdu. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla da İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 62 ölkə iştirak etmişdi. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağıdılmışdı. – 223.

**104. Almaniya,** Almaniya Federativ Respublikası (AFR) – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 84,4 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı Prezident, hökumət başçısı Federal Kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən –

Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 227, 266.

**105. Frank-Valter Ştaynmayer** (d.1956) – Almaniyanın siyasi və dövlət xadimi. 2017-ci ildən Almaniya Federativ Respublikasının Federal Prezidentidir. – 227.

**106. Arkadi Dvorkoviç** (d.1972) – Rusiyanın dövlət xadimi, iqtisadçı. 2008–2012-ci illərdə Rusiya Federasiyası Prezidentinin köməkçisi, 2012–2018-ci illərdə RF hökumətinin sədr müavini olmuşdur. 2018-ci ildən Beynəlxalq Şahmat Federasiyasının Prezidentidir. – 231.

**107. İspaniya,** İ s p a n i y a K r a l l ı ğ ı – Cənub-Qərbi Avropada dövlət. Sahəsi 506 min km$^2$, əhalisi 47,3 milyon nəfərdir. İnzibati ərazisi 17 muxtar vilayətə daxil olan 50 əyalətə bölünür. İspaniya konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı Korteslərdir (ikipalatalı parlament – Konqres və Senat). Mərakeş sahilindəki Seuta və Melilya anklav şəhərləri İspaniyanın mülküdür. Paytaxtı Madrid şəhəridir. – 241.

**108. VI Felipe** (d.1968) – 2014-cü ildən İspaniya kralıdır. – 241.

**109. Ramin Quluzadə** (d.1977) – iqtisadçı. 2005–2015-ci illərdə Heydər Əliyev Fondunda, 2015–2016-cı illərdə Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar nazirinin birinci müavini işləmişdir. 2017-ci ildən Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziridir. – 257–262.

**110. Donald Tramp** (d.1946) – ABŞ biznesmeni və siyasi xadimi, ABŞ Respublikaçılar Partiyasının üzvü. 2017-ci ildən ABŞ-ın 45-ci Prezidentidir. – 287.

## Şəxsi adlar göstəricisi


**Abdullayev Rövnəq** – 163–164
**Abdulla Şaiq** – 71
**Ağamuradov Purli** – 222
**Axundov Süleyman Sani** – 71
**Axundzadə Yusif** – 115
**Al Səud Məhəmməd** – 158
**Al Səud Salman** – 157
**Alli Paolo** – 75–76
**Alvi Arif** – 45
**Babayev Hacıbala** – 94–95
**Baxşəliyeva Aytən** – 68
**Baxtadze Mamuka** – 5–7
**Battulqa Xaltmaaqiyn** – 186–187
**Berdıməhəmmədov Qurbanqulu**– 185
**Bubakar Keyta İbrahim** – 156
**Cabbarov Mikayıl** – 80–81, 251–257
**Çan Day Kuanq** – 9, 82
**Çiaççi Matteo** – 10
**Dvorkoviç Arkadi** – 231
**Ekert Milan** – 229–230
**Əhməd Cavad** – 102
**Əl-Munziri Yahya** – 159
**Əl-Ğanim Mərzuq** – 160
**Ələkbərov Anar** – 238
**Ələsgərov Fuad** – 306
**Əliəsgərov Hüseynqulu** – 84
**Əliyev Heydər** – 102, 112, 118, 120, 127, 143, 152, 169, 170, 225, 257, 297, 311, 312

**Əliyeva Mehriban** – 102, 117, 120, 163,164, 165, 166, 235, 236, 238, 288, 290, 292, 293, 297, 302, 304, 306, 308, 310, 313, 320, 323
**Əliyev Ziyəddin** – 297
**Ənvər Paşa** – 113
**Ərdoğan Rəcəb Tayyib** – 31, 32, 33–34, 100–119, 162
**Əsədov Oqtay** – 162
**Əs-Sabah əl-Cabir** – 160
**VI Felipe** – 241
**Fişer Hayntz** – 154
**Fransisk** *(Roma Papası)* – 65, 235, 236
**Hacıbəyli Üzeyir** – 102
**Hacıyev Telman** – 110
**Heybətova Kəmalə** – 302–304
**Heydərov Hidayət** – 184
**Həsənov Ayaz** – 115
**Həsənov Ramil** – 35
**Həsənov Zakir** – 102, 191
**Hi Pinq** – 122–123
**Hikki Patrik** – 165
**Hudak Vazil** – 190
**Hüseynov Rafil** – 127
**İbrahimov Mübariz** – 148
**İvanov George** – 38
**Jeenbekov Sooronbay** – 25–36
**Karakaçanov Krasimir** – 188–189
**Kazımov Akif** – 149–151
**Kent Corc** – 287
**Kərimov Kərim** – 68
**Kərimov İnam** – 294
**Kiriniç Anamariya** – 46
**Kobzon İosif** – 8
**Kono Taro** – 40–41

**Korjinek Nina** – 50
**Kurts Sebastian** – 154, 155
**Qaraşov Taleh** – 314
**Qrabar-Kitaroviç Kolinda** – 47–59, 62–65
**Qreminger Tomas** – 72–73
**Quliyev Mahir** – 143
**Quliyev Mədət** – 120
**Quluzadə Ramin** – 257–262
**Qurbanov Fəxrəddin** – 50
**Qurbanov Süleyman** – 137
**Lebedev Sergey** – 222
**Liberman Aviqdor** – 86
**Mehdiyev Ülvi** – 306
**Mahmudbəyov Həbib bəy** – 71
**Mahmudova Arizə** – 95
**Maqomayev Müslüm** – 103
**Matviyenko Valentina** – 222
**Məlikov Arif** – 77–78
**Məmmədov Mahir** – 232
**Məmmədov Saleh** – 124
**Məmmədova Nailə** – 82
**Məmmədyarov Elmar** – 50
**Mirziyoyev Şavkat** – 34
**III Msvati** – 37
**Mun Ce-İn** – 228
**Musayev Yəhya** – 191
**Muradov Vidadi** – 262–267
**Mustafayev Bəkir** – 70
**Mustafayev Şahin** – 11
**Nazarbayev Nursultan** – 27–36
**Nieto Enrike** – 79
**Nquyen Fu Çonq** – 182
**Novakova Marta** – 74
**Nuru Paşa** – 103, 104, 107, 110, 111, 114

**Orban Viktor** – 34–35
**Osmonaliyev Akılbek** – 24
**Pinyera Sebastian** – 89
**Plenkoviç Andrey** – 59
**Preka Mari-Luiz** – 142
**Putin Vladimir** – 12–23, 206–218
**Puyane Patrik** – 99
**Rassel Pol** – 235–236
**Rəhmon Emoməli** – 44, 219–224
**Puhani Həsən** – 183
**Salih Bərham** – 233
**Səncari Məhəmməd** – 159
**Si Cinpin** – 123, 204
**Şnayer Mark** – 237
**Solih İbrahim** – 234
**Stoltenberq Yens** – 161
**Şərif Mahmud** – 159
**Şriver Timoti** – 198–199
**Ştaynmayer Frank-Valter** – 227
**Ştraxe Hayntz-Kristian** – 154–155
**Şvıdkoy Mixail** – 223
**Temer Mişel** – 39
**Tramp Donald** – 287
**Usubov Ramil** – 11
**Vahabzadə Bəxtiyar** – 109
**Vizer Marius** – 163–165, 166
**Vuçkoviç Mariya** – 50
**Vidodo Coko** – 205
**Yandrokoviç Qordan** – 60
**Yıldırım Binəli** – 162
**Zeman Miloş** – 74

## Coğrafi adlar göstəricisi

**Abşeron** *(yarımada)* – 15
**Adriatik dənizi** – 53
**Ağdam** – 263
**Ağdərə** – 107, 114
**Ağcabədi** – 265
**Aktau** – 33
**Almaniya** – 227, 266
**Amerika Birləşmiş Ştatları** – 193, 237, 266, 287
**Asiya** – 18, 31, 56
**Avrasiya** – 5, 105, 287
**Avropa** – 19, 30, 31, 56, 287
**Avstriya** – 154–155, 161
**Belarus** – 192
**Biləsuvar** – 143–153
**Bolqarıstan** – 188–189
**Braziliya** – 39
**Cəbrayıl** – 107, 114
**Cənubi Asiya** – 19
**Cənubi Qafqaz** – 134
**Çex Respublikası** – 74, 229–230
**Çili** – 89
**Çin** – 32, 122–123, 204
**Çolpon-Ata** – 24–36
**Dağlıq Qarabağ** – 13, 19, 20, 28, 29, 72, 106, 112, 113, 172, 173, 175, 245, 287
**Esvatini Krallığı** – 37
**Əfqanıstan** – 56, 63, 112, 161, 287

**Fransa** – 196
**Füzuli** – 107, 114
**Gəncə** – 18, 110, 168
**Goranboy** – 264
**Gürcüstan** – 5–7
**Hacıqabul** – 129
**Xəzər dənizi** – 15, 258
**Xızı** – 288–290
**Xınalıq** – 302
**Xocalı** – 29, 113, 172
**Xorvatiya** – 46–65
**İndoneziya** – 205
**İraq** – 233
**İran** – 19, 183
**İrəvan** – 264
**İsrail** – 86
**İspaniya** – 241
**İtaliya** – 248
**İsmayıllı** – 263
**Koreya Respublikası** – 228
**Kurık** – 32
**Kürdəmir** – 264
**Küveyt** – 160
**Qafqaz** – 32
**Qazaxıstan** – 20, 27–36
**Qərbi Avropa** – 18
**Qırğız Respublikası** – 24–36
**Qobu** – 264
**Qobustan** – 264
**Quba** – 264, 297–311
**Laçın** – 265
**Lənkəran** – 264, 312–325
**Macarıstan** – 28, 34–35
**Makedoniya** – 38

**Maldiv** – 234
**Mali** – 156
**Malta** – 142
**Masallı** – 127–141
**Maştağa** – 82–83, 90–98
**Meksika** – 79
**Mərkəzi Asiya** – 53
**Monqolustan** – 186–187
**Moskva** – 20
**Münhen** – 63
**Naxçıvan Muxtar Respublikası** – 114, 170
**Naxçıvan** – 107, 149, 170
**Nardaran** – 80–81
**Neftçala** – 129
**Özbəkistan** – 28
**Pakistan** – 45
**Rusiya** – 8, 12–23, 206–218
**Sabirabad** – 129
**Sabunçu** – 80–81
**Səudiyyə Ərəbistanı** – 157, 158
**San-Marino** – 10
**Serbiya** – 193
**Sumqayıt** – 18, 134
**Soçi** – 12–23
**Şabran** – 284
**Şanxay** – 33
**Şəmkir** – 263
**Şirvan** – 264
**Tacikistan** – 44, 219–224
**Təbriz** – 264
**Tərtər** – 114
**Tovuz** – 263
**Türkiyə** – 28, 30, 32–34, 100–119, 162, 192

**Türkmənistan** – 32, 185
**Ukrayna** – 193, 194
**Vatikan** – 235, 236
**Vyetnam** – 9, 182
**Yaponiya** – 40–41
**Yaxın Şərq** – 19
**Zabrat** – 84–85
**Zaqreb** – 46–65

# MÜNDƏRİCAT

GÜRCÜSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ MAMUKA BAXTADZE İLƏ GÖRÜŞ

*30 avqust 2018-ci il*........................................................................5

İOSİF KOBZONUN AİLƏSİNƏ

*30 avqust 2018-ci il*........................................................................8

VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÇAN DAY KUANQA

*30 avqust 2018-ci il*........................................................................9

SAN-MARİNO RESPUBLİKASININ KAPİTAN-REGENTLƏRİ ZATİ-ALİLƏRİ CƏNAB STEFANO PALMİERİYƏ VƏ CƏNAB MATTEO ÇİAÇÇİYƏ

*31 avqust 2018-ci il*........................................................................10

BİOMETRİK GÖSTƏRİCİLƏRİ ÖZÜNDƏ ƏKS ETDİRƏN 1 NÖMRƏLİ YENİ NƏSİL ŞƏXSİYYƏT VƏSİQƏSİNİN TƏQDİMETMƏ MƏRASİMİ

*31 avqust 2018-ci il*........................................................................11

RUSİYA FEDERASİYASINA RƏSMİ SƏFƏR

*1 sentyabr 2018-ci il*......................................................................12

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*1 sentyabr 2018-ci il*......................................................................14

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*1 sentyabr 2018-ci il*......................................................................15

RUSİYA FEDERASİYASININ PREZİDENTİ
VLADİMİR PUTİN İLƏ BİRGƏ MƏTBUATA
BƏYANATLARLA ÇIXIŞLAR

*1 sentyabr 2018-ci il*..........................................................................17

QIRĞIZ RESPUBLİKASINA SƏFƏR

*2 sentyabr 2018-ci il*..........................................................................24

QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ
SOORONBAY JEENBEKOV İLƏ GÖRÜŞ

*3 sentyabr 2018-ci il*..........................................................................25

TÜRKDİLLİ DÖVLƏTLƏRİN ƏMƏKDAŞLIQ ŞURASININ VI
ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK

*3 sentyabr 2018-ci il*..........................................................................27

DÖVLƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ ZİYAFƏTDƏ
İŞTİRAK

*3 sentyabr 2018-ci il*..........................................................................36

ESVATİNİ KRALI ƏLAHƏZRƏT III MSVATİYƏ

*3 sentyabr 2018-ci il*..........................................................................37

MAKEDONİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-
ALİLƏRİ CƏNAB GEORGE İVANOVA

*5 sentyabr 2018-ci il*..........................................................................38

BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-
ALİLƏRİ CƏNAB MİŞEL TEMERƏ

*5 sentyabr 2018-ci il*..........................................................................39

YAPONİYANIN XARİCİ İŞLƏR NAZİRİ
TARO KONONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*5 sentyabr 2018-ci il*.......................................................................... *40*
AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

*5 sentyabr 2018-ci il*.......................................................................... *42*

TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB EMOMƏLİ RƏHMONA

*5 sentyabr 2018-ci il*.......................................................................... *44*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-
ALİLƏRİ CƏNAB ARİF ALVİYƏ

*5 sentyabr 2018-ci il*.......................................................................... *45*

XORVATİYA RESPUBLİKASINA RƏSMİ SƏFƏR

*5 sentyabr 2018-ci il* ......................................................................... *46*

ZAQREBDƏ RƏSMİ QARŞILANMA MƏRASİMİ

*6 sentyabr 2018-ci il*.......................................................................... *47*

XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ KOLİNDA
QRABAR-KİTAROVİÇ İLƏ GÖRÜŞ

*6 sentyabr 2018-ci il*.......................................................................... *48*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*6 sentyabr 2018-ci il*.......................................................................... *49*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*6 sentyabr 2018-ci il*.......................................................................... *50*

XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ KOLİNDA QRABAR-KİTAROVİÇ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*6 sentyabr 2018-ci il ............................................................................ 51*

«XORVATİYA QURBANLARININ SƏSİ–AĞRI DİVARI» ABİDƏSİNİ ZİYARƏT

*6 sentyabr 2018-ci il ............................................................................ 58*

XORVATİYA RESPUBLİKASININ BAŞ NAZİRİ ANDREY PLENKOVİÇ İLƏ İŞÇİ NAHARDA İŞTİRAK

*6 sentyabr 2018-ci il ............................................................................ 59*

XORVATİYA RESPUBLİKASI PARLAMENTİNİN SƏDRİ QORDAN YANDROKOVİÇ İLƏ GÖRÜŞ

*6 sentyabr 2018-ci il ............................................................................ 60*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ VERİLMİŞ ZİYAFƏTDƏ İŞTİRAK

*7 sentyabr 2018-ci il ............................................................................ 62*

NİZAMİ RAYONUNDA 227 SAYLI TAM ORTA MƏKTƏBDƏ ƏSASLI TƏMİRDƏN SONRA YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*12 sentyabr 2018-ci il .......................................................................... 66*

NƏSİMİ RAYONUNDA 8 SAYLI TAM ORTA MƏKTƏBDƏ ƏSASLI TƏMİRDƏN SONRA YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*12 sentyabr 2018-ci il .......................................................................... 68*

SƏBAİL RAYONUNDA 2 NÖMRƏLİ TEXNİKİ-HUMANİTAR LİSEYDƏ ƏSASLI TƏMİRDƏN SONRA YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*12 sentyabr 2018-ci il*...........................................................................*70*

ATƏT-in BAŞ KATİBİ TOMAS QREMİNGER
İLƏ GÖRÜŞ

*12 sentyabr 2018-ci il*...........................................................................*72*

ÇEX RESPUBLİKASININ SƏNAYE VƏ TİCARƏT NAZİRİ
MARTA NOVAKOVANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*12 sentyabr 2018-ci il*...........................................................................*74*

NATO PARLAMENT ASSAMBLEYASININ SƏDRİ PAOLO
ALLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ
GÖRÜŞ

*12 sentyabr 2018-ci il*...........................................................................*75*

XALQ ARTİSTİ ARİF MƏLİKOVA

*13 sentyabr 2018-ci il*...........................................................................*77*

MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-
ALİLƏRİ CƏNAB ENRİKE PENYA NİETOYA

*13 sentyabr 2018-ci il*...........................................................................*79*

NARDARAN QƏSƏBƏSİNDƏ 295 SAYLI TAM ORTA
MƏKTƏBDƏ ƏSASLI TƏMİRDƏN SONRA YARADILMIŞ
ŞƏRAİTLƏ TANIŞLIQ

*13 sentyabr 2018-ci il*...........................................................................*80*

MAŞTAĞA QƏSƏBƏSİNDƏ 187 SAYLI TAM ORTA
MƏKTƏBDƏ ƏSASLI TƏMİRDƏN SONRA YARADILMIŞ
ŞƏRAİTLƏ TANIŞLIQ

*13 sentyabr 2018-ci il*...........................................................................*82*

ZABRAT QƏSƏBƏSİNDƏ 192 SAYLI TAM ORTA
MƏKTƏBDƏ ƏSASLI TƏMİRDƏN SONRA YARADILMIŞ
ŞƏRAİTLƏ TANIŞLIQ

*13 sentyabr 2018-ci il*.............................................................................*84*

İSRAİL DÖVLƏTİNİN MÜDAFİƏ NAZİRİ
AVİQDOR LİBERMANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*13 sentyabr 2018-ci il*.............................................................................*86*
«AZƏRBAYCAN» QƏZETİNİN KOLLEKTİVİNƏ

*14 sentyabr 2018-ci il*.............................................................................*87*

ÇİLİ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB SEBASTİAN PİNYERAYA

*14 sentyabr 2018-ci il*.............................................................................*89*

MAŞTAĞA QƏSƏBƏSİ SAVALAN YAŞAYIŞ MASSİVİNDƏ
28 SAYLI TAM ORTA MƏKTƏBİN AÇILIŞI MƏRASİMİ

*14 sentyabr 2018-ci il*.............................................................................*90*

TOTAL S.A. ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU
PATRİK PUYANE İLƏ GÖRÜŞ

*14 sentyabr 2018-ci il*.............................................................................*99*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
RƏCƏB TAYYİB ƏRDOĞANIN RƏSMİ QAR-
ŞILANMA MƏRASİMİ

*15 sentyabr 2018-ci il*...........................................................................*100*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ TƏKBƏTƏK
GÖRÜŞ

*15 sentyabr 2018-ci il*...........................................................................*101*

BAKI ŞƏHƏRİNİN AZAD EDİLMƏSİNİN 100 İLLİYİNƏ
HƏSR OLUNMUŞ PARADDA İŞTİRAK

*15 sentyabr 2018-ci il*...........................................................................*102*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ BİRGƏ PARAD
İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*15 sentyabr 2018-ci il............................................................................117*

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI
ZİYARƏT

*15 sentyabr 2018-ci il............................................................................118*

ŞƏHİDLƏRİN XATİRƏSİNƏ EHTİRAM

*15 sentyabr 2018-ci il............................................................................119*

DÖVLƏT TƏHLÜKƏSİZLİYİ XİDMƏTİNİN GƏNC
ƏSGƏRLƏRİNİN ANDİÇMƏ MƏRASİMİNDƏ İŞTİRAK

*16 sentyabr 2018-ci il............................................................................120*

ÇİN XALQ RESPUBLİKASININ SİNXUA XƏBƏR
AGENTLİYİNİN BAŞ REDAKTORU Hİ PİNQİN
RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ
İLƏ GÖRÜŞ

*17 sentyabr 2018-ci il............................................................................122*

ƏLƏT–ASTARA–İRAN İSLAM RESPUBLİKASI
İLƏ DÖVLƏT SƏRHƏDİ AVTOMOBİL YOLUNUN AÇILIŞI
MƏRASİMİ

*18 sentyabr 2018-ci il............................................................................124*

MASALLI RAYONUNA SƏFƏR

*18 sentyabr 2018-ci il............................................................................127*

MASALLI SƏNAYE MƏHƏLLƏSİNİN AÇILIŞI MƏRA-
SİMİNDƏ YERLİ SAHİBKARLARLA GÖRÜŞ

*18 sentyabr 2018-ci il............................................................................128*

MALTA RESPUBLİKASININ PREZİDENTİ XANIM MARİ-
LUİZ KOLEYRO PREKAYA

*18 sentyabr 2018-ci il..........................................................................142*

BİLƏSUVAR RAYONUNA SƏFƏR

*18 sentyabr 2018-ci il..........................................................................143*
ZƏHMƏTABAD–BƏYDİLLİ–XIRMANDALI–ƏLİABAD
AVTOMOBİL YOLUNUN AÇILIŞINDA BİLƏSUVAR
RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ
İLƏ GÖRÜŞ

*18 sentyabr 2018-ci il..........................................................................144*

AVSTRİYA RESPUBLİKASININ VİTSE-KANSLERİ
HAYNTZ-KRİSTİAN ŞTRAXENİN RƏHBƏRLİK
ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*19 sentyabr 2018-ci il..........................................................................154*

MALİ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB İBRAHİM BUBAKAR KEYTAYA

*19 sentyabr 2018-ci il..........................................................................156*

İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ, SƏUDİYYƏ
ƏRƏBİSTANI KRALI ƏLAHƏZRƏT SALMAN BİN
ƏBDÜLƏZİZ AL SƏUDA

*20 sentyabr 2018-ci il..........................................................................157*

SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ VƏLİƏHDİ, BAŞ
NAZİRİN MÜAVİNİ, MÜDAFİƏ NAZİRİ
ƏLAHƏZRƏT MƏHƏMMƏD BİN SALMAN
BİN ƏBDÜLƏZİZ AL SƏUDA

*20 sentyabr 2018-ci il..........................................................................158*

BİR SIRA ÖLKƏLƏRİN PARLAMENT RƏHBƏRLƏRİ İLƏ
GÖRÜŞ

*20 sentyabr 2018-ci il..........................................................................159*

NATO BAŞ KATİBİNİN MÜAVİNİ ROUZ GOTTEMÜLLERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*20 sentyabr 2018-ci il*..........................................................................*161*

TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ BİNƏLİ YILDIRIM İLƏ GÖRÜŞ

*21 sentyabr 2018-ci il*..........................................................................*162*

CÜDO ÜZRƏ DÜNYA ÇEMPİONATININ AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*21 sentyabr 2018-ci il*..........................................................................*163*

BEYNƏLXALQ CÜDO FEDERASİYASININ PREZİDENTİ MARİUS VİZER İLƏ GÖRÜŞ

*21 sentyabr 2018-ci il*..........................................................................*166*

AZƏRBAYCAN PARLAMENTİNİN 100 İLLİYİ MÜNASİBƏTİLƏ KEÇİRİLƏN MƏRASİMDƏ İŞTİRAK

*21 sentyabr 2018-ci il* .........................................................................*167*

III AZƏRBAYCAN BEYNƏLXALQ MÜDAFİƏ SƏRGİSİNİN İŞTİRAKÇILARINA

*22 sentyabr 2018-ci il*..........................................................................*181*

VYETNAM KOMMUNİST PARTİYASININ BAŞ KATİBİ ZATİ-ALİLƏRİ CƏNAB NQUYEN FU ÇONQA

*22 sentyabr 2018-ci il*..........................................................................*182*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏSƏN RUHANİYƏ

*22 sentyabr 2018-ci il*..........................................................................*183*

AZƏRBAYCAN CÜDOÇUSU HİDAYƏT HEYDƏROVUN BÜRÜNC MEDAL UĞRUNDA YARIŞINA BAXIŞ

*22 sentyabr 2018-ci il* .........................................................................*184*

TÜRKMƏNİSTAN RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB
QURBANQULU BERDIMƏHƏMMƏDOVA

*24 sentyabr 2018-ci il ........................................................................185*

MONQOLUSTAN PREZİDENTİ
XALTMAAQİYN BATTULQA İLƏ GÖRÜŞ

*24 sentyabr 2018-ci il ........................................................................186*

BOLQARISTAN RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ
KRASİMİR KARAKAÇANOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*25 sentyabr 2018-ci il ........................................................................ 188*

AVROPA İNVESTİSİYA BANKININ VİTSE-PREZİDENTİ VAZİL
HUDAKIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*25 sentyabr 2018-ci il ........................................................................ 190*

«ADEX–2018» III AZƏRBAYCAN BEYNƏLXALQ MÜDAFİƏ
SƏRGİSİ İLƏ TANIŞLIQ

*25 sentyabr 2018-ci il ........................................................................ 191*

XÜSUSİ OLİMPİYA KOMİTƏSİNİN SƏDRİ
TİMOTİ ŞRİVERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ
GÖRÜŞ

*25 sentyabr 2018-ci il ........................................................................ 198*

«AZƏRSPACE-2» PEYKİNİN ORBİTƏ BURAXILMASI
MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

*26 sentyabr 2018-ci il ........................................................................ 200*

CÜDO ÜZRƏ DÜNYA ÇEMPİONATINDA
İDMANÇILARIMIZIN FİNAL YARIŞINA BAXIŞ

*26 sentyabr 2018-ci il ........................................................................ 203*

ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB Sİ
CİNPİNƏ

*27 sentyabr 2018-ci il ........................................................................ 204*

İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB COKO VİDODOYA

*27 sentyabr 2018-ci il* ........................................................................................ *205*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ
VLADİMİR PUTİN İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*27 sentyabr 2018-ci il* ........................................................................................ *206*

IX AZƏRBAYCAN–RUSİYA REGİONLARARASI FORUMUN
RƏSMİ AÇILIŞI MƏRASİMİ

*27 sentyabr 2018-ci il* ........................................................................................ *208*

RUSİYA VƏ MONQOLUSTAN PREZİDENTLƏRİ İLƏ BİRGƏ CÜDO
ÜZRƏ DÜNYA ÇEMPİONATININ KOMANDA YARIŞLARINA
BAXIŞ

*27 sentyabr 2018-ci il* ........................................................................................ *216*

TACİKİSTAN RESPUBLİKASINA SƏFƏR

*27 sentyabr 2018-ci il* ........................................................................................ *219*

MDB DÖVLƏT BAŞÇILARI ŞURASININ MƏHDUD TƏRKİBDƏ
GÖRÜŞÜNDƏ İŞTİRAK

*28 sentyabr 2018-ci il* ........................................................................................ *220*

MDB DÖVLƏT BAŞÇILARI ŞURASININ GENİŞ TƏRKİBDƏ
İCLASINDA İŞTİRAK

*28 sentyabr 2018-ci il* ........................................................................................ *222*

MDB DÖVLƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ TƏŞKİL OLUNMUŞ
RƏSMİ QƏBULDA İŞTİRAK

*28 sentyabr 2018-ci il* ........................................................................................ *224*

AZƏRBAYCAN RESPUBLİKASI PROKURORLUQ ORQANLARININ
ƏMƏKDAŞLARI
VƏ VETERANLARINA

*1 oktyabr 2018-ci il*............................................................................................ *225*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB
FRANK-VALTER ŞTAYNMAYERƏ

*1 oktyabr 2018-ci il* ........................................................................................ *227*

KOREYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB MUN CE-İNƏ

*1 oktyabr 2018-ci il* ........................................................................................ *228*

ÇEX RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN
OLUNMUŞ SƏFİRİ MİLAN EKERT İLƏ GÖRÜŞ
*3 oktyabr 2018-ci il* ........................................................................................ *229*

BEYNƏLXALQ ŞAHMAT FEDERASİYASININ PREZİDENTİ
CƏNAB ARKADİ DVORKOVİÇƏ

*4 oktyabr 2018-ci il* ........................................................................................ *231*

BEYNƏLXALQ ŞAHMAT FEDERASİYASININ VİTSE-PREZİDENTİ CƏNAB MAHİR MƏMMƏDOVA

*4 oktyabr 2018-ci il* ........................................................................................ *232*

İRAQ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB BƏRHAM SALİHƏ

*4 oktyabr 2018-ci il* ........................................................................................ *233*

MALDİV RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İBRAHİM MƏHƏMMƏD SOLİHƏ

*4 oktyabr 2018-ci il* ........................................................................................ *234*

MÜQƏDDƏS TAXT-TACIN AZƏRBAYCANDAKI APOSTOL
NUNSİSİ ARXİYEPİSKOP POL FİTZPATRİK RASSEL İLƏ GÖRÜŞ

*4 oktyabr 2018-ci il* ........................................................................................ *235*

ABŞ ETNİK ANLAŞMA FONDUNUN PREZİDENTİ MARK ŞNAYER
İLƏ GÖRÜŞ

*8 oktyabr 2018-ci il* ........................................................................................ *237*

MİLLİ PARKIN ƏRAZİSİNDƏ YENİDƏN QURULMUŞ «MİLAN EKSPO–2015» SƏRGİSİNDƏ AZƏRBAYCAN PAVİLYONU İLƏ TANIŞLIQ

*8 oktyabr 2018-ci il* ........................................................................................ *238*

İSPANİYA KRALI ƏLAHƏZRƏT VI FELİPEYƏ

*9 oktyabr 2018-ci il* ........................................................................................ *241*

NAZİRLƏR KABİNETİNİN 2018-ci İLİN DOQQUZ AYININ SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASINDA İŞTİRAK

*9 oktyabr 2018-ci il* ........................................................................................ *242*

YEKUN NİTQİ

*9 oktyabr 2018-ci il* ........................................................................................ *267*

ABŞ DÖVLƏT KATİBİNİN KÖMƏKÇİSİ CORC KENT İLƏ GÖRÜŞ

*9 oktyabr 2018-ci il* ........................................................................................ *287*

XIZI RAYONUNDA «YENİ YAŞMA» KÜLƏK ELEKTRİK PARKININ AÇILIŞI MƏRASİMİ

*11 oktyabr 2018-ci il* ...................................................................................... *288*

QUBADA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*11 oktyabr 2018-ci il* ...................................................................................... *297*

LƏNKƏRAN RAYONUNA SƏFƏR

*15 oktyabr 2018-ci il* ........................................................................ *312*

İSTİSU VƏ SAĞLAMLIQ MƏRKƏZİNİN TƏQDİMATI MƏRASİMİNDƏ LƏNKƏRAN RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ VƏ MÜƏSSİSƏNİN KOLLEKTİVİ İLƏ GÖRÜŞ

*15 oktyabr 2018-ci il ..........................................................................313*

«AZƏRXALÇA» ASC-nin LƏNKƏRAN FİLİALININ AÇILIŞI MƏRASİMİ

*15 oktyabr 2018-ci il ..........................................................................326*

ASTARA RAYONUNA SƏFƏR

*15 oktyabr 2018-ci il ..........................................................................333*

«ASTARA ŞƏHƏRİNİN İÇMƏLİ SU TƏCHİZATI SİSTEMLƏRİ» LAYİHƏSİNİN İCRASININ BAŞA ÇATMASI MÜNASİBƏTİLƏ KEÇİRİLƏN İCLASDA RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*15 oktyabr 2018-ci il ..........................................................................334*

QEYDLƏR..........................................................................................*342*

*Şəxsi adlar göstəricisi.........................................................................370*

*Coğrafi adlar göstəricisi ......................................................................374*

**Texniki redaktor** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompüter tərtibatı** *Məhəbbət Orucov*

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından
istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı № 1
Şərti çap vərəqi 24,5. Uçot nəşr vərəqi 25,0. Tirajı 5000
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı
Bakı – Mehdi Hüseyn küç. 55, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.